# HƏZRƏT ƏLİ (Ə) HÖKUMƏTİNİN XÜSUSİYYƏTLƏRİ

**NƏHCÜL-BƏLAĞƏ**

**(Yeddi xütbənin şərhi)**
**Ayətullah əl-üzma Seyid Əli Xamenei**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:............Həzrət Əli (ə) hökumətinin xüsusiyyətləri**
**Müəllif:..Ayətullah əl-üzma Seyid Əli Xamenei**
**Çap tarixi:.................................................2023**
**Çap növbəsi:.........................................Birinci**
**Tiraj:.......................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 55-18-77, 500-249,

ISBN 57-51-024518-55

# MÜQƏDDİMƏ

İslamın həyatbəxş məktəbi həm fərdin maddi və mənəvi təkamülünə, həm də cəmiyyətin tərəqqi və yüksəlişinə zəmanət verən mükəmməl bir proqrama malikdir. İslama görə, hökumətin təşkili ləyaqətli hakimlərin – həyatda və aşkarda olduqları vaxt məsumların (ə), qeyb dövründə isə “vəliyyi-fəqih”in tanıtdırılması ilə möminlərin ixtiyarına verilmişdir. Məsələ burasındadır ki, Əziz Peyğəmbərimizin (ə) vəfatından sonra İslam cəmiyyəti Allahın əmri və Peyğəmbərin (s) itaətindən çıxaraq, özünü Əmirəlmömininin Əlinin (ə) rəhbərliyindən məhrum etdi. Lakin üzərindən 25 il ötdükdən sonra, artıq, yaranmış çıxılmaz vəziyyətdən çıxış yolunu o Həzrətin siyasət və tədbirlərində gördü. Əmirəlmömininin Əlinin (ə) beş illik enişli-yoxuşlu hakimiyyəti həqiqi İslam siyasəti və idarəçiliyinin, idarəetmənin İslam modelinin hansı formada olduğunu görmək və bilmək üçün gözəl bir nümunədir.

Ələvi maarifinin gələcək nəslə ötürülməsinin qarşısını almaq istəyən o Həzrətin düşmənlərinin bütün təlaşlarına baxmayaraq, yenə də o zəngin maarif dəryasının bir hissəsi tarixin sonrakı dövrlərinə ötürüldü. Bu zəmində ən önəmli və ən mötəbər mənbə 5-ci əsrin ədib və fəqihi Seyid Rəzi tərəfindən toplanmış "Nəhcül-bəlağə" kitabıdır və qədim zamanlardan tutmuş indiyə qədər şiə və sünni alim və mütəfəkkirləri bu kitabın əzəmətini dərk etmiş, ona şərhlər yazmışlar.

Müasir dövrdə də İslamın ictimai və siyasi maarifinə ehtiyacın artması ilə alimlər, müəllimlər və gənclərin "Nəhcül-bəlağə"yə rəğbəti artmış və hazırkı əsrdə ona çoxlu şərhlər yazılmışdır. Xoşbəxtlikdən, İslam İnqilabının qələbəsindən sonra "Nəhcül-bəlağə"yə maraq artmış, Elmi Hövzə və Universitetlərdə müxtəlif elmi müəssisələr təşkil edilmiş və bu iki elm ocağında "Nəhcül-bəlağə" ixtisası üzrə təhsil fakültələri yaradılmışdır. Elə gənclik çağlarından bu dəyərli kitabla munis olan Həzrət Ayətullah əl-üzma Xamenei onun xütbə, məktub və hikmətli kəlamlarını müxtəlif toplantılarda, xüsusilə də gənc tələbələrin hüzurunda şərh etməyə başlamışdır ki, 1974 və 1980-ci illərdə "Nəhcül-bəlağə" ilə bağlı silsilə dərsləri, həmçinin rəhbərlik dövrü başlandıqdan sonra mübarək Ramazan ayında dövlət heyəti ilə görüşlərində "Nəhcül-bəlağə"nin bəzi hissələrinin şərhinə yer ayırmasını buna misal göstərmək olar.

Ali Rəhbər 1972-1974-cü illərdə tədris etmək, xütbə söyləmək və elmi əsərlər yazmaqla yanaşı, İmam Həsən Müctəba (ə) məscidi, sonra isə

Kəramət məscidində imamlıq etməyi öhdəsinə götürmüş və beləcə, bu iki məscid inqilabçı qüvvələrin, xüsusilə də gənc tələbə və şagirdlərin düşərgəsinə çevrilmişdi. Ayətullah əl-üzma Xameneinin bu iki məsciddə təkid etdiyi məsələlərdən biri də "Nəhcül-bəlağə"nin yenidən araşdırılması və onun bəzi hissələrinin şərhindən ibarət idi.

1974-cü ilin Avqust ayının axırlarından etibarən, Bazar ertəsi axşamları bu mövzuya həsr edilmiş və SAVAK-ın sənədlərinə istinadən, 1975-ci ilin Yanvar ayının3-nə qədər on altı məclis keçirilmişdir. Bəhsin xütbələri insanların oyanış və mübarizə prizmasından seçilirdi, onun səs yazısı, həmçinin xülasə şəkildə yazılıb nəşr edilməsi məsciddən və müqəddəs Məşhəd şəhərindən kənarda da çoxlu təsirlər qoymuşdu. "Nəhcül-bəlağə"nin islami hakimiyyətlə bağlı hissələrinin seçilməsi dolayısı ilə dinləyiciyə Pəhləvi rejiminin islami hökmləri necə ayaqlar altında qoymasını aşılayırdı.

Ayətullah əl-üzma Xameneinin bəyanatları o qədər təsirli idi ki, Məşhədin SAVAK təşkilatının rəisi 03/01/1975 tarixində "Nəhcül-bəlağə"nin şərhinə həsr edilmiş məclisdən sonra öz əmrindəki qüvvələrə yazdı: "Xameneinin fəaliyyətlərinə son qoymaq lazımdır."

Ali Rəhbər 1975-cü ilin Yanvar ayının 10-da növbəti uyğun məclisin keçirilməsindən bir saat qabaq həbs olunur, Tehrana, Müştərək Anti-Təxribat komitəsinə göndərilir və həmin tarixdən 1978-ci ilə qədər onun bütün təbliğ və tədris fəaliyyətlərinə qadağa qoyulur.

Hazırkı kitab “Nəhcül-bəlağə”nin şərhi ilə bağlı 12 söhbətdən ibarətdir və 1973-1974-cü illərdə İmam Həsən Müctəba (ə) və Kəramət məscidlərində bəyan edilmişdir. Təəssüflər olsun ki, indiyə qədər bu bəhslərin digər səs yazıları və yazılı mətnlərini əldə edə bilməmişik.

Ümid edirik ki, bu dəyərli kitabdan faydalanmaqla bərabər, islami dövlət və cəmiyyətin digər təbəqələrinin tərəqqisinin şahidi olacağıq. İnşallah!

Müvəffəqiyyət Allah tərəfindəndir!

# 1

# KEÇMİŞDƏKİLƏRİN TALEYİNDƏN İBRƏT ALMAQ[1]

"Nəhcül-bəlağə"nin əhatəli maarifindən cəmiyyətin məhrum qalması ...İndiyə qədər burada söhbət etdiyimiz mövzu dəyərli "Nəhcül-bəlağə" kitabı ilə əlaqədar idi. Biz ötən həftələrdə məclis iştirakçılarına bu dəyərli və qiymətli kitabı oxuyub-öyrənməyi tövsiyə edərkən bir qədər gileyləndik ki, axı nə üçün İslam aləmi bu kitabı unudub? Bu müqəddimədən sonra, nə yaxşı olar ki, biz bu kitabdan qafil olmayaq! Təqribən, iki həftə olar ki, biz burada bu kitabın bəzi hissələrini oxuduq. Allah-Taalanın təqdir etdiyi vaxta qədər[2] və imkan daxilində bu məsciddə hər Bazar ertəsi axşamı

---

[1] "Nəhcül-bəlağə"nin "Qasiə" xütbəsinin bir hissəsinin şərhi. Bu söhbətin dəqiq tarixi məlum deyil.

[2] Bu silsilə söhbətlər 1974-cü ilin Yanvar ayına qədər davam edir və Ayətullah Xamenei həmin ay həbs olunur. 1975-ci ilin yayında həbsdən çıxsa da, dini fəaliyyətinə qadağa qoyulur.

"Nəhcül-bəlağə"nin mətnindən bir qədər oxumağı və möhtərəm iştirakçılar üçün onu geniş şərh etmədən tərcümə etməyi düşünürəm. Məqsədimiz də təşrif gətirən məclis iştirakçılarının bu kitabla tanış olmasıdır.

Hər hansı bir kitabı oxuyub-öyrənmək və onunla bağlı məlumat əldə etmək, sözsüz ki, məlumatsız qalmaqdan daha yaxşıdır. Yaxşı və dəyərli mətləbləri olan kitab belədir. Hansı kitab "Nəhcül-bəlağə"dən yaxşı və hansı mətləb bu dəyərli kitabın mətləblərindən üstün və tutarlıdır?

Digər tərəfdən də, şiə cəmiyyətinin, şiə məzhəbli müsəlman kişi və qadınlarının əksəriyyəti "Nəhcül-bəlağə"dən məlumatsız və xəbərsizdirlər, onlar bu kitabdan – həqiqətdə kitabın mətnindən yox, onun mənasından uzaq düşmüşlər. Kitabın mətni bütün kitab mağazalarında doludur, amma kitabın mətləblərinin mənası, ondakı dərin məna və ali həqiqətlərin əsli əksəriyyət üçün əlçatmaz olub. Səbəbi odur ki, əvvəla, kitabın dilini bilmirlər, ikinci də bu kitabın qiymət və dəyəri ilə tanış deyillər. Əgər tanış olsaydılar və ona rəğbət bəsləsəydilər, ən azından, kitab əhli və kitab həvəskarları bu işin arxasınca düşərdilər. Təəssüf ki, bu istiqamətdə təbliğat və maarifləndirmə işi aparılmamışdır! Halbuki ikinci, üçüncü və dördüncü dərəcəli kitablar üzərində nə qədər təbliğat aparılır! Bəziləri tərəfindən hansısa ikinci və üçüncü dərəcəli kitaba azacıq etinasızlıq, digərləri tərəfindən şiddətlə tənqid atəşinə tutulmaqla qarşılanır. Bu möhtəşəm kitab – imamların atası, müsəlmanların rəhbəri, azad şəxslərin öndəri, bütün dünya müsəlmanlarının və

hətta onlardan da önəmlisi, Allah-Taalanın nəzərində möhtərəm sayılan bir şəxsiyyətin, Əmirəlmöminin Əlinin (ə) buyruq və kəlamlarını özündə ehtiva edən bu dəyərli əsər üzərində maarifləndirmə işi aparılmamışdır. Bizim camaatımızın əksəriyyətinin bu kitabın nə qədər dəyərli olması haqda məlumatı yoxdur, elə buna görə də onun arxasınca getmirlər.

Bu mətləblər camaatın düşüncəsindən uzaq qaldığından, biz hər Bazar ertəsi axşamı qapı-divarı bu böyük şəxsiyyətə, onun müqəddəs xanədanına əlaqəli olan və hər zaman İslam maarifinin çatdırıldığı bu məsciddə və bu məkanda İslamla maraqlananların təzə düşüncə tərzinə sahib olacaqlarını ümid edərək bu yeni işə başlayırıq.

Bu camaat, əlbəttə, bu xas zümrə Quranı onun müəllim və təfsirçilərindən dərs alıb öyrəndiyi, habelə insanların rəvayətləri xətiblərin dilindən eşitməyə adət etdiyi kimi, "Nəhcül-bəlağə"ni də dərs kimi öyrənməyə alışmalı və öyrənməlidirlər. Çünki bu kitab onların axtarışında olduqları həmin kitabdır. Həmçinin xətiblər, məzhəb təbliğatçıları və insanların təlim-tərbiyəsi, maarifləndirilməsi və hidayəti ilə məşğul olanlar da bu metoddan istifadə edərək "Nəhcül-bəlağə" barəsində ayrıca söz açmalı, onun mətləblərini bəyan edərək həqiqətləri üzə çıxarmalıdırlar.

Əlbəttə, "Nəhcül-bəlağə"nin əksər xütbələri İslam xətiblərinin çıxışlarında öz əksini tapmasına, həmin xütbə və kəlamlar onların dillərindən düşməməsinə baxmayaraq, yaxşı olardı ki, bu kitabı da bir dərs vəsaiti kimi tədris edib öyrətsinlər. Mən bildiyim

qədər, tərcümələr də demək olar ki, naqisdir. Bu sahənin mütəxəssis və tədqiqatçıları onun tədrisi ilə məşğul olmalıdırlar. İndi biz bu işə başlayırıq, əlbəttə, şərhə çox yer ayırmayacağıq. Əgər müttəqilərin ağası İmam Əlinin (ə) sözlərini şərh etmək istəsəm, çox uzun çəkər. Məclisin, eləcə də, bir qrup dinləyicinin vaxt və imkanı da geniş şərhə yer ayırmağa icazə vermir. Möhtərəm iştirakçıların bu dəyərli kitabın mətni ilə tanış olması üçün gələn həftələrdən etibarən, ömrümüz, nəfəsimiz və gücümüz çatarsa, Allah-Taala müvəffəqiyyət verərsə, hər həftə "Nəhcül-bəlağə"dən bir hissəni seçib izah edəcəyik. Əlbəttə, biz "Nəhcül-bəlağə"dən danışmaq istədiyimiz zaman, demək olar ki, geniş və əlavə mütaliəyə ehtiyac duymamışıq; kitabı açdıqda, qarşımıza çıxan mühüm və faydalı mövzu ətrafında danışmağı qərara almışıq. Bu gecə də həmin kitabdan bir və yaxud yarım səhifəni oxumaq istəyirik:

## "Nəhcül-bəlağə"nin bu hissəsinin məndəricatı

Mənim danışmaq üçün seçdiyim mövzu "Qasiə" adlı uzun və məşhur xütbənin bir hissəsidir.[1] "Qasiə" xütbəsi "Nəhcül-bəlağə"nin ikinci yarısında yerləşir. Əlimdəki iki cildli bu "Nəhcül-bəlağə"yə Əbdüh şərh yazıb və bu xütbə ikinci cildin əvvəllərində yerləşir ki, həmin hissəni açıb oxuyacağıq. "Qasiə" xütbəsi İblisin, Şeytanın və hər bir təkəbbür əhlinin,

[1] "Nəhcül-bəlağə", xütbə 187.

məğrur insanın, özünü hamıdan üstün bilənlərin tənqidi haqqındadır. İnsanı məğrurluqdan, öyünməkdən, özünü hədsiz dərəcədə üstün bilməkdən çəkindirir. "Özünüzü üstün bilməyin!" – dedikdə, "şəxsin zəlilliyi" və bu kimi məna nəzərdə tutulmur, əksinə məqsəd özünüzü ictimai işlərdə digər insanlardan üstün hesab etməməyinizdir. Özünüzlə müqayisədə insanlara zəlil və alçaq gözlə baxmayın! Xütbənin bir hissəsi bu məsələyə həsr olunur. Amma mənim nəzərdə tutduğum və söhbət edəcəyim hissə xütbənin sonlarıdır. Əmirəlmöminin Əli (ə) İslam ümmətinə xəbərdarlıq edərək buyurur ki, bəzi işləri, bəzi yanlışlıqları, bəzi çatışmazlıq və azğınlıqları ucbatından bədbəxtliyə düçar olmuş öncəki ümmətlər kimi, siz də həmin azğınlıqlar səbəbindən bədbəxtliyə düçar ola bilərsiniz (dünən gecə həmin məsciddə[1] Quran ayəsindən istifadə edərək bəyan etdiyim məsələlər kimi...).

Əmirəlmöminin Əli (ə) bu xütbədə Qurani-Kərimin işarə edərək qeyd etdiyi məsələləri bütün təfsilatı ilə bəyan edir. Quranın birinci şagirdi olan Əmirəlmöminin Əli (ə) həmin məsələni geniş şəkildə izah edir. Deməli, "Nəhcül-bəlağə" Quranın, Quran da "Nəhcül-bəlağə"nin yardımçısıdır, hər ikisi eyni həqiqəti aşılayır. İndi isə həmin xütbəni açıb oxuyaq və bəzi mürəkkəb sözlərə aydınlıq gətirək. Xütbəni üzündən oxumaqda məqsədim budur ki, iştirakçılar bu dəyərli kitabın mətni ilə azacıq da olsa, tanış olsunlar.

---

[1] İmam Həsən (ə) məscidi.

# Keçmişdəkilərin taleyinə düçar olmamaq üçün müsəlmanlara xəbərdarlıq

**...و احذروا ما نزل بالأمم قبلكم من المثلات**

“**...Ey İslam ümməti, sizdən qabaqkı ümmətlərə nazil olmuş əzablardan qorxun!**” Ehtiyatlı olun ki, keçmiş ümmətə göndərilmiş əzablar sizə də göndərilməsin. Hansı əzablar nəzərdə tutulur? Görəsən, əzablarda məqsəd güclü soyuq, öldürücü qara və qırmızı küləklərdir, yoxsa müəyyən bir qövmə nazil olub onları həlak edən tufan, yaxud başqa bir qövmü yerlə yeksan edən zəlzələ və yaxud yerin aralanıb həmin qövmü udması? Görəsən, məqsəd bunlardırmı? Xeyr! Əvvəla, bir çox rəvayətlərə görə, təkzib nəticəsində göndərilən bu kimi əzablar axır-zaman ümməti üçün yoxdur və varlıq aləmində də İslam tarixi boyunca zəlzələ, yerin aralanması, şimşək, ildırım və bu qisimdən olan hadisələr ümmətin qorxması üçün nəzərdə tutulmayıb. Bu əzablar keçmiş ümmətlərə məxsus olub. Düşüncəsi yetkinlik həddinə çatmayan keçmiş qövmlər bu cür əzablarla qorxudulurmuşlar ki, hidayət olsunlar. Amma bəşəriyyət yetkinlik həddə çatdıqda, onu belə qorxulu hadisələrlə yola gətirmək olmaz. Əgər bir müəllim, tərbiyəsi ilə məşğul olduğu bir uşağı gah əlindəki çubuğu yelləmək, gah qaş-qabaq tökmək, gah da döyməklə ədəbləndirirsə, həmin uşaq böyüyüb gənclik dövrünə qədəm qoyduqda, daha onu tərbiyə və hidayət etmək üçün döymək üsulundan istifadə etmir və burada döyməyin mənası da yoxdur. O, artıq başa düşür,

odur ki, onu başa salmaqla, dəlil-sübut gətirməklə islah etmək lazımdır. İslam ümməti də bundan istisna deyil. Çünki aləmlərin Rəbbinin düşüncə baxımından yetkinlik həddə çatan İslam ümmətini əzabla, yerə batırmaqla, zəlzələ, ildırım və şimşəklə ədəbləndirməsi yersizdir. O, öz əqli ilə ədəblənməlidir. Ədəblənmədiyi təqdirdə, başqa əzablara düçar olasıdır. Deməli, sözügedən ifadədəki "məsulat" (əzablar) sözündə səmavi əzab və göydən nazil olan bəlalar deyil, əksinə ictimai bəlalar nəzərdə tutulur; yəni zillətlər, irticaçılıq, geriləmələr, deqradasiyalar, düşmən caynağında inləmələr və yaxud keçmiş ümmətlərin də düçar olduğu yoxsulluq və nadanlıqlar. Həzrət buyurur: "Ey İslam ümməti, ehtiyatlı olun ki, keçmiş ümmətlərə nazil olmuş əzablar və bəlalar sizə də nazil olmasın!"

**بسوء الأفعال و ذميم الأعمال**

Keçmiş ümmətlərin başına gələn bəlalar "Allah onlara zülm və haqsızlıq etmək istəyirmiş" mənasında başa düşülməməlidir. Xeyr, əsla belə deyildir! Bu bəlalar onların öz çirkin əməlləri və pis rəftarlarının nəticəsi idi.

**فتذكروا في الخير و الشر أحوالهم و احذروا أن تكونوا أمثالهم**

"Onların başlarına gələnləri xeyir-şər(iniz)də, yaxşılıq və pislik(ləriniz)də yad edin və onlar kimi olmaqdan çəkinin!"

Həmişə onların işlərinə, düşdükləri vəziyyətə, başlarına gələnlərə nəzərsalın, yaxşılıqları və pisliklərini hər zaman xatırlayın və ehtiyatlı olun ki, pislik və çirkinliklərdə siz də onlar kimi olmayasınız.

## Bəşər tarixində həmişəyaşar ictimai ənənələr

**فإذا تفكرتم في تفاوت حاليهم فالزموا كل أمر لزمت العزة به شأنهم**

“Onların iki (yaxşı və pis) halının fərqləri üzərində düşündükdə, onların hörmət və izzətinə səbəb olmuş işlərini seçin.”

Oxuduğumuz bu cümlədən öncəki ifadədə deyilən əzabda məqsədin nə olduğu da anlaşılır. Bu cümlədə məqsəd odur ki, keçmiş ümmətlərin hər iki halını (bədbəxtlik və xoşbəxtliyini), onların izzət və zillətdə olduqları halı (misal üçün, İsrail oğullarının həm izzət və şərəf, həm də zillət və bədbəxtlik içində olduqları halı) yad etdikdə və öz nəzərinizdə canlandırdıqda, baxın görün, onlara nəsib olmuş izzət və başıucalığın, sahib olduğu ağalığın, onlara verilmiş dünya və axirət xeyir və həzzinin səbəbi nədir? Səbəb nədirsə, siz də ondan yapışın. Sonra isə onların həlakına səbəb olmuş bədbəxtlik və uğursuzluğun acı aqibətini xatırlayın. Baxın görün, onların bədbəxtlik amilləri nədir? Nə oldu ki, onlar vəhdəti əldən verdilər və pərakəndə hala düşdülər? O zaman həmin acı səbəb və amillərdən siz də çəkinin. Bu nə deməkdir? O deməkdir ki, (məsələn) İsrail oğullarını 40-50 əsr öncə pis hala salan səbəb sizin də dövrünüzdə, sizin də aranızda mövcuddursa, siz də həmin taleyə düçar olacaqsınız. Bu isə dünyaya hakim ənənə və qanunauyğunluq, islami təfəkkürün ali və maraqlı ifadəsi, İslam dünyagörüşüdür. Həqiqi İslam fəlsəfəsi, İslam intuisiyası və İslam dünyagörüşü məsələni belə ifadə edir. Əlbəttə, fəlsəfə dedikdə, “İslam fəlsəfəsi” adı

ilə müsəlmanlara yeridilən Aristotel və Yunan fəlsəfəsi deyil, “Quran fəlsəfəsi” nəzərdə tutulur.

Quranın və həqiqi Quran mütəxəssislərinin bizə öyrətdiyi sözlərdən belə qənaətə gəlirik ki, dünya qanunları, təbiət və ictimai qanunlar bütövlükdə eynidir və tarix boyunca da dəyişməzdir. Eynilə, bir milyon il əvvəl yerlə göy arasında cazibə qanunu olduğu kimi, həmin qanun indi də var. Xalqların tərəqqi və irticasına, irəliləyiş və geriləməsinə, izzət və zillətinə səbəb olan qanunların bizim yaşadığımız bu çağdaş dünyamız və müasir zamanımızdakı bərabərlik və bənzərliyi ilə milyon illər öncə yaşaması ehtimal edilən bir insan cəmiyyəti arasındakı bərabərlik və bənzərlik eynidir. Yaradılış qanunları azacıq belə dəyişilmir. İsrail oğullarının bədbəxtliyi və alçaqlığına səbəb olmuş hər hansı bir amil sizin aranızda da hökm sürərsə, mütləq siz də həmin bədbəxtlik, zəlillik və alçaqlığa uğrayacaqsınız. Eynilə, İslamın ilkin müsəlmanlarının izzəti, başıucalığı və ağalığına səbəb olmuş amillər sizin aranızda da mövcud olarsa, sözsüz, siz də izzət, başıucalıq və ağalıq əldə edəcəksiniz. İranda Sasanilər hakimiyyətinə son qoyan, onu məğlubiyyətə uğradan, zərdüşt və müşrik Sasani cəmiyyətini dağıdan səbəb bu gün müsəlman ümməti arasında da yaranarsa, şübhəsiz, müsəlman ümməti də məğlubiyyətə uğrayacaq, pərakəndə hala düşəcək və dağılacaq. Bəli, məsələ belədir!

Tarixin bir guşəsindəki ictimai bir quruluş və reformasiyanı nəzərdən keçirin; bu cəmiyyət bir zamanlar hökmranlıq edir. Hökmranlıq etməsinə nə səbəb oldu? Bunun bir səbəbi var; həmin səbəb bu

gün bizim cəmiyyətimizdə hökm sürərsə, sözsüz, ağalıq və hökmranlıq edəcək. Tarixdə məhv olmuş, həlakətə uğramış və dağılmış başqa bir cəmiyyəti də müşahidə edin; onun həlakına nə səbəb oldu? Bir səbəbi var; əgər həmin səbəb günümüzdə hakim olarsa və bizdə də meydana çıxarsa, onun ucbatından bu cəmiyyət də məhv olub dağılacaq, həlak olub aradan gedəcək. Bu qanunauyğunluqlar tarix boyu sabitdir. Əmirəlmöminin Əli (ə) bunu buyurmuşdur.

## Xalqların izzət və xoşbəxtlik amilləri – birlik və təfriqədən uzaqlıq

**فإذا تفكرتم في تفاوت حاليهم فالزموا كل أمر لزمت العزة به شأنهم**

“**Keçmiş ümmətlərin iki fərqli halının – yaxşı və pis, izzət və zillət halının üzərində düşünüb mütaliə etdikdə və onları nəzərdən keçirdikdə, onların hörmət və izzətinə səbəb olmuş hər bir işi siz də özünüz üçün seçin.**”

**و زاحت الأعداء له عنهم**

“**Onların düşmənlərinin həlak olmasına, məğlubiyyətə uğramasına səbəb olan işləri siz də öz aranızda formalaşdırmağa çalışın.**”

Baxın görün, o zaman keçmiş ümmətlərin düşmənlərinin zəlil və bədbəxt olmasına səbəb nə idisə, həmin səbəbi siz də öz aranızda dirçəldin. Məsələn, Həzrət Musanın (ə) ümmətinin öz dönəmindəki müəyyən zaman çərçivəsində zillət və bədbəxtliyə düşməsini fərz edin. Bunun bir səbəbi var idi. Həmin səbəbi arayıb axtarın və ondan

çəkinin. Başqa bir zamanda həmin ümmət izzət və iftixara nail oldu. Onun bir səbəbi var idi. Həmin səbəbi axtarıb tapın, görün, onların düşmənlərinin məhvinə nə səbəb olubsa, siz də onu öz cəmiyyətinizdə tətbiq edin.

**و مدت العافية فيه عليهم**

Baxın görün, onların afiyətinə – “sağlam yaşam və həyat tərzi”nə səbəb nə idisə, siz də onu seçin, onu əldə edin. Əlbəttə, afiyət və sağlam həyat tərzi tənbəllik və yaxud tənbəlliklə birgə rahatlıq deyil, tamamilə “rifah” mənasındadır. İnsan həyatına münasib olan və uyğun şəraiti yaradan hər bir şeyə “afiyət” deyilir.

**و انقادت النعمة له معهم**

Baxın görün, dünya nemətlərinin keçmiş xoşbəxt ümmətlərə nəsib və hakim olması, onların ixtiyarında olmasına hansı amil səbəb olubsa, siz də həmin amili kəsb edin. Məsələn, onlar dünya nemətlərini elm, yenilik, iş, əmək, çalışqanlıq, ağıl, düşüncə, zəka və ayıqlıq sayəsində qazanıblarsa, siz də işə, əməyə, çalışqanlığa önəm verin, yenilik, elm, ağıl, düşüncə, zəka və maariflənmə ardınca olun.

**و وصلت الكرامة عليه حبلهم**

Baxın, görün, onların dəyərli olması, tarixdə və dünya xalqları arasında ehtiramla yad edilməsi və dünya xalqlarının onlara baş əyməsinə nə səbəb oldu? Səbəb hər nədirsə, siz də onu özünüz üçün kəsb edin.

Yaxşı! Görəsən, keçmiş ümmətlərin izzət və hörmətinə, düşmənlərin onlardan uzaqlaşmasına, afiyət və rahatlıq içində olmasına, nemətlərin onları əhatə etməsinə, xalqlar içərisində əzəmətinə nə

səbəb oldu? Hansı işlər bu yaxşılıqlar və dəyərləri formalaşdırdı? Əmirəlmöminin Əli (ə) onları sadalayır:

**من الاجتناب للفرقة**

“**Birincisi odur ki, onların arasında ikitirəlik, təfriqə və ixtilaf yox idi.**”

Onlara vəhdət və birlik hakim idi. İxtilaf və çəkişmədən, bir-biri ilə mübarizədən uzaq idilər. Keçmiş ümmətlər vəhdət və birlik nəticəsində ucaldıqları kimi, siz İslam ümməti də ucalıq əldə etmək istəyirsinizsə, mütləq vəhdət və birliyinizi qorumalı, ya da onu öz aranızda bərpa etməlisiniz.

**و اللزوم للألفة**

“**Ülfət və mehribanlıqları seçin.**”

Dillər bir-birindən uzaq olsa da, qəlblər bir-birinə yaxın olmalıdır. Burada yaşayan müsəlmanlar Şərq və Qərb ölkələrində yaşayan müsəlmanları özünə qardaş bilməlidirlər. İranlı müsəlman Cənub-Şərqi Asiyada – Filippində yaşayan müsəlmanları, eləcə də, Efiopiya və Həbəşistan, həmçinin Qərbdə yaşayan müsəlmanları öz qardaşı hesab etməli, özündən bilməli və özünü onlarla bir tutmalıdır. Qardaşlıq nə dillə, nə də nəsihətlədir, ülfət, həmrəylik və mehribanlıqdadır. Filippin və yaxud İndoneziya, Malayziya, Hindistan, Pakistan, Əfqanıstan və İrandan tutmuş Aralıq dənizinə qədər bütün müsəlmanlar bir-biri ilə qardaşdırlar. Bütün bu komponentlər bir-biri ilə vəhdət təşkil etməli, bir və möhkəm olmalı, ixtilafdan çəkinməlidirlər.

Sizi Allaha and verirəm, siz özünüz qəzavət edin, əgər İslam dünyası Əli ibn Əbitalibin (ə) yalnız bu tövsiyəsinə əməl edərsə, dünya necə olar? “Nəhcül-

bəlağə" budur! "Nəhcül-bəlağə"də deyilir ki, bu gün yeddi yüz milyon müsəlman[1] İslam və Quran düşmənləri qarşısında həmrəy, hamı İslam həqiqətlərinin yayılması üçün yekdil, hamı İslama ağız əyənlər və bədxahları əzmək üçün yumruq kimi bir olmalıdır.

**من الاجتناب للفرقة**

**İxtilafdan çəkinmək**,

**و اللزوم للألفة**

**ülfət və həmrəyliyi seçmək**,

**و التحاض عليها**

**insanları ülfət, vəhdət və yekdilliyə həvəsləndirmək**

**و التواصي بها**

**və (sadalanan xüsusiyyətləri) bir-birinə tövsiyə etmək**.

Mənim hal-hazırda sizə "Ey müsəlmanlar, bir olun, həmrəy olun!" – deyə tövsiyə etdiyim kimi, dünya müsəlmanları, müsəlman xalqları da hamılıqla bir yolda, bir hədəfə və bir istiqamətə doğru, yekdil və həmrəyliklə hərəkət etməlidir. Bir Quran və bir "Nəhcül-bəlağə" ilə və bir bayraq altında birləşərək bəşəriyyət dünyasına doğru yönəlməli və dünyanı köləlikdən, quldarlıqdan və nəfsi istəklərdən azad etmək istiqamətində addımlamalıdırlar. İslam ümmətinin belə bir məsuliyyəti və öhdədarlığı vardır. Qurani-Kərimdə buyurulur:

**كنتم خير أمة أخرجت للناس**

**"(Ey müsəlmanlar!) Siz insanlar üçün ortaya çıxarılmış və zahir olmuş ən yaxşı ümmətsiniz..."**

---

[1] 1974-1975-ci illərin statistikası.

Siz insanların azadlığı üçün yaranmısınız. Bəşəriyyətin, dünyanın abadlıq və azadlığı siz müsəlman ümmətinin öhdəsindədir. Bu işləri görmək üçün bir olun. Elə bu gün üç milyard insanı[1] azad edin. Əgər müsəlman ümməti Həzrət Əli ibn Əbitalibin (ə) səsinə qulaq assaydı, həm öz həyatı bugünkündən yaxşı olardı, həm də dünyanı bugünkündən yaxşı edərdi.

Bu, Əmirəlmömininin Əlinin (ə) bir tövsiyəsidir. O Həzrət buyurur ki, keçmiş ümmətlərə nəzər salın, görün, onlar necə ixtilaf və ayrılıqdan çəkindikdə, hörmət, şərəf, nemətə və kəramətə nail oldularsa, siz də ixtilafdan çəkinin, mehriban olun.

## Keçmiş cəmiyyətlərin geriləmə səbəbi – düşmənçilik və bir-birinə yardım etməmək

**و اجتنبوا كل أمر كسر فقرتهم**

“**Keçmiş ümmətlərin onurğa sütununu sındırmış hər bir işdən çəkinin.**”

Tarixdə hədsiz şövkət və izzət içində yaşayan bir ümmət, bir millət, bir cəmiyyət, qəflətən dağılıb həlak olur, onurğa sütunu, belinin fəqərə sümükləri sınır. Görün, həmin ümmət və millətin belini sındıran səbəb nədirsə, siz də ondan çəkinin, İslam ümmətinin onurğa sütununun sınmasına imkan verməyin.

[1] 1974-1975-ci illərin statistikası.

**و اجتنبوا كل أمر كسر فقرتهم و أوهن منتهم**

“**Onların onurğa sütununu sındırmış və qüvvələrini süstləşdirmiş hər bir işdən çəkinin.**”

Görəsən, həmin iş nədir?

**من تضاغن القلوب**

“**Qəlblərdə düşmənçilik yaratmaq.**”

**و تشاحن الصدور**

“**Sinələrdə bir-birinə qarşı kin bəsləmək.**”

**و تدابر النفوس**

“**İnsanların bir-birinə arxa çevirməsi.**”

**و تخاذل الأيدي**

“**Bir-birinin xeyrinə yardımlaşmaması.**”

Sən bir müsəlman qardaşın düşmənin hücumuna məruz qaldığını görüb ona yardım əlini uzatmasan, nəticə belə olacaq (onurğa sütunu sınacaq). Sən özün düşmənlə üz-üzə qaldıqda, qardaşın sənə kömək əlini uzatmasa, yenə də nəticə eyni olacaq. “Bir-birinin xeyrinə yardımlaşmama”nın mənası budur, yəni yardımını (qardaşından) əsirgəmək, bir insanı yalqız qoymaq, onu müharibə meydanında atıb qaçmaq və tək qoymaq. “**Təxazulil-əydi**” ifadəsinin mənası budur ki, nə sən ona yardım əlini uzadırsan, nə də o sənə!

## Keçmişdəki möminlərin sərgüzəşti haqqında düşünməyə tövsiyə

Növbəti tövsiyə:

و تدبروا أحوال الماضين من المؤمنين قبلكم

“**Keçmiş və sizdən qabaqkı möminlərin vəziyyətləri barəsində düşünün.**”

Tarix boyu sizdən öncə izzət və şərəflə yaşayan mömin və müsəlmanların – Həzrət İbrahim (ə), Həzrət Musa (ə) və Həzrət İsa (ə) ümmətinin müsəlmanları, həvarilər, bəşəriyyət və insan cəmiyyətləri arasındakı böyük ilahi peyğəmbər və islahatçıların ardıcıllarının sərgüzəştləri haqqında düşünün. Görün, keçmiş zamanların möminləri nə edirmiş və necə əməl edirmişlər? Onların vəziyyətləri barəsində fikirləşin, düşünün.

İslam mətnlərində düşünmək, fikirləşmək və təfəkkür etmək məsələsinə həddən artıq təkid olunmuşdur! Quran, “Nəhcül-bəlağə” və məsum imamların (ə) kəlamları – hamılıqla bizi təfəkkür etmək, fikirləşmək, düşünmək, hadisələri analiz etmək, hadisələrdən xəbərdar olmaq, ayıq olmaq, qəflətdən ayılmaq, xəbərsiz və məlumatsız qalmamağa əmr edir və müsəlmanları ayıq və zirək olmağa səsləyir. Sözügedən ifadədə də buyurulur: “**Keçmiş və sizdən qabaqkı möminlərin sərgüzəştləri haqqında düşünün və mütaliə edin.**”

كيف كانوا في حال التمحيص و البلاء

Baxın, görün, keçmiş zamanların möminləri çətin durumlarda, həyatın çətinliklərinin təzyiqi altında, dözülməz bəlalarda necə rəftar edirdilər? Onların

vəziyyətlərinə bir nəzər salın. Qurani-Kərimdə keçmiş ümmətlərlə bağlı bu qədər tarixi əhvalatlar nə üçün bəyan olunur? Görəsən, başımızı qatmaq və yorulmamaq üçünmü? Öz aramızda davam edən iki-üç saatlıq söhbət əsnasında biz yorula bilərik və yorğunluğumuzu aradan qaldırmaq üçün bir hekayə danışırıq. Görəsən, Qurani-Kərim də yorğunluğu aradan qaldırmaq, əylənmək üçünmü hekayə nəql edir? Musa peyğəmbərin (ə) əhvalatını nəql etməkdə məqsəd bizim bir qədər əylənməyimizdirmi? Xeyr! Musa peyğəmbərin (ə) əhvalatı və digər bütün sərgüzəştlər dərs almaq, ibrət götürmək və öyrənmək üçündür.

## Tarix boyu möminlərin din uğrunda düçar olduğu çətinlik və işgəncələr

Əmirəlmöminin Əli (ə) buyurur: Baxın, görün, sizdən qabaqkılar bəla və çətinlik zamanı, ağır təzyiqlər altında necə yaşamışlar?!

**قتل أصحاب الأخدود النار ذات الوقود إذ هم عليها قعود وهم على ما يفعلون بالمؤمنين شهود**

“**Ölüm olsun çırpı ilə alovlandırılmış “Xəndək” sahiblərinə (onlara qarşı çıxan möminləri odla dolu xəndəyə atan zalımlara)! O zaman onlar odlu xəndəklərin ətrafında (tamaşa etmək üçün) əyləşmişdilər və möminlərin başlarına gətirdiklərinə tamaşa edirdilər.**”[1]

Sübhanəllah! Onlar odlu xəndəklər düzəltdilər. Dedilər ki, siz tutduğunuz yoldan daşınmalısınız.

[1] “Buruc” surəsi, ayə 4-7.

Möminlər isə dedilər: “Biz bu yoldan əl çəkən deyilik!” O zalımlar da yuxarıda əyləşib məğrurluq və təkəbbürlülüklə cəlladlara dedilər: “Birinci şəxsi atın!” Birincini başıaşağı oda atdılar. O da diri-diri odda yandı. İkinci şəxsə dedilər: “Sən yolundan dön!” Dönmədi. O da diri-diri yandırıldı. Son nəfərə kimi, bütün möminlər bəla və işgəncənin – diri-diri odda yanmaq və külə dönməyin nə olduğunu əminliklə başa düşür və bilirdilər. Bununla belə, haqq yoldan dönmədilər. Onlar bəla və işgəncə zamanı da möhkəm, dözümlü və səbirli idilər; polad kimi döyüldükcə, daha da möhkəmlənirdilər. Onlar çətinliklərlə daha çox üzləşdikcə, iman məntiqində, etiqad və ixlas məsələsində daha da iradəli, daha da əzmli, daha da möhkəm olurdular.

Əmirəlmömininin Əli (ə) bizə keçmişi xatırladır və buyurur ki, onların əhvalına bir nəzər salın, görün, bəla, çətinlik və işgəncələr zamanı, hər tərəfdən bəla dalğaları üzük qaşı tək dövrəyə aldıqda, nə edirdilər? Bax, onların gördükləri işlər barəsində düşünün.

**و تدبروا أحوال الماضين من المؤمنين قبلكم كيف كانوا في حال التمحيص و البلاء**

“**Keçmiş və sizdən qabaqkı möminlərin əhvalatı barəsində düşünün. Görün, onlar sınaq meydanında, bəlalar bataqlığında necə idilər?**”

**ألم يكونوا أثقل الخلائق أعباء**

“**Bəyəm, onların yükü və müsibəti digər insanların müsibətindən daha ağır deyildimi?**” Həqiqətən də belə idi.

**و أجهد العباد بلاء**

“**Başqalarından daha çox müsibət və çətinlikdə idilər.**”

**و أضيق أهل الدنيا حالا**

**“Həyatları dünya əhlindən daha sıxıntılı, daha ağrılı idi.”**

Bəli, keçmişdəki möminlər belə idilər!

**اتخذتهم الفراعنة عبيدا فساموهم سوء العذاب**

**“Dünyanın fironları, tarixin fironxislətli insanları, hegemon və zülmkar qüvvələri onları özlərinə nökər və kölə etmək istəyir, ən ağır əzabları onlara dadızdırırdılar.”**

**و جرعوهم المرار**

**“Ən acı və ən ağır müsibətləri onlara qurtum-qurtum içirirdilər.”**

“Murar” – dəvənin qalın dodaqları ilə yediyi “tikan”a və yaxud “ağac yarpağı”na deyilir. Dəvə tikan yeyir, özü də ucu iti və kəskin tikanlar. Dəvətikanının adını yəqin ki, eşitmisiniz. Amma “murar” elə bir tikan növüdür ki, dəvə onu yedikdə, dodaqları parçalanır, yaralanır. Əmirəlmöminin Əli (ə) bu ağır bəlaları, bu çətin əzabları “murar”a (tikana) bənzədir. Buyurur ki, zalımlar sanki tikanları – dözülməz işgəncələri onların boğazlarına qurğuşun tək qurtum-qurtum tökür, onları öldürür, onlara əzabı dadızdırır, əl-ayaqlarını doğrayır, işgəncələrə, müsibətlərə və çətinliklərə məruz qoyur, salamatçılıq, yaxşılıq, xoşluq və rahatlıqları onların üzünə bağlayır, dolanışıq baxımından sıxıntıda saxlayır, dünyəvi ləzzətlərdən məhrum edirdilər. Bir sözlə, bu dünyada nə bəla var idisə, onlara yağdırırdılar.

**فلم تبرح الحال بهم في ذل الهلكة و قهر الغلبة**

“**Onlar həmişə həlakət xarlığı və dövrün fironlarının istismarı altında inləyirdilər.**”

Fironların hegemonluqları və hədsiz zülmkarlıqları səbəbindən insanlar daima qorxu-hürkü, ağrı-acı içində yaşayırdılar.

**لا يجدون حيلة في امتناع و لا سبيلا إلى دفاع**

“**Onlar öz canlarını müdafiə etmək və buna mane olmaq üçün bir yol tapa bilmirdilər.**” Özlərini layiqincə müdafiə edə bilmirdilər. İdeoloji baxımdan hegemon qüdrətlə müxalifətçilik edən sayca az bir qrup özünü necə müdafiə edə bilər? Axı, hər bir şey həmin qüdrətin ixtiyarındadır; silah, pul, qoşun onun əlində, siyasi qüvvələr və təbliğat onun əlində. Ona qarşı çıxan bir dəstə onun müqabilində nə edə bilər? O da bu dəstəyə təzyiq göstərir.

## İzzət və başıucalıq – Keçmişdəki möminlərin Allah yolunda səbir və müqavimətinin nəticəsi

**حتى إذا رأى الله سبحانه جد الصبر منهم على الأذى في محبته**

Onlar Allaha məhəbbət yolunda bu ağır bəla və müsibətləri öz möhkəm çiyinləri və qüdrətli əllərində o qədər saxladılar ki, nəhayət, Allah-Taala onların səbir etməkdə çalışqanlığını, tövhid yolunun həqiqi yolçuları olduqlarını və ona həqiqi bəndəçilikdən əl çəkmədiklərini nəzərə aldı. Doğrudan da, dözümlülük göstərdiklərini, Ona məhəbbət və sevgi yolunda hər şeyə hazır

olduqlarını, ən ağır işgəncələrə və əziyyətlərə tab gətirdiklərini qiymətləndirdi.

**و الاحتمال للمكروه من خوفه**

Gördü ki, Ondan qorxduqları üçün çirkinlikləri – həyatın çətinlikləri və xoşagəlməz hadisələrini canla-başla qəbul edir, yurd-yuvasından ayrı düşüb sıxıntılara, əzab-əziyyətlərə, qorxu-hürkü və maddi çatışmazlıqlara sinə gərir, haqqı deyir, bu yolda möhkəm dayanırlar. Bu zaman:

**جعل لهم من مضايق البلاء فرجا**

“**Onları sıxıntılardan və ağır bəlalardan qurtarmaq üçün bir yol açdı.**”

Baxın, Əmirəlmöminin (ə) onlara keçmiş ümmətləri xatırladır. O Həzrət öncə buyurmuşdu ki, keçmiş ümmətlərin sağlam həyat tərzi, rifahı, neməti, hörmət və izzətinə səbəb olan işləri siz də görün. İndi isə o Həzrətin bu bəyanında bizə buyurulur ki, bu işlər, bu izzət və başıucalıqlar səbrin, çətinliklərdə dözümlülüyün, iki-üç günlük (dünyəvi) rahatlığı Allaha xatir fəda etməyə hazır olmağın nəticəsidir.

**فأبدلهم العز مكان الذل**

“**Onlara o bədbəxtliklər, çətinliklər və kölələliklərin əvəzində izzət, hörmət və ucalıq verildi.**”

**و الأمن مكان الخوف**

“**O qorxu-hürkülər, qaçıb gizlənmələr, həyəcan və iztirablar əmin-amanlıqla əvəz edildi.**”

Beləcə, onlar ucaldılar, hörmətə layiq görüldülər, dünyaya sahib oldular, hakimiyyət onların ixtiyarına keçdi, asayiş əldə etdilər. Firon və zalımların zülmü

qorxusundan bu diyardan o diyara üz tutanlar və bir (haqq) söz demək istədikdə, həyəcan keçirənlər əmin-amanlıq və asayişə nail oldular.

**فصاروا ملوكا حكاما**

Səbir və müqavimət nəticəsində cəmiyyətə rəhbərlik onların əlinə keçdi. "**Onlar hakim və padşah oldular.**"

**و أئمة أعلاما**

"**Bəşəriyyətin əmr verən rəhbərləri, yolgöstərən öndərləri oldular.**"

**و قد بلغت الكرامة من الله لهم ما لم تذهب الآمال إليه بهم**

"**Onlara Allah tərəfindən arzusunda olduqlarından da çox izzət, hörmət, şərəf, kəramət və böyüklük bağışlanıldı.**"

Zehinlərindən belə keçirmədikləri uca məqam və kəramətə, izzət və şərafətə yetişdilər.

**فانظروا كيف كانوا حيث كانت الأملاء مجتمعة**

"**Beləliklə, baxın, görün, onların cəmiyyətləri, dəstələri və orduları bir yerə toplaşdıqda, necə olurdular?**"

**و الأهواء مؤتلفة**

"**İstəkləri bir idi.**"

**و القلوب معتدلة**

"**Qəlbləri bir yolda idi.**"

**و الأيدي مترادفة**

"**Bir-birinə yardım edirdilər.**"

**و السيوف متناصرة**

"**Qılıncları bir-birinə kömək edirdi. Hamılıqla bir-birinə yardım edirdilər.**"

**و البصائر نافذة**

Bəh-bəh! Fəda olum bu dilə! "**Bəsirət gözləri iti idi.**" Agah, şüurlu və müdrik idilər, başa düşürdülər.

**و العزائم واحدة**

“**Qərarları bir idi.**”

Aralarında ixtilaf və pərakəndəlik olmazdı. Bu səbəbdən də, onların əlləri bir, qəlbləri bir, istəkləri bir, qılıncları bir, gücləri bir idi; bəsirətli, uzaqgörən, ayıq, dərrakəli, zəkalı və hər cəhətdən birgə idilər. Belə bir şəraitə sahib olduqda və bu dərəcəyə çatdıqda (yer üzünün sahibi oldular):

**ألم يكونوا أربابا في أقطار الأرضين**

“**Məgər, yer üzünün sərvərləri və böyükləri olmadılarmı?!**”

**و ملوكا على رقاب العالمين**

“**Məgər, bütünlüklə bəşər cəmiyyətinin rəhbərləri olmadılarmı?!**”

Bəli, oldular!

## Təfriqə – Ümmətlərin izzət və kəramətini aradan qaldıran amil

**فانظروا إلى ما صاروا إليه في آخر أمورهم**

Onların ağalıq etmələrini gördünüz. Bu ağalığın səbəbləri ilə tanış oldunuz. İndi onların bədbəxtlikləri, geriləmələri və irticaçılığına bir nəzər salın. Ağalıq və hökmranlığa çatan bu zümrə (və yaxud digər zümrələr) yenidən bədbəxtlik, tənəzzül və zillət günlərinə qayıtdılar. Nə üçün?

“**Onların işlərinin sonunda geriyə dönmələrinin səbəblərinə nəzər yetirin.**”

**حين وقعت الفرقة**

“**Belə ki, aralarında təfriqə yarandı.**”

Necə də təəssüfləndirici bir haldır! Cinayətkar və muzdur əllər uzun illər boyu müsəlmanlar arasında

ixtilaf salmaq üçün nə qədər çalışmışlar?!...və sonda bunu bacardılar, təfriqə saldılar, öz istəklərinə çatdılar və müsəlman xalqlarını nakam qoydular.

**و تشتتت الألفة**

"**Ülfət və mehribançılıqları aradan qalxdı.**"

**و اختلفت الكلمة و الأفئدة**

"**Dilləri (dedikləri) ilə qəlbləri arasında fərq yarandı.**"

**و تشعبوا مختلفين**

"**İxtilafa düşüb dəstə-dəstə oldular.**"

**و تفرقوا متحاربين**

"**Bir-birindən ayrılıb qruplara böündülər.**"

**قد خلع الله عنهم لباس كرامته**

"**Bu zaman Allah izzət və kəramət libasını onların əyinlərindən çıxartdı.**"

Həm izzət və şərəf libasını, həm də

**و سلبهم غضارة نعمته**

"**nemət bolluğunu, rifah və rahatlıqlarını onlardan aldı.**"

And olsun Allaha! Bu bəyan 14 əsr öncəyə aiddir. Alim və filosoflar arasında bir neçə il olar ki, tarixi hadisələrin təfsir və təhlili ənənəyə çevrilmişdir. Bəşər sivilizasiyasında tarixi faktların təhlili uzaq keçmişə sahib deyildir. Amma Əmirəlmöminin Əli (ə) 14 əsr qabaq tarixi təhlil edir, bəşər tarixində baş vermiş hadisələrin səbəblərini, irəliləmə və geriləmə amillərini bəyan edir. Bu, Həzrət Əlinin (ə) möcüzəsidir. Bu möcüzə o Həzrətin Xeybər qalasında Xeybərin Mərhəbini öldürməsi ilə özünüzə təsəlli verdiyiniz möcüzədən qat-qat üstündür. Bu möcüzədir; xas insanların möcüzəsidir. Mənim nəzərimcə, günümüzdə çaşqınlıqda qalan nəsillər

üçün sözləri ilahi elçilərin sözləri tək qəbul edilən dünya Hegelləri[1] və filosofları Əmirəlmöminin Əlinin (ə) bu kəlamlarını görüb anlasaydılar, sözsüz, bu şəxsiyyətin şagirdləri və ardıcılları sırasına qoşulardılar.

**و بقي قصص أخبارهم فيكم عبرة للمعتبرين**

Onlar zəiflik göstərdikləri, aralarında ixtilaf yaratdıqları və ayrılıq saldıqları üçün dağıldılar, məhv oldular. Lakin xəbərləri, əhvalatları, nişanələri hələ də qalmaqdadır. Nə üçün qalır? Əylənmək və baş qatmaq üçünmü? Xeyr! İbrət götürənlərin ibrət götürməsi üçün.

Qeyd etdiklərimiz "Qasiə" xütbəsindən bir hissə idi. Əmirəlmöminin Əli (ə) yeni söz deyir, aydın, şəffaf və başa düşülən tərzdə danışır.

Çalışın, Əmirəlmöminin Əlinin (ə) "Nəhcül-bəlağə"si ilə müəyyən qədər tanış olun. Əgər ömrümüz və fürsətimiz qalarsa, yenə gələn Bazar ertəsi axşamı Həzrətin kəlamlarından bir hissəni tərcümə edərik!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Əmirəlmömininin (ə) hikmətamiz sözləri ilə tanış et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Əmirəlmömininin (ə) şiələri, tərəfdarları, ardıcılları və layiqli şagirdlərindən et!

İlahi! Səni Muhəmməd və ali-Məhəmmədə and veririk, Quranı və "Nəhcül- bəlağə"ni bizim aramızda dirçəlt!

---

[1] Alman filosofu Georq Vilhelm Fridrix Hegel.

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, İslamın böyük nişanələrini bizim üçün ibrətli nişanələr, öyüd-nəsihət və ibrətamiz dərslər et!

2

# PEYĞƏMBƏRİ-ƏKRƏMİN (S) BESƏTİNİN TÖHFƏSİ VƏ MÜSƏLMANLARIN GƏLƏCƏYİ HAQDA PROQNOZLAR

**Bağışlayan və mehriban Allahın adı ilə!**

**فبعث الله محمدا صلى الله عليه و آله بالحق ليخرج عباده من عبادة الأوثان إلى عبادته و من طاعة الشيطان إلى طاعته بقرآن قد بينه و أحكمه ليعلم العباد ربهم إذ جهلوه و ليقروا به بعد إذ جحدوه و ليثبتوه بعد إذ أنكروه فتجلى لهم سبحانه في كتابه من غير أن يكونوا رأوه بما أراهم من قدرته و خوفهم من سطوته و كيف محق من محق بالمثلات و احتصد من احتصد بالنقمات**

## “Nəhcül-bəlağə” ilə ünsiyyətə dəvət

Bu, müttəqilərin mövlası Əmirəlmöminin Əlinin (ə) kəlamlarından biridir. Əgər o Həzrətin şiələri “Nəhcül-bəlağə”nin bu mətnindən geniş təfsir və şərhə ehtiyac duymadan xəbərdar olsaydılar, “İslam

ümməti”, və o Həzrətin “şiələri və ardıcılları” adı ilə məşhur olan zümrə həddən artıq bəhrələnərdi. Əmirəlmömininə (ə) bağlı olan və bu adı daşıyanlar “Nəhcül-bəlağə”nin həm zahiri (mətni), həm də məna və təfsirini dərk etsəydilər, ikinci, üçüncü və... onuncudərəcəli məsələləri bildikləri kimi, “Nəhcül-bəlağə”ni də bilsəydilər, bu şiə ümməti (hər biri ayrı-ayrılıqda) “İslam alimi” adını qazanar və hətta dünya onlardan faydalanardı. Çünki bəşəriyyət həmişə mütərəqqi ümmət, ayıq millət və qabaqcıl cəmiyyətdən çoxlu bəhrələnmişdir.

## Bu xütbənin mündəricatı

Burada məqsədimiz bu ali, gözəl, yaradıcı, ibrətamiz, agahlıq bəxş edən xütbələri tədricən, çox şərh və izaha yer vermədən tərcümə və məna etməkdir. Əlbəttə, bu hissə xütbənin əvvəlindən sonuna qədərki hissə deyil. Xütbə elə bir cümlə ilə başlayır ki, onun başlanğıc olmadığı tamamilə aydındır. Şübhəsiz, ondan öncə cümlələr də qeyd edilmişdir. Amma Mərhum Seyid Rəzinin (r.ə) seçimi belə olub. “Nəhcül-bəlağə” kitablarında yazılan mətn elə bu qədərdir və ondan öncə bizim xəbərsiz olduğumuz giriş sözlər də olub. Bu verilən mətndə əvvəlcə İslam Peyğəmbərinin (s) besətindən (peyğəmbərliyə seçilməsindən) söz açılır. Görəsən, İslam Peyğəmbərinin (s) insanlara gətirdiyi ərməğan və mesajlar nə olub? Peyğəmbərin (s) besət və göndərilməsində məqsəd nə idi? Peyğəmbərin (s) dəvət vasitəsi nə olub? İslamın dəvət vasitəsi və

səmavi kitab olan Qurana müraciətin faydası nədir? Mətndə bu dörd mətləbdən danışılır!

Növbəti cümlələrdən beşinci mətləb – İslam ümmətinin vəziyyəti və həyat tərzinin Allah-Taalanın iradə etdiyi vəziyyətlə uzlaşmamasının ən böyük bədbəxtlik olması da əldə olunur. Allah-Taala insanı bir hədəf və bir qayə üçün yaratmışdır. Dünyada var olan bu qədər nemətlər, insana, Adəm övladına həvalə edilən bu qədər qüvvələr, ardıcıl və hər biri müəyyən mesajlarla göndərilən, sıxıntı və çətinliklər içində dünya ilə vidalaşan peyğəmbərlər, dünyada bu qədər zənginlik və dəbdəbəli şəraitə sahib insanlar bir məqsəd, bir qayə və bir amal üçün yaranmışlar. Peyğəmbərlər gəlmişlər ki, bu kal meyvəni (insanı) yetişdirsin, bu xam maddəni bişirsinlər. Əgər sonuncu haqq Peyğəmbərin (s) gəlişindən 1400 il keçməsinə baxmayaraq, 10-20 əsr bundan öncə cahillik ənənələri içərisində çapalayan insanlar kimi, biz də keçmişdəki həmin cahillik içərisində çapalayır və bu vəziyyəti duyuruqsa, onda ən böyük bədbəxtlikləri gözlərimiz önündə canlandırmalıyıq. Başa düşməliyik ki, bədbəxt və biçarəyik. Başa düşməliyik ki, əlimiz boş, üzümüz və bəxtimiz qaradır. Əgər bunu başa düşmürüksə, deməli, nadanıq. Ən böyük bədbəxtlik də elə budur! Özümüzə nəzər yetirmək, yaradılış məqsədi və qayəsindən, Allahın peyğəmbər və kitabları göndərməkdəki hədəfindən nə qədər uzaq düşdüyümüzü anlamaq üçün gözlərimizdən tozlu eynəyi götürməliyik. Əgər İslam ümməti bu bədbəxtliyi görərək onun öz ətrafında dolandığını anlayarsa və gözünü açıb özünü bataqlıqlarda

görərsə, yenə Qurana – İslam Peyğəmbərinin (s) İslamın ilkin çağlarında bəşəriyyəti səadətə yetirdiyi vasitəyə müraciət etməli və üz tutmalıdır. Xütbənin uzun cümlələrindən istifadə etdiyimiz son mətləb budur!

Maraqlı xütbədir! Əlbəttə, bu xütbədə gələcəklə bağlı proqnozlar da vardır. Allahın bu seçilmiş bəndəsi, böyük vəlisi (Əmirəlmöminin Əli (ə)) İslam ümmətinin gələcəyi haqda məlumat verir və görəsən, bu gələcək haçandır və haçana qədərdir? Bu gələcək Əmirəlmöminin Əlidən (ə) sonra başlayıb haqq dövləti və dünya miqyaslı İslam hakimiyyətinin qurulacağı günə qədərki bir dövrü əhatə edir. Bu gələcək yalnız Müaviyənin, Yezidin və Mərvanın zamanına aid deyil, əksinə bütün zamanlara şamildir. İndi isə xütbəni kəlmə-kəlmə tərcümə edirəm, siz də qulaq asın:

## Peyğəmbərin (s) insan fitrətinə uyğun dəvəti

**فبعث الله محمدا (صلى الله عليه و آله) بالحق**

Allah Muhəmmədi (s) haqq olaraq, haqq vasitəsilə və haqq üçün göndərdi və yaxud haqqı onun əli ilə göndərdi. Peyğəmbərin (s) dəvəti haqq dəvətdir. Haqq dəvət nə deməkdir? Bu sözümü unutmayın! İnsanların, yaradılış aləminin fitrətinə uyğun məktəbə dəvət edilməsi “haqq dəvət” adlanır. Haqq budur! İnsan fitrəti ilə uzlaşmayan, ona uyğun gəlməyən və yardımçı olmayan hər bir quruluş, hər bir ideologiya, hər bir fəlsəfə, hər bir nizamnamə batildir və batil məhvə məhkumdur. İnsanın fitrəti,

ehtiyacları, onun və dünyanın strukturunun tərkib xüsusiyyəti ilə bərabər olan, onunla uzlaşan hər bir dəvət və məktəb haqdır. Haqq budur! Belə bir haqq dünyada həmişə yaşayacaq. Çünki insan və dünyanın fitrətinə əsaslanır. Odur ki, həmişəyaşardır. Təbii aləmə hakim qanuna əsasən, həmişə yuxarıdan aşağı hərəkətdə olan bir arxa tökdüyünüz su həmişə orada cari olacaq. Amma üzüyuxarı istiqamətdə axan arxa tökdüyünüz suyu itələsəniz belə, azca cari olsa da, dayanıb geri qayıdacaq. İnsan fitrəti və dünyanın strukturunun əksinə olan, yəni haqqa, dinə, aləmlərin Rəbbinin məktəbinə, ilahi fəlsəfəyə əks olan hər bir şey yaşamaq və davamlı olmaq qabiliyyətinə malik deyildir. Bu gün var olmasına baxmayaraq, bil ki, sabah olmayacaq. Haqq meydanda əbədi, batil isə ötəridir.[1]

Batil suyun üzərindəki köpüklərdən ibarətdir. Görünməsinə baxma, bil ki, dərində deyil (üzdədir) və həmişə qalmayacaq. Peyğəmbərlər haqqı gətirdilər, insanlara haqqı çatdırdılar və onların fitrəti ilə uzlaşan şeyləri təqdim etdilər, ərməğan verdilər. Haqqın mənası, "Haqq nədir və batil nədir?" cümləsi ilə bağlı dediklərimi yadınızda saxlayın ki, bir çox ayə və rəvayətlərin, İslam maarifinin dərkində açar rolunu oynayır.

[1] Hədisdə buyurulur: "Haqq üçün (zühur vaxtı) bir dövlət vardır, batil isə (o zamana qədər müvəqqəti olaraq) hay-küy salıb meydan sulayacaq." ("Qürərül-hikəm və dürərül-kəlim", səh. 544.)

# Peyğəmbərin (s) hədəfi – İnsanları tağuta (Allahdan başqa, ibadət edilən hər bir şey, büt və s.) ibadətdən nicat verib Allaha ibadətə dəvət etmək

**بالحق ليخرج عباده من عبادة الأوثان إلى عبادته**

Peyğəmbər (s) haqq hökmlər gətirdi, haqq məktəb təsis etdi. Nə üçün? Məqsəd nə idi? Allahın seçdiyi Peyğəmbər (s) nə etmək istəyirdi? Məqsədi bu idi ki, insanları bütlərə ibadətdən, bütlərə bəndəçilik və köləlikdən çıxarıb Allaha ibadət və bəndəçiliyə doğru yönəltsin; bu, birinci cümlə!

İfadədə qeyd edilən "əvsan" sözü "bütlər" mənasını verir. Sadəlövh və nadan insanlar ağac və əqiqdən düzələn, taxçaya qoyulub qarşısında əyildikləri heykəlin büt olduğunu güman edirlər. Düzdür, bu da bir növ bütdür, ən böyük büt isə bütün düzəlmə əmrini verən bütdür. Ən böyük büt bütpərəstdir. Onu insanlar üçün büt edən şəxsdir. Böyük büt odur! Fironun bütxanasında bütlər çox idi, amma bütlərin hamısından böyük büt elə Fironun özü idi.

# İnsanlardan olan şeytanlar cinlərdən olan şeytanlardan daha təhlükəlidir

“Büt” sözünün yanlış məna edilməməsi, düzgün başa düşülməsi və yalnız ağac, dəmir, palçıq, metal və bu kimi şeylərdən düzələn “cansız varlıqlar” mənasında anlaşılmaması üçün sonrakı cümlədə belə buyurulur:

**و من طاعة الشيطان إلى طاعته**

(Allah-Taala Peyğəmbəri göndərdi ki,) insanları Şeytana itaət, pərəstiş və mütilikdən nicat verib Allaha itaətə, ibadət və pərəstişə yönəltsin, onları Allaha itaətkar etsin.

Şeytan kimdir? Bizim görmədiyimiz varlıqlar şeytanlardır. Onlar şeytanların bir növüdür. Lakin onlardan daha təhlükəlisi bizim gördüyümüz və gözlə görünən şeytanlardır:

**من الجنة و الناس**

“**Cinlərdən və insanlardan olan şeytanlar.**”[1]

Adi dilimizdə də bunu deyirik. Bizə belə öyrədiblər ki, insan və insan simasında olan şeytanlar da vardır. (Bir gün) Şeytanla şeytansifət (şeytanlaşmış) insan arasında mübahisə yaranır. Şeytan deyir: “Mən səndən zirək və bacarıqlıyam.” Şeytansifət isə deyir: “Gəl sınaqdan keçirək, görək, kim zirəkdir!”

**عند الامتحان يكرم الرجل او يهان**

---

[1] “Nas” surəsi, ayə 6.

**“İnsanın böyüklük və ya kiçikliyi imtahan zamanı bilinər.”**[1]

Şeytan bir tayfa arasında ixtilaf, ikitirəlik yaratmaq və qan axıtmaq üçün əl-ayağa düşür. Şeytansifət isə iki naməhrəm kişi ilə qadını bir-birinə qovuşdurur. Şeytan yuxarı kəndlə aşağı kənd əhalisini bir-birinin canına salmaq üçün bir gün çalışır və nəhayət, yüz nəfər qətlə yetirilir. Şeytansifət də iki naməhrəmi bir-birinə qovuşdurmaq üçün bir gün çalışır, nəhayət, haram bir iş və haram intim münasibət baş tutur. Sonra gördükləri işin hansı birinin daha böyük olmasını hesablamağa başlayırlar. Şeytansifət insan Şeytana deyir: “Mənim gördüyüm işin nəticəsində sənin kimi bir haramzadə dünyaya gələcək və sənin gördüyün işin on bərabərini, hətta ondan artığını yerinə yetirə biləcək. Sən yüz nəfərin qətli ilə nəticələnən iki dəstə arasında ixtilaf salmaq üçün sadəcə bir gün çalışdın, amma insanları bir-birinə qırdıra bilən bir haramzadə isə hər gün bu işlə məşğul olacaq. Bu, daha önəmlidir.”

Bəzi şeytansifət insanlar şeytanlardan daha çox çirkindirlər, şeytanların müəllimləridirlər. Şeytanları şeytan edən onlardır. Onlar insanları şeytana müti edirlər. İnsanlardan bir çoxu iffətsizliyə sövq edən şeytandan uzaq gəzsə də, şeytansifətlər bu sayaq şeytanı onların qarşısına çıxarırlar. Əksər pak insanlar məstedici şeytanı (alkoqollu içkilər) lənətləyib özündən uzaqlaşdırsa da, şeytansifətlər həmin şeytanı onların ixtiyarında qoyur, ondan

---

[1] Alman filosofu Georq Vilhelm Fridrix Hegel.

istifadəyə təşviq edirlər. Bir sözlə, bəzən şeytansifət insanlar şeytanlardan daha pis, daha təhlükəlidirlər.

## Peyğəmbərlərin hədəfi – Allaha pərəstiş

Peyğəmbərlər, o cümlədən İslam Peyğəmbəri (s) insanları canlı və cansız bütlərə pərəstişdən, cin və insanlardan olan şeytanlara itaətdən nicat vermək, hamını Allah-Taalanın mütləq bəndəçiliyinə yönəltmək üçün göndərilmişlər. Onlar göndərilmişlər ki, hamı Allaha bəndə olsun; ənənələri ilahi olsun, qüdrətləri ilahi qüdrət olsun. Onlara Allahdan, Allahın dili (kəlamı) və əlindən (qüdrətindən) başqası hakim olmasın; yalnız Allahın əmrinə boyun əysinlər, Allahın istədiyi kimi yaşasınlar və ilahi çərçivədən kənara çıxmasınlar. Peyğəmbərlər gəlmişlər ki, cəmiyyətə Quran ayələri, islami və ilahi hökmlər hakim olsun. Bu, peyğəmbərlərin vəsfidir.

## Qurani-Kərim – Hidayət vasitəsi

Bu ifadənin iki mənası var: Peyğəmbər (s) öz ağır risalət və missiyasını hansı vasitə ilə yerinə yetirirdi?

**بقرآن قد بينه و أحكمه**

“**Aydın və möhkəm etdiyi Quran vasitəsi ilə!**”

Quran hamının istifadə edib başa düşə biləcəyi bir kitabdır. Quranın sözlərinin, bu müqəddəs kitabdakı ilahi kəlamların “**elmdə qüvvətləri olanlar**”dan başqa, heç kimin bilmədiyi batini mənalar ifadə

etməsi adi insanların Quranın zahirindən istifadə edə bilməyəcəyi mənasında deyil.

## Quran – Hamının istifadə edə biləcəyi bir kitab

Bu məqamı bəlkə də, on dəfədən çox vurğulamışam, on birinci dəfə təkrar edirəm, hətta yüz dəfə desəm belə, yenə də yüz birinci dəfə təkrar etmək zərurəti yaranacaq. Bəziləri insanları Quranın zahiri mənalarından uzaq saxlamaq və Quranı onların əlindən almaq üçün deyirlər ki, Quran elmi imamların yanındadır. Biz də bunu deyir və qəbul edirik ki, Quran elmi imamların yanındadır. Quranın dərin mənaları və batinini ilahi vəhy şagirdlərindən başqa, heç kimin bilmədiyini və heç kəsin onu təklikdə başa düşə bilmədiyini biz də qəbul edirik. Bu danılmazdır. Amma İmam Sadiqin (ə) Quranın batinini bilməsinin mənası bu deyil ki, mən və siz Quranın zahirini başa düşməyəcəyik. Quranın batini ilə zahiri ziddiyyət təşkil etmir. Ərəb dilini bilən, Quran dili və kəlamı ilə tanış olan bir insanın Quranın zahirindən başa düşdükləri onun üçün höccət və dəlil-sübutdur. Bu, böyük şiə alimlərinin sözüdür. Şiə alimləri son əsrlərdə "Üsul elmi"nə aid bu məsələ üzərində tədqiqat aparmış və "Üsul" alimləri bu haqda çoxlu bəhslər etmişlər. Son 120 ildə şiənin ən böyük alimi olan Şeyx Ənsari bizim Elmi Hövzənin dərslik kitablarından olan "Rəsail" kitabında, "Quranın zahirinin höccət və dəlil olması"

ilə bağlı geniş fəsildə yazır: “Quranın zahiri höccət və dəlildir.”[1]

Alimlərin çalışqanlığı sayəsində öz həllini tapan, mədrəsələrdə nöqtəsi qoyulan və hətta dörd dərslik kitab oxuyan bir insana qaranlıq qalmayan bir məsələ ilə bağlı bu qədər aydın sözlərlə yanaşı, təhsil almamış bir neçə nəfər nadan və cahil insanın “Qurana əl vurmayın, Qurana baxmayın, Quranı açmayın, Qurandan bir şey oxumayın, çünki Quranı yalnız imamlar başa düşürdülər!” – deyə səslənməsinin səbəbini hələ də başa düşə bilmirəm. Düzdür, Quranı imamlar başa düşürdülər, lakin Quranın batini və dərin mənalarını. Quranın zahirini isə hər bir ərəbdilli başa düşə bilir.

Bir nəfər İmamın (ə) hüzuruna gəlib bir məsələ soruşur. Məsələn, deyir: “Yerə yıxıldım və ayaq dırnağım qopdu. Amma (bədənim) qanamadı. Onu qoyun dərisi ilə bağlamışam. İndi ayağıma məsh çəkmək istəyirəm. Necə məsh çəkməliyəm?” İmam (ə) cavab verdiyi zaman Qurana istinad edir və buyurur:

**يعرف هذا و اشباهه من كتاب الله عزوجل**

“**Bu və buna oxşar məsələni Allah-Taalanın kitabından öyrənmək olar.**”[2]

İmam (ə) buyurur ki, bu məsələni Qurandan başa düşmək olur. Sonra onunla bağlı bir ayəni[3] tilavət edir ki, Şeyx Ənsari bu haqda yazır: “Bu hökmü həmin ayədən başa düşmək bir qədər çətindir.”

---

[1] “Fəraidul-üsul”, c. 1, səh. 154.

[2] “Kafi”, c. 3, səh. 33.

[3] “Həcc” surəsinin 78-ci ayəsinə istinad edir: “Allah dində sizin üçün heç bir çətinlik yeri qoymadı.”

Bununla belə, yenə yazır ki, onu Qurandan başa düşmək olar. Gəlin, Quranı başa düşək!

Qeyd etdiyim bu mətləb məclis iştirakçılarına aydın olsa da, başqalarına qaranlıqdır. Odur ki, onun üzərində araşdırma aparmaları zəruridir. Ərəb dili və qrammatikası ilə tanış olmağımız sayəsində Quranı başa düşdüyümüz üçün Quranın zahiri mənası elə Quranın aydın buyruğuna və hidayət imamlarının (ə) aşkar kəlamlarına əsasən höccət və dəlildir, İslam alimlərinin şəksiz-şübhəsiz, yekdilliklə qəbul etdiyi bir məsələdir. "Quranı başa düşmək olmaz, Qurana əl vurmayın, Qurana istinad etməyin, Quranla işiniz olmasın!" – deyənlər ya nadandır, ya da qərəzli. Nadandır; çünki şiənin böyük Üsul alimlərinin (uyğun məsələ ilə bağlı) qeydləri haqda məlumatı yoxdur. Qərəzlidir – bilir, amma məqsədli şəkildə Quran maarifindən uzaq qalmağımızı istəyir. Bu da mütləq yadda saxlamalı olduğunuz bir mətləbdir. Demirəm ki, mütləq qəbul edin, amma onun üzərində tədqiqat aparın. Dəfələrlə demişəm ki, söylədiklərimi dinləyicilərimin zehninə zorla yeritməyi xoşlamıram. Dediklərimə Quran ayəsinə əsaslanaraq əməl edin:

**الذين يستمعون القول فيتبعون أحسنه**

"**O kəslər ki, sözü dinləyib onun ən gözəlinə tabe olarlar.**"[1]

Dinləyin, əgər həqiqət və fitrətə uyğun gəldiyini, həqiqi İslam meyarlarına əsaslandığını görsəniz, qəbul edin, yaddaşınızdan silməyin, araşdırın, mütaliə edin və kim bu mətləbə əks danışsa, bilin ki, ya nadandır, ya da qərəzli.

[1] "Zumər" surəsi, ayə 18.

# Qurani-Kərimin xüsusiyyətləri

**بقرآن قد بينه و أحكمه**

“**(Allah Öz Peyğəmbərini) aydın, aşkar və möhkəm etdiyi Quran vasitəsi ilə (göndərdi)!**”

**ليعلم العباد ربهم إذ جهلوه**

“**Bəndələr nadan olduqları və Allahı tanımadıqları halda, Allahı Quran vasitəsilə tanısınlar.**”

**و ليقروا به بعد إذ جحدوه**

“**Allahı inkar etdikləri şəriatdə Allah bəndələri Quran vasitəsilə Allahın varlığını etiraf etsinlər.**”

Quran insanları Allaha itaətə, Onun varlığını iqrar etmək və Onu tanımağa doğru sövq edən bir vasitədir. Bütün bunlar Quranın işi və Quranın üzərinə qoyulan vəzifələrdir. Əgər mən və siz Quranla bağlı bu məsələləri anlamırıqsa, deməli, Quranı dərk etməklə bağlı müəyyən problemə düçar olmuşuq .

**و ليثبتوه بعد إذ أنكروه**

“**Bəşər nəsli Allahı inkar etdikdən sonra, yenə Quran vasitəsilə Onu isbat etsin.**”

**فتجلى لهم سبحانه في كتابه من غير أن يكونوا رأوه**

“**Nəticədə, onlar (zahiri) gözlə Allahı görmədən , pak və müqəddəs Allah**

**onlar üçün öz kitabında cilvələnmiş və təcəlla etmiş olur.**”

Bəndələr ağıl, düşüncə və bəsirət gözü ilə Allahı görsünlər.

**بما أراهم من قدرته و خوفهم من سطوته**

**“(Allahı) Quranda onlara göstərdiyi (nişan verdiyi) güc və qorxutduğu qüdrəti ilə (tanıyarlar.)”**

**و كيف محق من محق بالمثلات**

**“İntiqam və əzablarla ümmətləri necə məhv etdi?”**

**و احتصد من احتصد بالنقمات**

**“İnsanları, qövmləri və ümmətləri Öz qəzəb və intiqam orağı ilə necə biçib həlak etdi?”**

## Peyğəmbəri-Əkrəmin (s) besəti və insanların azadlığa çıxması

Qeyd edilənlər Peyğəmbərin (s) və Quranın məqamı ilə əlaqədar idi. Başa düşdük ki, Peyğəmbər (s) insanları azad etmək, onların əl-ayaqları və çiyinlərindən köləlik, asılılıq zəncirləri və ağır yükləri götürmək, cahillik əsarətindən qurtarmaq, nadanlığı onlardan uzaqlaşdırmaq, xurafata uyan insanların beynindən xurafatları silib təmizləmək, çiyinlərində bəşəriyyət düşmənlərinin yükünü daşıyanları bu yükün altından çıxarmaq, zülmə məruz qalanlara zülmdən və yoxsulluq əsarətində yaşayanlara yoxsulluqdan nicat vermək üçün gəlmişlər. Bunlar Peyğəmbərin (s) vəzifəsi, risaləti və missiyasıdır. Peyğəmbər (s) insanları yuxuya vermək üçün yox, ayıltmaq üçün gəlmişdir. Eyni zamanda, Peyğəmbər (s) ümməti yoxsullaşdırmaq üçün deyil, zənginləşdirmək, insanların qulağını, ağıl, dərrakə və zəka yolunu bağlamaq üçün yox, onların varlığında bütün dərrakə qapılarını açmaq

üçün göndərilmişdir. Şübhəsiz, insanların zehinlərini kütləşdirmək və "başa düşməyin, fikirləşməyin, düşünməyin!" – demək üçün yox, əksinə beyinlər üzərindəki nadanlıq pərdələrini qaldırmaq üçün gəlmişdir.

Qeyd etdiklərim Əmirəlmöminin Əlinin (ə) başqa xütbələrindəki cümlələridir:

**و يثيروا لهم دفائن العقول**

"**(Allah peyğəmbərləri) insan varlığındakı ağıl xəzinələrini (gizlənmiş ağılları) üzə çıxararaq işə salmaları üçün göndərdi.**"[1]

Bunlar o Həzrətin bu və digər xütbələrdə peyğəmbərlərin məqamı və vəsfləri ilə bağlı buyurduqlarıdır.

## Müsəlmanların Qurana ehtiyacı

Bu xütbədə müəyyən qədər Quranla tanış olduq. Quran aydın, aşkar və sabitdir, insana həqiqətləri aşılayır. Əgər Quran haqqında düşünsəniz, Quranda Allahı görər, həyat yolunu taparsınız. Allah eləsin, Əmirəlmöminin Əlinin (ə) bu kəlamı İslam ümmətinin qulağında cingildəsin, bu səs İslam aləmində sönməsin, aradan qalxmasın. Allah eləsin, İslam ümməti çarəsizliklərin həlli və xəstəliklərin şəfasının Quranda olduğunu başa düşsün, Əmirəlmöminin Əlinin (ə) vilayəti sayəsində Quran həqiqətlərinə nail olsun. Allah eləsin, bu baş versin. Əlbəttə, əgər Quran və Əmirəlmöminin Əlinin (ə) düşmənləri Quranın üstünü Əmirəlmömininin adı ilə örtməsələr, yenə Əmirəlmömininin düşmənləri o

[1] "Nəhcül-bəlağə", xütbə 1.

Həzrətin vilayət (və rəhbərliyi) adı ilə bu haqq sözü söndürməsələr, həmçinin nadanlıqlarına görə İslama, Qurana və Əlinin (ə) “Nəhcül-bəlağə”sinə hər bir qərəzli və inadkar düşməndən daha da təhlükəli olan Əmirəlmöminin Əlinin (ə) nadan tərəfdarları o Həzrətin (həqiqi) ardıcılları və şiələrinin bu sözü anlaması və onu əməldə gerçəkləşdirməsinə imkan versələr (bu, baş tuta bilər). Yəni, o Həzrətə, onun vilayət və rəhbərliyinə düşmənçilik səbəbindən bu məsələlərin üzərini örtsələr və buna mane olsalar, həmin məsələ gerçəkləşməz. Allah eləsin, bu səs kəsilməsin. Allah eləsin, Əmirəlmöminin Əlinin (ə) bu cümlələri İslam cəmiyyətinin səhifəsi və səhnəsində həkk olunsun. Əgər biz insanlar o Həzrətin sözünə əməl etsək, ən azından başa düşsək, o Həzrətin və Quranın düşmənləri heç bir iş görə bilməzlər. Əlbəttə, o Həzrətin dostlarının da bunu istəməsi lazımdır. Bu da Quran və onun xüsusiyyəti ilə bağlı o Həzrətin buyurduğu başqa bir cümlə idi.

## İslam cəmiyyətinin gələcəyi ilə bağlı proqnoz

**1. Həqiqətin gizlədilməsi:**

İndi isə (Əmirəlmöminin Əli (ə)) gələcəklə bağlı proqnozlar verir və bu proqnozlar bizim nadanlıq və bədbəxtlik dövrümüzdə, rifah, səadət və xoşbəxtlikdən uzaq olduğumuz günlərdə vəzifəmizi aydınlaşdırır:

**و إنه سيأتي عليكم من بعدي زمان ليس فيه شيء أخفى من الحق**

**“Şübhəsiz, məndən sonra sizin üçün elə bir zaman gələcək ki, onda haqq və həqiqətdən daha gizli bir şey olmayacaq.”**

Bu zaman haçandır? Nadan insan cavabında deyəcək ki, bu, Müaviyənin zamanına təsadüf edir. Ondan soruşsan ki, Mərvan ibn Həkəmin zamanına aid deyil? Məcbur olub deyəcək ki, o zamana da aiddir. “Mərvan ibn Həkəmin zamanından sonra Əbdülməlikin zamanına necə? ” – deyə soruşsan, “Bəli, o zamana da aiddir!” – deməyə məcbur olacaq. Soruşsaq ki, Əbdülməlikdən sonra, Süleyman ibn Əbdülməliklə Vəlid ibn Əbdülməlikin zamanına aid deyilmi? Yenə “Aiddir!” – demək və eyni cavabı vermək məcburiyyətində qalacaq. Ona demək lazımdır ki, ay nadan, zaman keçdikcə tarixin təcrübə süzgəcindən su kimi keçən bir sözlə bağlı səni həmin zamanın Müaviyə ibn Əbu Süfyanın dövrünə aid olduğunu deməyə nə məcbur edir?! Nə üçün Əlinin (ə) naməhdud kəlamını məhdudlaşdırırsan? Nə üçün öz kiçik əqlini və cılız nəzərini Əmirəlmömininin Əlinin (ə) geniş və dərin sözünə yeridirsən? İcazə ver, Əli (ə) buyurduğu kimi başa düşək: Bir zaman gələcək və bu zaman uzun və davamlı olacaq, xas bir dövrana aid olmayacaq və bütün dünyada mütləq haqq hakimiyyətinin qurulacağı vaxta qədər (sözsüz, belə bir vaxt gələcək) bu söz zaman-zaman özünü göstərəcəkdir:

**ليس فيه شيء أخفى من الحق**

**“O zaman haqq və həqiqətdən daha gizli bir şey olmayacaq.”**

**و لا أظهر من الباطل**

"**Batildən daha aşkar, daha əlverişli, daha böyük bir şey olmayacaq.**"

Şiəlik evlərdə, daxmalardadır. İmam Sadiqdən (ə) soruşdular: "**Sizin təsvir etdiyiniz (həqiqi) şiələri harada tapmaq olar?**" Həzrət buyurdu:

**رؤوس الجبال و بطون الأودية**

Şəhərlərin və xiyabanların daxilində yox, "**dağların başında və vadilərin içində (axtarıb tapa bilərsiniz).**" Haqq bu guşələrdədir. Haqq cilvəsini bu qədər əzəmət, qüdrət və vüqarına baxmayaraq məhdudlaşdıran, onun üzə çıxmasına maneçilik törədən batildir. Haqqın cilvəsinə fürsət yarandıqda, batil dərhal qara bulud kölgəsi tək özünü yetirir və həqiqət günəşini pərdələyir.

**2. Allaha və Peyğəmbərinə qarşı yalan uydurmaq:**

**و لا أكثر من الكذب على الله و رسوله**

"**Cəmiyyətdə heç bir şey Allaha və Onun Peyğəmbərinə (s) qarşı yalan uydurmaqdan daha çox olmayacaq.**" (Yəni, Allaha və onun Peyğəmbərinə həddən artıq yalan şeylər nisbət veriləcək.) Allahın və Peyğəmbərin (s) adından danışanların çoxu yalan, həqiqətə və Quranın aydın ayələrinə zidd danışacaq.

**3. Həqiqi Qurana rəğbətin olmaması:**

**و ليس عند أهل ذلك الزمان سلعة أبور من الكتاب إذا تلي حق تلاوته**

**“O zamanın camaatının nəzərində düzgün oxunan Qurandan ucuz, qiyməti aşağı və kasad məhsul olmayacaq.”**

Gördüyünüz camaat Quranı düzgün oxuya bilməyənlərin ardınca gedir. Quran oxuyanlar və dindən danışanlar iki qrupdur: Onun bir qrupu pis, bir qrupu isə yaxşıdır. Pis qrupda dinin ruhundan əsər-əlamət yoxdur. Yaxşı qrupa isə dinin ruhu hakimdir. Dinin ruhu nədir? Həqiqət, ayıqlıq və aydınlıq. Dinin hər bir aydın və ayıq sözü onun yaxşı sözüdür. Dinin həqiqi sözü budur. “Din” adı ilə danışılan, amma zəiflik, süstlük və ətalətə aparan, canlanma və tərəqqiyə zidd olan, insanları durğunluğa, qəflətə, yuxuya və qüsurlu əməlləri ilə məğrurluğa sövq etdirən hər bir söz dinin sözü deyildir. Düzgün oxunan Quran insanları ayıldan Qurandır. Yanlış oxunan, qeyri-düzgün və batil şəkildə məna və bəyan edilən Quran insanları ayıqlıqdan çıxaran, onları qəflət pərdəsi arxasında saxlayan Qurandır. İnsanları ayıqlıq və qəflətdən oyanmaqdan çəkindirən hər bir söz və əməl məhdud və kasad bir məhsuldur. Əksəriyyət dini olmayan (dinin ruhundan uzaq qalan) zümrənin ardınca gedirlər.

**4. Dünyatələbliklə təfsir edilən Quranın geniş şəkildə yayılması:**

**و لا أنفق منه إذا حرف عن مواضعه**

“Əgər Quranın mənasını təhrif edib istəklərinə uyğun təfsir edərlərsə, onların nəzərində Qurandan “dəyərli mal” tapılmaz.”

Əgər Peyğəmbərə (s) nazil olmuş Quranı öz meyilləri, istək və maraqlarına uyğun dəyişib insanların qəlblərini Quran vasitəsilə ələ alaraq hamını sevindirsələr, hamını Quranla razı salsalar, həm qoluzorlunun, həm nadan və fasiqin Quran vasitəsi ilə şəfaətə nail olacağını aşılasalar və Quranı bu cür bəyan etsələr, cəmiyyətdə bu məhsul tarixdə görüb-oxuduğumuz kimi, bol olacaq. Məsələn, Süleyman ibn Əbdülməlikin xətibi minbərə çıxıb Quran, din, tövhid və nübuvvət barəsində nə istəyirdisə danışırdı. Özü də elə danışırdı ki, onun danışığından Süleyman ibn Əbdülməlikin heykəli düzəlirdi; danışanda Süleyman ibn Əbüdlməliki nurani və sevimli bir sima və şəxsiyyət kimi təqdim edirdi. Həmin zamanlarda İmam Səccad (ə) da Quran oxuyurdu, görəsən, o Həzrətin Quranını neçə nəfər eşidir və dinləyirdi? Bir zaman onun hədisini danışmışdım. Bir hədisə əsasən üç, bir hədisə əsasən beş, bir hədisə əsasən də yeddi nəfər dinləyirdi. O Həzrətin imaməti dövrünün ortalarında deyək ki, həmin say yetmiş, yeddi yüz və yaxud yeddi min nəfərə çatırdı. Beş milyonluq İslam sivilizasiyasında yeddi min insan həqiqi Quranı, milyonlarla insan isə sözləri deyil, həqiqi mənası dəyişilmiş və təhrif edilmiş və iki cür mənası olan Quranı dinləyirdi. Ayələr və kəlmələr arasında fərq yox idi, lakin bəyanlar, təfsirlər, yozumlar və Qurandan çıxarılan mətləblər iki cür idi. Düzgün Quran məhsulunun bazarı kasad, batil (yanlış oxunub təfsir edilən) Quran məhsulunun bazarı bol və müştərisi daha çox idi.

**5. “Məruf”un (yaxşı işin) “münkərə” (pis işə) və “münkər”in “məruf”a çevrilməsi:**

**و لا في البلاد شيء أنكر من المعروف و لا أعرف من المنكر**

“**(Bir zaman gələcək ki,) İslam şəhərləri və ərazilərində yaxşı və bəyənilən işlərdən daha pis və pis işlərdən daha yaxşı və bəyənilən bir iş olmayacaq.**”

Bu sözlərin hər biri əlavə izahat tələb etsə də, tərcümə ilə kifayətlənirəm. Elə əvvəlcədən məqsədimiz bu olub ki, dinləyicilərimiz, bizi eşidən dostlarımız və qardaşlarımız özləri cümlələr üzərində düşünsünlər. Əgər düşünsəniz, özünüz məna və şərh edib çoxlu nümunələr tapa biləcəksiniz.

**6. Quranın onu daşıyanlar (elminə sahib olan kəslər) tərəfindən bir kənara atılması:**

**فقد نبذ الكتاب حملته**

“**Kitabı daşıyanlar – Quran yükünü, onun təfsir məsuliyyətini öz öhdələrinə götürənlər onu bir kənara atdılar.**”

Quranı daşıyanlar Quranı tərk etdilər.

**و تناساه حفظته**

“**Quran hafizləri və onu qoruyanlar onu unutdular.**”

Məsələnin nöqsanı buradadır; əgər Quran daşıyıcıları və hafizləri onu unutmasaydılar, camaata xatırlatmaq asanlaşacaqdı. Amma xəzinədar xəzinəni unutdusa və özünün belə bir xəzinəyə sahib olduğunu yadından çıxartdısa, həmin xəzinədən nə onun özü istifadə edə biləcək, nə də başqaları. Əksinə, əgər unutmayıbsa, xəzinədən götürüb

xərcləyəcək, istər-istəməz, hamı ondan istifadə edəcək. Əgər cibində pul varsa, xərcləyəcək və camaat da ondan bəhrələnəcək.

**7. Quranın və Quran əhlinin cəmiyyətdən təcrid edilməsi:**

**فالكتاب يومئذ و أهله طريدان**

Bu haqq sözə mənim canım fəda olsun! Quran və Quran əhli – hər ikisi eyni taleyə düçar olan, hər ikisi cəmiyyətdən qovulan, hər ikisi sürgün edilən, hər ikisi cəmiyyətin isti qucağından təcrid edilən varlıqlardır. Həm Quranın özü, həm də Quranın həqiqi daşıyıcıları bu vəziyyətə tuş gəlib.

**فالكتاب يومئذ و أهله طريدان منفيان**

"**Həmin zamanda Quran və Quran əhli – onların hər ikisi inkar olunacaq, cəmiyyətdən uzaqlaşdırılıb çıxarılacaq.**"

**و صاحبان مصطحبان في طريق واحد**

"**Hər ikisi vahid bir yolda bir-birinə yoldaş olacaq.**"

**لا يؤويهما مؤو**

"**Nə Qurana, nə də Quran əhlinə sığınacaq verən bir kəs olmayacaq.**"

**فالكتاب و أهله في ذلك الزمان في الناس و ليسا فيهم**

"**O zaman Quran və Quran əhli insanlar arasında yaşamalarına baxmayaraq, onların arasında olmamış kimidir.**"

Onların var olmasına baxmayaraq, onlarla sanki insanlar arasında deyillərmiş və yoxmuşlar kimi rəftar olunacaq. Quranlar çoxdur; Quranın mətni, Quranın səsi, Quranın sözü və həqiqi Quran əhli insanların arasındadır, amma onlardan istifadə

fürsəti olmayacaq, insanların onlara doğru yönəlmək yolu bağlanacaq.

**لأن الضلالة لا توافق الهدى**

Səbəbini bilmək istəyirsənsə, bu aydın məsələdir; "**Çünki azğınlıqla hidayət (doğruluq) bir yerdə olmaz.**"

**و إن اجتمعا**

Hətta bir yerdə və bir-birinin yanında olsalar belə, onların suları eyni bir arxa axmaz.

Əgər Mövlanın sözünü başa düşmək istəyirsinizsə, bu qədər kifayətdir, hətta bu qədəri də çoxdur. Bu qədər göstəriş, bu qədər haqq söz, təfəkkürlə yanaşı bu qədər mətləblər və insanın ehtiyacını təmin edən bu qədər kəlamlar yetərlidir. Bu xütbəyə müraciət etmək istəyənlərin diqqətinə çatdırım ki, bu xütbə 147-ci xütbədir və "**Allah Muhəmmədi (s) haqq olaraq göndərdi..**." – ifadəsi ilə başlayır.

## "Ərbəin ziyarəti" adlı konqresplanının səbəbi

Bu gecə Ərbəindən sonrakı gecədir. Keçmiş adətim üzrə, məzhəbimizin əlamətdar günlərinin növbəti axşamı həmin münasibətlə bağlı söhbət edirəm. Bu axşam isə bu haqda danışmadım. Bunun səbəbi vardır. Səbəbi odur ki, ixtiyarımızda olan bu az fürsətdən layiqincə istifadə edək və hər Bazar ertəsi axşamını Əmirəlmöminin Əlinin (ə) kəlamlarına həsr etdiyimiz həmişəki tədbirimizə xələl yetirməyək. Keçmiş zamanlarda əlamətdar günlərin keçirilməsi ilə bağlı fürsətimiz çox idi. İndi

isə azdır. Odur ki, bizim xatirələrimizdən biri olan Ərbəin haqqında bu axşam geniş söz açmadıq, amma bu sözü deməyim yerinə düşər.

Ərbəin ziyarətinin iman əlamətlərindən olduğunu bilirdinizmi? Mən bu rəvayətin nə dərəcədə düzgün olduğunu bilmirəm və onun mən təsəvvür etdiyim kimi məna daşıdığına da israrla təkid etmirəm. Həqiqət də budur ki, zənnimcə, bu mövzu ilə bağlı irəli sürülən ehtimal və versiyalardan biri də elə bu mənadır. Amma mənim dediyim bu ehtimalın təsdiqi də az deyildir:

Şiə pərakəndə, bir yerdə və bir məkanda yaşamayan bir toplumdan ibarət idi; Mədinədə yaşayırdılar, Kufədə, Bəsrədə, Əhvazda, Qumda, Xorasanda və müxtəlif şəhər və məntəqələrdə (pərakəndə vəziyyətdə) məskunlaşmışdılar. Lakin bu pərakəndə bədənə, bir-birindən ayrılmış hissələrə bir ruh hakim idi, təsbeh dənələri kimi, onların hamısını bir ip birləşdirirdi. O ip nə idi? Şiə mərkəzinə, ali şiə rəhbərliyinə, yəni imama itaət. Bu ip həmin mərkəzdə birləşirdi və bütün üzvlərə əmr verən bir qəlb rolunu ifa edirdi. Deməli, şiəlik bir quruluş, bir təşkilat idi. İki nəfərin bir-birinin halından xəbərdar olmaması mümkün idi, amma bəziləri hamının halından xəbərdar idilər. Onların itaəti hesab-kitaba, fəryad səsləri əmrə, sükutları plana, bir sözlə, hər bir işləri hesab-kitaba əsaslanırdı. Amma qüsurları da var idi, bir-birini çox az görürdülər. Düzdür, bir şəhər və məntəqənin şiələri bir-birini görürdülər, lakin o zamanın şiələri üçün dünya miqyaslı bir konqresin təşkili olduqca zəruri idi. Bu konqres yarandı və vaxtı da təyin olundu. Dedilər ki, hər bir

kəs təyin olunmuş gündə həmin konqresdə iştirak edə bilər. Həmin gün “Ərbəin günü”, görüş yeri də “Kərbəla torpağı”dır, çünki şiəyə Kərbəla və Aşura ruhiyyəsi hakimdir. Şiə varlığında Aşura gününün döyüntüsü görünür. Harada şiə olsa, Hüseyn Aşurasının ardıncadır. Şiədə gördüyümüz bütün bu hiss-həyəcan və duyğular o pak türbədən qaynaqlanır. Bunlar o müqəddəs ruhdan, o qiymətli türbədən baş qaldırıb canlara və ruhlara nüfuz edən, insanları yandırıcı güllələrə çevirib düşmənin qəlbinə sancan şölələr idi.

Hüseyn Aşurasından sonra şiələr tərəfindən yaranan ilk hərəkat “Təvvabin” (töbvə edənlər) hərəkatı idi. Onlar o pak türbənin ətrafında bir yerdə toplaşdılar. Tarixi mənbələrdə qeyd olunur ki, onlar çox ağladılar. Bəziləri elə güman edirdi ki, bu ağlamaqlar insanın yalnız rahatlıq tapmasına səbəb olur. Bəli, ağlamaq insanın rahatlıq vasitəsidir, bu şərtlə ki, yalnız hisslərdən qaynaqlansın. Əgər ağlamaq və göz yaşları, insanın təfəkkür və düşüncəsindən qaynaqlanırsa, bu, eynilə manqalı daha da alovlandıran kababın yağ damcıları kimidir və insana rahatlıq bəxş etmir, əksinə onu daha da coşdurur. Odur ki, ağlamaq zülm və haqsızlıqla mübarizə aparan, Aşuranın (hədəfləri) uğrunda addımlayan ilk şiələrin adi işlərindən sayılırdı. İmam Cəfər Sadiq (ə), İmam Rza (ə) daim ağlayardılar. Səhabələrə də buyurardılar ki, aliməzmunlu (Aşura) qəsidələrini danışın, bu əzadarlıq heyətlərini keçmiş şiələri yad etməklə ağladın ki, bu ağlamaqla onlar daha da alovlanacaq, daha da şölələnəcək.

Təvvabin dəstəsi gəlib burada yetəri qədər və həddən çox ağladı. Zənnimcə, onların bir, ya iki gecə-gündüz ağladıqları deyilir. Bu barədə tarixdə məlumat verilib.[1] Bu ağlamaqlardan sonra əlbir oldular, qərara aldılar ki, gedib canlarını Allah yolunda fəda etsinlər, müharibədən sağ qayıtmasınlar, öldürülənə qədər müharibədən əl çəkməsinlər. Belə də oldu. Əmirəlmöminin Əlinin (ə) səhabəsi, İmam Hüseynin (ə) həvarisi Süleyman ibn Sürəd Xüzai kimi böyük şəxsiyyətlər canlarını qurban verdilər, qətlə yetirildilər. Bu, Kərbəladan qaynaqlanırdı. Baxın, o zaman bu həqiqət necə də cilvəlinirmiş. Əlbəttə, bu gün bu həqiqət bizim camaatın zehnində o gözəllik və əzəmətdə öz inikasını tapmasa da, başqa formada yaşamaqdadır.

Beləliklə, Ərbəin hadisəsi, mühüm bir hadisədir. Yəni, Ərbəin şiələrin beynəlxalq və dünya miqyaslı bir qurultayının, xatirə dolu bir torpağın vədəgahıdır, xatirələr – özü də əzəmətli, vüqarlı xatirələr məskənidir. Şəhidlərin dəfn yeri, Allah yolunda öldürülənlərin məzarıdır. Şiə məzhəbinin ardıcılları qardaşlıq və vəfadarlıq əhd-peymanı bağlamaq üçün bu məkanda toplaşırlar. Ərbəin budur. Təvvabin dəstəsindən başqa, həmin məkana üz tutub ordan stimul alan digərləri də olmuşdur.

Abbasi xəlifələrinin dövründə ən böyük şiə hərəkatından biri də “İbn Təbatəba” hərəkatıdır. (Bu hərəkatın banisi) Məhəmməd ibn İbrahim ibn İsmayıl Təbatəba “Təbatəbailər” silsiləsindən olan möhtərəm bir seyid övladıdır. Məhəmməd ibn İbrahim böyük bir hərəkata imza atdı, İslam

[1] “Əl-kamilu fit-tarix”, İbn Əsir, c.4, səh.177.)

dünyasının mühüm bir hissəsini fəth etdi, qələbə çaldı, şiə və Ələvi hökuməti qurdu. Bəziləri elə təsəvvür edirlər ki, imamzadələrə belə bir haqq (hökumət qurmaq haqqı) verilməmişdi, əslində isə onlara bu haqq verilmişdi. Onlara böyükləri tərəfindən icazə verilmişdi və onlar hədəfə də çatdılar, hətta müvəffəq də oldular. Lakin bu seyidin qəfil xəstələnib dünyasını dəyişməsi onun hərəkatının məğlubiyyətə uğraması ilə nəticələndi. Bu sülalə neçə il hakimiyyətdə oldu. Onlar Baş Hərbi Komandan və digər şiələrlə birgə hərəkata başlamaq istədikdə, Kərbəlaya gəldilər, Hüseyn ibn Əlinin (ə) qəbrinin yanında bir-biri ilə qardaşlıq və vəfadarlıq əhd-peymanı bağladılar.

Eşitmisiniz ki, Cabir ibn Abdullah Ənsari də Kərbəlaya gəldi. Mənim nəzərimcə, bu böyük şəxsiyyət Hüseyn ibn Əlinin (ə) qəbrini ziyarət edən üçüncü şəxsdir. Kərbəla ziyarətinə gələn üçüncü heyət Cabir və Ətiyyənin heyətidir. Ondan öncə bəziləri ziyarətə gəlmişdilər. Bəlkə də, bu pak türbəni ziyarət edən ilk dəstə Bəni-Əsəd qəbiləsidir. Onlar Kərbəlaya gəlib Hüseyn ibn Əlinin (ə) bədənini dəfn etdilər və onlar (Aşuradan sonra Kərbəlaya gələn) ilk heyət idi. Eşitdiyiniz kimi, Cabir də ziyarət məqsədilə gəldi və (mübarək) qəbrin yanında eşitdiyiniz o sözləri dedi. (Əlbəttə, bu gün məclis və yığıncaqlarda iştirak etmisiniz və bu barədə öncədən təkrar-təkrar eşitmisiniz.) İcmali şəkildə "Aşura" adlı böyük cihad və fədakarlıq xatirəsi Ərbəin günü Kərbəla torpağında yad edilirdi. Əgər bu gün şiələr də o pak və müqəddəs torpaqda belə bir vədələşməyə qatıla bilərlərsə, böyük və

dəyərli bir iş görmüş olacaqlar. Bu isə hidayət imamlarının bizə öyrətdikləri yolun davamıdır.

İlahi, Səni Muhəmməd və ali-Muhəmmədə and verirəm, bizi Quranın, eləcə də Quranın həqiqi carçısı Əmirəlmöminin Əlinin (ə) ardıcıllarından et!

İlahi, Səni Muhəmməd və ali-Muhəmmədə and verirəm, bizi saleh və layiqli bəndələrinin zümrəsində olanlardan et!

İlahi, Səni Muhəmməd və ali-Muhəmmədə and verirəm, dediklərimiz və eşitdiklərimizi dünya və axirətimiz, özümüz, millətimiz və ümmətimiz üçün faydalı et!

İlahi, Səni Muhəmməd və ali-Muhəmmədə and verirəm, sözümüzü, danışığımızı, dinləməyimizi Sənin üçün və Sənin yolunda həyata keçirilən söz və danışıqlardan et!

İlahi, kərəmin, fəzlin və lütfünlə bunları bizdən qəbul et!

İlahi, müvəffəqiyyətini bizdən əsirgəmə!

İlahi, Səni Muhəmməd və ali-Muhəmmədə and verirəm, bizim cəmiyyət və ümmətimizi islami cəmiyyət və islami ümmət et!

İlahi, Səni Muhəmməd və ali-Muhəmmədə and verirəm, Quranı anlamaq və Qurana əməl etmək üçün bizim hamımıza müvəffəqiyyət ver!

İlahi, Səndən istədiklərimiz və istəmədiklərimizin hər hansı biri xeyrimizədirsə, onu bizə bəxş et!

İlahi, şərindən Sənə pənah apardıqlarımız və aparmadıqlarımızın hər hansı biri zərərimizədirsə, bizi ondan qoru!

Rəhiməllahu mən qərəəl-fatihətə məəs-sələvat – Fatihə surəsini salavatla oxuyana Allah rəhm etsin.

## 3

# PEYĞƏMBƏRİN (S) BESƏTİNDƏN ÖNCƏ ÜMMƏTLƏRİN VƏZİYYƏTİ[1]

**Bağışlayan və mehriban Allahın adı ilə!**

Bu axşam həm hər Bazar ertəsi axşamına məxsus tədbirimizə uyğun olaraq "Nəhcül-bəlağə"dən və təqvalıların mövlası Əmirəlmömindən (ə) bir dərs, həm də Peyğəmbəri-Əkrəmin (ə) vəfatı münasibətilə o Həzrətdən (s) bir hədis qeyd etməyi zəruri hesab edirəm. Biz hər iki mövzunu cəmlədik ki, möhtərəm məclis iştirakçılarına Əmirəlmömininindən (s) Peyğəmbəri-Əkrəm (s) haqqında bir cümlə tərcümə edək. Əvvəldə də qeyd etdiyimiz kimi, məqsədimiz "Nəhcül-bəlağə"nin tərcüməsidir. Biz, tədricən, bu qiymətli əsərin daha faydalı və həyatımıza, düşüncəmizə daha yaxın mətnini hissə-hissə

[1] 86-cı xütbənin bir qisminin şərhi – 22/03/1373. Ayətullah Xameneinin Peyğəmbəri-Əkrəmin (s) vəfat gecəsindəki çıxışından.

diqqətinizə çatdıracağıq. Bu axşam da bu haqda danışacağıq.

## Əmirəlmöminin Əlinin (ə) öz dövründəki insanlarının İslama ehtiyacına təkidi

Əvvəla diqqət yetirmək lazımdır ki, bu sözün sahibi Əmirəlmöminin Əlidir (ə). Sözsüz, Peyğəmbəri-Əkrəm (s) haqqında ən gözəl və dəyərli sözü təqvalıların mövlası Əmirəlmöminin (ə) deyə bilər. Burada bir məqam var, yəni bu sözlərin sahibi olan Əmirəlmöminin Əli (ə) dünyanın bekar söz sahibləri kimi,istənilən məsələ və münasibətə reaksiya verən və (həmin münasibətə xatir) bir söz deyən kəslər kimi deyildir. Əksinə, o Həzrət öz əsrində Peyğəmbəri-Əkrəmin (s) ardıcıl və tərəfdarlarından olan insanlara bəyan etdiyi bu sözlərlə müəyyən bir məqsəd və qayəni izləyir. Belə ki, Peyğəmbəri-Əkrəmin (s) besətini, peyğəmbər göndərilməsinin hədəfi, Allah-Talanın müsəlmanlar və bəşəriyyətə peyğəmbər və İslama dəvət göndərməsi, cəmiyyətdə yalnız bir bayrağın dalğalandırılmasını zəruri edən səbəblərin həqiqəti eyinlə Əmirəlmöminin Əlinin (ə) zamanına da aiddir. Besətin başlanğıcındakı azğınlıqlar, çatışmazlıqlar və ehtiyaclar o Həzrətin əsrində də mövcud idi. Besətin başlanğıc dönəmində bəşəriyyət bir susuz insan tək yaşamaq üçün bir damla suya ehtiyac duyurdu və o bir damla su Peyğəmbərin (s) besəti, risaləti və İslama dəvət idi. Əmirəlmöminin Əlinin (ə) zamanında da bəşəriyyət həmin susuz

insanı xatırladırdı, əlacı isə İslam adlı şəffaf və ləzzətli su damlasından ibarət idi. İmam Əli (ə) bu kəlamında da bu mətləbi bəyan etmək istəmiş və xütbənin sonunda bu həqiqətə işarə etmişdir... Elə buna görə də buyurmuşdur:

“**(Bu sözdən) ibrət götürün, dərs alın.**”

Öz dövrünün insanlarına başa salmaq istəyir ki, yenə İslama ehtiyac var və bu gün biz də bu mətləbi təkrar edirik.

## Bugünkü bəşər sivilizasiyasının İslama ehtiyacı

Bəşəriyyət bu gün də həmin ruhsuz və cansız bədən kimi, onu həyata qaytaran, onu canlandıran bir damla ləzzətli suya möhtacdır və həmin ləzzətli su damlası İslamdır. Bu İslam Quranda və din rəhbərlərinin kəlamlarında əks olunur və biz onu başa düşməli, susuz bəşəriyyətə dadızdırmalı, şəriəti dirçəltməliyik.

Odur ki, bəşər cəmiyyətinin Peyğəmbərin (s) besəti dönəmindəki, İslama dəvətin başlanğıcındakı nişanə və əlamətləri (əlbəttə, bu xütbədə göstərilmiş nişanə və əlamətləri) izləməliyik. Onda görəcəyik ki, tarixin və bəşərin cahillik dövrlərində həmin nişanə və əlamətlər həmişə var olmuşdur. İndi oxuyacağım xütbə “Nəhcül-bəlağə”nin 86, yaxud 87-ci xütbəsidir.[1] “Nəhcül-bəlağə”nin bəzi qədim nüsxələrində 87-ci xütbədir. Mərhum İbn Meysəm Bəhrani kimi bəzi şərhçilərin əlindəki nüsxələrdə

---

[1] “Nəhcül-bəlağə”dəki bölgülər bir-birindən azacıq fərqlənir.

87-ci, bəzilərində isə 86-cı xütbədir. Həmişəki kimi, öncə xütbənin mətnini oxuyuruq. Mövlanın sözləri ərəbcə, özü də mürəkkəb ərəb sözləri ilə olduğundan, ərəbcə mətni qeyri-ərəb dillilər üçün asanlıqla başa düşüləsi olmadığıdan, hətta ərəbdillilərin və ərəb dili ilə tanış olanların özlərinin belə şərhə və izaha ehtiyac duyduqlarını, eləcə də, Əmirəlmömininin Əlinin (ə) səsi və xütbəsinin ahəngi, sözlərinin həmahəngliyindən duyulan ləzzəti nəzərə alaraq xütbənin mətnini olduğu kimi oxuyuram, inşallah, hamı qulaq assın ki, ərəbcə mətndən də istifadə edək:

**و من خطبة له (عليه السلام) أرسله على حين فترة من الرسل و طول هجعة من الأمم و اعتزام من الفتن و انتشار من الأمور و تلظ من الحروب و الدنيا كاسفة النور ظاهرة الغرور على حين اصفرار من ورقها و إياس من ثمرها و اغورار من مائها قد درست منار الهدى و ظهرت أعلام الردى فهي متجهمة لأهلها عابسة في وجه طالبها ثمرها الفتنة و طعامها الجيفة و شعارها الخوف و دثارها السيف فاعتبروا عباد الله و اذكروا تيك التي آباؤكم و إخوانكم بها مرتهنون و عليها محاسبون و لعمري ما تقادمت بكم و لا بهم العهود و لا خلت فيما بينكم و بينهم الأحقاب و القرون و ما أنتم اليوم من يوم كنتم في أصلابهم ببعيد والله ما أسمعهم الرسول شيئا إلا و ها أنا ذا اليوم مسمعكموه و ما أسماعكم اليوم بدون أسماعهم بالأمس و لا شقت لهم الأبصار و لا جعلت لهم الأفئدة في ذلك الأوان إلا و قد أعطيتم مثلها في هذا الزمان**

İmam Əlinin (ə) iti gözləri dünya və ərəb xalqının İslama dəvətin başlanğıc dövründəki şəraitini görür və dərinmənalı sözləri ilə də gördüklərini bəyan edir. Hər şeyi öz gözü ilə görən Əmirəlmömininin (ə) kimi böyük bir insan besətdən qabaqkı ərəb cəmiyyətinin azğın və acınacaqlı vəziyyətini duymuş, həmin mədəniyyətin qucağında dünyaya göz açmış,

müharibələr görmüş, yoxsulluqları dadmış, hər künc-bucaqda baş qaldıran bədbəxtliklər və çarəsizliklərin, o günün bədbəxt cəmiyyətinə hakim nadanlıq, azğınlıq və qardaş qırğını kimi zülmət qaranlıqların yaxından şahidi olmuşdu.

Bütün bu zülmətlərə rəğmən, qəfildən İslam nuru vəhy məntəqəsində, nübuvvət bayrağı altında parlamağa başladı. Belə böyük bir şəxsiyyət geniş məlumatı, iti və dərin nəzəri, tamamilə agahlıq və ayıqlığı ilə besət dövründəki dünyanın hansı durumda olduğunu bəyan edir.

İmam Əli (ə) Peyğəmbəri-Əkrəmin (s) besətindən öncəki əsrin on beş xüsusiyyət və əlamətini sayır. O Həzrətin bəyan etdiyi xüsusiyyətlərin hər birini biz insanlar və İslam tarixinin müsəlmanları yaşadığımız hər zaman və hər şəraitlə uzlaşdırmalı və bu əlamətlərin olub-olmadığını anlamalıyıq. Əgər bu əlamətlər mövcud olarsa, həmin gün Allah-Taalanın bəşər cəmiyyəti üçün təyin etdiyi çarə və əlacın intizarını çəkməliyik. Həmin əlamətlər olmadıqda sevinməli və bilməliyik ki, çatışmazlıqlara son qoyulmuşdur. Amma bu əlamətlərin var olduğunu görsək, anlamalıyıq ki, bəşəriyyət ölü, xəstə və bədbəxtdir. Başa düşməli, nəticə çıxarmalıyıq ki, bu zaman bəşərin əlacı İslamın zühur etdiyi ilk günlərdə Allah-Taalanın onun üçün təyin etdiyi həmin əlacdır.

# Əmirəlmöminin Əlinin (ə) nəzərində besətdən öncəki cəmiyyətin xüsusiyyətləri

## Göndərilmiş son Peyğəmbərlə (s) həmin cəmiyyət arasındakı zaman fasiləsi

أرسله على حين فترة من الرسل

“**Allah-Taala Peyğəmbəri (s) keçmiş peyğəmbərlərdən uzun müddət sonra peyğəmbərliyə seçdi.**”

İsrail övladlarının dövründə bəzən eyni zamanda dünyanın müxtəlif məntəqələrinə bir neçə peyğəmbər göndərilirdi. Həzrət Musa (ə) ilə canişinləri (ilahi peyğəmbərlər) arasında fasilə düşmədi. Əmanət ardıcıl şəkildə əldən-ələ ötürülürdü. Bəşəriyyət hələ də məntiqi, ideoloji yetkinliyə çatmamışdı. Bu da ilahi mesajın əldən-ələ ötürülərək bəşəriyyətə çatdırılmasını tələb edirdi. Lakin böyük İslam Peyğəmbəri (s) zühur etdikdə, bəşəriyyət yetkinlik və kamillik astanasında idi. Bəşər (doğru) bir yol tapmağa yaxınlaşmış, son ilahi və səmavi mesajı qəbul etməyə hazır idi. Bunun üçün peyğəmbərlərin ardıcıl olaraq göndərilməsinə zərurət yox idi. Odur ki, Həzrət İsadan (ə) sonra bizim Peyğəmbərə (s) qədər böyük peyğəmbər göndərilmədi. Tarixdə bu zaman fasiləsində bir-iki nəfərin peyğəmbər kimi adı çəkilsə də, dəqiq və sübut olunmuş məlumat deyil. Həzrət İsanın (ə) peyğəmbərliyi ilə bizim Peyğəmbərin (s) peyğəmbərliyi arasındakı fasilə, təqribən, altı yüz il

olmuşdur. Buna görə də, Əmirəlmöminin (ə) buyurur:

“**Allah-Taala (keçmiş) peyğəmbərlərdən uzun müddət və fasilə keçdikdən sonra Öz Peyğəmbərini (s) göndərdi.**”

Bu, bir nişanə idi. Bu gün İslam günəşinin nur saçdığı vaxtdan on dörd əsr keçir. O zaman altı əsr fasilə var idisə, indi on əsrdir.

## Ümmətlərin qəflət yuxusunda olması

**و طول هجعة من الأمم**

“**Peyğəmbəri (s) ümmətlər dərin yuxuya getdiyi bir vaxtda göndərdi.**”

Peyğəmbərlər gəlib əllərindəki agahlıq qırmancı ilə ümmətlərin anesteziya olunmuş və yuxuya getmiş bədənlərinə vururdular. Peyğəmbərlərin gəlişində müəyyən fasilələr yaranırdı. Ümmətlər dərin qəflət yuxusuna gedirdilər. Ümmətlərin dərin yuxusu nədən ibarət idi? Ümmətlərin dərin yuxusu maddi və texnoloji sivilizasiyadan uzaq düşməsində deyildi. Rum (Bizans) imperiyası bu altı yüz il müddətdə tərəqqi və inkişafın pik nöqtəsi və zirvəsində idi. Tarixi vərəqləyin, baxın. Ərəbistanın bu altı yüz il ərzində iki qonşu ölkəsinin ərazisi o qədər böyük, zəmanəsinə uyğun maddi, hərbi və siyasi inkişaf səviyyəsi o qədər yüksək və parlaq idi ki, dünyanın iki supergücü bir an belə bir-birindən qafil olmurdu. Özlərini azad, güclü və aram gördükdə, rəqibinə hücum etmək fikrinə düşürdü. Onların arasında daim müharibə gedirdi. Peyğəmbəri-Əkrəmin (s) besəti və İslamın

zühurunun başlanğıcında İranın fəthi və qələbəsi, Rum imperiyasının isə məğlubiyyəti ilə nəticələnən bir müharibə baş verdi:

**غلبت الروم في أدنى الأرض**

"**Rumlular (iranlılara) məğlub oldular. (Ərəbistana) ən yaxın bir yerdə...**"[1]

Onlar arasında həmişə müharibə gedirdi; çox ağır hərbi və siyasi müharibələr, ardıcıl hücumlar, silahlanma və iqtisadi sahədə müsabiqələr o günün mütərəqqi və mədəni cəmiyyət və xalqlarının əlaməti idi. Maddi mədəniyyətə doğru dördatlı çaparaq yürüyən bu ümmətləri dövrün ilk agah insanı – Əli ibn Əbitalib (ə) belə tanıtdırır: "**Ümmətlər dərin yuxuya getmişdilər.**"

Gündüz yuxusuna deyil, dərin yuxuya "həc`ə" deyirlər. İnsan gündüzlər dərin yuxuya gedə bilmir. Gecələr ölü kimi yatmış insanın yuxusuna "həc`ə" deyirlər. Həzrət buyurur ki, ümmətlər ölü kimi yuxuya getmişdilər, heç nəyə diqqət yetirmir, heç nə anlamırdılar. Onları bir ümməti xoşbəxt edən məsələlər – ayıqlıq və düşüncə maraqlandırmırdı. Tarixə nəzər saldıqda, bu iki böyük qüdrət sahibinin mədəni məsələlərdə vəziyyətinin sıfırdan da aşağı olmasını görərik. Keçmiş millətlərə nisbət verilən mədəniyyət və sivilizasiya əfsanədən başqa, bir şey deyildi. Əgər onlarda mədəniyyət olmuşsa da, mənəvi və insanlıq sahəsinə deyil, maddi sahəyə aid olmuşdur.

Bir xalqın ideoloji baxımdan mürgüləməsinin əlaməti nədir? Bu əlamət həyatın sonu və həqiqi taleyə bağlı olmamaqdır. Məsələləri düzgün

---

[1] "Rum surəsi", ayə 2-3.

dəyərləndirməyən, öz ətrafını tanımayan, düşmən hücumlarını görməyən, həmlələr müqabilində münasib reaksiya verə bilməyən, düşməndən qafil olan və onun təcavüzündən öncə qabaqlayıcı tədbirlər görə bilməyən insana “mürgüləyən” insan deyirlər. Ağıllı və ayıq insan bunları anlayır, əksinə, anlamayan, öz düşmənini tanımayaraq onu özünə dost, dostunu isə düşmən bilən xalq yuxudadır. İslamdan əvvəlki ümmətlər belə idi. İslamdan əvvəlki ümmətlərin maddi baxımdan tərəqqisinə fikir verməyin. Bu, onların ayıqlığını göstərmir, əksinə onlar böyük qüdrətlərə əsir olan kölələr idilər. Bu qüdrətlər öz xeyir və mənafelərinə uyğun zəruri şeyləri onlara verir və onlardan lazımi xidmət tələb edirdilər. Tarixi sivilizasiyaların tərəqqi əlaməti memarlıq idi. Memarlıq da saraylara, qılınc döyüşlərinə məxsus idi. Onların mədəniyyət əlaməti ev və əl işlərində özünü göstərən bekarçılıqlardan ibarət idi. Axı, nə üçün insan bir saxsı kuzə düzəltmək üçün saatlar, günlər və həftələr sərf etməlidir? İnsan öz hünərini, öz zövqünü və məharətini hansısa bir əl sənətinə, hansısa bir faydasız işə, bir səhəngə, bir qəndqabına, bir tabloya həsr etməlidir? Görəsən, buna səbəb nədir? Səbəb yolunun bağlı olmasını, ondan böyük işlər görə və cəmiyyətin xeyrinə addımlar ata bilməyəcəyini bilməyindir. Çünki cəmiyyətin geniş əhatə dairəsi və üfüqündə bu zövqdən, bu məharətdən və bu incəsənətdən istifadə edə bilməyəcəksən. Buna görə də özünə qapanırsan. Bu, bir xalqın ayıqlığı deyil, yuxuda olması deməkdir.

“**Ümmətlər dərin yuxuya getmişdilər.**” Ümmətlər qış yuxusundan ayıla bilmir, başlarına gələnləri anlamırdılar. Onları məcbur edən hər kəsə qul, kölə olurdular. Bu gecə onlara Rum imperatoru ağalıq edirdisə, sabahkı gün imperatorun qardaşı imperatorun boynunu vurub özü imperator olurdu, nəticədə yenə hamı köləlik edirdi. Xarici düşmənlər onlara hakim olduqda da vəziyyət eynilə belə idi. İran xalqı qüdrət sahiblərinin hakimiyyəti altında inləyirdi. Makedoniyalı İsgəndər gəldi. Qüdrət sahiblərini aradan qaldırdı və özü çılğın qüdrətin sahibi oldu. Hamı onun ətrafında köləyə çevrildi. Rum cəmiyyəti də belə idi. Misir, Hind və digər yaxın və uzaq cəmiyyətlərdə də bu (acınacaqlı) vəziyyət hökm sürürdü. Bunun adı isə anlamazlıq, nadanlıq, qanmazlıq, öz vəziyyət və mövqeyindən xəbərsizlikdir. Bu uzun əsrlər boyunca bəşərin gözünə sevinc bəxş edə bilən bir insani mədəniyyət nümunəsi görünmədi.

## Cəmiyyətin əsaslı şəkildə fitnələrlə mühasirəyə alınması

**و اعتزام من الفتن**

“**Fitnələr hər tərəfdən (hakim dairələrin əzmi və iradəsi ilə ciddi şəkildə) bütün cəmiyyəti, xalqları və ümmətləri mühasirə etmişdi.**”

Bu da başqa bir əlamət, yəni üçüncü əlamət. Fitnə nədir? İnsanı məftun edən, düşüncədən saxlayan, doğru yoldan azğınlığa sürükləyən, bəşəriyyəti insanlığın əsas əlamətlərindən, yəni ağıl, iradə, məharət və məsuliyyətdən yayındıran hər bir şey

fitnə adlanır. Əgər övlad insanı anlamaqdan, qərara gəlməkdən, iradəli olmaqdan daşındırırsa, insan üçün fitnədir. Əgər mal-dövlət insanı insanlıqdan uzaqlaşdırırsa, fitnədir. Əgər insanın həyatı onu ən böyük məsələlərdən və ali hədəflərdən çəkindirirsə, fitnədir. İnsanı özünə məftun edən və onu haqq yoldan uzaqlaşdıran hər bir şey fitnədir. Qeyd etdiyimiz kimi, Hüseyn ibn Əli (ə) Müaviyəyə yazdı ki, mən səndən böyük fitnə görmür və tanımıram.[1] Ən böyük fitnə sənsən. Çünki Müaviyə bütün insanları haqq yoldan, doğru işlərdən, doğru yolda addımlamaqdan saxlamışdı. Demək, fitnə idi. Fitnələr, fəsadlar ümmətləri qeyri-adi mühasirəyə almışdı Bəzən insan bir səhralıqda yolunu azıb qalır, digər tərəfdən də Allahın yağışı yağmağa və sel yaranmağa başlayır. Təbii ki, insan su arasında qalır. Bu, bir növ fəsaddır. Elə fəsad da var ki, bir insanı şəlalə altında, hər tərəfdən sular axan bir məkanda saxlayırlar (ki, su altında qalsın). Bu növ fəsad qəsdən törədilən fəsaddır. Fitnə-fəsad dalğaları bir insanı və yaxud bir ümməti hər tərəfdən mühasirəyə alır.

Əmirəlmöminin Əli (ə) buyurur ki, besətdən əvvəlki dövrlərdə insanlar əsaslı və şüurlu şəkildə fitnə-fəsadlara məruz qalırdı. Fitnə-fəsad yaradırdılar ki, insanlar anlamaq qabiliyyətini itirsinlər, (məsələn,) insanların başlarını şeir və musiqilərlə qatırdılar, spirtli içkilər və cinsi istəklərin təmini ilə məşğul edirdilər. İnsanları üzərində düşünülməsi lazım olan işlərdən yayındırırdılar.

---

[1] "Məqatilut-talibiyyin."

Baxın, İslamdan öncəki ümmətlərin keçmiş tarixində necə qəribə hadisələr baş verirdi? Hal-hazırda danışa-danışa, zehnimdə, gözümün önündə bir neçə bariz və məşhur nümunə canlanır. Romada baş vermiş güləş müsabiqələri haqqında eşidibsinizmi? O hadisələr adi deyil. Hər neçə gündən və yaxud hər neçə həftədən bir yarış keçirilir və pəhləvanlıq nümayiş etdirmək məqsədilə iki nəfəri bir-birinin canına salaraq dalaşdırır, minlərlə bədbəxt və biçarə insanı da tamaşa üçün meydana toplayırdılar. Yaxud bir pəhləvan öküzlə döyüşə girirdi ki, həmin öküzü öldürsün, ya da qarnını yırtsın. Camaat da ona tamaşa edərək ləzzət alırdı ki, bəh-bəh, nə güclü pəhləvandır! Bəzən də həmin pəhləvan öküzün ayaqları altında qalaraq xurd-xəşil olurdu. Bu yarışların camaata faydası yox idi. Axı, camaat öküz yarışı ilə nə əldə etmək istəyirdi? Pəhləvanların tamaşasına gələn camaat nə əldə etmək istəyirdi? Onların qarınları ac idi. Bu işlə camaat arasında əxlaqi pozğunluqları yayırdılar ki, onlar anlama qabiliyyətini itirsinlər, başları elə qatışsın ki, mövqelərini dərk etməsinlər. Bütün bunlar hesab-kitab əsasında və düşünülmüş şəkildə həyata keçirilirdi. Ərəbistanda da işlər planlı şəkildə yerinə yetirilirdi. Bəli, böyük ölkələr və müstəmləkəçilərin müəyyən mərasim və əyləncələr təşkil edib camaatın başını həmin şeylərə qatmaqda məqsədi bu idi ki, camaat anlamasın, pozulsun, azğınlıqda qalsın.

"**Fitnələr bütün cəmiyyəti mühasirəyə almışdı**", özü də əsaslı və təsirli, əzm və iradələri süstləşdirən, məftun insanları fəsad mərkəzlərinə

çəkib nəfsi istək alovunu şölələndirən və onu əldə etməyi asanlaşdıran fitnələr.

Fitnə-fəsad belədir! Bir gəncin qulağına şəhvəti təhrik edən şeyləri daim pıçıldasan, hey ona təlqin etsən, daim təkrarlasan, ehtiras içində məst olan bu gənci daha da məst-xumar etsən, sonra da onun qabağına bir ehtiras yemi atasan, nə nəticə verər? Siz deyin. Ona ehtiras hisslərini oyadan sözlər danışsan, cinsi istəklərini təhrik etsən, hətta “Bax, bu yaxşıdır, bunları mütləq sənə deməliyəm, cinsi məsələlər və sirlərlə tanış olmalısan, əgər tanış olmasan, geridə qalacaqsan, bu məsələdə məlumatsız olmaq aldanmaq deməkdir!” – kimi sözlərlə yanına fəlsəfə və dəlil-sübut da qoşsan, nəticə belə olacaq. Bu haqda kitablar yazsan, ona uyğun ideya versən, özünəməxsus düşüncə tərzi ilə qadın və kişi, gənc və qeyri-gənclər arasında cinsi istəklərin təhriki məqsədilə kütləvi informasiya vasitələrini onların ixtiyarında qoysan, bu zaman kim ciddi bir iş dalınca getmək istəyər? Kim vaxt tapar? Boynu şəhvət kəndiri ilə möhkəm bağlanmış və düyünlənmiş hansı bir şəxs özünü (bu durumdan) xilas edə bilər? Onun yolu həm enişdir, həm sürüşkən, həm bir nəfər onun boynuna kəndir ataraq üzüaşağı çəkir, həm də arxadan başqa bir nəfər əli ilə möhkəm itələyir. Əgər həmin adam başı üstə kəllə-mayallaq aşsa və aşağıya yuvarlansa, təəccüb edilməməlidir.

“**Əsaslı və məqsədli şəkildə hazırlanmış və şölələnmiş fitnələrə bürünən bir cəmiyyət.**” Dünya belə bir vəziyyətdə yaşayırdı.

## Pərakəndəlik və cəmiyyətlərin müharibə meydanına çevrilməsi

**و انتشار من الأمور**

Başqa bir əlamət bu idi ki, “işlər bir-birinə dəymiş və qarışmışdı.” Xalqlar (gündəlik) zəruri işləri ilə məşğul ola bilmirdilər. Sivil və mədəni bir işə başlamaq istədikdə, uğursuzluqla üzləşirdilər. İqtisadi baxımdan bir iş görmək istədikdə, nakam qalırdılar. Bir işə başlamaq istədikdə, qarmaqarışıqlıq yaranır, maneə ilə üzləşirdilər; bir sözlə, bütün işlər nəticəsiz qalırdı.

**و تلظ من الحروب**

“**Dünya dağıdıcı müharibə alovu ilə şöləl추nmişdi.**”

Şərqlə Qərb arasında, bu iki blokun hər bir guşəsi və məntəqəsində döyüşlər gedirdi. Hər yerdə müharibə odu alovlanır, bu od içərisində günahsız insanlar yandırılırdı. Bəşəriyyətin gördüyü yalnız qılınc və qan idi. Hara baxırdınsa, özgələrin deyil, hətta qardaşların belə, bir-birinin canına düşdüyünü görürdün.

Bəşəriyyət susuzluqdan özünə qısılıb taqətsiz qalan şəxs kimi hər tərəfi bürüyən müharibə odu və alovundan çarəsiz qalmış və özünə qapanmışdı.

## Hidayət nurunun sönməsi, fırıldaqlıq və riyakarlığın aşkar olması

**و الدنيا كاسفة النور**

“**Dünyanın nuru, işığı sönmüş, qürub etmişdi.**”

Dünyada nur və nurun təzahürü qalmamışdı. Bilirsinizmi, dünyada nurun təzahürünün olmaması nə deməkdir? O deməkdir ki, mən, sən və digər bir neçə sadəlövh insanın uzaqdan yer üzünün cənnəti olaraq xəyal etdiyi bugünkü Amerika kimi böyük maddi və texnoloji sivilizasiya məntəqəsində – o utopik cənnətin mərkəzində, göylərə ucalmış göydələnlərin altında, bəşəriyyəti zəncirləyən böyük karxanaların ətrafında cəmiyyətin ən xalis gülləri solmaqda, sarsılmaqdadır.

Amerikanın gənc nəslindən xəbəriniz varmı? Bu haqda mətbuatdan dəqiq statistik məlumat əldə edib sizə məlumat vermək niyyətində deyiləm və Amerikada geroin, LSD və tiryək kimi narkotik maddə istifadəçilərinin dəqiq sayı ilə bağlı statistik rəqəmləri toplayıb sizə deməyə heç hövsələm də çatmaz. Amma bu qədər deyə bilərəm ki, sənaye sivilizasiyasının qucağında doğulan, böyüyüb boya-başa çatan bir gənc gördüyü bu xəyali xoşbəxtlik təcəllisindən ibarət həyatdan qaçır, yaşamaq istəmir. İntihar onun üçün xoşbəxtliyə açılan bir pəncərə kimi asan bir işə çevrilir. Cəsarətli olan kəs intihara əl atır. Cəsarəti olmayanlar da sanki heç nədən xəbəri yoxmuş və xəbərsizmiş kimi özünü ölümcül vəziyyətə salırlar. Elə bu səbəbdən də onlar Yoqa məktəblərinə üz tuturlar. Hind murtazlarının xüsusi rəyazəti və məşqləri kimi çillə keçirirlər; (məsələn,) qırx gün əl-ayağı asılı vəziyyətdə qalırlar. Yoqa həmin hind murtazlarının gördüyü bədən məşqindən ibarətdir. Camaatı rahatcasına aldatmağı bacaran bir qrup hiyləgər və fırıldaqçı insan bu məşqləri

məktəbə çevirmiş, Amerika bəyənən bir hala salmışdır. Bir qrup gənci bir yerə yığıb diqqətlərini mənalara, ruhi və cismani məşqlərə yönəltməklə beyinlərini yuyurlar. Bu isə bir millətin bədbəxtlik əlamətidir. Bu onu göstərir ki, bu millətin həyat üfüqündə o qədər günəşlər batıb və o qədər çıraqlar sönüb ki, közərən bir şam da onların ürəyini ələ alır. Bir səs ucalan kimi, bir dəstə onun ətrafına toplaşır. Çünki nur yoxdur, günəş və aydınlığa doğru bir yol yoxdur. Əyri və batil bir yol tapdıqda, onu düz yol hesab edirdilər. Gecə qaranlıqda pərvanələrin işıq ətrafına toplaşdığını görübsünüzmü? Bu pərvanələr işıq gördükdə, onu gündüzə açılan bir pəncərə güman edirlər. Elə təsəvvür edirlər ki, bu pəncərə sonsuz fəzaya gedib çıxacaq. Odur ki, pəncərəyə doğru hərəkət edirlər. Onlar buranı pəncərə, keçid hesab edirlər. Başa düşmürlər ki, oddur. Dünyanın ümid bəslədiyi bir nəsil uzaqdan bir közərti görəcək, ona doğru zillənir, onu nəsə hesab edir. Buna görə də pərvanə tək ona tərəf yollanaraq özünü yandırır, tələf edir və həyat sərmayəsini əldən çıxarır.

**ظاهرة الغرور**

“**Dünyanın tovlama və aldatmaları aşkar olmuşdur.**”

Ərəbcədəki “ğurur” sözünün mənası nədir? “Ğurur” sözü “aldatmaq”, “fırıldaq gəlmək” mənasını verir. Dünyada aldatmalar, riyakarlıqlar, ikiüzlülüklər artmışdır. Bu sözü öz dilimizdə tərcümə olunan “qürur” sözü ilə səhv salmayın. Aldatmaq və fırıldaq gəlmək bugünkü dünyanın aşkar əlamətidir. Aldatmaq, riyakarlıq və ikiüzlülükdən söz düşdükdə, insanın zehni müəyyən

bir təbəqə və zümrəyə yönəlir. Halbuki cahiliyyət dünyasında – din və hidayət nuru, ilahi məktəb, İslam və Quran nurunun söndüyü bir dünyada bütün fenomenlər aldatmaq, riyakarlıq və ikiüzlülüklərdən xəbər verir. Dünyada dilində bəşəriyyətə məhəbbət, qəlbində isə insan hüquqlarından danışıb kin bəsləyən nə qədər hegemon qüdrət var? Əlindəki bıçağı insanlığın qəlbinə sancmaq istəyən, lakin dodağında insanlığın üzünə təbəssüm edən nə qədər insan var? Sizcə, dünyada baş vermiş böyük müharibələrdə bəhanə nə idi? Bir supergüc ordusu ilə öz torpağından minlərlə kilometr uzağa gedib öz əsgərləri ilə birgə döyüşə başlayır. Sizcə o, tribuna arxasından mikrofonla "Mən oraya öz gücümü göstərmək, zor tətbiq etmək üçün getmişdim!" – deyərmi? Yəni, deyərmi ki, mən boynuyoğunluq və zorakılıq etmək üçün getmişdim? Xeyr, deyəcək ki, oranı fəth etmək üçün getmişdim. Deyəcək ki, gedib oranı haqsızlıqlardan, ictimai fəsad və bədbəxtliklərdən qurtarmaq istəyirəm. Sözləri budur.

Aldatmaq və riyakarlıqlar ürəyindədir, dilindədir, əməlindədir, güclünün əlindədir, dodağında və gözəl gülüşündədir! Fərq bu qədərdir! Aldatmaq və riyakarlıq cahiliyyət dünyasının açıq-aşkar fenomenidir.

## İnsanlıq fidanının solması və onun səmərə verməyəcəyindən məyusluq

على حين اصفرار من ورقها

**“İnsanlıq fidanının yarpağı solmuş, saralmışdı.“**

Haçan yaşıl bir fidanın yarpağı solub-saralır? Yarpaqları yamyaşıl olmuş bir ağac quruyarkən, ona baxdıqdan sonra çıxaracağınız nəticə nədir? Nəticə budur ki, bu ağacın meyvə verməsinə ümid etmək olmaz. Bəşəriyyət o zaman belə idi. Yarpaqları tökülməkdə olan, sarı və solğun bir ağacdan meyvə gözləmək mənasızdır, yəni insanlıq və həyat fidanından əsla ümid gözlənilmirdi. Əgər o zaman bir kəs dünyanın böyük ümmətlərinə ümid gözünü dikmək, böyük xilaskar qüdrətlərin zənginə, səsinə qulaq vermək istəsəydi, onda, intizar yuxusunda ikən əbədi ölümə məhkum olmalı idi. O zaman insanlıq səmərəli ola bilməzdi. İnsanlığı xilas etmək qeyri-mümkün idi. Çünki insanlıq fidanının yarpaqları saralıb solmuşdu, tökülməyə az qalmışdı.

**و إياس من ثمرها**

**“Meyvəsindən bəhrəsiz qalmışdılar.“**

İnsanlıq fidanının meyvə verəcəyindən ümidlərini üzmüşdülər.

**و اغورار من مائها**

**“Suları qurumuşdu.”**

Bəşəriyyət və insanlığın həyat mənbəyi olan su bulanıq olmuşdu. İnsanın həyatı sudan asılıdır. Əldə su olmazsa, yaxud əldəki su çirklidirsə, insan susuz şəkildə yaşamağa tab gətirməz. Cahiliyyət dövrünə hakim vəziyyət belə idi. Əlbəttə, təkrar-təkrar xatırlatmışam, yenə də deyirəm, cahiliyyət Peyğəmbərin (s) zühur etdiyi müəyyən bir məntəqəyə xas deyil. Elə cahiliyyət deyən kimi, zehninizə Kəbə evi, orada yerləşdirilən bütlər,

Məscidül-Həram, Məkkə və Taif şəhərləri gəlməsin. Orada da cahiliyyət var idi, lakin oranın cahiliyyətindən daha böyük, daha çirkini bütün dünyaya hakim cahiliyyət idi. Mədəniyyət sahəsində irəlilədikcə, cahiliyyətləri ona nisbətdə daha da artır, daha da təhlükəli olurdu.

## İnsanlar arasında hidayət nişanələrinin aradan qalxması və zəlalət əlamətlərinin aşkar olması

**قد درست منار الهدى**

“**Hidayət vasitələri, yol göstərən bayraqlar unudulmuş, tərk olunmuşdu.**”

Bəşəriyyət müəllimsiz qalmışdı. Onun əlindən tutub həyatın dolanbac yollarından asanlıqla keçirən mehriban müəllim yox idi. Dəniz səfərində olanların azmaması və yolu tapması üçün böyük qüllələrin təpəsində quraşdırılan çırağa “mayak” (mənar) deyilir. Günümüzdəki mayaklar həmin məqsədi izləyir. Görəsən, insanlığın mayakı, yolgöstərən vasitə və çırağı nə idi? Alov tək şöləlnən bəzi kəslərin özləri yansa da, bəşəriyyətə bələdçi və yolaçan olurlar. O zaman insanlar arasında daha belələrindən xəbər yox idi. Fədakar, agah və bəşərin hidayəti ilə məşğul olan bir insan ictimai arenada görünmürdü.

Camaatın uzaqdan baxıb tapdığı yolun izləri aradan getmişdi. Bəzən bir məktəbin qayda-qanunları və bir ideologiyaya əməl olunmasa da, külliyyatı, hökmləri, metod və prinsipləri əlçatandır, bəziləri onların vasitəsilə yolu tapırlar. Bəzən də

həmin qayda-qanunlar tamamilə əldən çıxır, təhrifə məruz qalır, aradan gedir. Sözügedən ifadə buna işarədir:

“**Hidayət vasitələri, yolgöstərən bayraqlar tərk olunmuşdu.**”

**و ظهرت أعلام الردى**

“**(Onun müqabilində isə,) azğınlıq, alçaqlıq və həlakət əlamətləri və bayraqları aşkara çıxmışdı.**”

Dünyanın hər yerində insanlara bir zalım padşah hökmranlıq edir, onları azğınlığa sürükləyirdi. Dünyanın hər bir məntəqəsində azdıran şeytan şeytanlıq əli və zəhərli pəncəsi ilə bəşəriyyətin boğazını sıxır, bəşəriyyəti azdırırdı. Dünyanın harasına baxsaydınız, onların nümunəsini görərdiniz. Rumda, Sasanilər dövründəki İranda, Nəcd ölkələrində və Ərəbistanda – dünyanın hər bir məntəqəsində belə azğınlıq, alçaqlıq və bədbəxtlik nişanələri gözə çarpırdı.

## Dünyanın insanlardan üz çevirməsi

**فهي متجهمة لأهلها عابسة في وجه طالبها**

“**Dünya, dünya əhlinə üzünü turşutmuşdu.**”

Bu ifadə çox maraqlı bir ifadədir. Dünya dünya əhlinin müqabilində bir sədd çəkmiş və onu istəyənlərə qaş-qabaq sallamışdı. Bu nə deməkdir? O deməkdir ki, ümmət və millətlər siyasi hədəflərini, qayələrini və ehtiyaclarını unutmuş, qulaqardına vurmuş, ən yaxın dünyəvi hədəflərə bel

bağlamışdılar. Onlar heç bu yaxın hədəflərə də çata bilmirdilər. Onlara "Öz cəmiyyətinin ümumi islahı haqqında düşün!" – deyildikdə, bu yolda azacıq belə zəhmət çəkmək istəmir, yalnız düşüncəsi yeyib-içib yatmaq, ölməmək, hər şeydən çox öz ehtirasını və nəfsi istəklərini təmin etmək, onlara çatmaq idi. Maraqlı burasındadır ki, bunlara da rahatlıqla nail ola bilmir və bu yolda da çətinliklər və əziyyətlərlə üzləşirdi. Dünya öz əhli müqabilində üzünü turşutmuş, qaş-qabaq sallamışdı, əlləri öz dünyalarına belə çatmırdı. Doğrudan da qəribədir! İnsan Əmirəlmöminin Əlinin (ə) bu cümləsini obyektiv araşdırmalarla uzlaşdırsa, tarixə və dünyaya obyektiv nəzər salsa, xalqların həyatını görə və anlayıb dərk edə bilsə, o zaman dünyanın öz əhlinə üzünü turşutmasının nə demək olduğunu başa düşəcəkdir.

**ثمرها الفتنة**

"**Bu dünyanın o zamanda yeganə meyvəsi fitnə idi.**"

Hər gün bu dünyanın acı və zəhərli bağında yeni "fitnə" adlı bir meyvə yetişirdi. Şeytandan soruşdular ki, camaatı necə ovlayırsan? Bir ovuc ip göstərib dedi: "Bunlarla." Soruşdular: "Bunlar nədir?" Dedi: "Bu ip filan təbəqənin, bu, filan zümrənin, bu da filankəsin boynuna atmaq üçündür." Soruşdu: "Bəs mənim ipim hanı?" Dedi: "Sən ipsizsən, sən özün ardımca gəlirsən, sənin ipə ehtiyacın yoxdur." Müxtəlif iplər və kəndirlər ipə və kəndirlərə ehtiyacı olanlar üçündür və bir işarə ilə gələnlər ip istəməzlər. Kiçik bir bəhanə ilə azanlar və yoldan çıxanlar barəsində zəhmət çəkməyə,

boyuna kəndir atmağa ehtiyac olmur, onlar üçün xərc çəkmək əbəs, qəm-qüssə yersizdir. Onlar bir göz vurmaqla belə gəlirlər, ipsiz də gəlirlər. İp və kəndirlər sümükləri möhkəm, boyunları yoğun, qəlbləri böyük və iradələri güclü onlara məxsusdur; qarşısına pul atılır, (dünya malı ilə) ələ alınır, təhdid edilir, növbənöv aldadıcı vasitələr səhifə tək daim gözlərinin önündə vərəqləndirilir, daim müxtəlif səhnələr göstərilir, gözlərinin qarşısında saxlanılır ki, görsün və qəlbi ona əsir olsun. İnsanı özünə məftun və sərxoş edən, gicəlləndirən, yoldan azdıran və özündən qafil edən hər bir şey "fitnə"dir.

"**Cahiliyyət dünyasında əldə edilən meyvə yalnız fitnə idi.**"

Baxdıqca, iti nəzərlərlə irəlilədikcə fitnə – fitnə sahəsi, fitnə fidanı, fitnə meyvəsi və fitnə məhsulu görürsən, hamısı da azğınlığa sürükləmək, hamını qafil etmək, hamının başını qatmaq, hamını böyük hədəflərdən saxlamaq və yayındırmaq üçündür.

**و طعامها الجيفة**

Cahiliyyət dövründə bu dünyadan əldə olunan şeylər nə idi? Əldə olunanlar murdar şeylər idi. İnsanın əldə etdiyi çirkinlik idi, qazandığı pul da, sahib olduğu vəzifə də çirkin idi, hər bir şey murdar idi. İnsanın qazandığı pul və o pulla alıb yediyi çörək sələm idi, başqasının haqqı idi, zorakılıq idi, məzlumların və Allahın haqqı idi. Zəifləri əzmək və öldürməklə vəzifə, titul və şəxsiyyət qazanılırdı. Ehtirama layiq olmayanlara ehtiram göstərilirdi, möhtərəm insanlara hörmətsizlik olunurdu. Yalan var idi, riyakarlıq var idi, aldatmaq var idi, hiylə və

fırıldaqlıq var idi. Bunlar azdırmı? Belə pul, belə vəzifə murdar, çirkin, alçaqlıq deyilmi? Cahiliyyət dövründə – İslamın həbs olunduğu dünyada Allahın nuru işıq saçmaz...

**و شعارها الخوف و دثارها السيف**

“**Şüarı qorxu, yolları qılınc yolu idi.**”

Belə bir dünyanın alt paltarı qorxu, üst paltar isə qılınc idi (yəni, batin qorxu, zahir isə qılıncdan ibarət idi). Ərəblər alt paltara və bədənə yapışan hər bir libasa “şiar”, üst paltara – sizin pencəyiniz, mənim isə qəbama “disar” deyirlər. Cahiliyyət dövründə insanların alt paltarı qorxu idi. Kimə yaxınlaşırdınsa, qorxduğunu görürdün. Hər kəs bir şeydən qorxurdu; biri qırmancdan, biri qılıncdan, biri malını-vəzifəsini itirməkdən, digəri yoxsul olmaqdan, başqası qərib-kimsəsiz qalmaqdan qorxurdu. Biri qüdrətdən, digəri isə qüdrətə çatmaqdan qorxurdu. Qüdrəti olmayan qüdrətlidən qorxurdusa, qüdrətli də özü-özündən xoflanır, qorxurdu. Hamı qorxurdu. Zəiflər elə düşünməsin ki, cahiliyyət dövründə yalnız zəiflər qorxurdu, bilin ki, (o zaman) güclülər də qorxurdular. Hicran yaşayan insanın qorxusu olmaz, çünki vüsala ümidi var. Vüsala çatmış insan isə, daim hicran nigarançılığını yaşayır. Qüdrəti olmayan qüdrətlidən qorxsa da, ən azından qüdrəti əldən vermək qorxusu yoxdur, qüdrətin mərkəzində olan isə qüdrətini itirməkdən qorxur, sanki Əzrail onun boğazından yapışıb sıxır.

“**Şüarı qorxu!**”

Belə bir cəmiyyətin təməli, onun gizli dalğası qorxudur. Belə bir cəmiyyətdə hamının yaxasından asılan qorxudur. Amma bu qorxu zahirdə

görünürdümü? Xeyr! Alt paltar görünmədiyi kimi, o da görünmür, daxilən qorxsa da, öz qorxusunu üzə çıxarmır. Qüdrətdən qorxan şəxs "Mən qorxuram!" – sözünü dilinə gətirmir, əksinə qorxusuna hakim kəsilmək üçün özünə bəhanə və dəlil-sübut uydurmağa çalışır. Məsələn, filan yerə getməlidirsə, qorxusundan getmir. Demir ki, qorxuram, amma deyir ki, getmirəm, işim var. Qorxusunu gizlədir. Qüdrət sahibi də qorxur, amma qorxusunu gizlədir, necə ki, alt paltarı gizlidir. Əlinə qılınc alıb qışqırsa da, "Öldürərəm, kəsərəm, doğrayaram!" – deyə fəryad etsə də, qorxusunu bu qışqırtılar altında gizli saxlayır. Şüarı qorxu olsa da, yolu qılınc yoludur. Belə (qorxaq) cəmiyyət və belə həyatın başı üstündə qılınc var idi. Görünən və gözə dəyən qılınc, baxıb gördüyün isə qəzəb və əsəb qüvvəsi idi. Əbu Süfyan, Vəlid ibn Müğeyrə Məxzumi və yaxud Qüreyşin digər rəhbər və böyükləri müqabilində dik durmaq olardımı? Dünyanın böyük ölkələri, Ərəbistanın iki hegemon və qüdrət sahibi olan qonşusu[1] müqabilində kimsə özünü və öz varlığını göstərə bilərdimi? Bu, mümkün idimi?

"**Yolları qılınc!**"

Yəni hər yerdə hegemonluq, hər yerdə qoluzorluluq, hər yerdə güclü fəryadlar, hər yerdə boş və puç təbil səsləri, hər yerdə mənasız silahlar...

---

[1] İran və Rum imperatorluğu.

# 4

# ƏHLİ-BEYT (Ə) HÖKUMƏTİNİN TƏYİNATI[1]

**Bağışlayan və mehriban Allahın adı ilə!**

**أما و الذي فلق الحبة و برأ النسمة لو لا حضور الحاضر و قيام الحجة بوجود الناصر و ما أخذ الله على العلماء أن لا يقاروا علىكظة ظالم و لا سغب مظلوم لألقيت حبلها على غاربها و لسقيت آخرها بكأس أولها و لألفيتم دنياكم هذه أزهد عندي من عفطة عنز**

Əmirəlmöminin Əlinin (ə) bu mühüm xütbəsinin ən parlaq cümlələrindən biri də bu cümlədir və "Şiqşiqiyyə" adlı xütbənin son bölümünün davamıdır. Nəzərimcə, o Həzrət Əhli-beyt (ə) hökumətinin, başqa sözlə, Ələvi və islami hakimiyyətinin əsas istiqamətlərini tam şəkildə anlatmaq üçün bu cümlələri zehinlərə həkk etdirmişdir. Həmçinin tarix boyu həqiqi İslam hakimiyyəti uğrunda fədakarlıq göstərən və mübarizə aparan insanların necə də böyük və dəyərli hədəf yolunda fədakarlıq edərək mübarizə

---

[1] "Şiqşiqiyyə" xütbəsinin bir qisminin şərhi –06/09/1974.

apardıqlarını göstərmişdir. Görəsən, hökumətə rəhbərliyi öhdəsinə götürmüş Əmirəlmöminin Əli (ə) kimilər hansı məqsədləri izləyirdilər? Görəsən, şiə tarixi boyunca Ələvi hakimiyyətini şüar olaraq tanıtdıranlar bu şüar altında hansı böyük hədəfi diqqət mərkəzində saxlayırdılar? Bu cümlələr bizə başa salır ki, İslam tarixində Əmirəlmöminin Əlinin (ə) adı ilə yaranan bu cərəyan – şiə cərəyanı əgər o Həzrətin rəqiblərindən üz döndəribsə, həqiqətdə, nədən üz döndərib. Həzrət Əlinin (ə) rəhbərliyini isbat edib son nəfəsinə kimi bu sözün üstündə dayananlar, həqiqətdə, nəyi isbat etmiş və hansı hədəfi göz önündə canlandırmışlar?

## Əmirəlmöminin Əlinin (ə) hədəflər uğrunda düşmənlərlə mübarizəsi

Adətən, belə yanlış bir təsəvvür yaranmışdır ki, guya şiə tarixi və şiə dünyasında bir-birinə əks – biri haqq, digəri isə batil olan iki zümrə və iki cərəyan bir-biri ilə mübarizə aparmışdır. Yəni, bu iki zümrə arasındakı müharibə də şəxslər və fərdlər arasında gedən müharibədən ibarətdir və şiə təsəvvürünə əsasən, şiələr Əmirəlmöminin Əli (ə) ilə xilafət məqamı üstündə döyüşən müəyyən şəxslər və fərdlərlə mübarizə aparırlar. Halbuki bu cümlələr o Həzrətin hökumətinin istiqamət prizmasını bizə aşılayır. Həqiqətdə, bizə başa salır ki, tarixdəki mübarizələr yalnız şəxslər arasında deyil, müəyyən hədəflər və məqsədlər uğrunda gedir.

İmam Sadiqin (ə) şiəsi – o Həzrətin dövründə yaşayan şəxs şiədirsə, onun şiəliyinin mənası odur

ki, o, öz həyatını Əmirəlmöminin Əli (ə) ilə başlanılan cərəyan və yola həsr etmiş və Əmirəlmöminin Əlinin (ə) rəqiblərinin vasitəsilə təsis edilən cərəyan və yoldan özünü ayırmış və fərqləndirmişdir.

Həqiqətdə, İmam Sadiqin (ə) dövründəki şiənin döyüşdüyü şəxs Müaviyə deyil, Mənsur Abbasi və Mərvan Himardır. Onlar da mübarizə aparılası başqa qəliblərdir, əgər həmin qəlibi təhlil edib araşdırsaq, onda, "Müaviyə" adlı qəlibin içində eyni ruh görünəcək. Bu sıranın əvvəl və sonuna baxsanız, fərdlər bir-birindən fərqlənsə də, hətta bir-birinə əks (sırada) olsalar da, onların ruhiyyəsi birdir; Bəni-Üməyyə ilə Bəni-Abbasın fərd və şəxsləri bir-biri ilə döyüşsələr də, hər ikisinin təfəkkür və qayəsi batildir. Bəni-Üməyyə, ya da Bəni-Abbas zamanında olub-olmamasının İmam Sadiq (ə) üçün heç bir fərqi yoxdur, çünki onun yolu birdir, haqqı müdafiə, Quranı himayə etmək və bu yolun qarşısında səf çəkənlərlə mübarizə yoludur. İstər Bəni-Üməyyə, istər Bəni-Abbas, istər Mərvan Himar, istərsə də Mərvan Himarın qatili Əbülabbas Səffah olsun. İmam Sadiqin (ə) getdiyi yol digər yolların, xüsusən də, onun yoluna əks olanların inkarını tələb edir. Şiəlik budur. Məhz bu səbəbdən də Bəni-Üməyyənin zamanında şiəlik və şiə imamlarına endirilən zərbələr Bəni-Abbasın zamanında davam etdi. Bəni-Üməyyənin dövründə yaşayan imamların taleyi ilə Bəni-Abbasın zamanında yaşayan imamların taleyi arasında iynənin ucu qədər də fərq yoxdur. Yəni, Kərbəla hadisəsindən sonra, ikinci növbədə İmam Səccadı (ə) da zəncirləyərək Mədinədən Şama çəkib

aparır və orada həbs edirlər, İmam Baqiri (ə) də Şamda həbs edirlər. İmam Səccad (ə) və İmam Baqirin (ə) dövründəki hakimiyyət nümayəndələrindən tamamilə fərqlənən başqa hökumət rəhbərlərinin zamanında İmam Musa ibn Cəfəri (ə) də Mədinədən Bağdada aparıb orada və digər şəhərlərdə həbs edirlər. Tale bir, yol bir, iş bir, düşmən bir, hədəf bir və şiəlik birdir.

Şiəliyin tarixi düşməni yoxdur. Onun tarixi düşmənləri şiəlik yolunu kəsdikləri üçün "şiəliyin tarixi düşmənləri" kimi tanıtdırılmışlar. Buna görə də, şiəlik hədəflərinə müxalif olaraq yaşadıqlarından şiə dünyası tərəfindən lənətlənmiş və tərk olunmuşlar. Şiənin böyük rəhbəri Əmirəlmöminin Əli (ə) və onun yolunu gedən bütün ardıcılları fərdlə mübarizə aparmamışlar. Onların bir yolu, bir hədəfi olmuş və həmin yol və hədəf uğrunda addım atmışlar. Bu yolda olanlar onlardan, əksinə hərəkət edən və fəaliyyət göstərənlər isə düşmənlərdən sayılıblar. Onların adı və məqamının, hansı təbəqə və mövqedə olmasının, Bəni-Üməyyə, yaxud Bəni-Abbasdan, Osmani xəlifələrdən, onlardan qabaq və ya sonrakılardan olmasının heç bir önəmi yoxdur. Hər halda, Allah yoluna müxalif olan hər kəs şeytandır.

## Müsəlman xalqının Ələvi hökumətinə ehtiyacı

Əmirəlmöminin Əli (ə) bu cümlələrdə xas ifadə, lakonik bəyan və kinayələrlə Ələvi hökumətinin

istiqamətlərini aydınlaşdırır. Dövrün hakiminin haqsızlıq və zülmkarlıqları müqabilində müsəlman cəmiyyət qəzəblənərək yumruq tək birləşdikdən sonra, İslam tarixində ilk dəfə dövlət rəhbərinin qətli baş verdi. Quran oxuyan və Qurana ehtiram edən müsəlmanlar xəlifəni Quran oxuduğu halda öldürdülər və bunu "qürbət qəsdi" ilə (Allaha xatir) yerinə yetirdilər. Birdən-birə bütün İslam dünyası – istər mərkəzə yaxın olanlar, istərsə də uzaq şəhər və məntəqələrdə yaşayanlar – xilafət dəvəsini mütləq Əmirəlmöminin Əli ibn Əbitalibin (ə) evində yatıracağını qərara aldı.

Bu susuz, zəif və halsız bədən – islami cəmiyyət – gözlənilmədən hansı fenomenə, hansı rəhbərə, hansı böyük insana möhtac olduğunu hiss etdi. Xalqın ayıqlığı, İslam ümmətinin ictimai və islami düşüncə və şüuru münasib vəziyyətə yetişdi, öz (həqiqi) rəhbərini tanıya bildi. Əgər bunu əvvəldə şəxslə tanıya bilmirdisə, indi şəxsiyyət sayəsində tanıya bildi.

Müsəlman xalqı 12 yaşında ikən sosial təbəqələşmədən, Osmanın qohumbazlığı və ayrı-seçkiliyindən gördüyü zərərləri, İslam cəmiyyətinin başında dayananların İslamın müqəddəs məsələlərini müdafiə etməkdə aciz olduqlarını, müsəlman xalqının zaman ötdükcə məhrumiyyət, nakamlıq, pərakəndəlik və fəsadla üzləşdiyini, onları səadət və qurtuluşa yetirə biləcək bir rəhbərə ehtiyac duyduğunu hiss etdikdə, ümmətdə azacıq irəliləyiş, şüur və ayıqlıq yarandı.

O zaman Quranın özü, dinin aydın və həqiqi mətni ona rəhbərin kim olmalı olacağını deyir.

Belə bir şəraitdə, qəfildən, bütün İslam ümməti Həzrət Əlini (ə) istədiyini, o möhkəm iradəyə möhtac olduğunu hiss etdi. Cəmiyyətə rəhbərlik baxımından o, güclü və böyük qəlbə, geniş ruha malik, heç kəsdən çəkinməyən, öz tayfası, qohumları və yaxın dostlarına tərəfbazlıq etməyən, nə dostluq, nə də qorxu səbəbi ilə əsla məsuliyyətdən boyun qaçırmayan biri idi. Cəmiyyət də İslamın belə böyük şəxsiyyətinə ehtiyacın zəruriliyini duydu.

Belə böyük və əzəmətli şəxsiyyətin cəmiyyət arasında yaşadığını, həqiqi rəhbərin kim olduğunu anladıqda, Həzrətin özünün buyurduğu kimi, bu zaman camaat onun evinin ətrafına axışdı:

**حتى لقد وطئ الحسنان**

“**Hətta Həsənlə Hüseyn ayaq altında qaldılar.**”[1]

Bunu ötən həftələrdə oxuyub tərcümə etmişdim. İndi isə davamını oxuyuram. Əmirəlmöminin Əli (ə) müsəlman xalqının ümumi xahiş və tələbi ilə qarşılaşdıqda, xilafəti qəbul etdi.

İmamın (ə) öz ifadəsi ilə desək, xilafət vadisindən – bu ilahi məqam və vəzifədən, hakimiyyətdən 25 il uzaq yaşadıqdan sonra, birdən xilafət ona təqdim olundu. Halbuki İslam cəmiyyətinin birinci şəxsi olaraq həmin cəmiyyətdə, Quran hökmünü qüdrətlə tətbiq edə bilmədiyi keçmiş günlərdə 25 il Əmir kimi yox, müşavir qədərində rəiyyətin bir üzvü kimi həyat sürmüşdü. Yalnız zərurət zamanı hakim təbəqəyə yardım əlini uzatmış, onları azğınlıq və büdrəmələrdən uzaqlaşdırıb haqq yolu onlara göstərmişdi. Onları himayə etdiyi, hətta öz evində

---

[1] “Nəhcül-bəlağə”, xütbə 3.

bir saat belə rahat oturmadığı, ictimai fəaliyyətdən kənar qalmadığı, İslam cəmiyyətinin sıravi bir üzvü olduğu, işini ciddiyyət və məsuliyyətlə gördüyü bu müddətdən (25 ildən) sonra, indi xilafət ona təqdim olundu və o da xilafəti qəbul etdi.

Ey Əmirəlmöminin (ə), xilafəti niyə qəbul etdiniz? Siz 25 il zülmə məruz qaldıqdan, bu səhifəni səlis xətlə yaza bilməyənlər onu pis xətləri ilə qaraladıqdan, rəhbər və vəzifə sahiblərinin acizliyi nəticəsində cəmiyyəti tənəzzülə uğratdıqdan və yaxud onu uçurumun kənarına sürüklədikdən sonra, nə səbəb oldu ki, ömrünüzün bu son illərində İslama rəhbərlik vəzifəsini qəbul etdiniz?

Nə üçün, yenə rəiyyətin bir üzvü kimi yaşamaq istəmədiniz? Olmazdı ki, Təlhə, Zübeyr, Abdullah Ömər və başqa-başqa adamlar hökumət və rəhbərliyi ələ alsın, siz də onlara kömək edəsiniz? Mövlamız Əmirəlmöminin (ə) bu sualı cavablandırır və bu cavabda öz hökumətinin məqsədlərini və çəkdiyi ağır zəhmətinin əsas fəlsəfəsini bəyan edir.

## Əmirəlmöminin Əlinin (ə) nəzərində hökumətin dəyərsizliyi

Həzrət buyurur ki, mən qüdrət və hökuməti dünya bəzəyi olduğu üçün sevmədim, qüdrət və hakimiyyət üçün ürəyim döyünmədi, qüdrəti əsas hədəf və məqsəd seçmədim, hökumət mənim üçün həyatın gözəl bərbəzəyinə çevrilmədi.

Ey dünyanın ən kiçik qüdrəti və ən dəyərsiz məqamı üçün öz böyük dəyər və şərafətinə göz yuman qafil insanlar! Ey həyatda vəzifə, qüdrət və şöhrəti hədəf seçənlər! Əlini (ə) öz sıranıza qatmayın! Onun nəzərində İslam cəmiyyətinə hakimiyyət, dünyanın şərq və qərbindəki milyonlarla müsəlmana rəhbərlik olduqca dəyərsizdir. Fikirləşdiyiniz və təsəvvür etdiyiniz qiymətdən də aşağı və kiçikdir. Yalnız o böyük qüdrət deyil, hətta bütün dünyanı İslam cəmiyyətinə əlavə edib Əmirəlmöminin Əliyə (ə) versəniz belə, o Həzrətin nəzəri və geniş ruhiyyəsində, bu böyük insanın dərin düşüncəsində onun qiyməti təsəvvür etdiyinizdən də qat-qat aşağıdır. Keçi və yaxud qoyun sürüsündəki soyuqlamış xəstə bir keçini nəzərdən keçirin! Dünyanın bütün qoyunlarının qiyməti nə qədər olar? Dünyanın bütün keçilərinin qiyməti nə qədər olar? Bütün bunların arasında soyuqlayıb xəstələnən və asqıraraq burnundan iyrənc və çirkli su gələn bir keçi neçəyə satılar? Keçinin öz qiyməti neçəyədirsə, onun burun suyu neçəyə olar? Görün, Əmirəlmöminin (ə) məsələni necə canlandırır? Bütün bu böyük qüdrət və hakimiyyət o Həzrətin nəzərində xəstə bir keçinin burnunun suyundan da dəyərsiz, kiçik və əhəmiyyətsizdir; yəni dünyaya və ondakı hakimiyyətə verilən qiymət sıfır, hətta sıfırdan da aşağıdır. Əmirəlmöminin (ə) bu məsələdə qeyri-səmimilik göstərmirdi:

**لألفيتم دنياكم هذه أزهد عندي من عفطة عنز**

“**Bilirsiniz ki, sizin bu dünyanız mənim üçün keçinin burnunun suyu qədər dəyərsizdir.**”

İnsanların öyündükləri və sizin də öyündüyünüz bütün bu dünya, bütün bu vəzifə və qüdrətlər, qardaşı qardaş canına salan, xalqları qırğına verən həyatın cəlbedici və cazibədar zinətlərinin hamısı, insani dəyərlərin məhvinə səbəb olan bütün bu (maddi) maraqlar Əmirəlmöminin Əli (ə) kimi bir insanın əməlində, hətta təsəvvür və təfəkküründə keçinin burnunun suyundan daha dəyərsizdir.

Buna rəğmən, Əli (ə) xilafəti qəbul edir. "Mariqin" dəstəsi üsyan bayrağı qaldırdıqda, onlarla döyüşür, həyatının dörd il doqquz ayını həmin qüdrət və hökumətin müdafiəsinə vəqf edir. Nə üçün? Axı bu hökuməti niyə qəbul etdiniz?

## Rəhbərliyi qəbul etməsinin üç səbəbi

**1. Camaatın tələbi və o Həzrətin rəhbərliyi üçün ətrafında toplanması**

Əmirəlmöminin (ə) üç səbəb qeyd edir və buyurur:

**لو لا حضور الحاضر و قيام الحجة بوجود الناصر و ما أخذ الله على العلماء أن لا يقاروا على كظة ظالم و لا سغب مظلوم لألقيت حبلها على غاربها**

**"Əgər böyük bir cəmiyyətin ətrafımı alıb mənə beyət etmək məqsədilə qiyamı (toplanması) və bu cəhətdən mənə höccətin tamamlanması, Allahın (hər cəmiyyətdə) alimlərdən, tox zalımlar və ac məzlumlar qarşısında susmamaqla bağlı aldığı əhdi (və boyunlarına qoyduğu məsuliyyət) olmasaydı, xilafət dəvəsinin yüyənini boşlayar və ondan əl çəkərdim..."**

Həzrət üç səbəbi ardıcıllıqla sadalayır; birincisi, camaatın qiyamı və iştirakıdır. Müsəlman cəmiyyətinin böyük izdihamı və şahidliyi ilk səbəbdir. İnsanlar istədikdə, Allahın hər birinə ayrı-ayrılıqda qiymət verdiyi minlərlə varlıq və xalq tələb etdikdə, istədikləri də gerçəkləşir. Bu bir prinsip və qanundur. İnsanların və müsəlman cəmiyyətinin nəzərinin əhəmiyyətsiz olduğunu deyənlər yanılırlar.

**لو لا حضور الحاضر**

“**Əgər camaatın (mənə beyət etmək) məqsədi ilə qiyamı (toplanması) olmasaydı...**”

Camaat gəlib ətrafıma toplaşdığı, mənə beyət etmək və hakimiyyəti qəbul etməyimi istədiyi üçün mən də hakimiyyəti qəbul etdim. Çünki gəldilər, istədilər və mən də qəbul etdim. Əlbəttə, olduqca mühüm bu mətləb bir qrup məlumatsız insanın azğın istəyinə müsbət cavab verməklə səhv salınmasın. Əmirəlmöminin Əli (ə) və Peyğəmbəri-Əkrəmin (s) Əhli-beyti (ə) göstərdi ki, haqqı bilib tanıdığı vaxtdan bütün insanlar haqdan üz çevirsələr də, onları heç vaxt haqdan döndərə bilməmişlər. Bunu başqa məsələlərlə qarışdırmayın. Amma ayıq və qətiyyətli bir millətin, düzgün meyarlar əsasında bir hədəf və istəyin gerçəkləşməsini tələb edən bir qrup müsəlman xalqın rəyi, fikri, qərarı və istəyi Əmirəlmöminin Əlinin (ə) nəzərində möhtərəm və keçərlidir.

**2. Silah və köməyin olması:**

**و قيام الحجة بوجود الناصر**

Mənə indiyə kimi Quran və İslamın müdafiəsi uğrunda yardım edən olmayıb. İndiyə kimi əlim qısa

və səlahiyyətlərim məhdud olub. Bu gün isə əlimin silahlı və güclü olduğunu hiss etdim, gördüm. O günə qədər Əmirəlmömininin (ə) haqqı kamil bir ciddiyyət və qətiyyətlə müdafiə edə bilmirdi. Amma müdafiə edə biləcəyini hiss etdikdə, bir an belə dayanmadı. Əmirəlmömininin Əlinin (ə) zamanındakı Müaviyə elə Osmanın da zamanındakı Müaviyə idi. Əmirəlmömininin Əlinin (ə) dövründə Müaviyənin Şamda yerinə yetirdiyi günahlar elə Osmanın dövründə neçə illər boyunca etdiyi günahlar idi. O gün Əmirəlmömininin Əli (ə) bu günahın müqabilində dillənmədi, çünki onun əlində silah (imkan və qüdrət) yox idi. Əlinə silah düşdüyü zaman ona qarşı çıxdı. Əmirəlmömininin Əli (ə) qüdrət və hakimiyyəti ələ keçirmək üçün qiyam etmədi, çünki bunu edə bilməzdi. Edə bilməməsinin səbəbləri haqqında geniş təhlil və izahlar var. "Edə bilməzdi" dedikdə, bunun mənası o deyil ki, hakimiyyəti ikiəlli o Həzrətin evinə gətirməmişdilər. Bunun mənası o deyil ki, o Həzrətin zərərinə tamamlanacaqdı və yaxud burnu qanayacaqdı. Xeyr! Əgər istəsəydi, İmam Əli (ə) elə "Səqifə" günlərində belə, qələbə çalıb hakimiyyəti ələ keçirə bilərdi, amma bu zaman din aradan gedəcəkdi. Zahirən qələbə çalacaq və hakimiyyətə çatacaqdı, amma həqiqətdə məğlub olacaq, zərər görəcəkdi. İndi isə kömək edən var:

**و قيام الحجة بوجود الناصر**

Nəzərdə tutduğumuz işin baş tutmasına dəlil-sübut var, çünki kömək edənimiz var. Məsuliyyətli və ayıq insan höccətin onun üçün tamamlandığı, ona yardımçı olduğunu hiss etdikdə, azacıq belə səhlənkarlığa və gecikməyə icazə yoxdur. Hansısa

işi görə biləcəyini hiss etdikdə, insan dərhal onu icra etməlidir. Xilafətin qəbul edilməsi ilə bağlı iki dəlil, iki sübut gerçəkləşmişdi!

**3. Məzlumlara yardımda ümmətin ayıq insanlarından alınan ilahi əhd-peyman**

Üçüncü səbəb Əmirəlmöminin Əlinin (ə) hökumətinin fəlsəfəsini, eyni zamanda cəmiyyətin ayıq təbəqəsinin çox ağır məsuliyyətini müəyyənləşdirir və başa salır ki, alimlər haqqında nələr yazılıb, ayıq və elmli insanların vəzifəsi nədir?

**و ما أخذ الله على العلماء**

(Həzrət buyurur ki,) hökuməti qəbul etməyimin üçüncü səbəbi budur ki, Allah-Taala alimlərdən, cəmiyyətin ayıq və bilikli insanlarından əhd-peyman almışdır. Onların məsuliyyəti, götürdükləri qəti öhdəliklərin müəyyən tələbləri vardır:

**و ما أخذ الله على العلماء أن لا يقاروا على كظة ظالم و لا سغب مظلوم**

İslam cəmiyyəti təbəqəsiz cəmiyyətdir, yer üzünün sərvətləri bütün insanlara aiddir. İslam cəmiyyətində insanların həyat tərzinin bir-birindən fərqlənməsi mənasızdır. Allahın dini yarandığı gündən, başqa sözlə, insan yarandığı gündən etibarən, hökm belə olub, İslam və bəşər cəmiyyətində ədalətin bərqərarına hökm verilib. Bütün insanlar ilahi nemətlərdən vahid şəkildə bəhrələnməli, fürsətlər və imkanlar hamıya bərabər şəkildə bölüşdürülməlidir. Yoxsa, bəziləri ilahi nemətlərdən layiqincə bəhrələndiyi halda, digərləri həyatın primitiv tələbatını ödəyə bilməzlər. İslam cəmiyyətində imkanlar hamıya ehtiyacı qədərində

həvalə olunmalı, istifadə meydanı hamının üzünə açıq olmalıdır. Güc, şüur və dərketmə qabiliyyəti hamıya verilir və çox çalışan insan daha çox fayda əldə edir. Amma imkanların yalnız müəyyən bir zümrə və sinfə, müəyyən bir tayfa və topluma verilməsi yanlışdır. Belə olmamalıdır. Bildiyiniz kimi, tarix boyu ədalətsevər və ədalət sorağında olan cərəyanlar müqabilində fərqli və müxalif cərəyanlar da olmuşdur. İlahi ədalətə söykənən bu cərəyanın qarşısında ayrı-seçkilik, ixtilaf, sosial bərabərsizlik və ictimai təbəqələşmə ideyası dururdu. Bəziləri bütün imkanlara malik olurdu; həm daha çox pul qazana, həm ali ictimai mövqeləri mənimsəyə, həm də həyatın müxtəlif növ ləzzətlərindən bəhrələnə bilirdi. Çox təəssüf ki, bu təbəqə daha dərrakəli, daha bilikli ola bilərdi (amma olmadı). Bu, bir təbəqə!

Başqa bir təbəqənin isə nə pulu var idi, nə də onlara pul qazanmaq, ilahi nemət və ləzzətlərdən bəhrələnmək, nə də yüksək vəzifə və mövqelərə yiyələnmək imkanı verilirdi. Daha betəri bu idi ki, onlara anlamaq, öyrənmək və agahlıq imkanı belə verilmirdi. Bu günə kimi dünyanın zəif və məhrum təbəqəsinə qarşı törədilən ən böyük cinayət onları anlamaqdan, dərk etməkdən, lazımi agahlığı təmin edən səbəblərdən məhrum etməkdir. Yanlış tərbiyələr, zərərli əyləncələr və zəhərli təbliğatlar vasitəsilə məhrum xalqlar və kütlələrə elə bu cür də olmağı təlqin edirdilər. Yolları onların üzünə bağlayır, şüur və agahlığı onlardan alır, insanları nadan, avam və kütbeyin böyüdür, sonra da onlarla istədikləri kimi davranırdılar.

Bu sahələrdə İslam bütün insanlar arasında bərabərlik bərqərar edir; ilk olaraq bütün müsəlman fərdlərinin, hətta bütün insan cəmiyyətinin maarifləndirilməsinə çalışır, onların idrak, şüur və agahlıq səviyyəsini yüksəldir. İlkin sərmayə və investisiyanı onların hamısının ixtiyarında qoyduqdan sonra, iş meydanını onların üzünə açır və genişləndirir. Onlara xatırladır ki, artıq çalışmaq və Allahın sənə bəxş etdiyi gücdən istifadə etmək vaxtıdır. Bu zaman İslam cəmiyyətində Bilal Həbəşi kimi qara, eybəcər və dili qüsurlu bir qul cahiliyyət dövrünün ən böyük və hörmətli insanlarını belə üstələyir. İnsanların şüuru, dərketmə qabiliyyəti və ayıqlığı o qədər yüksəlir, tərəqqi edir ki, keçmiş elit təbəqə ögeylik hiss edir, qınağa məruz qalır. Mədinədə Peyğəmbər məscidinin tikintisində o Həzrətə gileylənirlər ki, ey Allahın Rəsulu (s), biz tənəli sözlər eşitmək üçün müsəlman olmuşuqmu?

Bir müsəlmana zarafatyana və istehzalı bir cümlə deyildiyində, kasıb və əliboş, eyni zamanda ayıq, şüurlu, dərrakəli, son dərəcə məntiqli bir müsəlman elə cavab verir ki, qarşı tərəfin ağzı quruyur.

İslami təlimlər və bilgilər nəticəsində şüur və agahlıq səviyyəsi o qədər yüksəlmişdi ki, İslam cəmiyyətində insanları aldatmaq qeyri-mümkün idi. Bizim keçmiş yazıçımız[1] öz keçmiş əsərində[2] bir dağın başında pusquda əyləşmiş oğruların macərasını necə də gözəl təsvir edir: Hüquq-mühafizə orqanları onların kökünü kəsməkdən aciz qalmışdılar. Qərara aldılar ki, tədbir töküb onları

[1] Sədi.
[2] "Gülüstan", 1-ci fəsil.

yaxalasınlar. Oğrular yorulduqları, istirahət yerlərinə gəlib yatdıqları zaman hüquq-mühafizə orqanları əməliyyat keçirir və onların əl-ayaqlarını bağlayaraq şəhərə aparırlar. Müəllif yazır: "Oğrulara hücum edən ilk düşmən yuxu idi." Silahlı qüvvələr onlara hücum etməmişdən öncə "yuxu" adlı düşmənin hücumuna məruz qaldılar. Yatdılar və əsir düşdülər. Yatan kimi əl-ayaqları bağlandı və canlarının şirəsi çəkildi. Nə qədər ki, xalq oyaq və ayıq idi, nə qədər ki, Quran təlimləri nəticəsində agahlıq və ayıqlığı özləri və başqaları üçün ilahi bir vəzifə hesab edirdilər, bütün işləri yerli-yerində idi. Yuxuya daldıqda və bu təhlükəli düşmən onlara qələbə çaldıqda, növbəti düşmənlər də onlara hücum etdi.

Əmirəlmöminin Əli (ə) bu böyük ədalətsizliklə üz-üzə qalmışdı; tarix boyunca ilahi ənənələrə, bütün dinlərin əmrlərinə, Quran və İslam Peyğəmbərinin (s) qəti göstərişlərinə qarşı çıxan və iki təbəqəyə bölünən bir cəmiyyətlə rastlaşmışdı. "**Həqiqətən, möminlər qardaşdırlar**"[1] – tövsiyəsinə rəğmən, qardaşlar arasında ixtilaf və ikitirəlik yaradan, qərəzli rəhbərlər vasitəsilə məlumatsız və günahsız insanları bir-birinin canına salan bir ictima ilə üzləşmişdi. Quranın "**Mallarında da dilənçi və yoxsulun haqqı var idi!**" və yaxud (Ey Peyğəmbər!) "**Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ!**" – ayələrindəki aşkar göstərişlərini heçə sayaraq qızıl-gümüş yığanlar və insanlar arasında müqəddəslər kimi yaşayıb ümumi sərvəti mənimsəyənləri, bununla belə, müsəlman xalqının

[1] "Hucurat" surəsi, ayə 10.

qəzəbindən amanda qalanları, göydələnlər və sarayların divarlarının altında acqarına gecələyənləri görmüşdü. Bu səbəbdən də, o Həzrət xilafət və hakimiyyət kəndirini əlinə almaq məcburiyyətində qaldı. İslam cəmiyyətini güclü və iqtidarlı əllə islah etməkdən başqa, bir çarə görmədikdə, bu güc və iqtidarı qəbul etmək qərarına gəldi. İnsanlara yalnız danışmaq və məsləhətlər verməklə onların dindən həqiqi şəkildə bəhrələndirməyin qeyri-mümkün olduğunu gördükdə, əməli olaraq özü iş başına keçdi və bu vəzifəni müdafiə etdi. Deməк, Əmirəlmöminin Əlinin (ə) hakimiyyətə gəlişinin səbəbi İslam cəmiyyətinin vəhdəti, birliyi və bərabərliyini müdafiə etmək idi.

**و ما أخذ الله على العلماء**

Aləmlərin Rəbbi alimlər, elm sahibləri və cəmiyyətin ayıq insanlarından belə bir əhd-peyman alıb:

**أن لا يقاروا على كظة ظالم و لا سغب مظلوم**

Möhtac insanlar aclıq, yoxsulluq, məzlumluq və zülmkarların hədsiz acgözlükləri müqabilində sükut etməsinlər. Bu isə alimlərin və ayıq insanların vəzifəsidir. İslam alimi öz qarşısında fəsad və pozğunluqları görürsə, aclıqları, ifrat toxluqları, zülmkarlıqları, insanlar arasındakı ayrı-seçkilikləri, möhtacların narahatlıqlarını müşahidə edirsə, Əmirəlmöminin Əlinin (ə) buyruğuna əsasən, ilahi əhd-peyman onun çiyninə ağırlıq etməli və gözü ilə gördükləri ilə razılaşmamalıdır.

Biz müsəlman xalqı, xüsusən də, alim və agah təbəqə hər şeydən öncə digər insanlara nisbətdəki öz vəzifə və məsuliyyətlərimizi bilməliyik. Bir tərəfdən

sənaye və texnologiyası bəşərin ağlını mat-məəttəl qoyan, digər tərəfdən isə əxlaqi pozğunluqlarla bəşəriyyətin ürəyini bulandıran, hər bir guşəsində xüsusi bir cilvə ilə özünü göstərən, yüz üzü və yüz yönü olan belə bir dünyada yaşamaq istəyən kəs hər bir şeyi başa düşməli, hər bir məsələ haqqında məlumatlı olmalıdır.

Biz hər künc-bucağında qana bulaşmış əllər və yaxud bədənlər görürük. Elə bir dünya ilə qarşılaşırıq ki, acgöz insanların nəfsi istəklərinin qurbanına çevrilmiş məzlum və zəif xalqlar hədsiz bədbəxtliklər, məhrumiyyətlər və narahatlıqlar içində çapalayırlar. Burada aclıq hökm sürür, yoxsulluq dərəcəsi baş gicəlləndirir, hər saatda minlərlə insan acından tələf olur, insanlıq əleyhinə minlərlə cinayət baş verir, hər saatda minlərlə xaincəsinə planlar cızılır, bəşəriyyətin xoşbəxtlik saraylarını dağıtmaq üçün minlərlə bomba atılır, Quran və İslam xüsusi olaraq zəhərli oxların vasitəsilə hədəfə alınır.

Bəşərin düçar olduğu uğursuzluq və bədbəxtliklər nəticəsində yavaş-yavaş İslam və Quranın qiyməti-dəyəri bilinir, onun sayəsində mənfur və qara qəlblər aydınlanır. Quran adlı günəş təcəlli etdikcə, Quran düşmənləri və müxalifləri, Quranın diriliyinin onların ölümünə bərabər olan kəslər hər an və hər gün Quranın məhvi üçün tədbirlər tökür, planlar cızırlar. Müsəlman qalmaq, müsəlman ölmək, Quran və İslam təlimləri əsasında yaşamaq və Allahın razılığını qazanmaq istəyən kəs belə bir dünyada olduqca diqqətli və gözüaçıq olmalıdır.

## İslam alimləri – müsəlmanlar qalasının gözətçiləri

Mən, adətən, təsəvvür məqamında və öz zehnimdə din və İslam alimini bir qalanın gözətçilərinə bənzədirəm; bir qrup insanın yaşadığı və düşmənlərin də ətrafını mühasirəyə aldığı, tavanı hündür və görkəmi çox gözəl olan bir qalanı, onun ətrafındakı göydələnləri və onu qoruyan çoxsaylı gözətçiləri təsəvvür edin.

Allah eləməmiş, birdən bu göydələnlərin başında əyləşən gözətçilər mürgüləsə, yatsa, qorxaq olsa, gözləri zəif olsa, öz rahatlıqlarını güdüb dörd tərəfi izləməsə, ətrafa baxmasa, əllərində silah tutub hücuma hazır vəziyyətdə dayanan düşmənləri görməsə, qalaya və onun divarlarına doğru hücuma keçənləri tanımasa, düşmənlər çox rahatlıqla qalaya yaxınlaşıb onun divarlarını dələrək içəri keçə biləcək, onu çapıb talayacaq, abır-həya qoymayacaq, namusa toxunacaq və pulları da yığışdırıb aparacaq. Çünki başda əyləşən gözətçi mürgüləmiş və hadisədən xəbərsizdir. Bəli, İslam dünyası da, gözəl ifadə ilə desəm, İslamın göstəriş və hökmləri də həmin qala və onun ətrafındakı göydələnləri xatırladır. Bu göydələnlərin başında gözətçilər var və onlar İslam alimləridir. Bu gözətçilər əlləri və dillərində Quran olan kəslərdir. Həmin kəsləri biz əsrlər boyu məzhəb qəyyumları və carçıları, çoxlu xidmətlər göstərmiş, böyük və dəyərli işlər görmüş insanlar kimi tanımışıq. Biz öz keçmişimizə və İslamın bu gözətçilərinə nəzər saldıqda, belimizi onların xidməti altında bükülmüş görürük. İslam

maarifi və hökmləri, möhkəm fiqhimiz və ixtiyarımızda olan islami irs onların sayəsində formalaşmışdır. Amma bugünkü dünya başqa bir dünyadır. Bu gün bu göydələnlərin daha ayıq-sayıq gözətçilərə ehtiyacı var, xüsusən də daha hündür göydələnlərin başında dayananların məsuliyyəti daha böyük, daha ağırdır.

Bu gün müsəlman cəmiyyətinin bir an belə qəflətə düçar olmayan, dünyanı yaxşı tanıyan, İslam düşmənlərinin planlarını gözəl başa düşən alimlərə ehtiyacı vardır. Onlar düşmənin hansı tərəfdən hücuma keçəcəklərini yaxşı bilməlidirlər. Əgər göydələnin üstündəki bir gözətçi qartal tək onun ətrafını izləmək əvəzinə, evin içinə girib yatacaqsa, düşməni görməyəcək. Əgər olduğu yerdə gözlərini bağlayacaqsa, düşməni ayırd etməyəcək. Əgər bir an mürgüləyəcək və görməzdən gələcəksə, düşməni tanımayacaq. Əgər düşməndən qorxacaqsa, düşməni görsə də, onun qarşısında müqavimət göstərməyəcək. Əgər düşmənlə münasibət quracaqsa, onu vurmayacaq, ona və çirkin qəlbinə oxu batırmayacaq. Başda əyləşən (gözətçi) sürətlə uçan, iti baxışları ilə uzaqları görən qartal tək İslam məntəqəsinin hər tərəfini görməli, elə ayıq olmalıdır ki, uzaqdan düşməni tanımalı, düşmənin hücum nöqtəsini dəqiqləşdirməli, düşmənlə mübarizədə cəsarətli olmalı, düşmən yerindən tərpəndikdə, uzaqdan oxla hədəfə almalı və beləcə, İslam qalasını himayə etməlidir. Bu, ayıq İslam aliminin vəzifəsidir. İslam cəmiyyətinin şiddətlə ehtiyac duyduğu, ölmüş bədənə ruh və can verə biləcək şəxs də elə budur! İslamda belə gözətçilər olduğu zaman

düşmənin Quran və İslamın əleyhinə hücumu nəticəsiz qalacaq, onun tərəfindən atılan ox İslam bədəni və İslam qalasına dəyməyəcəkdir. Alim, onun vəzifəsi və üzərindəki məsuliyyət budur! Mən öz nəzərimdə alimi hər zaman gözətçi tək möhkəm oxlara, tutarlı dəlil-sübutlara, güclü məntiqə, yüksək düşüncəyə sahib, əlində kaman tutub, daim hər tərəfi gözdən keçirən, hər tərəfdən düşməni izləyən, hər tərəfdən İslam qalasına hücum edən düşməni əzib yerində otuzduran, hücumlarını dəf və planlarını alt-üst edən kimi canlandırmışam.

Əmirəlmöminin Əli (ə) alimlərin məsuliyyətini xatırlayır:

“**Əgər Allahın (hər cəmiyyətdə) alimlərdən, tox zalımlar və ac məzlumlar qarşısında susmamaqla bağlı aldığı əhdi (və boyunlarına qoyduğu məsuliyyət) olmasaydı, xilafət dəvəsinin yüyənini boşlayar və ondan əl çəkərdim...**”

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, müsəlman xalqına agahlıq bəxş et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Muhəmməd və ali-Muhəmmədin həqiqi ardıcıllarından et!

İlahi! Bizi Muhəmməd və ali-Muhəmmədin həyatı ilə yaşat, onlara əta etdiyin ən gözəl və ən şərəfli ölümü bizə də nəsib et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, nadanlıq, çaşqınlıq və xürafat pərdələrini müsəlman xalqının gözləri önündən qaldır!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, öz həyatlarını İslam və Quranın məhvinə

həsr edənləri öldür, Quran və İslama düşməncəsinə uzanan təcavüzkar əlləri qır!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizimlə İslam və Quran arasındakı fasiləni aradan qaldır!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi müsəlman kimi yaşat və müsəlman kimi öldür!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, Öz yolunu bizim üçün daha da işıqlandır!

İlahi! Bu yolda bizim iradə və əzmimizi daha da mökəmləndir!

İlahi! Süstlükləri, şəkk-şübhələri və büdrəyişləri bizdən uzaqlaşdır və bizim hamımıza qətiyyətlilik mərhəmət et!

İlahi! Mövlamızın zühurunu tezləşdir!

# 5

# ƏMİRƏLMÖMİNİN ƏLİNİN (Ə) HAKİMİYYƏTİNİN PROQRAMLARI[1]

**Bağışlayan və mehriban Allahın adı ilə!**

**و من كلامه له عليه السلام لما بويع في المدينة ذمتي بما أقول رهينة و أنا به زعيم إن من صرحت له العبر عما بين يديه من المثلات حجزته التقوى عن تقحم الشبهات ألا و إن بليتكم قد عادت كهيئتها يوم بعث الله نبيكم و الذي بعثه بالحق (صلى‌الله عليه وآله) لتبلبلن بلبلة و لتغربلن غربلة و لتساطن سوط القدر حتى يعود أسفلكم أعلاكم و أعلاكم أسفلكم و ليسبقن سابقون كانوا قصروا و ليقصرن سباقون كانوا سبقوا[2]**

[1] "Nəhcül-bəlağə"nin 16-cı xütbəsinin bir hissəsinin şərhi – 1353/22/16.

[2] "Nəhcül-bəlağə", 16-cı xütbə.

## Əmirəlmöminin Əlinin (ə) verdiyi vədlərə əməl etməsi

Əmirəlmöminin Əli (ə) xilafətinin başlanğıcında minlərlə təşnə cəmiyyətin qarşısında, Mədinədə, Allah Peyğəmbərinin (s) məscidində öz hökumətinin proqramlarını elan edir. Bütün siyasi hakim və rəhbərlər, xüsusilə, yeni administrativ heyətlə öz siyasi fəaliyyətinə başlayan bütün inqilabi hökumətlər kimi, rəhbərliyini öhdəsinə götürdüyü bir xalqın gələcəyini öz qəti tədbirləri və prinsipləri ilə idarə edir.

Bu məsələdə bizim və bəşəriyyətin imamının (ə) digər əmirlər, rəhbərlər və hakimlərlə fərqi qısa bir sözdə yekunlaşır. O da budur ki, Əmirəlmöminin Əli (ə) dedikləri və vədə verdiklərinə əməl edir, başqaları isə xilaf çıxırlar. Bütün sahələrdə tədbirlər gözəl və alidir. Bütün siyasi xadimlər, adətən, hakimiyyət başına gəlməzdən öncə xalqa sülh, səfa-səmimiyyət, əmniyyət və rifah vəd edir, amma hakimiyyətə gəldikdə, irəli sürdükləri platformaları reallaşdırmırlar. İmam Əli (ə) isə verdiyi sözə tamamilə əməl edir. Bunu hamı bilirdi. Əlini (ə) sınaqdan keçirənlər bunu çox gözəl başa düşmüşdülər. Bu fədakar şəxsiyyətin ən çətin anlarda göstərdiyi fədakarlığı öz gözləri ilə görənlər onun gələcəyini qəlb gözləri ilə də proqnoz vermişdilər. Əlini (ə) gərgin döyüş meydanlarındakı inadkar kafirlərlə mübarizədə həmişə Peyğəmbərin (s) yanında, o Həzrətin vəfatından sonra altı nəfərlik xilafət şurasında görmüşdülər. Onlarla digər hadisə və cərəyanlarda hədsiz və əfsanəvi güzəşt sahibi

olduğunu, Allah-Taalanın dərgahında doğru və haqq vədlərinə necə əməl etdiyini bilirdilər. Onlar çox yaxşı bilir, ən azından, ehtimal edirdilər ki, gələcəkdə də öz vədlərinə əməl edəcək. Əmirəlmömininin (ə) Allahın haqqı ilə xalqın haqqı arasında fərq qoymadığını, onun hüzurunda xalqın haqqını mənimsəyib, amma Allahın haqqının müdafiəsindən dəm vurmağın, artıq, mənasız olduğunu yaxşı bilirdilər. Əmirəlmöminin Əlinin (ə) Allaha bəndəçiliyi yalnız qəlbə və düşüncəyə aid deyildi, həm də əməldə bunu göstərirdi. Bilirdilər ki, o Həzrət Qurani-Kərimin bu ayəsində söz açdığı kəslərdəndir:

**من المؤمنين رجال صدقوا ما عاهدوا الله عليه فمنهم من قضى نحبه ومنهم من ينتظر وما بدلوا تبديلا**

“**Möminlərin içərilərində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər.**”[1]

Beləəri Allahla vədlərində yalançı olmaz, Allahla etdikləri əhdə vəfa edərlər. Onlardan bəziləri bu yolda şəhadətə yetsə də, bəziləri bu ilahi mesaj yolunun haqq taleyinin intizarındadırlar və Əli (ə) də intizarda olanlardandır.

Deməli, İmam Əlinin (ə) tarixin digər rəhbərləri (o Həzrətin zamanındakı, ondan öncəki və sonrakı rəhbərlər) kimi, verdiyi vədlərinə xilaf çıxmaması və xalqa yalan deməməsi aydın bir məsələ idi. Bununla yanaşı, o Həzrətin özü də bu tarixi və heyrətamiz kəlamında təkidlə belə buyurur:

[1] “Əhzab” surəsi, ayə 23.

**ذمتي بما أقول رهينة و أنا به زعيم**

**“Mənim əhdim dediyim sözlərin girovundadır və mən onların hamısına zəmanət verirəm.”**

Həqiqətdə, Həzrət öz hökumətinin proqramlarını bəyan etmək istəyir və buradan sözügedən xütbənin növbəti cümlələrində qeyd edilmiş “bir-birinə qarışacaqsınız” ifadəsinin nə ilə bağlı olduğunu anlayırıq. İnsan “Nəhcül-bəlağə”nin bu cümlələrinə – öncəki və sonrakı ifadələrə diqqət yetirmədən baxdıqda, digər cümlələr kimi, düzgün anlamayacaq. Əmirəlmöminin Əlinin (ə) kəlamının möhtəvası və həqiqəti ilə tanış olmaq və onu anlamaq üçün son dərəcə diqqət və əlavə mütaliəyə ehtiyac duyulur.

Bir sözlə, Həzrət öz proqramlarından danışır və öhdəliklərinin yerinə yetiriləcəyinə zəmanət verir. Amma proqramlarını bəyan etməzdən öncə, tarixin qlobal reallığı və ənənəsinin üzərindən pərdəni götürür.

## Həzrət Əlinin (ə) hökumətinin proqramları haqqa əsaslanır

Əmirəlmöminin Əli (ə) haqqın tərəfdarıdır. Haqq isə varlıq aləminin fitrəti ilə uyğun gələnlərdən ibarətdir. Haqqı dəfələrlə məna etmişik; haqqın mənasını anlamaq olduqca mühüm məsələdir. Varlıq aləminin fitrətinə və qanunauyğunluqlarına “haqq” deyilir. Yaradılış aləminin fitrəti və təbii seyrinin ziddinə danışan, qərar çıxaran və hökm verənlər haqq və haqqın tərəfdarları olduqlarını iddia edə bilməzlər. Onun təkamül seyrini yaradan Allahdan başqa, kim başa düşür? Bu varlığın təbii fitrətini

yaradan Allahdan başqa, kim tanıyır? İmam Əli (ə) o yaradanın sözçüsüdür. Haqqın tərəfdarı olduğundan, hökumətinin proqramları (və siyasi fəaliyyətləri) da haqqa söykənir. Özünün də tabe olduğu proqram həqiqət proqramıdır.

## Tarixdən ibrət götürmək – Qurtuluş amili

Varlıq aləminin təbiəti, fitrəti və xilqəti ilə uzlaşan hər bir şey həqiqətdir. Həzrət bu aləmin təbii və qlobal qanunlarından birini – tarixin keçmişinə nəzər salıb ondan ibrət götürən, keçmiş ümmətlərin mükafat və cəza amillərini araşdıran, fərqləri ayırd edən, cəza səbəblərindən çəkinən, mükafat səbəblərinə rəğbət bəsləyən hər kəsin bədbəxtliyə düçar olmamasını – müqəddimə olaraq bəyan edir. Bu, tarixin qanunlarına diqqət yetirmək mənasında bir qanundur.

Bu gün yeni sivilizasiyalar dünyasında bir çox qanun və ənənələrin adı çəkilir. Deməliyik ki, bu, yeni bir kəşf və metod deyil, dünya dinlərinin təməlidir. Dünya dinləri insanın həyatına hakim tarixə, tarixi qanun və ənənələrə diqqət əsasında formalaşmışdır. Ümumiyyətlə, din bəşərin tarixi və keçmiş həyatının xüsusiyyətləri ilə əlaqəlidir. Əmirəlmöminin Əlinin (ə) burada bəyan etdiyi bu qanun diqqəti tarixin həqiqi ənənələri və qlobal qanunlarına yönəldir. O Həzrətin kəlmələrinin məna və möhtəvasını qavramaq üçün yaxşı qulaq asın. Hər kəlməni ayrı-ayrılıqda şərh etməyə vaxtımız yoxdur. Dünyanın ömrü keçir. Dünyada bizim ömrümüz

keçir. İmam Əlinin (ə) sözünü başa düşməmək heyfdir. Bu kəlmələr üzərində bir qədər artıq təfəkkür edib düşünsək, keçmişdə tarixin qanunları ilə necə rəftar olunmuşsa, o Həzrətin zamanında da, eynilə onun kimi rəftar olunduğunu anlayarıq. O Həzrətdən sonra da dindarlıq qanunu elə onun kimi icra olunacaq.

## Əmirəlmöminin Əlinin (ə) dövründə şirk, xəstəlik və bəla

İmam Əli (ə) bu mətləbi heyrətamiz xütbəsinin başlanğıcında ümumi şəkildə bəyan etdikdən sonra buyurur:

**ألا و إن بليتكم قد عادت كهيئتها يوم بعث الله نبيكم (صلى‌الله عليه وآله)**

“**Ey camaat, agah olun! Sizin bugünkü hekayəniz Peyğəmbərinizin (s) besətinin (peyğəmbərliyinin) başlanğıcındakı bəşər cəmiyyətinin hekayəsi kimidir.**” Peyğəmbərin (s) besətinin başlanğıcında sizin ata-babalarınızın, keçmişdəkilərinizin düçar olduqlarına bu gün siz də düçar olmusunuz.

Ey xəstə insanlıq! Sən də öz tibbi ləvazimatı və dərman preparatları ilə (xəstəlikləri müalicə etmək üçün)həmişə xalqın arasında gəzən bir təbibin zamanındakı xəstəliyə düçar olmusan. Bəşər cəmiyyətinin təbibi Əli (ə) yaşadığı mühitə nəzər saldıqda, Peyğəmbərin (s) dövründəki bəşər cəmiyyətinin düçar olduğu xəstəlikləri (yenə) müşahidə edir və həmin xəstəliklərin müalicəsi haqda düşünür. Bu xəstəlik nə idi? Mən bu məsələ

ilə bağlı "Nəhcül-bəlağə"nin bəzi şərhlərinə müraciət etdikdə, bəşərin yeni mədəniyyətindən uzaqlığının bu barədə bəzi mətləblərin deyilməsinə səbəb olduğunu, bu mədəniyyətlərə diqqət yetirdikdə, həmin mətləblərin düzgünlüyünün şübhə altına düşdüyünü müşahidə edirəm!

"Nəhcül-bəlağə" şərhçilərindən biri yazır: "Əmirəlmöminin (ə) "ixtilaflar"a işarə edir." Başqalarının uyğun mətləblərlə bağlı qeydlərinə toxunmaq və həmin qeydləri qəbul etmədikdə (və nəzərimlə üst-üstə düşmədikdə) rədd etmək mənim gələcək bəhslərimin çərçivəsindən kənar olsa da, bu mətləbi demək istəyirəm. "Nəhcül-bəlağə"nin keçmiş şərhində bu cümlə yanlış məna edildiyindən, onun yanlışlığını aydınlaşdırmaq lazımdır, çünki yanlış mənaya diqqət yetirdikdə, düzgün mənanı da yaxşı anlamaq olur. O deyir: "Əmirəlmöminin Əlinin (ə) dövründə İslam cəmiyyətinin xəstəliyi ixtilaf xəstəliyindən ibarət idi." Mən ondan soruşuram: "Hansı ixtilafı deyirsiniz?" Müsəlmanlar arasındakı ixtlafımı? Axı, həqiqi müsəlmanlar arasında ixtilaf olmayıb! Böyük bir cəmiyyət – kişi və qadın, alim və cahil, səviyyəli və səviyyəsiz – hamılıqla, Əmirəlmömininə (ə) üz tutursa, paytaxt və şəhər sakinləri beyət edirsə, xalq kütləsi Quran hökmündən ilham alaraq eyni bir istiqamətə doğru hərəkət edirsə, ixtilafdan söz gedə bilməz.

Cəmiyyətdən kənarlaşan Səd ibn Əbu Vəqqasımı deyirsən? Buna ixtilaf adı vermək olmaz. Əgər bir nəfər, on, əlli, min nəfər bir ümmət və millətin haqq səsini qəbul etmirsə, bu, ixtilaf sayılmaz. O milyonlarla insana demək olmaz ki, gəlin, bu əlli,

yüz, min nəfərlə sülh edib barışın, aranızdakı ixtilafı aradan qaldırın. Burada sülhün, barışığın bir mənası var, o da həmin min nəfərin yüz minlərlə insana qoşulmasıdır. Səd ibn Əbu Vəqqas, Təlhə, Zübeyr, Abdullah ibn Ömər və Əmirəlmöminin Əlinin (ə) möhkəm qırmanc zərbələri çiyinlərinə ağırlıq edən, ona dözə bilməyib kənara çəkilən başqaları xalqa qoşulmalı, xalqla birgə olmalı idilər. Bunun adı ixtilaf deyil, çünki xalq hamısı o Həzrətə üz tutmuşdu.

Əgər Əmirəlmöminin Əli (ə) ilə Müaviyənin ixtilafını deyirsinizsə, bu ixtilafın nəyi pisdir? Bu ixtilaf nurla zülmət, haqq ilə batil arasındakı ixtilafdır və belə ixtilaf tarixdə həmişə və hər zaman olmuşdur. Peyğəmbərin (s) dövrünün son zamanlarında da baş vermişdi, amma bu, Peyğəmbərin (s) dövrünün xəstəliyi sayılmırdı. Əmirəlmöminin Əliyə (ə) demək olmaz ki, ağa, sizin Müaviyə ilə ixtilafınız var, gəlin barışın. Burada barışıq mənasızdır. Yalnız bir yol var, o da Müaviyənin özünün nəfs, arzular və hakimiyyət bütünü sındırmasıdır! O, nəfsi istəklərini bir kənara qoyub böyük və rəhmli Allahın müqabilində səcdə və Əmirəlmöminin Əliyə (ə) itaət etməli idi. Yolu yalnız bundan ibarət idi. Nə İran və Əfqanıstan arasındakı sərhəd ixtilafları deyildi ki, onlara: “bir qarış siz, bir qarış da onlar güzəştə getsinlər”, yaxud iki malik arasındakı mülk ixtilafı deyildi ki, onlara: “divar nə burda, nə də orada, əksinə ortada tikiləcək” – deyilsin. Burada güzəştə, fədakarlığa yer yoxdur, məsələ din və Quran məsələsidir. Din və Quran uğrunda isə güzəştə getmək olmaz.

Bir sözlə, Əli (ə) ilə Müaviyə arasındakı ixtilaf Əliyə (ə) aid bir ixtilaf deyildi ki, Əli (ə) onu Peyğəmbərin (s) dövrünə xas bir problem və bəla olaraq bəyan etsin və camaatı bu ixtilafın həllinə dəvət etsin. Bu ixtilaf həllolunası deyildi. Deməli, "Nəhcül-bəlağə"yə şərh yazan müəlliflərdən birinin "ixtilaf"ın İslam ümməti arasında vəhdət və birliyin aradan qaldırılmasına aid olduğunu qeyd etməsi yanlışdır. İslam ümmətində vəhdət və birlik hökm sürürdü. Lakin Müaviyə İslam ümmətindən xaric idi. Bəs, Əlinin (ə) işarə etdiyi xəstəlik nədir?

Mənim nəzərimcə, bu, bir cümlə ilə yekunlaşan məsələ deyil. Sizdən soruşuram: Peyğəmbərin (s) besətinin başlanğıcında bəşəriyyətin xəstəliyi nə idi? Peyğəmbərimizin (s) Məkkədə, Nur dağında peyğəmbərlik nuruna çatdığı gün bəşəriyyət hansı xəstəliyə tutulmuşdu? Bu xəstəlik şirkdən başqa bir şey ola bilərdimi? İnsan üçün ən təhlükəli xəstəlik budur. Xərçəng xəstəliyinə tutulan, zərərçəkən, yaralı və xəstə insan müşrik (Allaha şərik qoşan) insanla müqayisədə sağlamlığa daha çox yaxındır.

**ومن يشرك بالله فكأنما خر من السماء فتخطفه الطير**

"**Hər kim Allaha şərik qoşsa, sanki göydən düşən, quşların qapıb apardığı bir şeyə bənzəyər.**"[1]

Şirk insandan insanlıq dəyərini alır, Allahdan başqasına bəndəçilik insanı alçaldır, xar və zəlil edir. İnsanın ən böyük bədbəxtliyi zillət və əsarətdir. Zillət və əsarətin ən böyük nümunəsi özü kimi aciz və çarəsiz olan başqa bir bəndə və varlığın

---

[1] "Həcc" surəsi, ayə 31.

qarşısında əsir olmaqdır. Belə bir söz var: "**İt itin müqabilində baş əyməz.**"[1]

Ali məqama və şərafətli varlığa sahib olan insan Allahdan başqasına baş əydiyi zaman alçalır. Peyğəmbərin (s) zamanındakı xəstəlik bu idi. Bəşəriyyətin Peyğəmbərin (s) zamanındakı xəstəliyi haqqında Kəsranın hüzurunda İslam ordusunun rəhbər və sərkərdələrindən biri belə deyir: Biz sizin ölkənizə, rəhbərlik etdiyiniz məmləkətə gəlmişik ki, insanları bəndələrə ibadətdən çıxarıb Allaha ibadətə dəvət edək:

**ليخرج العباد من عبادة العباد إلى عبادة الله**

"**(Allah-Taala Muhəmmədi (s) haqq olaraq peyğəmbər seçmişdir ki,) bəndələri bəndələrə ibadət etməkdən çəkindirib Allaha ibadət etməyə dəvət etsin.**"

Biz gəlmişik ki, bəndələri bir-birinə qul olmaqdan azad edib Allaha qul olmağa dəvət edək, insanları şirk zülmətindən tövhid nuruna çıxaraq. Peyğəmbərin (s) və İslamın zühuru zamanında bəşərin bədbəxtliyi şirk idi.

İndi Əmirəlmöminin Əli (ə) buyurur ki, keçmiş bədbəxtlik və bəlalar bu gün də vardır. Heç inanırsınız? İnanırsınızmı ki, İslam Peyğəmbərinin (s) vəfatından 25, İslama dəvət etdiyi gündən isə 48 il sonra İslam cəmiyyəti yenə müşrik olmuşdu? Görəsən, bunun mənası müsəlmanların Kufə, Hicaz, Şam, İraq, Xorasan, Əhvaz və digər İslam ərazilərində daşdan, ağacdan və digər cisimlərdən bütlər yonub evlərinə qoyması və bütpərəst

[1] "Peyame-Məşriqi", İqbal Lahuri: "Köləlik xüsusiyyəti itlərdən də pisdir. Mən itin itə baş əydiyini görmədim."

olmasıdırmı? Xeyr, vəziyyət belə deyildi. Əmirəlmöminin Əli (ə) demir ki, siz ağac və daşdan büt yonub onun qarşısında səcdə edəcək, namaz qılacaqsınız. Xeyr! Mənim nəzərimcə, bu, dini düşüncənin əsas nöqtəsi, xalis tövhid inancı ilə batil tövhid inancı arasında həqiqi sərhəddir.Bizim düşündüyümüz kimi, batil tövhid inancı və müşrik olmaq dedikdə, yalnız kimisə Allahın oğlu, qardaşı, şagirdi və rəqibi hesab etmək və yaxud daş, ağac və insan cinsindən olan bütləri Allah yerinə qoymaq anlamında deyil. Şirk yalnız bunlardan ibarət deyil, bu, şirkin zahiri forması və aydın nümunəsidir. Şirkin olduqca təhlükəli bir növü də vardır. Nə üçün təhlükəli? Çünki aydın deyil, görünmür, özünü büruzə vermir. Həmin şirk insanın Allaha aid olanları Allahdan qeyrisinə, başqa bir qüdrət və varlığa şamil etməsidir. Əgər Peyğəmbərin (s) dövründəki bütpərəstlər Hubəl, Lat, Uzza və Mənatı özlərinə tanrı bilir və onlara "tanrı, rəbb" deyirdilərsə, Əmirəlmöminin Əlinin (ə) zamanındakı qafil və nadan bütpərəst və müşriklər də qüdrət mərkəzləri və sahiblərini "Allahın bəndəsi" adı altında ilahiləşdirmişdilər. Əgər siz Şamda hansısa bir nadan və avamdan: "Müaviyə Allahdır?" – deyə soruşsaydın, "Sən, deyəsən, ağlını itirmisən!" – cavabı ilə üzləşəcəkdin. Ondan soruşanda ki, bəs Müaviyə kimdir? Cavab verəcək ki, Müaviyə Allahın bəndəsidir. Bu o zamana hakim mühitin zahiri inikası idi. Batinə gəldikdə isə Allah-Taala Qurani-Kərimdə buyurur:

**يفعل ما يشاء**

"**Allah istədiyini edər.**"[1]

**يحكم ما يريد**

"**Allah istədiyini hökm edər.**"[2]

Onun iradəsindən üstün bir iradə yoxdur. Şamda "**istədiyini edən**", "**istədiyi kimi hökm verən**" – Müaviyə idi. Bu isə İslam ədəbiyyatında Allaha aid məqamdır. Müaviyənin adı Allah bəndəsi olsa da, gördüyü iş Allaha aid iş, məsuliyyəti ilahi məsuliyyət, məqamı Tanrılar Tanrısı idi. Bu şirk deyilmi?

Allah-Taala buyurur ki, Mənim hökm və əmrlərimi öz istəyinizə uyğun icra etməyin, dinin əsasını qəbul etdikdən, dinin həqiqətini öyrəndikdən, öz nəzərinizdə dinin təməli dəlil-sübutlarla möhkəmləndikdən sonra Mənim qanunum sizin əqliniz və istəklərinizlə uzlaşmazsa, yenə onu inkar etməyə haqqınız yoxdur. Çünki onun sizin başa düşmədiyiniz və sizə gizli qalan bir səbəbi, fəlsəfəsi ola bilər. Bu, Allahındır. Şamda da Müaviyə deyirdi ki, mənim çıxardığım qərarlar müqabilində yeni qərarlar çıxarmağa haqqınız yoxdur. Əmirəlmöminin Əlinin (ə) zamanında yox, əksinə, sözügedən xütbənin tarixindən düz beş il sonra Əbu Süfyanın oğlu Müaviyə elan etdi ki, Ziyad ibn Əbih (atasının oğlu Ziyad)[3], yəni zinazadəliyi ilə məşhurlaşan və

---

[1] "Ali-İmran" surəsi, ayə 40.

[2] "Maidə" surəsi, ayə 1.

[3] Ziyad ibn Əbih, yəni atasının oğlu Ziyad. Ziyadın atası kim idi? Onu yalnız Allah bilir! Amma yalan olmasın deyə, Ziyad ibn Əbih (atasının oğlu Ziyad) kimi qeyd edirəm. Bəziləri ona Süməyyə oğlu Ziyad deyirdilər. Çünki onun

evin damından düşmüş rüsvayçılıq teştinin səs-sədası hər tərəfi bürüyən bir zinazadə mənim qardaşımdır. Çünki, atam Əbu Süfyan onun anası ilə zina etmişdir. Kobudluğun, həyasızlığın dərəsəcinə bir baxın! Onun zina etdiyini haradan deyirsən? Buna ədalətli şahidin varmı? Bəli, şərab satan filankəs oğlu filankəs hadisəyə (zinaya) özü dəllallıq etmişdi. Sonra da minbərə çıxıb şəhadət verir ki, mən özüm Əbu Süfyanı gətirdim və o hadisə baş verdi. Baxın, bunu minbərdə danışır. Bəli, bu, bir qanun idi. Halbuki İslama görə, zinadan doğulan körpə öz bioloji atasına aid deyil. Əgər zinakar qadının əri varsa, zinadan doğulan uşaq da həmin ərə, həmin yatağa aiddir. Zinakar kişi isə (uşağın əvəzində) daş-qalaq olunmalıdır. Uşaq da ona aid deyildir. Təbii bir hökm – əgər o qadının əri yoxdursa, bu uşaq heç bir ataya aid edilməyəcək, cəmiyyətdə atasız qalacaq – daha acınacaqlı bir qanunun vasitəsilə ləğv edilir. İslamın bu aşkar hökmü ola-ola, başqa hökm və başqa bir qərar çıxarılır, "**Allah gördüyü işlər barəsində sorğu-sual olunmaz**"[1] "**Allah istədiyini edər**"[2] "**Allah istədiyini hökm edər**"[3] – ayələrinə istinadən, Müaviyəni əsla sorğu-suala tutmaq olmaz. Nə üçün? Çünki Müaviyə istədiyi hökmü verir, istədiyi qərarı çıxarır, etiraz edənləri cəzalandırır və zindana saldırır. Bu Müaviyə Tanrı deyilmi? Müaviyənin

---

Süməyyənin rəhmindən çıxmasında şübhə yox idi. Amma atasının kimliyi məlum deyildi.

[1] "Ənbiya" surəsi, ayə 23.

[2] "Ali-İmran" surəsi, ayə 40.

[3] "Maidə" surəsi, ayə 1.

belə bir məqama sahib olduğunu qəbul edənlər onu Tanrı bilmirdilərmi? Əlbəttə ki, Tanrı bilirdilər, lakin adını Tanrı qoymurdular. Onlar müşrik idilər. Əmirəlmöminin Əli (ə) isə belə deyildi.

Görün, xütbənin mənası necə aydınlaşdı! O Həzrət buyururdu: Ey camaat, sizin bugünkü xəstəliyiniz şirk, Allahdan qeyrisinə pərəstiş və bəndəçilik xəstəliyidir. Allahdan qeyrisi də Lat, Mənat, Uzza, Hubəl və Allah evinin divarından asılmış 360 bütdən ibarət idi! Bu gün isə, həmin bütlər Müaviyə, Təlhə, Zübeyr və aləmlərin Rəbbi tərəfindən göndərilməyən digər haqsız rəhbərlər, xalqa hökmranlıq edənlər və əmr verənlər, onlara əyilmək, pərəstiş etmək və ehtiram göstərməkdir. Bu, şirkdir. Xalis islami tövhidin mənası budur! İndi başa düşürük ki, nə üçün həmin tarixdən yüz neçə il sonra, bu dəyərli xütbənin sahibinin övladlarından olan İmam Rza (ə) Nişabur şəhərində on minlərlə cəmiyyət qarşısında "**Tövhid kəlməsi Allahın hasarı, qalasıdır!**" – deyə buyurmuşdur:

**كلمة لا إله إلا الله حصني فمن دخل حصني أمن من عذابي**

"**Lə iləhə illəllah" kəlməsi Mənim qalamdır. Elə isə Mənim qalama daxil olan kəs əzabımdan amanda qalacaqdır.**"[1]

Bəziləri irad tuturdular ki, axı necə ola bilər "Lə iləhə illəllah" kəlməsi onu deyənə yetərli olsun və başqa bir şeyə ehtiyac duymasın? Bəli elədir! Əgər "Lə iləhə illəllah" desəniz, İmam Əlinin (ə) bu xütbədə işarə etdiyi şirkdən əsər-əlamət qalmayaraq, həqiqi mənada xalis mömin olacaqsınız. Həqiqi iman budur! Həqiqi tövhid, yəni dinin hamısı, hər

---

[1] "Əmali", Şeyx Səduq, səh. 235 (azacıq fərqlə).

növ eyibdən uzaq olan xalis tövhid, şəriətin incəliklərinə qədər bütün hökmlər.

Bir sözlə, "Lə iləhə illəllah" kəlməsi ilə bağlı bəhsin əhatə dairəsi genişdir və onun haqqında çox danışmaq, nəzər söyləmək olar. Əlbəttə, bu haqda başqa bir vaxtda söhbət açmaq lazımdır.

Əmirəlmöminin Əli (ə) bu ağır xəstəliyə toxunur, onu bizim diqqətimizə çatdırır və öz zamanında hansı bəlalarla üz-üzə qaldığını başa salır. Öz zəmanəsinin ən böyük şəxsiyyəti, ilahi düşüncə və ilhamla rabitəsi olan, həqiqəti əsl qaynağından əldə edən, bulaq tək həqiqətin qaynadığı qəlbə sahib olan bir insan öz xalqı ilə heç vaxt belə rəftar etməz, istədiyi kimi davranmaz, istədiyi kimi hökmranlıq etməz, zülm əhli olmaz. Həmçinin "bu iş mütləq baş tutmalıdır, əgər baş tutmasa, hamı ölməlidir" deməz. O Həzrət özü buyururdu:

**فلا تكفوا عن مقالة بحق أو مشورة بعدل**

"**Öz rəhbərinizə haqqı deməkdən və ya ədalətli məsləhətlər verməkdən çəkinməyin**"[1], mütləq deyin.

İmam Əlinin (ə) başqalarının məsləhətinə ehtiyacı var idimi? Yoxsa, xalqa başa salmaq istəyirdi ki, xalqın işlərini sahmana salmaq, xalqla hesablaşmaq, xalqla birgə yaşamaq lazımdır, İslam hökumətinin və insanlar arasında Allahın canişininin idarəçilik metodu ilə zalım və ədalətsiz hakimiyyətin rəhbərlik üslubu fərqlidir? Əmirəlmöminin Əlinin (ə) bu xütbədəki ilk cümləsi budur!

---

[1] "Nəhcül-bəlağə", xütbə 207 (bəzi nüsxələrdə xütbə 216.)

## Əmirəlmöminin Əlinin (ə) nəzərində tarixin əhəmiyyəti

Üzərində dayanmaq istədiyim mətləb tarixə diqqətdir. Əmirəlmöminin Əli (ə) buyurur ki, bəşəriyyətin keçmişinə nəzər salın və keçmişdə etdikləriniz səhvləri bir daha təkrar etməyin. Əlbəttə, xütbənin bəzi giriş sözləri adi "Nəhcül-bəlağə"lərdə yoxdur. Bəzi "Nəhcül-bəlağə" şərhçiləri zəhmət çəkib həmin giriş sözləri tapmışlar. Əmirəlmöminin Əli (ə) sözügedən xütbənin girişində bu cümləni xüsusilə vurğulayır:

**وقد قتل الله الجبابرة**

"**Allah zalımları öldürsün.**"[1] Yəni, zülm etməyin, Allah filan kafirləri və filan zalımları həlak etdi, yəni küfr və zülm etməkdən çəkinin. Xütbə belə cümlələrlə başlayır ki, mərhum Seyid Rəzi ilk cümləni "Nəhcül-bəlağə"də qeyd etməmişdir. Bəzi şərhçilər isə mənbə və qaynaqlardan onu axtarıb taparaq qeyd etmişlər. Bəli, tarixin keçmişinə diqqət olduqca əhəmiyyət kəsb edir.

Bu gün biz müsəlman cəmiyyət üçün tarixi keçmişə diqqət hədsiz dərəcədə önəm daşıyır. Ey müsəlman qardaşlar, ey Quran ardıcılları! Bir zaman Quran ardıcılları maddi və mənəvi nemətlərdən layiqincə bəhrələnirdilər, bu gün isə belə deyil! Nə hadisənin birinci, nə də ikinci hissəsində şübhə var! Bir gün onlar dünyanın imperatorları, böyük siyasi qüdrətləri idilər, yerüstü və yeraltı sərvətlər, sağlam iqtisadiyyat və ticarət, yaxşı kənd təsərrüfatı onlara

---

[1] "Nəhcül-bəlağənin şərhi", İbn Meysəm, c. 1, səh. 297.

məxsus idi. Bu gün isə onlardan əsər-əlamət yoxdur. Əxlaq və insani keyfiyyətlər, məhz İslam ərazilərində cücərən bir bitki idi. Bu gün həmin ərazilər bu bitkinin əsla cücərmədiyi şoranlığa çevrilmişdir. Əgər əkib-becərsəniz və göyərtsəniz də, az müddətdən sonra quruyacaqdır. İslam ərazilərində bütün gözəlliklər öz-özünə, təbii olaraq inkişaf edirdi. Bu gün isə, bütün gözəlliklər öz-özünə və təbii seyri ilə ölür. O, bizim keçmişimiz, bu da bizim indiki vəziyyətimiz! Bəs buna səbəb nədir?

## Xalqın azğınlıqdan doğruluğa qayıdışı

Görkəmli alim Mərhum Şərəfuddin Amili xəstəlik və müalicənin harada olduğunu bilir və onu sağaldırdı. (Bir gün) Livana, Cəbəl-Amilə getdi və şiələrin yalnız bir neçə peşə ilə məşğul olduğunu gördü; hamamda kisəçi, qarajda hambal və üçüncüsünü isə deməyə utanıram, xəcalət çəkirəm, demirəm, qadınlara aid bir iş idi. Livanda şiələrin şərafətli işləri bunlardan ibarət idi. Məsələni araşdırmağa başladı. Axı, şiələr nə üçün bu vəziyyətə düşüblər? Nə üçün şiə məzhəbinin ardıcılları bu cəmiyyətdə yaşamaq haqqını əldən veriblər? Hay-küy etməklə məşğul olmadı, ümidini üzmədi, məyus olmadı, sünnilərlə mübahisə və dalaşmaqla başını qatmadı, "döyüşək, görək kim kişidir" – deyə düşünmədi. Təbib kimi müalicəyə başladı, xəstənin nəbzini tutdu, dilinə baxdı, müayinə edib xəstəliyini müəyyən etdikdən sonra dərmanını tapdı. Bu böyük kişi, bu görkəmli şiə

alimi bir cümlə deyib: "**Alim gərək xəstəliyi və onun dərmanını bilsin.**" Keçən həftə qeyd etdim ki, alim qalanın üstündə dayanıb düşmənin haradan, hansı silahla və haçan hücuma keçəcəyini, haçan gizləndiyini, harada gizləndiyini, nə məqsədlə gizləndiyini (və gizləndikdən sonra nə edəcəyini) izləyib dəqiqləşdirən gözətçiyə bənzəyir. Onun gözləri zəif olmamalıdır ki, yalnız "gözətçi qülləsi"nin altını güclə görsün. Düşməni gördükdə, gözünü yumacaq və onu görməzdən gələcək, düşmən hücum edən zaman rahatçılığını fikirləşərək "günortadan keçib, mənim yatmaq vaxtımdır" deyəcək qədər vecsiz olmamalı və məsələlərə əhəmiyyətsiz yanaşmamalıdır. Eyni zamanda, "Düşmən nəkarədir! Mən qüllədə durmuşamsa, düşmən heç bir qələt edə bilməz." – deyə xudpəsəndlik etməməli, yersiz qürrələnməməli, düşünməli və ağıllı şəkildə davranmalıdır.

Şiə aləminin böyük mərcəi-təqlidi Şeyx Ənsari 1281-ci hicri-qəməri (1859-cu il) ilində vəfat etdikdə, həmin zaman mərcəi-təqlid üçün üç nəfər molla və böyük alimin adı çəkilirdi və camaat onalardan birini özünə mərcəi-təqlid seçməli idi. O üç nəfərdən biri böyük alim və görkəmli fəqih Mərhum Hacı Mirzə Həbibullah Rəşti idi, kitabı da qalır. İnsan bu kitabı mütaliə etdikdə, onun islami hüquq sahəsində elm dəryası olduğunu anlayır. İkincisi ali məqamlı şəxsiyyət Seyid Hüseyn Kuhkəməri idi. Azərbaycanlı və böyük ustad idi, çoxlu şagirdləri vardı. Minbərə çıxanda, yüzlərlə insana dərs deyirdi. Şeyx Ənsari ilk dəfə Nəcəfə gedəndə, 4-5 nəfərə tədris edirdi. Bir gün Seyid

Hüseyn Kuhkəməri məscidin bir küncündə əyləşib şagirdlərini gözləyərkən, təsadüfən, Şeyx Ənsarinin dərsini də dinləmək qərarına gəldi və Şeyxin savadlı molla olduğunu gördü. O bütün şagirdləri ilə birlikdə Şeyx Ənsarinin dərsində iştirak etdi. Şeyx Ənsarinin zamanında Seyid Hüseyn Kuhkəmərinin Nəcəf Elmi Hövzəsində şöhrəti hər tərəfə yayılmışdı, qeyd etdiyim kimi, Şeyx Ənsariyə bərabər bir şəxsiyyət idi, Şeyx Ənsarinin dostu idi. Amma öz istək və rəğbəti ilə Şeyxə şagirdlik edirdi. Üçüncüsü isə onlardan daha da gənc idi, onlar qədər sabiqəsi olmasa da, mərcəi-təqlid dərəcəsinə çatmışdı. O, Mirzə Həsən Şirazi idi.

Şeyx Ənsarinin vəfatından sonra 1281-ci hicri-qəməri ilində (1859-cu il) bu üç müctəhidin adı mərcəi-təqlid kimi dillərə düşdü. Hər üçü bir yerə yığışdı. Bir yerə yığışması da çox maraqlıdır. Amma burada onun haqqında danışmaq fürsətimiz yoxdur. Dedilər ki, İslam aləminin vəhdətinin qorunması naminə iki nəfərimiz birimizin xeyrinə kənara çəkilməli və mərcəi-təqlidliyi həmin bir nəfərə həvalə etməliyik. Öz təqlidçilərimizə də deməliyik ki, bundan sonra həmin müctəhidə təqlid etsinlər. Hər üçü bununla razılaşdı. Mirzə Şirazi dedi: "Gəlin, belə bir şəxsi seçək ki, ağlı elmindən çox olsun, molla, müctəhid və şübhəsiz, təqvalı olsun. Eyni zamanda, zəkalı və dərrakəli, bəsirətli və uzaqgörən olsun, düşməni uzaqdan tanıya bilsin – bəşərin və İslam cəmiyyətinin xeyrini, gələcəyini, hər bir şeyi dərk etsin."

Mirzə Həbibullah Rəşti və yaxud Seyid Hüseyn Kuhkəməri dedi: "Bu xüsusiyyətlərə, yalnız sən

özün sahibsən. Həm münasib elmi məqamın, həm də zəngin ağılın var.”

Hər iki müctəhid dedi ki, öz payımızdan, mərcəlik haqqımızdan üz çeviririk.

Bilirsinizmi yüz il bundan öncə mərcəi-təqlidin nüfuz və iqtidarı nə qədər idi? Baxın, əziz və möhtərəm ruhani alimlərimiz necə də mələksima insanlar olmuşlar! Belə böyük qüdrət, heysiyyət, nüfuz, ehtiram və belə ali məqamdan Allaha, ilahi hədəf və məsuliyyətə, İslam və müsəlmanlara xatir üz çevirmişlər.

Hər ikisi mərcəilikdən kənarlaşıb deyir ki, Hacı Mirzə Həsən Şirazi, sən mərcəi-təqlid olmalısan! Əlbəttə, o da dünyapərəst insanlar kimi, qarşısına bir şey qoyulduqda, dərhal qapıb ələ keçirməyə hazır biri deyildi. Onun da ruhu digər mərcəi-təqlidlər kimi pak idi, o da müqəddəs və pak ruha sahib idi. Odur ki, deyir: “Axı mənim risaləm yoxdur, mən risalə yazmamışam!”

Özünü mərcəi-təqlidliyə hazırlamayıbmış, mərcəi-təqlid olmağı xəyalından belə keçirməyibmiş. Dedilər: “Eybi yox, nə olar, sənə təqlid edənlərə xəbər ver ki, altı ay bizim risaləyə əməl etsinlər, sən də bu altı ay ərzində risaləni tərtib et və mərcəi-təqlid ol.” Belə də oldu. Ayətullah Mirzə Şirazini mərcəi-təqlid seçdilər və onun qüdrəti, nüfuzu “Tənbəki müqaviləsi”ndə[1] (və tənbəkiyə qadağa fətvasında) özünü göstərdi. Alimin məqamı budur! Alimin durumu budur: “Güclü durbinlərlə, modern silahlarla, möhkəm ağıl və

---

[1] Tənbəki ticarəti və istehsalının İngiltərənin inhisarında olması.

məntiqlə İslam qalasının gözətçisi olmaq." Alimin İslamın müdafiəsində istifadə etdiyi silah nədir? Agahlıq, ayıqlıq, məntiq, elm, təqva, xalislik, paklıq və iffət. Bir alim bu xüsusiyyətlərə sahib olmalıdır. Əmirəlmöminin Əli (ə) insanlara tövsiyə edir və buyurur ki, keçmişə baxın, ehtiyatlı olun ki, bədbəxtliyə düçar olmayasınız, tarixi araşdırın.

Mərhum Şeyx Şərəfuddin Amilidən danışırdım. Bu agah və ayıq alim Livan və Cəbəl-Amilin durumunu gördükdə, bir cümlə işlədir: İslam cəmiyyəti elə zərbə aldığı yerdən də hidayət olunmalıdır:

**لا ينتشر الهدى الا من حيث انتشر الضلال**

"**Azğınlıq haradan yayılıbsa, hidayət də elə oradan yayılmalıdır.**"

Nə üçün Livan şiələri zəif və zəlil idilər? Çünki savadsız və maarifsiz idilər, ayıq deyildilər, kitab oxumurdular, öz hüquqlarından xəbərsiz idilər. Onlar azad olsalar da, mənada ilişib-qalmışdılar. Küçə-bazarlarda gəzib dolansalar da, həqiqətdə dəyirman daşı kimi, yerlərində sayırdılar. Qarşıları və ruhlarında açıq üfüq, ayıqlıq və mərifət yox idi. Odur ki, ayılmalı, mərifət qazanmalı idilər. Görəsən, haradan başlamaq lazımdır? Sıfırdan; Bismilləhir-Rəhmənir-Rəhim deyib, ikiotaqlı evi mədrəsəyə çevirməli – birini özü və əhli-əyalı, birini də Livan uşaqları üçün. Həmin birotaqlı mədrəsə bu gün Livanda şiə təlimlərini mənimsəmək üçün xaricdən tələbə qəbul edən böyük universitetlərdən birinə çevrilmişdir. Bildiyiniz kimi, bu gün Livanda üç siyasi qüdrətdən biri dinin şərəfi Əllamə Şərəfuddinin səyi nəticəsində şiənin qüdrətidir.

Qeyd etdiyim "Nə üçün müsəlmanlar o zaman elə, indi isə belədir və qayıdış yolu nədir?" – sualın cavabı İmam Əlinin (ə) kəlamının davamı sayılan Əllamə Şərəfuddinin qısa cümləsidir:

"**Azğınlıq haradan yayılıbsa, hidayət də elə oradan yayılmalıdır.**"

Bədbəxtlik, pozğunluq və azğınlıq hansı dəlikdən yağıbsa, hidayət və doğru yolu da elə oradan – öyrənib-öyrətmək, dəyərli mətləbə malik qəzetlər, elmi kitablar, maarifləndirici kütləvi informasiya vasitələri sayəsində və Quranı, dini düzgün başa düşməklə –gətirmək lazımıdır.

## Əmirəlmöminin Əlinin (ə) inqilabi sözləri

**ذمتي بما أقول رهينة و أنا به زعيم**

"**Mənim əhdim dediyim sözlərin girovundadır və mən onların hamısına zəmanət verirəm.**"

**إن من صرحت له العبر عما بين يديه من المثلات حجزته التقوى عن تقحم الشبهات**

"**Həqiqətən, ibrətlər hər kimə qarşısındakı cəzaları aydınlaşdırarsa (kim keçmişdəkilərin əməl və rəftarlarından, eləcə də pis aqibətlərindən ibrət alarsa), (şəxsi, əməli, fikri, ruhi, siyasi və ictimai) təqva onu şübhələr diyarına düşməkdən (şübhə və bədbəxtliklərə düçar olmaqdan) qoruyub-saxlayar.**"

**ألا و إن بليتكم قد عادت كهيئتها يوم بعث الله نبيكم (صلى الله عليه و آله)**

“**Agah olun! Həqiqətən, sizin başınıza gələn bəla Allahın sizin Peyğəmbərinizi (s) seçdiyi gündə düçar olduğunuz bəlanın oxşarı kimidir.**”

Bəla həmin bəla, xəstəlik həmin xəstəlik, bədbəxtlik də həmin bədbəxtlikdir, deməli, əlacı da eynidir. Bu, müqəddimədir. Hökumətlə bağlı məktub isə buradan başlayır:

**و الذي بعثه بالحق لتبلبلن بلبلة و لتغربلن غربلة و لتساطن سوط القدر**

“**And olsun Peyğəmbəri haqq olaraq göndərənə! Bir-birinizə elə qarışacaqsınız, elə mat-məəttəl qalacaq, elə yıxılacaq, torpaq ələkdən keçdiyi kimi, elə ələnəcəksiniz ki,**” – “**Sizdən ən aşağıda olan ən yüksək məqama yüksələcək.**” və – “**Sizdən ən yüksəkdə olan isə ən aşağı məqama enəcək.**”

(Fərz edin ki,) bizim üçün bir mağaza tikilib, vitrinə də mallar yığılmışdır. Ən başda sərvət sahibi olduğu üçün Əbdürrəhman ibn Ovfu, bir tərəfdə dualarına görə Təlhə ilə Zübeyri, digər tərəfdə də xəlifə ilə dostluğuna görə Osmanın qohum-əqrəbasını qoyublar. Əmmar, Bilal və Əbuzər isə ən aşağı vəzifədə yerləşdiriblər. Əbuzəri dağ-dərə və səhralara sürgün etdilər və elə oradaca vəfat etdi ki, Əbdürrəhman ibn Ovf külçə-külçə qızıllarla xoş güzəran keçirsin, Təllhə ilə Zübeyr dəbdəbəli həyat sürsün, Səd ibn Əbi Vəqqas ağalıq etsin... Əmmar Yasir və yaxud Abdullah ibn Məsud isə xəlifənin əli ilə döyülsün, qabırğaları sınsın. Bunun səbəbi Mərvan, Vəlid və başqalarının rahatlıqla ağalıq edə bilməsi idi. Mağaza üçün vitrin düzəltmiş, insanları təbəqələrə bölmüş, onların arasında ayrı-seçkilik

yaradıb, onları bir-birindən ayıraraq bəzilərini yuxarıda, bəzilərini isə aşağıda yerləşdirmişlər; bəziləri tox, bəziləri isə ac olduqları halda ölməli idi! Əmirəlmöminin Əli (ə) buyurur ki, biz bu vitrini dağıdacağıq, alt-üst edəcəyik:

"**Aşağıdakıları dindarlıq şərəfi ilə yuxarıda, yuxarıdakıları isə nifaq və fasiqlik damğası ilə aşağıda yerləşdirəcəyik.**"

Bu, Əmirəlmöminin Əlinin (ə) proqramı idi; elan etdiyi vaxtdan icra etməyə başladı və şəhadətə yetdiyi vaxta qədər elə bu yolda da addımladı.

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə, Əmirəlmöminin Əlinin (ə) məqamına and veririk, bizi Əmirəlmöminin Əlinin (ə) ardıcıllarından et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Sənin razı olduğun işlərdə müvəffəq et, səhlənkarlıqları, tənbəllikləri, süstlükləri və zəiflikləri bizdən uzaqlaşdır!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Özünün layiqli və saleh bəndələrindən et, layiqli və saleh bəndələrini həyatda qalib və müvəffəq et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi şiə yaşat və şiə öldür!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, müvəffəqiyyətin, peyğəmbərliyin, İslamın, imanın, şiəliyin, imamlara itaət və məhəbbətin mənasını – bütünlüklə, İslamın həqiqi və dəyərli maarifini bizə anlat!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, müsəlmanların işlərindəki düyünləri aç!

## 6

# FİTNƏ ZAMANI İNSANLARA RƏHBƏRLİK[1]

**Bağışlayan və mehriban Allahın adı ilə!**

**أوصيكم عباد الله بتقوى الله فإنها خير ما تواصى العباد به و خير عواقب الأمور عند الله و قد فتح باب الحرب بينكم و بين أهل القبلة و لا يحمل هذا العلم إلا أهل البصر و الصبر و العلم بمواقع الحق فامضوا لما تؤمرون به و قفوا عند ما تنهون عنه و لا تعجلوا في أمر حتى تتبينوا فإن لنا مع كل أمر تنكرونه غيرا**[2]

## Xütbənin başlanğıcında Peyğəmbər (s) və onun haqq canişininin tanıtdırılması

Bu dəyərli kəlam, məzmunundan əldə olunan nəticəyə əsasən, Əmirəlmöminin Əli (ə) ilə Müaviyənin ordusu arasında müharibə odunun

---

[1] "Nəhcül-bəlağə"nin 168-ci xütbəsinin bir hissəsinin şərhi – 1974/11/01.

[2] "Nəhcül-bəlağə" xütbə 168.

qalandığı zamana aiddir. Xütbənin başlanğıcında Allahın Peyğəmbəri (s), Onun vəhyinin əmanətdarı haqqında söz açılır ki, xalq öz vəzifəsini bilsin, möminlərin əmirinə itaət və şəraitə uyğun zəruri məsələlərdə qərar qəbul etsin; sanki Peyğəmbərin (s) besət və nübuvvətinin xatırlanması zəruri imiş. Nübuvvətlə bağlı bəhslərdə indiyə qədər bir-iki dəfə qeyd edilmişdir ki, nübuvvətə etiqad bir zərurət və öhdəliyin daşıyıcısıdır. İnsan Peyğəmbəri-Əkrəmin (s) Allahın seçib göndərdiyi son peyğəmbər olduğuna inanıb şahidlik etdikdə, həqiqətdə, öhdəsində bir məsuliyyət olduğunu qəbul edir. Bu məsuliyyət iki kəlmədən – Peyğəmbərin (s) hədəfini qəbul etmək və hərəkət etdiyi yolda irəliləməkdən ibarətdir. Əmirəlmöminin Əli (ə) bu xütbədə nübuvvətlə bağlı bəzi mətləblərə toxunduqdan sonra Peyğəmbərin (s) canişinliyinə layiq şəxsdən söhbət açmağa başlayır.

## Haqq imam və xəlifənin xüsusiyyətlərini bəyan etməyin səbəbi

Lakonik və ibrətamiz cümlələrdə dövrün insanlarının agahlığı üçün belə bir insanın xüsusiyyətləri haqqında söz açır. Bu da o zaman üçün lazımi mətləb imiş. Mərhum Seyid Rəzi[1] bu xütbənin "Siffeyn" döyüşünün başlanğıcında

[1] Seyid Rəzi adı ilə tanınan Əbülhəsən Məhəmməd ibn Hüseyn ibn Musa 4-cü əsrin fəqih və şairlərindən olmuş və "Nəhcül-bəlağə"ni toplamışdır.

söylənildiyini qeyd etməsə də, ümumilikdə belə qənaətə gəlmək olar.

Bütün mətləblərin puç və yalan olmadığını camaata anlatmaq və camaatın Əlinin (ə) ardınca hərəkət etməsinin hisslərə deyil, haqq və həqiqətə söykənməsini və o Həzrətə itaətin səbəbini açıqlamaq üçün onlarda əsaslı şəkildə ideologiya formalaşdırmaq lazım idi. Bu ideologiya yalnız camaat namazında, yaxud Əmirəlmöminin Əlinin (ə) möizə məclislərində iştirak etmək, məsciddə insanlar arasında o Həzrətin mədhi və tərifindən danışmaqla, Əbu Dərda[1] kimilərin də o Həzrətə və yaxınlarına məhəbbət göstərməyə hazır olduğunu bildirməklə formalaşmırdı. Bu məşhur hekayə hələ də dillər əzbəridir. Bir gün Əbu Dərda, müsəlmanlardan və Peyğəmbərin (s) səhabələrindən bir qrupu əyləşmişdilər. Onlar: "Peyğəmbərin səhabələri arasında ən üstün, ən şərəfli və ən ali məqamlı şəxs kimdir?" – sualı haqqında bir-birilə bəhs edirdilər və hərə bir söz deyirdi. Əbu Dərda bu gün də dillərdə gəzən Əmirəlmöminin Əlinin (ə) gecə ibadətini nəql etməyə başladı: "Bir gün Əli (ə) gecə yarısı xurmalıqda ibadət edərkən o qədər ağladı ki, qəşş etdi."[2]

Əmirəlmöminin Əlinin (ə) fəziləti ilə bağlı söz düşdükdə, hamı onun mədhi və fəziləti haqqında danışmaq istəyir. Əbu Dərda da bundan istisna deyil.

---

[1] "Əbu Dərda" ləqəbi ilə tanınan Üvəymir ibn Zeyd Xəzrəci - Peyğəmbərin (s) səhabələrindən və Quranı toplayanlardan biri olub. Əmirəlmöminin Əlinin (ə) xilafəti dönəmində baş verən "Siffeyn" döyüşündə iştirak etməkdən imtina etdi.

[2] "Əmali", Şeyx Səduq, səh. 78-79.

Əbu Dərda sonralar Müaviyənin süfrəsində əyləşməsinin, onun zalımanə hörmətsizliklərinə şərik olduğunun, bəzən də söz aparıb-gətirdiyinin şahidi olduğumuz həmin şəxsdir.[1]

Camaat namazında Əliyə (ə) iqtida etmək məsələsi ortalığa gəldikdə, yenə hamı o Həzrətlə namaz qılmaq istəyir. Əlidən öyüd-nəsihət dinlənilməsindən söz düşdükdə, hamı hazır olduğunu bildirir. Bu iş o qədər də çətin deyil, amma döyüş zamanı Əlinin (ə) yanında olmaq, öz canını ortaya qoymaq, daha önəmlisi qarşına çıxanları qılıncdan keçirməklə qana boyamaq, döyüş meydanında öz canından keçmək, yaxud zahirdə müsəlman olan birinin qanını axıtmaq kimi məsələlərlə qarşılaşdıqda, varlığını güclü və möhkəm iman, sarsılmaz etiqad və kamil yəqin bürüməlidir. İndi də "Siffeyn" döyüşünün başlanğıcında Əmirəlmöminin Əli (ə) xalqla xilafətə və Allah Rəsulunun (s) canişinliyinə həqiqətən də layiq olan şəxs haqqında əsaslı şəkildə danışır, həssas və həlledici vəziyyətin yarandığını bildirir. Bu, xütbənin bir hissəsindən ibarətdir.

## Hər yerdə və hər zaman təqvanın zəruriliyi

Amma nəzərdə tutduğumuz hissənin bir neçə ibrətamiz cümləsi var ki, həmin cümlələri tərcümə və şərh etmək istəyirəm. Birinci cümlə budur:

أوصيكم عباد الله بتقوى الله

---

[1] "Vəqəətu Siffin", səh. 190.

“**Ey Allah bəndələri, sizə ilahi təqvanı və Allahdan qorxmağı tövsiyə edirəm.**”

Çox maraqlıdır! Hər yerdə təqvaya tövsiyədir. Təqvanı ibadət mehrabı, səccadə və məscidlə yekunlaşdırmamalı, xaricdə və zehnimizdə təqvalılıq jesti ilə uzlaşan hər bir şeylə inhisar etməməliyik. Təqva mömin bir insanı günah dairəsindən – Allahın əmri ilə müxalifətçilikdən – uzaqlaşdıran halət və ruhiyyəyə deyilir. Bir zaman bəzi söhbətlərimdə təqvanı günaha qarşı peyvəndə bənzətmişdim. Bəzən, insan xəstələndiyi zaman özünü müalicə etdirir. Bəzən isə onda elə bir müqavimət halı yaranır ki, xəstəlik ona təsir etmir. Təqva belə bir halətdir. Hər bir işdə, hər bir peşədə, həyatın hər bir sahəsi və səhnəsində “təqva” fərqli mənalar kəsb edir. Namazın ilk vaxtda qılınmasında təqvanın mənası insanın təvazökarlıq və qəlb iştirakı, zahiri və batini paklıqla Allaha ibadət və zikr etməsidir. “Ticarətdə təqva”nın mənası insanın “alış-veriş” adı ilə oğurluq etməməsidir. “Düşmən müqabilində təqva”nın mənası insanın ona aldanmamasıdır. “Döyüş meydanında təqva”nın mənası döyüş meydanından fərar etməməsidir. “Danışıqda təqva”nın mənası haqq danışması və həqiqəti gizləməməsidir. Həyatın hər bir sahəsində təqva fərqli nümunə kəsb edir. Ümumiyyətlə, təqvanın məfhum və mənası bəzi rəvayətlərdə belə qeyd edilib:

**يراقب الله فى كل حال فعل يفعله و فى كل يتركه**

“**Yerinə yetirilən və yetirilməyən hər bir işdə ilahi göstəriş, vəzifə, məsuliyyət və öhdəliyə diqqət yetirməkdir.**”

“**Sizə ilahi təqvanı tövsiyə edirəm.**”

Əgər insanlar təqvalı olsalar, özlərində günah müqabilində müqavimət halı yaratsalar, o zaman insanı xarici qüvvələr – cürbəcür kəndirlər və hiylələrlə istənilən tərəfə çəkməyə çalışan müxtəlif şeytanlar bu möhkəm qayanı yerindən tərpətməkdə aciz qalacaqlar. İnsanda təqva yarandıqda, əks istiqamətdə əsən külək onu hərəkətə gətirə bilməz. Odur ki, Əmirəlmöminin Əli (ə) insanlarda təqva haləti yaratmağa çalışır.

## Ən yaxşı işə – Təqvaya tövsiyə

**أوصيكم عباد الله بتقوى الله**

“**Sizə ilahi təqvanı tövsiyə edirəm.**”

**فإنها خير ما تواصى العباد به**

“**Şübhəsiz, təqva Allah bəndələrinin bir-birinə tövsiyə etdiyi ən yaxşı işdir.**”

İnsanlar bir-birinə bir çox işləri tövsiyə edə bilərlər, amma təqva bu tövsiyələrin ən xeyirlisidir. İnsanlar qayğı və xeyirxahlıq səbəbilə dostlarını, yaxınları və qardaşlarını bir çox göstərişlərə yönəldə bilərlər, amma həmin göstərişlərin ən üstünü təqvadır.

“**Şübhəsiz, təqva bəndələrin bir-birinə tövsiyə etdiyi ən yaxşı işdir.**” Çünki onu təkamül və mənəviyyat yolunda irəli aparan təqvadır. İnsanın tarixi təkamül yolunda asanlıqla hərəkət etməsi, sürətinin artması, iffətsizliyə bulaşmaması, pak qalması və pak yaşaması, düzgün yolda və istiqamətdə addımlaması, şeytani və nəfsi istəklərin heç birinə uymamasına səbəb olan təqvadır. İnsanı

təkamül yolunda irəlilədən, onu kamil insana çevirən bu halətdir.

## Təqva – Ən gözəl sonluq

**و خير عواقب الأمور عند الله**

"**Allah dərgahında (işlər üçün fərz olunan) ən gözəl aqibət və ən gözəl sonluq təqvadır.**"

Siz nə üçün zəhmət çəkirsiniz? Sizin çalışıb səy etməyinizdə məqsəd və məramınız nədir? Bir sıra işlər, təlaşlar təqva əldə etmək məqsədilə yerinə yetirilir. Qurani-Kərimdə bir çox əməl və vəzifələri bəyan etdikdən sonra "**bəlkə təqvalı olasınız"** – deyə buyurulur. "Bu işi yerinə yetirin, bu işə səy göstərin, bu addımı atın ki, təqvalı olasınız." Təqva insanın təkamül vasitəsi olmaqla bərabər, bir çox fəaliyyətlər üçün hədəf, qayə və ən gözəl sonluqdur. Dünya üçün işləməyin dəyəri yoxdur, nəfsin istəklərinin təmini üçün zəhmətə qatlaşmaq puç və mənasızdır. Lakin təqvalı olmaq üçün nə qədər çalışsan da, əməyin faydasız olmayacaq, gördüyün iş və hərəkət mənalı olacaq, gözəl sonluqla bitəcək. Nə üçün? Çünki yaxşı iş görmək, yaxşı aqibətə sahib olmaq üçün dünyaya gəlmişik.

Əgər hərəkət etmək, bir nöqtə və bir yerə çatmaq üçün (Allah tərəfindən) gəldiyimizi qəbul ediriksə, gəlişimizi küləyin göyə sovurduğu bir ovuc saman və bir ovuc yarpaq hesab etmiriksə, onda çalışmalı və təqvaya yiyələnməliyik.

Görəsən, bizim dünyaya – bu böyük varlıq aləminə gəlişimiz təsadüfidirmi? İlahi məntiq bunu inkar edir. İlahi məktəb deyir ki, səni gətirən biri var

və onun səni gətirməkdə məqsədi var. Yəni, sən boş yerə yaradılmamısan, əgər səni bu dünyaya bir qüdrətin gətiridiyini qəbul edirsənsə, onda səni gətirməkdə bir səbəbi, bir hikməti və bir məqsədi vardır. Əgər buna inanır və mənzil başına doğru hərəkət ediriksə, bilməliyik ki, təqva bu yolda bizə güc verən ən yaxşı amil, iş və fəaliyyətimizi hədəf və məqsədə doğru aparan sürətli vasitədir.

"**Allah dərgahında ən gözəl aqibət və ən gözəl sonluq təqvadır.**"

## Döyüşün başlanğıcında təqvaya tövsiyənin səbəbi

Nə üçün təqvalı olmalıyıq? Əmirəlmöminin Əlinin (ə) söz açdığı bu meydanda, bu zaman və məkanda təqvanın faydası nə ola bilər? O zaman Əmirəlmöminin Əli (ə) bu ritorik sualın cavabında dil açıb dillənir:

**و قد فتح باب الحرب بينكم و بين أهل القبلة**

"**Həqiqətən, sizinlə qiblə əhli(ndən olan fitnəkarlar) arasında döyüş qapısı açılmışdır.**"

Yəni, siz Allahın Peyğəmbəri (s) ilə sağ olduğu müddətdə birgə döyüşdünüz, cihad meydanlarına birgə getdiniz, amma kiminlə döyüşürdünüz? Kafir bildiyiniz kəslərlə, parlaq günəşdən də aydın olan Allah kəlamını, ayələrini, hökmlərini və dəlillərini görməzdən gələnlərlə! İnsanlıq qapısını öz üzlərinə bağlayan kəslərin üzərinə qılınc çəkir, xeyirxahlıq yolunun quldurları, qurdları və oğruları sayılanları aradan qaldırırdınız. Müharibə meydanlarında Peyğəmbərin (s) hüzurunda düşmənlərlə, kafirlər və

yəhudilərlə döyüşdüyünüz zaman, kimlərlə döyüşdüyünüzü bilirdiniz. Kimin qolunda güc və qəlbində iman vardısa, bu meydana daxil olurdu. Aydın Quran ayələri də onlara ilham verirdi, sizə Allahın nemətini xatırladırdı. Siz də gedib döyüşürdünüz. Belə döyüş elə də çətin deyil, belə döyüşdə iştirak etmək ayıqlıq istəmir, belə döyüşdə bəsirət və mərifət elə də böyük rol ifa etmir. Nə üçün? Çünki düşmən bəlli idi, cərgələr bir-birindən fərqlənir, seçilirdi. Sən hansı cərgədə olduğunu və qarşındakı düşmənin də harada və hansı cərgədə olduğunu bildiyin halda, onunla döyüşür, mübarizə aparırdın. Bunun üçün hədsiz mərifət, bəsirət və ayıqlığa ehtiyac duyulmurdu. Amma Əmirəlmöminin Əlinin (ə) bu sözü bəyan etdiyi gün vəziyyət tamamilə dəyişmişdi. Meydan döyüş meydanı olsa da, döyüş həmin döyüş deyildi. Ordular sıralara düzülsə də, Peyğəmbərin (s) zamanındakı sıralardan fərqli idi. Hətta düşmən o zamanın düşmənindən güclü və təchizatlı idi, onun qəlbindəki kin-küdurət belə daha şiddətli, daha dərin idi. Zahirdə isə eyni sırada, müsəlman kimi görünürdü. Həmin düşmən, həmin qılınc və həmin qərarla indi sizin kimi həqiqi müsəlmanlarla döyüşə gəlmişdilər. Amma həqiqi düşmənçiliyini göstərən məğrurcasına şüarları bir kənara ataraq daha bişmiş, daha ağıllı, daha bacarıqlı şəkildə döyüşə gəlirdilər. Burada düşmən qiblə əhlidir! Sən qıldığın namazı o da qılır. Sən yerinə yetirdiyin ibadəti o da yerinə yetirir, hətta zahirdə səndən daha yaxşı, ədəb qaydaları və hər şəraiti öz yerində!

# Əmirəlmöminin Əlinin (ə) hakimiyyəti dövründəki fitnələr

Əmirəlmöminin Əlinin (ə) bu cümləsini yalnız "Siffeyn" döyüşünə deyil, "Nəhrəvan" və "Cəməl" döyüşlərinə də aid etdikdə, cümlənin xarici nümunəsi həqiqi mənada öz yerini tutacaqdır. Belə bir meydanda döyüşmək olduqca çətindir. Hələ o gün (Əlmirəlmöminin (ə) sözügedən cümləni buyurduğu gün) Əli (ə) ilə döyüşənlər keçmişdə də Quran və İslamla döyüşürdülər. Əlbəttə, döyüş iştirakçılarının eyni olduğunu deməklə fərdlərin eyniliyini deyil, əksinə eyni təfəkkür tərzi və eyni sıranın adamları olduğunu nəzərdə tuturam. Bununla belə, onlardan bəziləri doğrudan da, vaxtilə açıq-aşkar Quran və İslamın əleyhinə döyüşənlər, "Ühüd" və "Bədr" döyüşlərində "u`lu Hubəl, u`lu Hubəl" (ucal Hubəl, ucal Hubəl) – deyə şüar verənlər idilər. Onların şüarları məşhur və hamının tanıdığı Hubəl bütünün adını daşıyırdı: Döyüş meydanına "Yaşasın Hubəl, yaşasın Hubəl! Ucalsın Hubəl, ucalsın Hubəl!" – şüarları ilə ayaq basırdılar. Bəli, müsəlmanlarla birgə "Əllahu ə`la və əcəll" (Allah daha uca və daha böyükdür)[1] – deyərək qılınclarını siyirib düşmənin özünün, Hubəlinin və şüarının əleyhinə döyüşmək və onları həlakətə uğratmaq çox asan idi. Bu gün isə həmin münafiq (ikiüzlü), qəlbi kafir, Allaha iman gətirməyən və sənin qibləni qəbul etməyənlər "Allah" şüarı ilə döyüş meydanına ayaq basmışlar. Bu gün necə? Bu gün belələrinin

[1] "Xisal", c. 2, səh. 397.

müqabilində dayanmaq üçün cəsarətlə, şücaətlə, imanla, qətiyyətlə meydana ayaq basa biləcəksən, ya yox? Əmirəlmöminin Əlinin (ə) məqsədi bu idi.

## Tarixdən ibrət götürmək, onun ənənələrini öyrənməyin əhəmiyyəti

Tarixdən kənara çıxın. Əmirəlmöminin Əli (ə) haqqında danışmaqda yalnız tarixin nümunəvi şəxsiyyəti və o Həzrətin vəziyyəti ilə tanışlıq məqsədi güdülmür. Bu, elə də mühüm və zəruri bir məsələ deyil, mühüm olan tarixlə tanışlıqdır. Dəfələrlə demişik ki, İslamın nəzəri və dünyagörüşünə əsasən, tarixi qanunauyğunluqlar həmişə bərabər və eyni olub. Tarixə hakim bu qanun və ənənələr əsrlər boyunca, “tarix” adlı uzun zolağın əvvəlindən sonuna qədər həmişəyaşar və dəyişilməzdir. Əgər Əlinin (ə) zamanını tanıdınsa, Əlidən (ə) sonrakı və daha sonrakı zamandan tutmuş, öz zamanına və Qiyamətə qədər bütün zamanları tanıya biləcəksən.

## Aşkar düşmənlə dost libasında olan (gizli) düşmən

Həmişə belə olub, bir qrup təməl fikir, azad fikir, qurucu və yaradıcı fikir müqabilində əlinə qılınc alıb dayanmışdır, çünki həmin fikri və onun carçılarını gücləri çatdıqca əzmək istəmişlər. Belələri üzbəüz dayanmış düşmənlərdir. Təbii ki, belə bir fikir və əqidəyə meyilli və bağlı olan hər bir kəs bu düşməni tanıyacaq. Həm Peyğəmbərimizin (s) zamanında o

Həzrətlə üzbəüz döyüşən, həm də Əmirəlmöminin Əli (ə) və İmam Sadiqin (ə) zamanında da onlarla döyüşən və mübarizə aparan düşmənlər olmuşdur. Şiəlik qarşısında xalis və maskasız düşmənlər mübarizə aparmış, ona qarşı çıxaraq düşmənçilik etmişlər. Belələri üzbəüz döyüşən və aşkar düşmənlər sayılırlar.

Üzbəüz düşmənin təhlükəli olmadığını demirəm. Onlar da təhlükəlidir, amma təhlükəsi ikinci növ düşməndən azdır. Bu gün kimsə sizə şiəliyin əleyhinə danışmaq, şiəyə nalayiq söz demək, şiəliyi gözdən salmaq, imamınızı söymək, dininizi istehza etmək istəsə, siz onunla nə edərsiniz? Əlbəttə, İslamın ilkin vəzifələrini yerinə yetirməkdə özü aciz qalan bugünkü müsəlmandan[1] danışmağa dəyməz. Düzgün və qorxmaz müsəlman bu hörmətsizliklər – bu söyüşlər, yaramazlıqlar və müxalifətçiliklər müqabilində nə edər? Aydındır. Müxalifətçilik müqabilində müxalifətçilik edər. Amma bir növ düşmən var ki, olduqca təhlükəlidir. O, hansı düşməndir? O düşmən gizlidir, üzbəüz gəlmir, düşmənçilik libası geyinmir, insan qarşısında qılınc qaldırmır, əksinə dostluq, qayğı və tərəfdarlıq libasında, hətta həqiqi və doğru şüarlarla meydana qədəm qoyur. Bu, olduqca təhlükəlidir:

**ومن الناس من يعجبك قوله في الحياة الدنيا ويشهد الله على ما في قلبه وهو ألد الخصام**

“**İnsanlardan eləsi vardır ki, onun dünya həyatı ilə bağlı sözləri səni təəccübləndirər. O,**

[1] Şah dövrünə işarədir.

**qəlbində olana da Allahı şahid tutar. Halbuki o, düşmənlərin ən qəddarıdır.**”[1]

Belə düşmən and da içir, sevgi nümayiş etdirir, bəzən, həqiqi tərəfdardan da artıq əl-ayağa düşür, xidmət göstərir, halbuki o, düşmənlərin ən inadkarı, ən qəddarı və təhlükəlisidir. Bu cür düşmənlər elə ilk günlərdən İslamla birgə olmuşlar. Əmirəlmöminin Əli (ə) bu məqamlardan birinə toxunaraq buyurur:

“**Həqiqətən, sizinlə qiblə əhli arasında müharibə başlanmışdır.**”

Belə bir məqamda məsələ olduqca çətinləşir. Əmirəlmöminin (ə) növbəti cümlədə qurtuluş yolunu göstərir, indi onu sizin üçün oxuyacağam. Bu, nümunələrdən biridir.

İmam Sadiqin (ə) düşmənləri belə idi. O Həzrət buyurur ki, bizim hər birimiz yalançı insanla üz-üzə qalmışıq:

**لا نخلو من كذاب يكذب علينا**

“**Heç birimiz özünü dost kimi göstərən xəbis və yalançı bir insandan uzaq deyilik.**”[2] Danışanda bizə istinad edir, bizim adımızdan danışır, bizə tərəfdarlıq etmək üçün bir söz deyir, amma bizə qəlbən nifrət edir.

İmam Sadiqdən (ə) bu məzmunda bir neçə hədis nəql olunmuşdur. Bəziləri İmam Sadiqlə (ə) üzbəüz düşmənçilik edirdi; Mənsur Abbasi, Hişam ibn Əbdülməlik və dövrün digər qüdrət sahiblərini – istər ruhani, istərsə də siyasi qüdrət sahiblərini – buna misal göstərmək olar. Bu olduqca aydın bir məsələdir. Əbu Hənifə və Əbu Yusif Qazi kimilər

---

[1] “Bəqərə” surəsi, ayə 204.

[2] “Biharul-ənvar”, c. 2, səh. 217.

hər yerdə çəkinmədən, açıq-aşkar İmam Sadiqi (ə) pisləyir, gözdən salırdı, bunu həm sözdə, həm də əməldə göstərirdi. Bəziləri isə dostluq libasında İmam Sadiqlə (ə) döyüşürdü. Onlar daha təhlükəli idilər. Daha təhlükəli olduqlarının səbəbi də budur ki, İmam Sadiqin (ə) tərəfdarları üzbəüz (aşkar) düşməni tanıyırdı, amma münafiq, riyakar və dostluq libasındakı düşməni tanımaq çətin olduğundan, zərbəni də ondan alırdılar. Hər zaman belə olub. Müsəlmanlar dost simasında olan gizli və məxfi düşmənlərini tanımaq üçün mütləq gözlərini açmalı, ayıq olmalıdırlar və bu da olduqca çətin bir işdir.

## Fitnə zamanı müvəffəqiyyət rəmzi – Səbir və bəsirət

"**Həqiqətən, sizinlə zahirdə eyni əqidəni daşıyan qiblə əhli arasında döyüş başlanmışdır.**"

Bu gün sizin qarşınızdakı düşmən aşkar, aydın və bəlli deyil, əksinə işi və şüarı oxşar, məsləki də sizinlə eynidir. Belə düşmənlə döyüşmək çox çətindir. Əmirəlmöminin Əli (ə) belə düşmənlə mübarizə aparmağın yolunu bizə öyrədir və göstərir.

**و لا يحمل هذا العلم إلا أهل البصر و الصبر**

"**Bu bayrağı yalnız iki xüsusiyyətə sahib olan bir camaat əlində daşıya bilər: Birincisi bəsirət və ayıqlıq, ikincisi də səbir və müqavimətdir.**"

Əgər insan zahirdə dost, məslək, əqidə və xəttində iltizamlı, batində isə həmin məslək və əqidəyə düşmən olanların tələsinə düşməmək və onları tanımaq istəyirsə, ayıq olmalıdır. Bu gün

dünyanın hər bir məntəqəsində yaşayan müsəlmanların İslam dünyasını əzmək istəyənlər tərəfindən ortaya atılan qəribə siyasət müqabilində ən mühüm vəzifələri budur ki, bəsirət, mərifət və agahlıqlarını gücləndirsinlər. Müsəlmanlar başa düşmək və hər şeydən xəbərdar olmaq üçün çalışmalıdırlar. Ayıq olmasalar, həyat yolları aydın olmayacaq; müsəlman diqqətli və ayıq olmayınca, gözünü açmayınca, cürbəcür sima və libasda olan düşməni tanıya bilməyəcək. Biz bu gün istənilən libasda – hətta dost və sevgi libasında, carçı və iddiaçı libasında – olan düşmənlərimizi, dinimizin, Quranımızın və "Nəhcül-bəlağə"mizin düşmənlərini həmişəkindən daha çox tanımağa ethiyaclıyıq. Dinin, Quranın və İslam cəmiyyətinin bugünkü mütərəqqi düşmənləri onlardan bəsirət və ayıqlığı almaq, onları səriştəsiz və qəflətdə böyütmək, başlarını zahiri əməllərə qatmaq, təfəkkür və düşüncədən uzaqlaşdırmaq üçün əllərindən gələni əsirgəmədikləri kimi, biz də Quranın və Əmirəlmöminin Əlinin "Nəhcül-bəlağə"dəki göstərişləri, Əhli-beyt (ə) məktəbinin buyruqları əsasında bəsirətimizi, məlumat və ayıqlığımızı daha da artırmalıyıq. Heç vaxt "Bir daha fikriləşməyəcəm!", "Mənə nə!", "Başa düşdüm ya düşmədim, nəyimə lazım!" – deməyin. Heç vaxt deməyin ki, o, belə dediyi, bu elə dediyi üçün, deməк, düz deyib. Çalışın özünüz düşünün. Təqlid olunan füruid-din istisna olmaqla, dinin heç bir məsələsində təqlid yoxdur. Biz yalnız füruid-dində – fənn əhli, mütəxəssisin (müctəhidin) İslam cəmiyyəti üçün bəyan etdiyi hökm və qərarlarda

təqlid etməliyik, bundan başqa, digər dini məsələlərdə təqlid yoxdur. Hər bir şeyi bilmək, başa düşmək, tanımaq, din yolunda bəsirətli olmaq bir zərurətdir. Bu yolda dərrakə və təfəkkürlə addım atmaq lazımdır ki, Allahın düşməni insanı bu yoldan döndərməyi, "din" adı ilə başqa bir yolu bizə yeritməyi bacarmasın:

"**Bu mübarizə və cihad bayrağını bəsirət və səbir əhlindən başqası daşıya bilməz.**"

İkinci şərt isə dözümlü olmaq, müqavimət göstərməkdir. Səbri müqavimət kimi mənalandırdıq. Azğın əqidələr, məhdud düşüncələr, şeytani vəsvəsələr və dünyəvi bərbəzəklər müqabilində möhkəm olmaq, insanı Allah yolundan uzaqlaşdıran hər bir zərbəyə dözmək "müqavimət" adlanır. Bu növ müqavimət səbrin mənasından ibarətdir.

**إلا أهل البصر و الصبر**

Birinci bəsirətli, sonra da möhkəm olmalısan. Ayıq və möhkəm olmasan, zəhmətin yenə puça çıxacaq. Bilirsənsə, alim və məlumatlısansa, amma sənə yeridilənlərə aldanırsansa, nəfsani və şeytani cazibədarlıqlara vurğun olursansa, açıq düşüncə ilə məsələni araşdırdıqdan sonra araşdırmalarının üzərində dayanmırsansa, həmin yolda hərəkət etmirsənsə və müqavimət göstərmirsənsə, bədbəxt və biçarəsən! Həm bəsirət, həm də səbir əhli olmaq lazımdır.

Bəsirətə, agahlığa, aydın və doğru düşüncəyə, dərrakəyə, elm və mərifətə sahib olan, amma nəfsləri xəbis və çirkin olanların şeytani istəkləri o qədər güclü və hakimdir ki, onlara asanlıqla hər bir şeyi yeridə bilirlər. Anlayan, lakin iltizamlı olmayan

aydın düşüncə sahibi hər bir alçaq və iyrənc insandan da alçaq və iyrəncdir. Görüb düşünən və anlayan, amma məsələlərə məsuliyyətsiz və iltizamsız yanaşan aydın düşüncə sahibi Qurani-Kərimdə adıçəkilən dördayaqlıdan[1] da səviyyəsizdir:

**قل هل ننبئكم بالأخسرين أعمالا و الذين ضل سعيهم في الحياة الدنيا وهم يحسبون أنهم يحسنون صنعا**

“**(Ey Peyğəmbər!) De: Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər ki, onların dünyadakı zəhməti boşa getmişdir. Halbuki onlar yaxşı işlər gördüklərini zənn edirdilər.**”[2]

Aydın düşüncədən azca pay aparan, ağı-qaradan ayırd edən, lakin iltizamsız, qətiyyətsiz, sözünün üstündə durmayan, məsuliyyət anlamayan, arsızlıq, təlxəklik, zəlillik və bədbəxtliklə ömür sürən, adının ayıq insan kimi hallanması, alim və agah insan kimi tarixə düşəcəyi təfəkkürü ilə qürrələnən insanlar alçaqdan da alçaqdırlar. Anlamayan, bilməyən və yolu tapmayan insandan söz getmir, amma anlayıb günah edən, dərk edib xətaya qurşanan məsuliyyətsizdir, məsuliyyət yükünün ağırlığını öz çiyinlərində hiss etmir.

Bir sözlə, belə bir mövqedə – mübarizə bayrağını əlinə alıb inadkar və zahirdə düşməçiliklərini büruzə verməyən gizli düşmənlərlə döyüşməyin iki mühüm şərti vardır: “**ayıqlıq**” və “**müqavimət**”.

“**Bu (mübarizə) bayrağı(nı) bəsirət və səbir əhlindən başqası daşıya bilməz.**”

---

[1] “Ənfal” surəsi, ayə 22.
[2] “Kəhf” surəsi, ayə 103-104.

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizə kamil ayıqlıq bəxş et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Muhəmməd və ali-Muhəmmədlə məhşur et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi dünya və axirətdə onların arıdıcıllarınadn et, bizi onların nuru və bəsirəti ilə bəhrələndir!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, İslam, Quran və müsəlman xalqının düşmənlərini, onların bəsirət və ayıqlığına qarşı olan düşmənlərini həlak et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, ayıq olmaq, ayıltmaq və ayıq addım atmaq üçün bizim hamımıza ciddi əzm və qətiyyət bəxş et!

İlahi! Mövlamızın zühurunu tezləşdir!

# 7

# İSLAM İNQİLABINDA QURANİ-KƏRİMİN MÖVQEYİ[1]

**Bağişlayan və mehriban Allahın adı ilə!**

**و خلف فيكم ما خلفت الأنبياء في أممها إذ لم يتركوهم هملا بغير طريق واضح و لا علم قائم كتاب ربكم مبينا حلاله و حرامه و فرائضه و فضائله و ناسخه و منسوخه و رخصه و عزائمه و خاصه و عامه و عبره و أمثاله و مرسله و محدوده و محكمه و متشابهه مفسرا جمله و مبينا غوامضه بين مأخوذ ميثاق علمه و موسع على العباد في جهله و بين مثبت في الكتاب فرضه و معلوم في السنة نسخه و واجب في السنة أخذه و مرخص في الكتاب تركه و بين واجب بوقته و زائل في مستقبله[2]**

[1] "Nəhcül-bəlağə", xütbə 1 – 1974/11/15.
[2] "Nəhcül-bəlağə", xütbə 1.

# Əmirəlmöminin Əlinin (ə) insanları Quran barəsində düşünməyə təşviq etməkdə hədəfi

Dəyərli "Nəhcül-bəlağə"nin bir neçə yerində Qurani-Kərim haqqında söz açılmışdır. "Nəhcül-bəlağə"də Qurani-Kərimlə bağlı ilk söz və məqam qeyd etdiyimiz ifadədədir. Əlbəttə, demək olar ki, Əmirəlmöminin Əli (ə) hər dəfə Qurani-Kərim barəsində yeni söz demişdir. Burada da insanların Qurani-Kərimdən yapışmalı, onu öyrənməli və onun barəsində düşünməli olduğu haqda söz açılıb. Başqa bir yerdə isə o Həzrət bu məsələni son dərəcə təkidlə vurğulamışdır. Keçmişdə söz açdığımız və tərcümə etdiyimiz "Nəhcül-bəlağə"nin bəzi hissələrində insanlar Qurani-Kərimin hər bir ayəsinin üzərində ayrı-ayrılıqda düşünüb onu başa düşməyə ciddiyyətlə təşviq olunduğu halda, burada Qurani-Kərim üzərində düşünmək və bir sənəd olaraq ona üz tutmaq vəzifəsindən deyil, başqa bir mövzu haqqında danışılır. Deyə bilərik ki, "Nəhcül-bəlağə"nin bu xütbəsində Qurani-Kərimin İslam inqilabındakı mövqeyindən söhbət açılır və biz burada sizin əlinizdəki vərəqdə qeyd olunan ifadəni qısa şəkildə şərh etməklə kifayətlənəcəyik.

## Peyğəmbəri-Əkrəmin (s) işi – Cəmiyyətdə inqilabi hərəkat

İslamda Quranının mövqeyi haqqında danışacağıq. İslam Peyğəmbəri (s) aləmlərin Rəbbinin əmri ilə islami hərəkata başlayır və öz dövrünün cahil cəmiyyətində köklü dəyişiklik yaradır. Bu hərəkat hansı məqsədlə baş verir? Görəsən, cəmiyyəti başdan-ayağa əhatə edən bu heyrətamiz inqilab və hərəkat Allah-Taala tərəfindən necə vacib olur?

Cahil cəmiyyətdə mövcud nöqsanlar onu insanın yaşaması üçün əlverişli cəmiyyət formasından çıxarmışdı. İnsanların yaşadığı "cəmiyyət" adlı quruluş bir xurmalıq və yaxud bir bağda əkilən fidanları xatırladır; həmin fidanlar inkişaf etməli, torpaq, hava, işıq (istilik) və sudan həyatın davamı üçün lazım olan enerjini almalıdır ki, meyvə verə bilsin. Əgər bu bostana daxil olan mahir bir bağban orada əkilən ağacların torpağının qeyri-münbitliyini, ağaclara verilən suyun miqdarının qeyri-düzgün paylanılmasından ağacların eyni qaydada suvarılmadığını, bəzilərinin susuzluqdan solduğunu, bəzilərinin də suyun çoxluğundan çürüdüyünü, həmçinin bu bağın işıq və istiliyinin qeyri-mütənasibliyini, onun quruluşu və ekoloji şəraitinin münasib olmadığını və ağacların inkişafına mane olan alaq otlarının bağın hər tərəfində bitdiyini – bir sözlə, bağın münasib şəraitdə olmadığını gördükdə, dərin, əsaslı dəyişikliklər aparmaq qərarına gəlir. Nə üçün? Çünki bağı, bostanı, ağacları, gülləri və bitkiləri inkişaf edib yaşaya biləcək, səmərəli olub

meyvə verəcək, müxtəlif bəla və xəstəliklərdən amanda qalacaq bir vəziyyətə gətirmək istəyir.

Peyğəmbərlər də eynilə bu işi insan cəmiyyətində görmək üçün göndərilmişlər. Peyğəmbər cəmiyyətin bataqlıqda olduğunu, yaxud insanların alaq otları vasitəsilə inkişaf edə bilmədiyini, cəmiyyətdə bitkilərin nəfəs alması üçün hava çatışmazlığını, suyun kifayət qədər olmadığını, bəzilərinin solub məhv olduğunu, bəzilərinin də çoxlu su içdiyindən səmərəsiz hala düşdüyünü görürlər.

Həmçinin cəmiyyətin günəş şüasından məhrum olduğunu, zəruri qida məhsullarının tapılmadığını, sosial təbəqələşmənin hakim kəsildiyini, cəmiyyətin zülmə məruz qaldığını, insanların düşüncə və əməlinin yanlış ənənələrlə örtüldüyünü, bir sözlə, cəmiyyətə fəsad və pozğunluqların hakim olduğunu gördükdə, həmin cəmiyyətdə dəyişiklik və inqilab, ictimai münasibətlərdə dönüş yaratmaq, yanlış ictimai münasibətləri düzəltmək, sosial təbəqələşməni aradan qaldırıb ictimai ədaləti formalaşdırmaq, insan təkamülü üçün ətraf mühiti, ab-havanı saflaşdırmaq fikrinə düşürlər. Beləliklə, insanları müəyyən olunmuş yerə – vəd olunmuş ilahi kamala ucaltmaq üçün istiqamətləndirirlər. Şübhəsiz, bunlar peyğəmbərlərin işləridir.

Beləliklə, cəmiyyətdə zühur edən peyğəmbərin nəzərindəki bir sıra meyar və kriteriyalar onun inqilabının prinsiplərini təşkil edir və o, həmin prinsiplər əsasında fəaliyyət göstərir. Əgər ondan: “Sən bu cəmiyyətdə nə etmək istəyirsən?” – deyə soruşulsa, belə cavab verəcək: “Mən bu cəmiyyətdə şirkin kökünü kəsmək, insanın insana pərəstişinə son

qoymaq, tövhid prinsiplərini möhkəmlətmək, insanlıq kəraməti və şərafətini təmin etmək istəyirəm. İstəyim bu cəmiyyətdə hər kəsin öz insanlıq haqlarına yiyələnməsi, heç kimin başqası tərəfindən zülmə, haqsızlığa, təcavüzə və istismara məruz qalmaması, hər kəsin hüquq bərabərliyinə təminat verilməsi və insanların azadlığının təmin edilməsidir; "insan" adlı bu fidanın təkamülə çatması və Allah-Taalanın onun varlığında qoyduğu bütün imkan və potensiallarının reallaşdırılması və genişləndirilməsi üçün ona böyük bir meydan verilməsidir. Əgər peyğəmbərdən: "Sən nəçisən? Nə etmək istəyirsən?" – deyə soruşursa, buyuracaq ki, cavab aydındır və işlərini bir-bir saymağa başlayacaq. Əlbəttə, qeyd etməliyik ki, nübuvvət mövzusu olduqca genişdir.

Peyğəmbər cəmiyyətə hakim mənfi mühiti dəyişmək və ilahi məktəbə əsaslanan bir quruluş formalaşdırmaqla öz hədəflərini tətbiq edir. O bilir ki, cəmiyyətdə yalnız özünü düşünən mənfəəttələb təbəqə varsa, sosial təbəqələşmə də olacaqdır. Əgər cəmiyyətdə ictimai nəzmin gözətçiləri düzgün yolda deyillərsə, mütləq cəmiyyətin nəzmini pozub, yeni nizam, yeni quruluş yaratmalıdır. Misal üçün, Mədinədə şirkə bulaşmış nadan ərəb cəmiyyətini səfalı allahpərəst bir cəmiyyətə çevirir və Mədinə cəmiyyətini təşkil edir. Bir peyğəmbərin işinə nümunə budur! Bir sözlə, ilahi peyğəmbərlərin tarix boyu hədəfləri bu olmuş və oxşar hədəflər üzrə fəaliyyət göstərmişlər. Bu qeyd edilənlər müqəddimədir və bunu diqqətdən qaçırmayın.

# Peyğəmbəri-Əkrəmin (s) ictimai vədlərinə əməl etməsi

Mədinə cəmiyyəti işə başlayır və bu cəmiyyətdə Peyğəmbərin (s) xalqa verdiyi vədlər yerinə yetirilir. Peyğəmbərin (s) vədləri digərlərinin vədləri kimi, yalan, ilğım və fırıldaqlıqdan ibarət deyil. O, xalqa deyirdi ki, siz yalnız Allaha qul olun və bunu özünün təşkil etdiyi cəmiyyətdə təmin edir... İnsanlar onun qarşısında baş əymək istədikdə, buna mane olur. Onun özü, bəzən, elə davranır ki, insanları ona pərəstiş və ibadət şübhəsindən yayındırır və bəşərin məruz qaldığı bədbəxt və zülmət tarixində onun həyat tərzini keçmiş və gələcək hakimlərin həyat tərzinə əsla oxşatmırdı.

İnsanlar onun hüzurunda ayaqlarını uzadır, dırnaqlarını tutur, döyüş qənimətləri bölündüyü zaman öz adını başqalarının sırasında qeyd edir, dünya mənfəətlərindən bəhrələnməkdə özünü başqalarından aşağı tutur, onunla təzim və hörmətlə danışdıqda, onlara mane olurdu. Bir sözlə, ona xalis tövhid ideyası – yalnız Allah hakim idi! Allahın müqabilində mövqe tutmasın deyə, özündən əsla fikir bildirmirdi, Allahın kamil və xalis tövhid sözçüsü idi və camaatı aləmlərin Rəbbinə ibadət etməyə yönəldirdi. O, insanlığı şərafətə çatdıracağını deyir və bu vədinə əməl edirdi. O, elə bir iş görürdü ki, qaradərili, siması xoşagəlməz, yoxsul və əliboş bir insan izzət və şərafətə çatdığını hiss edirdi. Adi bir insan cah-cəlallı əcəm kəsraları müqabilində dayandıqda, onunla da adi bir insanla danışdığı kimi danışırdı. Onun gördüyü işlər sayəsində sıravi

əsgərləri də o qədər möhkəm, əzəmətli və izzətli idilər ki, dünyanın taxt-tac sahiblərini saymır, hər bir müsəlmanın düşmən qarşısında ruhiyyəsi fətholunmaz bir qalaya çevrilir, heç bir şey onların boynunu əyə bilmirdi. Onlar yalnız bir şeyin – Allahın əzəməti, hökmü və əmri qarşısında boyun əyirdi. O, insanlar arasında bərabərliyi bərqərar edəcəyini, insanlıq yolunu açacağını, şirklə mübarizə aparacağını deyir və söylədiklərinin hamısını yerinə yetirdi. Bir sözlə, dəvəti, hərəkatı, inqilabı və mübarizəsində nəzərdə tutduğu prinsip və məsələlərin hamısını təsis etdiyi cəmiyyətdə bərpa etdi, yaşatdı və insanların ixtiyarında qoydu.

## Peyğəmbərin (s) hərəkatının prinsiplərinin yazılmasının zəruriliyi

Amma Peyğəmbər (s) dünyadan köçəcəkdi. Peyğəmbər (s) dünyadan köçür, bu ümmət onun getdiyi yolla hərəkət edir və eynilə relslərin üzərində daim özü hərəkət edən bir qatar kimi, həmin yolu davam etdirməyi də istəyir. Bununla belə, bu onillik tərbiyə müddəti (Peyğəmbərin (s) on il çəkən hakimiyyəti) qısa olduğundan, ümmətin uzun müddət bu yolda hərəkət edəcəyinə zəmanət vermirdi. Eynilə, bir yolda özbaşına hərəkət edən avtomobilin də daim hərəkətdə olmasına, xarab olmayacağına, təkərlərinin partlayıb boşalmayacağına və ya qəzaya uğrayıb yoldan çıxmayacağına heç bir zəmanət yoxdur. Peyğəmbərin (s) onillik tərbiyə metodu yalnız o Həzrətin öz dövründə qalıcı olmasını təmin edə

bilərdi. O Həzrətdən sonra cəmiyyəti istiqamətləndirən bir şəxsə ehtiyac var idi. Peyğəmbərdən (s) sonra bu cəmiyyəti yönləndirən, ona rəhbərlik edib yolgöstərən həmin şəxs kimdir?

Bir karvan təsəvvür edin, bu karvan bir yolda hərəkət edir və hara gedəcəyini də bilir. Lakin yol əsnasında toz-torpaq, meh-duman, əyləncə və qəflət onu yoldan azdırır. Bu zaman nə etməlidir? Yolu tapmalıdır. Yolu necə tapa bilər? Əgər yol boyu nişanlar, bayraqlar və çıraqlar yerləşdirilibsə, karvan arabir onlara dönüb baxmalı və hara gedəcəyini bilməlidir. Allah və Onun Peyğəmbəri tərəfindən yerləşdirilmiş bu bayraq və nişanlar insanlara göstərilərsə, onlar azmaz və yollarını itirməzlər. Demirəm ki, onların arasında qərəzlilik və yaxud nadanlıq olmaz, xeyr, bu mümkündür, amma azmaqdan söz gedə bilməz. İnsanlar yolu görəcək, İslam cəmiyyəti hədəfdən yayınmayacaq, qəbul olunmuş prinsip və kriteriyaları unutmayacaqdır.

Deməli, bu təməl prinsiplərin insanlar arasında qalıb yaşaması bir zərurətdir. Allah-Taalanın İslam cəmiyyəti üçün tənzimlədiyi və bəyan etdiyi həmin normativlər mütləq yazılmalı, bütöv məcmuədən ibarət əsas mətləblər, ümumi qanunlar və zəruri maarif mütləq xalq kütləsinin ixtiyarına verilməlidir. Eynilə, bu gün də (özünəməxsus təsisçiləri, öz prinsipləri əsasında yaranan və tənzim edilən) dünyəvi məktəblərdə olduğu kimi, onlar siyasi qüdrəti ələ keçirməklə kifayətlənmir, qəbul olunmuş qanunları oyaq və ayıq düşüncələrin ixtiyarında qoyurlar ki, həmin yoldan çıxmasın və onu unutmasınlar. Bəzən, insan gecə ikən ay işığında

başını aşağı salıb yoluna davam edir və yolda olduğunu düşündüyü halda, bir də başını qaldırıb yoldan neçə fərsəx və kilometr uzaqlaşdığını görür. Belə olmamalıdır. Odur ki, bu prinsip və qanunların yazılması (əsasnamə halına salınması) zəruridir. Hansı prinsip və meyarlar? İslam inqilabının yaranması və İslam cəmiyyətinin formalaşmasına səbəb olan həmin prinsip və meyarlar, normativlər! Elə buradan kitab məsələsi önə çəkilir. Bütün peyğəmbərlərə kitab verilib. Görəsən, bu kitablar kimlər üçün göndərilib? Onların özlərinə göndərilibmi? Axı, özləri Rəbbin tərəfindən ilham alırlar? Axı, onlar özlərini unutmurlar? Birdən unutsaydılar da, vəhy əmanətdarı onların əllərindən yapışırdı. Bu kitab ümumi qanunların yazıldığı bir məcmuə, lazımi prinsip, qanun və bilgilər, başqa sözlə, günümüzdə deyilən "bir məktəbin ideologiyası"ndan ibarətdir.

## Quran – İslam ümmətinin yolunun çırağı

Hər bir peyğəmbərin kitabı var və bizim Peyğəmbərimizin (s) də kitabı Qurandır. İndi Quranın nə üçün göndərildiyini, İslam aləmində mövqeyinin nə olduğunu bildinizmi? Quran bayraq və parlayan çıraqdır. Quran meyardır, cəmiyyət özünü mütləq onunla ölçməlidir. Quran rəhbər və bələdçidir, bəşəriyyət karvanı öz yolunu onun vasitəsilə tapmalı və yaxud həqiqi yoldan azmamalıdır. Quranın mövqeyi budur! Quranı təfsir və bəyan edən isə Peyğəmbərin (s) özü, ondan sonra

onun Əhli-beytindən olan ümmətin məsum və ayıq insanlarıdır. Əlbəttə, Əhli-beyt (ə) haqqında yenə ayrıca söz açacağam. Əmirəlmöminin Əlinin (ə) xütbələrindən birini bu mövzuya həsr edəcəyəm. Həmin xütbədə deyilir:

**بنا اهتديتم في الظلماء وتسنمتم العلياء**

“**Siz bizim vasitəmizlə doğru yola yönəldiniz və ucalıq zirvəsinə nail oldunuz.**”[1]

İndi isə Quran haqqında danışırıq.

Əmirəlmöminin Əli (ə) bu xütbədə Quranın rolunu açıqlayır və buyurur ki, Peyğəmbər (s) dünyadan köçdükdə, sizi özbaşına və çaşqın halda buraxmadı, əksinə sizin aranızda aşkar bayraq və yolgöstərən rəhbər qoydu. O da Rəbbiniz Allahın kitabıdır.

## Quranın təfsirçi və müəllimə ehtiyacı

Amma bu kitabın – Quranın bir sıra xüsusiyyətləri vardır ki, onları bir müəllim mütləq bəyan etməlidir. Bəhsin bu hissəsi bir qədər diqqət tələb edir, incədir, insanı çaşdıra bilər və bəziləri bu çaşqınlıq içində büdrəmişlər. Diqqətli olun! Allahın kitabının müxtəlif hökmləri var. Onun bəzi hökmləri insanın xüsusi halına işarədir:

**و لله□ على الناس حج البيت من استطاع إليه سبيلا**

“**Onun yoluna gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur.**”[2]

---

[1] “Nəhcül-bəlağə”, xütbə 4.
[2] “Ali-İmran” surəsi, ayə 97.

İmkanınız varsa, Məkkəyə getməlisiniz, olmadıqda isə xeyr! Bu hökm insanın imkanlı halına aiddir. Səfərdə namazınızı qəsr qılmalısınız və bu səfər halına – xas bir şəraitə və mövqeyə aiddir. Bəzi hökmlər isə fərqlidir: Onları həmişə və hər zaman yerinə yetirmək lazımdır. Buna (gündəlik) namazı misal göstərə bilərik. Bəzi hökmlər xas bir zümrəyə, bəziləri isə hamıya aiddir. Quranda bir sıra hökmlər məhz Peyğəmbərə (s) məxsusdur, başqaları həmin hökmlərdə o Həzrətlə şərik deyildirlər. Bəzi hökmlər də bütün insanlara aiddir. Quranda bəzi hökmlər mütləq (qeyd-şərtsiz), bəziləri isə qeyd-şərtlə bəyan olunmuşdur. Quranın bəzi ayələrinin məna və məfhumu insan zehninə aydın olsa da, bəzi ayələr aydın deyil (mütəşabeh və oxşar ayələrdir), diqqət və düşüncə tələb edir, onun başa düşülməsi üçün əqli və ya nəqli dəlilə ehtiyac vardır. Məsələn, Quranda buyurulur:

**الرحمن على العرش استوى**

“**Rəhman (Allah) ərşin (taxtın) üstündədir.**”[1]

Bu, sadədüşüncəli insanda bir qədər şübhə yaradır. Yaxud:

**والسماء بنيناها بأيد و إنا لموسعون**

“**Biz göyü əlimizlə yaratdıq və Biz qadirik.**”[2]

Görəsən Allahın əli varmı? Allahın taxtı varmı? Allah hansısa bir yerdə əyləşirmi? Bu məsələlər adi və sadə zehinlər üçün başa düşüləsi deyil. Amma həmin məsələ adi və sadə zehinlər üçün tutarlı əqli və ya nəqli bir dəlillə sübut olunduqda, bu ifadənin kinayə olduğunu anlayır. Belə ayələrə “mütəşabeh”

---

[1] “Taha” surəsi, ayə 5.
[2] “Zariyat” surəsi, ayə 47.

deyilir. Quranın bəzi ayələrini və yaxud İslamın bəzi maarifini hamı mütləq bilməlidir, heç kimin ondan məlumatsız qalmasına icazəsi yoxdur. Tövhid, İslamın ümumi prinsipləri, din, İslam və Quranla bağlı məlumat və tanışlığı buna misal göstərmək olar. Bəzi məsələlər də vardır ki, hamının ondan xəbərdar olması lazım deyil. Sizin irs hökmləri ilə bağlı mütləq məlumatlı olmağınıza əsla ehtiyac yoxdur. Belə bir məsələ ilə üzləşdikdə, məlumatlı bir şəxsdən soruşub öyrənəcəksiniz. Hər bir şəxsin islami kəsim və yaxud ov etməyin şərtlərini dəqiqliyi ilə öyrənməsi elə də zəruri deyil; belə bir hökmlə qarşılaşdıqda, onu bilən bir şəxsdən soruşub öyrənəcək. Baxın, Quran və ondakı hökmlər müxtəlif qisimlərə bölünür. Peyğəmbərin (s) vəzifəsi onları bəyan etmək, məchul məsələlərə aydınlıq gətirmək, başa düşülməsi çətin olan məsələləri işıqlandırmaq, Quranın düyünlərini açıb həll etməkdir. Bu, Peyğəmbərə (s) aid məsələdir. Əmirəlmöminin Əlinin (ə) xütbəsinin əsas hissəsi (oxuduğum hissə) qeyd edilən məsələlərlə əlaqədardır ki, indi oxuyub tərcümə edəcəyik.

## Əxbarilərin Qurandan başa düşdüyümüzün bizə höccət olmamasına dair sözlərinin rədd edilməsi

İncə olduğunu qeyd etdiyim məsələ budur, bəziləri bu kəlamı Əmirəlmöminin Əlidən (ə) eşitmişlər. Bu qisimdən olan bir neçə rəvayət də məsum imamlardan (ə) nəql olunmuşdur. Misal

üçün, (bir dəfə) Əbu Hənifə İmamın (ə) hüzuruna gəlib deyir: “Mən Qurandan fətva verirəm.” İmam (ə) buyurur: “Sən “nasix”i (ləğv edən ayəni) “mənsux”dan (ləğv olunmuş ayədən), “möhkəm” ayələri “mütəşabeh” ayələrdən, “ümumi” (mütləq və qeydsiz-şərtsiz) ayələri “xüsusi” (müqəyyəd və qeydli-şərtli) ayələrdən ayırd edə bilirsənmi?” Cavab verə bilmədikdə, İmam (ə) buyurur ki, gərək bu məsələləri bizdən öyrənəsiniz.[1] Bu qəbildən bir neçə rəvayət vardır ki, hamısı doğrudur. Həm sözügedən xütbə doğrudur, həm də həmin rəvayətlər. Bəziləri bu kimi rəvayətləri gördükdə, həmin rəvayətlərin və yaxud “Nəhcül-bəlağə”nin bu xütbəsinin bizə “Qurana yaxınlaşmayın, ona əl vurmayın, ehtiyatlı olun, onsuz da onu başa düşməyəcəksiniz, Quranı Peyğəmbər (s) və məsum imamlar (ə) təfsir etməlidir, əgər onlar bir ayəni belə təfsir etməyiblərsə, sənin onun barəsində bir söz demək, onun təfsiri haqqında düşünmək və müəyyən qənaətə gəlmək haqqın yoxdur!” – deyə buyurduğunu güman etmişlər. Nəticə etibarilə, belələrinin nəzərində Quran heç kimin başa düşmədiyi müəmmalı bir kitabdır. Onlara görə, əgər bir ayə barəsində İmam Baqirdən (s) bir hədis nəql olunub onun mənasını bir qədər aydınlaşdırıbsa, biz də elə o qədər danışa bilərik və ondan artıq fikir yürütməyə haqqımız yoxdur. Bəziləri bu və bu kimi xütbələrdən belə nəticə çıxarmışlar.

Bu kimi cahilanə nəticələr insanda təəccüb doğurur! Elə bu xütbə ilə yanaşı, ən azından Quranın bu ayəsində belə buyurulur:

---

[1] “Ehticac”, Təbərsi, c. 2, səh. 370.

**ولقد يسرنا القرآن للذكر**

**"Həqiqətən, Biz Quranı ibrət almaq, öyrənmək və başa düşmək üçün belə asanlaşdırdıq."**[1]

Allah-Taala Platon, Aristotel, Sokrat, İbn Sina və Farabi kimi, hətta alim və filosofların başa düşmədiyi, onların bir kəlməsinin bir səhifə və yaxud bir kitab qədər şərhə ehtiyac olduğu tərzdə danışa bilərdi. Allah-Taala belə danışıq tərzini bacarır, amma bunu etmədi. Allah elə danışır ki, hamı başa düşsün, hamı öz Rəbbi ilə rabitə qura bilsin, Onun kəlamını oxuyub düşünsün. Bu sahədə imamlardan (ə) nəql olunan hədislər kifayət qədərdir. Mən bu barədə çox danışmaq istəmirəm. Elə bu və digər məscidlərdə, əlamətdar günlərdə təşkil etdiyimiz yığıncaqlarda bu haqda təkrar-təkrar danışmışam, lakin qərəzli və nadan kəslər tərəfindən irəli sürülən şübhələrin əhatəsi çox geniş olduğundan, yenidən məsələnin təkrar qeydini münasib və hətta zəruri hesab etdim. İmamlardan (ə) nəql olunan bir çox hədislərdə uyğun mətləblərin Qurandan istifadə edilməsinə dair göstərişlər verilmişdir.

Bir nəfər İmamın (ə) hüzuruna gəlib: "Ey Rəsuləllahın övladı! Məsələn filan yerdə baş verən filan işin hökmü nədir?" – deyə soruşduqda, İmam (ə) buyurur:

**انما يعرف هذا و أشباهه من كتاب الله عز و جل**

**"Bu məsələ və onun bənzəri Allah-Taalanın kitabında bildirilmişdir."**[2]

---

[1] "Qəmər" surəsi, ayə 17.
[2] "Kafi", c. 3, səh. 33, azacıq fərqlə.

İmam (ə) buyurur ki, Quran var və bu məsələnin hökmü Qurandan başa düşülürsə, onu nə üçün məndən soruşursan? Görəsən, bu cümlədən nə anlaşılır? Əmirəlmöminin Əli (ə) "Nəhcül-bəlağə"nin başqa bir xütbəsində buyurur ki, Quranla ünsiyyətdə olan hər bir kəs ayağa qalxdıqda, ya nadanlıq pərdələrindən birini yırtar, ya da onun ruhunda mərifət çıraqlarından biri işıqlandırılar. Quranın özü, hədislər, "Nəhcül-bəlağə", bütün dini mətnlər bizi təkidlə Quranı öyrənməyə rəğbətləndirir. Bununla yanaşı, əgər Quranın bizimlə belə aydın danışmadığını, "Nəhcül-bəlağə"nin xütbələri və rəvayətlərin də (uyğun məsələyə dair bir söz) demədiyini fərz etsəydik belə, bu zaman belə bir sual yaranacaqdı ki, bəs, Quran nə üçün nazil olub?

Əgər camaat Quranı başa düşməyəcək və dərk etməyəcəkdisə, onda nə üçün göndərilib? Bu müəmmalı kitab nə üçün nazil olub? Məgər Quranda ümumi qanunların qeyd olunduğunu demədikmi? Bu ümumi qanunlar başa düşmək üçündür. Əgər başa düşmək üçün deyilsə, bəs nə üçün Quranda qeyd olunub? Mən bu məsələlərin (insanların Qurandan uzaqlaşdırılması) Əbu Süfyan oğlu Müaviyənin zamanından qaynaqlandığını düşünürəm. Onun istəyi camaatın Quran oxumaması və yaxud (ən azından) təfəkkürlə oxumaması idi. İstəyirdi ki, hətta camaat Quranı oxusa belə, onu başa düşməsin. Mənim nəzərimcə, tarix boyu müsəlman xalqına, xüsusən də, şiə cəmiyyətinə Qurandan uzaq düşməyi aşılayan Süfyanilər sülaləsi olmuşdur. Onlar camaatı inandırmaq istəyirdilər ki, Quranda "nasix və

mənsux", "möhkəm və mütəşabeh" ayələrinin anlaşılması qeyri-mümkün olduğundan, siz bu kitabı bağlayıb bir kənara qoyun, ya da oxuyun, özünüzü anlamazlığa vurun. Əgər ərəb dilini bildiyin üçün Qurandan bir şey anlasan da, özünü elə apar ki, sanki, heç nə anlamırsan (elə bil ki, Quran anlamaq üçün deyil, sadəcə üzündən oxumaq üçün nazil olmuşdur).

Ayələrin şərhində nəql olunan bəzi rəvayətlərə bir nəzər yetirin, dəyərli qardaşlar və elm sahibləri elə sabah "Burhan" və yaxud "Nurus-səqəleyn" adlı təfsir kitablarına müraciət etsinlər[1]; Quran ayələrinin məna və şərhi ilə bağlı nəql olunmuş rəvayətlər bu iki əsər və digər mənbələrdə toplanmışdır. Gedin baxın, görün, Quranın neçə faizi Əhli-beyt (ə) rəvayətləri ilə izah olunmuşdur? Çox az bir hissəsi – bir faizi! Əgər biz Quranın hər bir ayəsini anlamaq üçün bir hədis tapmaq qərarına gəlsək, həmin hədisin mənasının anlaşılmasında da uyğun sual və şübhə ilə qarşılaşacaq və ola bilsin ki, həmin hədisi düzgün başa düşməyəcəyik. Hətta hədisin anlaşılmasında bu şübhə ilə rastlaşmasaq da, ən azından deyə bilərik ki, hədislər vasitəsilə şərh edilən ayələrin sayı olduqca azdır. Bəs nə edək? Quranı öpüb bir kənara qoyaqmı? Elə düşmənlərin ürəyindəndir ki, bu iş baş tutsun. Bunu Quran düşmənləri inanmadıqları iki dünyanın Allahından istəyirlər; İslam ümmətinin düşmənləri tarix boyu bunu arzulamış, artıq, istək və arzularına təmənnasız və asanlıqla çatmışlar. Onlar deyirlər ki, Qurana baxmayın, Quranı təfsir etməyin, Quranı başa

[1] Müəllif: Seyid Haşim ibn Süleyman əl-Bəhrani.

düşməyin. Nə üçün? Çünki Quranda “nasix-mənsux” və “möhkəm-mütəşabeh” var. Əksəriyyətin düçar olduğu yanlışlıq budur! Əksəriyyət dedikdə, elm əhlinin əksəriyyətini nəzərdə tutmuram. Biz görkəmli, agah və aydındüşüncəli alimlərimizin kitablarında bunun əksini müşahidə edirik. Quran və Quranın fəziləti ilə bağlı yazılmış kitablara nəzər saldıqda, insanların Quran barədə təfəkkür etməsinə tövsiyə olunduğunu görürük. Amma sayı az, dairəsi geniş olan, primitiv fikir və yazılarına görə avam insanlar arasından özlərinə tərəfdar qazanan, zahirdə elm carçısı olan bir qrup nadan insan bu sayaq zəhərli təbliğatlar vasitəsilə insanların Quranla rabitəsini kəsmək üçün əllərindən gələni əsirgəmirlər.

## Quranın təfsirini anlamaq üçün Peyğəmbəri-Əkrəm (s) və məsum imamlara müraciətin zərurəti

Əmirəlmöminin Əli (ə) bu xütbədə demək istəmir ki, siz Quranı başa düşməzsiniz, əksinə demək istəyir ki, ey Quranla ünsiyyətdə olanlar, bu Quranı əlinə aldıqda, özünü onun təfsirindən ehtiyacsız bilmə! Bunun əvvəlki sözlə fərqi çox böyükdür. Belə düşünmə ki, mən Quranı Peyğəmbərdən (s) almışam, artıq, Peyğəmbərin (s) özü ilə işim yoxdur, xeyr, bir çox mətləblər Quranda icmali şəkildə zikr olunmuşdur:

أقم الصلاة لدلوك الشمس إلى غسق الليل وقرآن الفجر

**“Günortadan gecənin qaranlığınadək namaz qıl və sübh namazını da qıl.”**[1]

Bu, Quranda qeyd olunan namaz ayəsidir. Namazla bağlı yüzlərlə məsələ var. Bu məsələlər bu ayənin harasından əldə olunur? Kimsə bunu bəyan edə bilərmi? Bunu mütləq Peyğəmbər (s), yaxud da onun haqq canişini izah etməlidir. Quranın bir çox ayələri adi zehnin dərkindən xaricdir. O zaman adi insanlar bu ayəni başa düşmürdülər, amma bu gün ola bilsin ki, anlasınlar. Amma nə üçün anlayırlar? Bu gün atom əsri olduğu üçünmü? Xeyr! Bu, Quranın dərkində təsirəmalik ola bilməz. Çünki insanların fikir və düşüncələri parlaq mərifət nuruna sahib olan və onu insanlar arasında bölüşdürən pak və məsum Əhli-beytin (ə) vasitəsilə işıqlandırılmışdı. İnsan rəvayətlərə nəzər saldıqdan, imamların kəlamları ilə munis olduqdan və həqiqi İslamşünasların insanla söhbətindən sonra Qurana müraciət etdikdə, Quranın onun üçün daha da aydın, daha da istifadəyə yararlı olduğunu görür. Əsas məsələ budur: “Əhli-beytin Quranla birgə olması.”

Əhli-beyt (ə) fikir və düşüncələri çiçəkləndirir, insanların Qurana müraciət etdikdə, ondan layiqincə bəhrələnə bilməsi üçün münasib zəmin hazırlayır. Onlar insanları Qurandan düzgün nəticə çıxarmaq və başa düşmək üçün tərbiyə edirlər. Bəli, Quranın bir çox hökmləri təfsilatı ilə qeyd olunmamışdır. Bu təfsilatı bizə bəyan edən Əhli-beytdir (ə). Bunun mənası o deyil ki, rəvayət, fətva, maarif, əxlaq və islami düşüncələr formasında ixtiyarımızda olan bu qədər Əhli-beyt (ə) təlim və təlqinlərindən sonra,

---

[1] “İsra” surəsi, ayə 78.

atıq Quranı açıb oxumağa ehtiyac yoxdur və səbəb olaraq Quranı anlamadığımızı deyək. Xeyr, Quranı çox gözəl başa düşürük. Niyə də başa düşməyək?

Dəqiq və incə məqam budur: Quran insanların bəhrələnməsi üçün nazil olmuşdur. Lakin ondakı anlaşılmazlıqları, çətin və məchul məsələləri Allahın Peyğəmbəri (s) həll edərək insanların ixtiyarında qoymuş, icmali mövzuları müxtəlif hökmləri ilə yanaşı izah etmiş, insanlara çatdırmışdır. Əgər Peyğəmbərin (s) təfsiri olmasaydı, müsəlmanlar zöhr namazının neçə rükət olmasını və yaxud cümə namazının necə qılınmasını bilməyəcəkdi. Qurani-Kərimdə cümə namazı ilə bağlı sadəcə belə buyurulur:

**يا أيها الذين آمنوا إذا نودي للصلاة من يوم الجمعة فاسعوا إلى ذكر الله**

“**Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin.**”[1]

Cümə günü Allahı necə zikr edək? Cümə günü cümə namazını məsciddə qılmaq istəsək, necə qılmalıyıq? Peyğəmbərin (s) rolu burada məlum olur, elə bu səbəbdən də, Quranı izah edir. “**Allahı zikr etməyə tələsin.**” – ifadəsinin mənasını başa düşə bilmərik!” – deməyə haqqınız yoxdur. Bunu başa düşmək üçün Peyğəmbərin (s) izahına ehtiyac yoxdur. Çünki Quranın ayəsi aydındır. Bu sadəcə bir misaldır. (Bir də diqqət edək. Allah-Taala buyurur:)

“**Ey iman gətirən kəslər!**
**Cümə günü namaza çağırıldığınız zaman,**
**Allahı zikr etməyə tələsin!**
**Alış-verişi buraxın!**

---

[1] “Cümə” surəsi, ayə 9.

**Əgər bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!**”

Bu, bir Quran ayəsidir. Biz bu ifadələri başa düşmədikmi? Əlbəttə ki, tamamilə başa düşdük, ayənin nədən danışdığını tamamilə anladıq. Lakin görəsən, bu ayənin təfsirində Peyğəmbərdən (s) ehtiyacsızıqmı? Xeyr, ehtiyacsız deyilik! Çünki ayədə bizə buyurulur ki, Allahı zikr etməyə tələsin, mən də həmin gün Allahı zikr etmək üçün məscidə gəlmişəm və Allahı zikr və yad etməklə məşğulam. Bu qədər kifayətdirmi? Xeyr, kifayət deyil! Cümə namazının qılınma qaydasını deyən, onun iki rükətdən ibarət olması, xütbə söylənilməsi, hansı surələrin tilavət olunması, hansı keyfiyyətlə oxunmasını bəyan edən Peyəmbərdir (s). Elə isə biz Quranı başa düşürük, amma bununla bərabər onu bəyan və təfsir edəndən, yəni Peyğəmbərdən (s) də ehtiyacsız deyilik.

## Quran haqqında düşünməyin əhəmiyyəti

Quranı zahirən başa düşdükdən sonra, növbəti mərhələ gəlir. İslamı yaxşı dərk edən, İslam barəsində daha çox araşdırma aparan, Quranla yaxından ünsiyyət quran, bir ayə üzərində təfəkkür edən və dərindən düşünən kəsə İslam maarifi daha da parlaq, daha da aşkar olacaqdır. Dərindən düşünməyənlər isə onu mənimsəyə bilməyəcəklər. Əsas məsələ budur. Təfəkkür yolu Quran dili – ərəb dili və İslam maarifi ilə qısa şəkildə tanış olanın üzünə açıqdır. Çalışın, ərəb dili ilə tanış olun,

Quranla ünsiyyət qurun, İslam maarifi və onun əsaslarını azacıq da olsa başa düşdükdən sonra Quranı açın, bir ayəni bir dəfə oxumaqla kifayətlənməyin. Hədisdə buyurulduğu kimi, surəni dərhal bitirməyə cəhd etməyin[1], əksinə onu bir də oxuyun, təkrar-təkrar tilavət edin, hər dəfə oxuyanda düşünün. O zaman yeni mətləb və maarif əldə edəcəyinizi görəcək, zehniniz və qəlbinizdə aydınlıq və düşüncənin çiçəklənməsini hiss edəcəksiniz. Qəribəliklərlə üzləşəcəksiniz, hansısa bir ayə ilə bağlı indiyə qədər başa düşmədiklərinizi artıq başa düşəcəksiniz. Bəzən onu yaxşı dərk etsəniz də, bəyanında çətinliklərlə üzləşəcəksiniz və yaxud başqası həmin mətləbi dərk etmədikdə, təəccüblənəcək və deyəcəksiniz: "Necə ola bilər ki, mən ayəni oxuyub başa düşürəm, başqası isə başa düşmür?!" Amma təəccüb yeri deyil. Əgər o da təfəkkür etsəydi, başa düşəcəkdi. Təfəkkür etmədiyi üçün başa düşmür. Başqa bir vaxtda, növbəti dəfə həmin ayəni diqqətlə mütaliə etdikdə, qəribə bir halla yeni mətləblər əldə etdiyini, təfəkkür sayəsində bu halın bitmədiyini və sonsuz olduğunu görəcəksən. Quran budur!

## "Səqəleyn"dən (iki ağır əmanətdən) yapışmaq

Mətləbi yekunlaşdırıram. Yadınızda qalsın ki, Quranı başa düşmək mümkündür, bunu həmişə demişik, yenə də deyirik. Təfəkkür sayəsində

[1] "Kafi", c.2, səh.614.

Quranın dərinliklərinə varmaq, qiymətli xəzinələrini çıxarmaq mümkün bir işdir. Siz insanlara – bütün qardaş və bacılara tövsiyə edirik ki, Quranı öyrənsinlər, başa düşsünlər və onun üzərində dərindən düşünsünlər. Bu isə, Quranın (dərk edilməsində) Peyğəmbər (s) və imamlara ehtiyacsız olduğu anlamında deyil, xeyr, onlara ehtiyac var. Həmçinin Peyğəmbər (s) və imamların Quranla birgə olması da bizim Quranı başa düşə bilməməyimiz mənasında deyildir. Hər birinin – həm hədislərin, həm də təfəkkürün öz yeri və rolu vardır. Beləliklə, hər ikisi bir-birini tamamlayan ortaqdır, biri Qurandır, onun üzərində düşünmək lazımıdır, digəri isə Quranın məsum və ilahi təfsirçiləri – Peyğəmbər (s) və o Həzrətin buyurduğu "**iki ağır əmanət**"dən[1] biri olan Əhli-beytdir (ə). Mətləbin xülasəsi budur. İndi isə xütbənin tərcüməsinə keçək.

## Quran – Peyğəmbərin (s) həmişəyaşar hədiyyəsi

**و خلف فيكم ما خلفت الأنبياء في أممها**

"**Peyğəmbərlərin öz ümmətləri arasında qoyduqlarını Peyğəmbəri-Əkrəm (s) sizin aranızda qoydu.**"

**إذ لم يتركوهم هملا بغير طريق واضح و لا علم قائم**

Bu mötərizə cümləsidir. Yəni "**peyğəmbərlər öz ümmətlərini heç vaxt özbaşına – onlara aydın yol və möhkəm nişanə göstərmədən – buraxmadı.**"

[1] "Əmali", Şeyx Səduq, səh. 415.

**كتاب ربكم فيكم**

“**Rəbbinizin kitabını sizin aranızda qoydu.**”

Bu kitab İslam məktəbinin əsasları, ideoloji sütunları, İslam cəmiyyətinə məxsus ümumi qanun və prinsiplərlə zəngindir.

**مبينا حلاله و حرامه**

“**Bir halda ki, onun halal və haramını bəyan etmişdir.**”

Halala dair hökmdə belə buyurulur:

**أحل لكم الطيبات**

“**Bütün pak nemətlər, yaxşılıqlar və gözəlliklər sizə halal buyurulmuşdur.**” Bu, Quranın halal hökmüdür.

**و يحل لهم الطيبات و يحرم عليهم الخبآئث**

“**Bütün pisliklər, çirkinliklər və murdarlıqlar haram edilmişdir.**”

**و فرائضه و فضائله و ناسخه و منسوخه**

“**(Quranda) insana vacib olan işlər, fəzilət və üstünlüklər, onlara səbəb olan əməllər, “nasix” və “mənsux” (hökmlər) bəyan olunmuşdur.**”

## Nasix və mənsux

Quranda “nasix” və “mənsux” varmı? Bəli! Bəzi “Nəhcül-bəlağə” şərhçilərinin ehtimalına görə, Quranın özü keçmiş dinlər və kitabların nasixidir (keçmiş dinlər və kitablar Quran vasitəsilə ləğv olunmuşdur.) “Mənsux” (ləğv olunmuş) sözündə də Qurandan öncəki kitablarda qeyd olunmuş hökmlər nəzərdə tutulur. Əlbəttə, bu, zəif bir ehtimaldır. Quranın özündə də “nasix” və “mənsux” hökmlər mövcuddur. Öncədən göndərilmiş bir hökm

sonradan nazil olan ayənin vasitəsilə qüvvədən düşür, ləğv edilir və onun yerinə yeni bir hökm verilir. Soruşa bilərsiniz ki, nə üçün? Cavab budur ki, yeni bir inqilab baş verdiyi və yeni ümmət təşkil olunduğu bir vaxtda cəmiyyətin vəziyyət və durumu hər an kəskin şəkildə dəyişilir. Başlanğıcda cəmiyyət fövqəladə və istisna bir duruma düşür və bu zaman həmin cəmiyyətdə müəyyən hökm və qanunlar tətbiq olunur. Növbəti mərhələdə isə həmin ilkin vəziyyət aradan qaldırılır. Misal üçün, fərz edin, filan ölkədə hərbi rejim tətbiq edilməyə başlayır. Hərbi rejimin də özünəməxsus qanunları vardır. Hərbi rejimin tətbiq olunduğu komendant saatında heç kim evdən çıxmamalı, küçələrdə insanlar toplu halda bir yerdə toplaşmamalıdır. Bunlar hərbi rejimə məxsus qanunlardır. Ölkə adi vəziyyətə qayıtdıqda, hərbi rejimin qanunları da aradan qalxır, öncəki hökm qüvvədən düşür və beləcə, hərbi rejim ləğv olunur. Bu isə hərbi rejim və komendant saatının yersiz olduğu anlamında deyildir. O saatda həmin qayda-qanunlardan başqasına yer yoxdur. Növbəti qanun gəldikdə isə, öncəki qanuna ehtiyac duyulmur və növbəti qanun icra olunmağa başlayır.

Bir zaman İslam əsgərlərinin sayı az idi. Həmin vaxt hər bir müsəlman əsgər on kafir əsgərin müqabilində müqavimət göstərirdi:

**إن يكن منكم عشرون صابرون يغلبوا مئتين**

“**İçərinizdə iyirmi səbirli kişi olsa, iki yüz kafirə qalib gələr.**”[1]

Yəni iyirmi nəfər iki yüz nəfərlə döyüşməli idi.

---

[1] “Ənfal” surəsi, ayə 65.

Əgər bir döyüşdə Peyğəmbər (s) on nəfər döyüşə göndərirdisə, onlar yüz nəfərlə döyüşmək və mübarizə aparmaq məcburiyyətində qalırdılar. Çünki əsgərlərin (və müsəlmanların) sayı az idi, İslam başlanğıc dövrünü yaşayırdı, gənc idi, eyni zamanda əsgərləri cəsarətli, qorxmaz və şövqlü idi. Belə bir hökm münasib idi, sonradan müsəlman əsgərlərinin sayı artdıqda, başqa hökmlə dəyişdirildi. Bu zaman hər bir nəfərə on nəfər düşmürdü, təhlükə və tələfat ehtimalı da azalmışdı. Hər bir şəraitin özünəməxsus hökmü olmalıdır. Bu hökmə "nasix", öncəki hökmə isə "mənsux" deyilir.

**و ناسخه و منسوخه**

"**Quranın "nasix" və "mənsux" hökmləri vardır.**" Hər bir hökm ya öz-özünə, ya da növbəti hökm vasitəsilə ləğv olurdu.

## Qurani-Kərimin xüsusiyyətləri

**و رخصه و عزائمه**

"**Quranın "rüxsət" və "əzaim"lərini aşkar etdi.**" "Rüxsət" o işə deyilir ki, insanın ürəyi istədikdə, onu yerinə yetirir, istəmədikdə isə yerinə yetirmir. "Əzaim" isə yerinə yetirilməsi və ya yerinə yetirilməməsi vacib olan işlərə deyilir.

**و خاصه و عامه**

"**Quranın "xas" və "ümumi" hökmlərini aşkar etdi.**" Xas hökmlər bir və ya bir neçə nəfərə, müəyyən bir şərait və zamana aiddir. Ümumi hökmlər isə müəyyən şəxsə və ya zamana xas deyil, hamıya və hər zamana şamildir.

**و عبره و أمثاله**

“**Quranın “ibrət” və “məsəllər”ini aşkar etdi.**”

Peyğəmbər (s) Quran ibrətlərini, tarixin ibrətamiz hadisələrini insanlara bəyan etdi. Ümmət zəiflədikdə, cəmiyyət günah içində çapalayıb süqut etdikdə, ibrətamiz əhvalatları, Quranda göstərilən məsəl və misalları, təşbeh və bənzətmələri bəyan etdi.

**و مرسله و محدوده**

“**Quranın “mürsəl” və “məhdud” hökmlərini aşkar etdi.**” Mütləq şəkildə qeyd olunan hökmlərə “mürsəl” deyilir. Misal üçün, filan bir iş gördükdə, mütləq bir qul azad etməlisiniz. Bu hökmə “mürsəl” deyilir. İslam və Qurani-Kərimdə qulların azadlığı müxtəlif şəkillərdə qeyd olunmuşdur və məqsəd isə insanın köləlikdən qurtulmasıdır. Burada qulun kişi və ya qadın, müsəlman və ya kafir olmasından söz getmir. Qeydsiz-şərtsiz “Qul azad edin” – deyə buyurulur. Bu hökmə “mürsəl” (mütləq) deyilir. Qeydli-şərtli və yaxud müəyyən bir xüsusiyyətlə bəyan olunan hökmə isə “məhdud” (müqəyyəd) deyilir.

**و محكمه و متشابهه**

“**Quranın “möhkəm” və “mütəşabeh” ayələrini aşkar etdi.**” Açıq-aydın bəyan olunan ayələrə “möhkəm” deyilir. Aydın olmayan, insanda çaşqınlıq yaradan ayələrə isə “mütəşabeh” deyilir. Əlbətə, bu ayələr diqqətlə araşdırıldıqda və Qurandan xəbərdar olanlara müraciət edildikdə, məsələ aydınlaşır. Bəziləri Quranın “mütəşabeh” ayələrinin bəzi surələrin başlanğıcında zikr olunan “əlif, ləm, mim”[1], “kaf, hə, yə, əyn, sad”[1] kimi

[1] “Bəqərə” surəsi, ayə 1.

"müqəttəə" hərflərinə aid olduğunu da qeyd etmişlər.

مفسرا جمله و مبينا غوامضه

"**Quranın "mücməl"lərini təfsir və "müşküllərini" (çətin və mürəkkəb hökmlərini) bəyan etdi.**"

بين مأخوذ ميثاق علمه

"**Bəndələrdən ayələrin öyrənilməsi ilə bağlı alınmış əhd-peymana görə, onlara həmin ayələri (onların hökmlərini) öyrənmək vacibdir.**"

و موسع على العباد في جهله

"**Bəzi mətləblər, hökmlər və həqiqətlərin isə öyrənilməməsinə icazə verildi.**"

Qeyd etdiyim kimi, bəzi hökmlərin öyrənilməsi hamıya vacib deyil, istəsən, öyrənə bilərsən, amma vacib deyil. Misal üçün, Mərhum Hacı Molla Haşimin "İrs" kitabını əvvəlindən sonuna kimi oxuyub araşdırmaq vacib deyil, uyğun məsələyə ehtiyac duyduğun zaman, həmin məsələni bilən bir kəsdən soruşub öyrənirsən. Bu cümlədə də məqsəd budur; bəndələrə bəzi məsələlərin öyrənilməməsinə icazə verildi.

## Peyğəmbərin (s) Quran hökmlərilə bağlı səlahiyyətləri

و بين مثبت في الكتاب فرضه و معلوم في السنة نسخه

Qurani-Kərimdə vacib edilən bəzi hökmlər Peyğəmbərin (s) sünnəsində qüvvədən düşmüşdür. Həmin hökm Qurani-Kərimdə qüvvədən düşməsə

[1] "Məryəm" surəsi, ayə 1.

də, Peyğməbər (s) Allahın əmri ilə həmin hökmü ləğv etmişdir. Bu məsələnin heç bir maneəsi yoxdur. Soruşmayın nə üçün? Bu, Quranın qalıcı və davamlı olmaması anlamında deyil, əksinə Peyğəmbərin (s) əmrinin etibarlılığını və legitimliyini aşılayır. Misal üçün, hansısa bir idarənin rəhbəri (bir layihənin icrası ilə bağlı) bir məktubda verdiyi əmri növbəti məktubda ləğv edir və onun icrasının saxlanıldığına və yaxud lazımi mərhələyə çatdığına dair göstərişi imzalayır. Bir zaman göstəriş verirdisə, müavini bir müddətdən sonra onun yekunlaşdığını bildirir və rəhbərlik də onun sözünü qəbul edir. Bu nə deməkdir? Bu, müavinin sözünə qüvvət və rövnəq vermək, onun sözünün legitim hüquqa malik olduğunu bildirməkdir. Sadə dildə desək, buyurur ki, onun sözü söz, hökmü hökmdür. Odur ki, sözügedən cümlədə də Qurana hörmətsizlik yox, Peyğəmbərə (s) ehtiram etmək və onun legitim hüquqa malik olduğunu bildirmək deməkdir.

**و بين مثبت في الكتاب فرضه**

– Yəni, Quranda vacib olması sübuta yetirilən hökmlər.

**و معلوم في السنة نسخه**

– Yəni, həmin hökmlərin Peyğəmbər (s) sünnəsində qüvvədən düşməsi.

**و واجب في السنة أخذه و مرخص في الكتاب تركه**

Bu ifadə isə öncəki ifadənin əksini açıqlayır. “**Sünnədə icrası vacib olanların Quranda tərk edilməsinə icazə verilmişdir.**” Peyğəmbər (s) hansısa bir məsələni xas bir üslubla icra edirdisə, məsələn, Mədinəyə köçməmişdən öncə Məkkəyə doğru namaz qılırdısa, Mədinəyə köçdükdən sonra

Allah-Taalanın əmri ilə Beytül-Müqəddəsə tərəf namaz qıldı. Bu məsələ – nə öncə Kəbəyə doğru namaz qılması, nə də sonradan Beytül-Müqəddəsə doğru namaz qılması Qurani-Kərimdə zikr olunmayıb. Bir neçə müddət keçdikdən sonra Beytül-Müqəddəsə doğru namaz qılmaq əmrinin ləğv olunması ilə bağlı ayə nazil oldu və belə buyuruldu:

**قد نرى تقلب وجهك في السماء فلنولينك قبلة ترضاها فول وجهك شطر المسجد الحرام وحيث ما كنتم فولوا وجوهكم شطره**

“**(Ey Peyğəmbər!) Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük, ona görə də səni razı olduğun qibləyə tərəf döndərəcəyik. İndi üzünü Məscidül-Hərama tərəf çevir! (Ey müsəlmanlar!) Harada olsanız (namaz vaxtı) üzünüzü oraya döndərin!**”[1]

Peyğəmbərin (s) sünnəsi və üslubuna əsasən, fərqli icra olunan bir hökm Quran ayəsi nazil olduqdan sonra ləğv olunur. Ləğv etmək və qüvvədən salmaq batil etmək mənasını daşımır, bu iki söz bir-birindən fərqlənir. Mənası budur ki, indiyə qədər elə icra edirdinsə, bunda sonra belə icra et. Bu qədər!

**و بين واجب بوقته و زائل في مستقبله**

“**Bəzi hökmlər müəyyən müddətdə vacib idisə, müddət bitdikdən sonra isə aradan qaldırıldı.**” Misal üçün, zinakarlıqla məşğul olan ərli qadınlar barəsində ilkin hökm evdə həbs olunmaq idisə **"həmin qadınları ölənə qədər evlərdə həbs edin"**[2],

[1] “Bəqərə” surəsi, ayə 144.
[2] “Nisa” surəsi, ayə 15.

sonradan bu hökm qüvvədən salındı.[1] Kimin vasitəsilə? Quranın, Peyğəmbərin (s) – Quranın təfsirçisinin vasitəsilə. Bəli, Əmirəlmöminin Əlinin (ə) kəlamlarının mənası bunlardan ibarət idi.

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Qurandan uzaq salma!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Muhəmməd və ali-Muhəmməddən də uzaq salma!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Quran və Quranın aliməqamlı təfsirçiləri ilə bağlı ifrat və təfritdən qoru!

İlahi! Bizi Qurandan uzaqlaşdıran, Quranla bizim aramızda fasilə salanların kökünü kəs və onların xəbis simalarını insanlara tanıtdır!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, Quranla tanışlığımızı daha da artır!

İlahi! Bizi Quranın göstərişinə uyğun işə və həyata sövq etdir, həyatımızı və ölümümüzü Quran buyruğuna uyğun olaraq müəyyən et!

[1] Bəzi rəvayətlərə əsasən, bu ayənin hökmü "Nur" surəsinin 2-ci ayəsinin vasitəsilə ləğv olundu. "Təfsiri-Əyyaşi", c. 1, səh. 227.

# 8

# ƏLƏVİ (İMAM ƏLİ (Ə)) HAKİMİYYƏTİNİN HƏDƏFLƏRİ VƏ ONUN ÜZLƏŞDİYİ ÇƏTİNLİKLƏR[1]

**Bağişlayan və mehriban Allahın adı ilə!**

**ما راعني إلا و الناس كعرف الضبع إلي ينثالون علي من كل جانب حتى لقد وطئ الحسنان و شق عطفاي مجتمعين حولي كربيضة الغنم فلما نهضت بالأمر نكثت طائفة و مرقت أخرى و قسط آخرون كأنهم لم يسمعوا كلام الله يقول "تلك الدار الآخرة نجعلها للذين لا يريدون علوا في الأرض و لا فسادا و العاقبة للمتقين" بلى و الله لقد سمعوها و وعوها و لكنهم حليت الدنيا في أعينهم و راقهم زبرجها أما و الذي فلق الحبة و برأ النسمة لو لا حضور الحاضر و قيام الحجة بوجود الناصر و ما أخذ الله على العلماء أن لا يقاروا على كظة ظالم و لا سغب مظلوم لألقيت حبلها على غاربها و لسقيت آخرها بكأس أولها و لألفيتم دنياكم هذه أزهد عندي من عفطة عنز[2]**

---

[1] "Nəhcül-bəlağə", "Şiqşiqiyyə" xütbəsindən bir hissənini şərhi – 1974/11/22.

[2] "Nəhcül-bəlağə", xütbə 3.

## Bəhsin mündəricatı

Qeyd etdiyim kimi, "Nəhcül-bəlağə"nin üçüncü xütbəsinin bir hissəsindən ibarət olan bu söhbətin ünvanı Ələvi hakimiyyətinin hədəfləri, üzləşdiyi problemlər barəsindədir. Birincisi, Əmirəlmöminin Əli (ə) Osmandan sonra məsuliyyət yükünü nə üçün qəbul etdi? İslam və şiə tarixi boyunca qüdrət və hakimiyyət arzusunda olanların qüdrət və hakimiyyətdə məqsədləri nə olub? Əmirəlmöminin Əli (ə) nə üçün hökumət kürsüsünə sahib olmaq istəyirdi? Nə üçün sonda hakimiyyəti qəbul etdi? (Sonuncu iki ifadənin hansı daha doğru nəzərə çarpırsa, onu da qəbul edin.)

İkincisi, Əmirəlmöminin Əli (ə) hakimiyyəti qəbul etdikdən sonra o Həzrətin hədəf və məqsədlərinə qarşı çıxan əsas düşmənlər o Həzrətin rahatlıqla, ağrı-acısız, heç bir problem yaşamadan hökumət yükünü məqsədə çatdırmağa icazə verəcəkdilərmi? Görəsən, bu yarasalar parlaq günəşin həyatverici şüasının bütün varlıq zərrələrinə saçmasını, ölüləri diriltməsi, yatmışları oyatması və solmuşları canlandırması və çiçəkləndirməsini görmək istəyəcəkdilərmi? Bir sözlə, onlar Əmirəlmöminin Əlinin (ə) rəhbərlik etməsinə imkan verəcəkdilərmi? Şübhəsiz, imkan verməyəcəkdilər. Kimlər imkan verməyəcəkdi? Cəmiyyətdə Əli (ə) hakimiyyətini öz mənafelərinə zidd və zəhərli hesab edən zümrələr kimlər idi?

Onları tanımaq, məqsədləri ilə tanış olmaq, Əlinin (ə) hakimiyyətini xoşagəlməz və zəhərli hesab etmələri və onun hakimiyyətinə qarşı əhd-

peymanlarını pozmalarının səbəbini öyrənmək lazımdır. Əmirəlmöminin Əli (ə) xütbənin bu hissəsində bu iki sualı cavablandırır, öncə hakimiyyəti qəbul etmək və bu ağır yükü çiyninə almaqla bağlı məqsədini açıqlayır, sonra isə bu mahir rəssam sehrli və güclü qələmi ilə simaları bir-bir tanıtdırır, onunla müxalifətçilik edən və onun fəaliyyətinə maneə yaradan qrupları təsvir edir. Maraqlıdır ki, Əmirəlmöminin Əli (ə) sadaladığı bu qrupların hər birini bir cümlə, hətta bir kəlmə ilə tanıtdırır və beləcə, onların mövqeyini, məqsəd və işlərini bəyan edir. Xütbənin mahiyyəti budur!

## Osmanın qətlinin səbəbi – Onun Peyğəmbərin (s) ədalətli sünnəsi ilə müxalifətçiliyi

Macəra belə olur ki, Osman zülm və günahları ucbatından xalqın qəzəbinə tuş gəlir. Bunu biz yox, İslam tarixi deyir, özü də çox aydın şəkildə. Xalq baş vermiş hadisəyə layiq bir işə əl atır. Hələ də Allah Rəsulunun (s) hökumətinin xatirəsi ilə yaşayan, o Həzrətin dünyanın hər bir yerini bürüyən ədalət səsini unutmayan, ayrı-seçkilikdən uzaq, insaf, ədalət və bərabərlik üzərində qurulan, tamamilə bərabərlik və insanlıq meyarları ilə idarə olunan bir cəmiyyət həmin ədalət və bərabərliyi pozan bir hakimlə üzləşdikdə, buna tab gətirə bilmir. Əlbəttə, dünyada acınacaqlı durum, bərabərsizlik, haqsızlıq, zülm və ictimai təbəqələşmə həmişə olub və olmaqdadır. Amma bu cəmiyyət Peyğəmbərdən (s) öncə izzət və insanlıq, ədalət və bərabərliklə

möhkəmlənən bir quruluş nə görmüş, nə də eşitməmişdi. (Bu, onların qiyamına səbəb oldu.) Yoxsa, tarixdə Osmandan daha da pislərinin hakimiyyəti altında inildəyən, daha da ağır işgəncələrə məruz qalan xalqları çox görmüşük. Lakin Osmanın zamanında bu, qeyri-mümkün idi. Çünki onun zamanında camaat İslam hökumətini və Peyğəmbərin (s) ədalətini görmüşdü. Buna görə də camaat Osmanın zülmlərinə dözə bilmirdi.

## İslamın ədalət xatirəsini zehinlərdən silmək üçün zalım hakimlərin təlaşı

Osmandan sonra xalqı ağır yüklərin altına atanlar hər şeydən əvvəl İslamın ədalət xatirəsini zehinlərdən silib təmizlədilər. Elə bir iş gördülər ki, uzun zaman çərçivəsində xalqın beynini yumaqla dünyanın hansı vəziyyətdə olduğunu anlatdılar. Xalq gözünü açıb özünü zibillikdə gördü, bir halda ki, oranın gülüstan və Cənnət olduğunu güman edirdi. Onlara belə başa salınmışdı. Zibillikdə dünyaya göz açan, orada böyüyüb boya-başa çatan, çirkinlikdən başqa, heç bir şey görməyən və hətta eşitməyən, əgər eşitsə də inanmayan bir varlığın, bir mövludun belə çirkin mühiti təmizləməsi, ona qarşı qəzəblənib hərəkata keçməsi mümkün idimi? İnsanlardan istifadə edən düşmənlərin ilk işi bu oldu və bu, (onlar üçün) olduqca səmərəli bir iş idi. İslamın insanlara vəd etdiyi Cənnət onların gözlərindən gizlədildi. Artıq insanlar Quranın insanlığa necə bir cəmiyyətin bəxş etdiyini, İslam ədalətinin nə olduğunu unutmuşdular. Əlidən (ə), Peyğəmbərdən

(s) və İslamın ilkin çağlarına hakim ədalətindən danışanda, xalq əfsanə və nağıla qulaq asdığını təsəvvür edirdi. Sən dünyaya – haqqa qarşı bu qədər təcavüzkarlıqlara, zülm və ədalətsizliklərə, inhisarçılıq və xudbinliklərə baxma! Yetər ki, qohumlarından biri vəzifə sahiblərinin nökərlərindən biri ilə tanış olsun, o zaman bütün işlərin həll olacaq. Məgər bu, zülm və haqsızlıq deyilmi? Halbuki Əli (ə) ilə böyüyüb boya-başa çatan, onunla birgə yaşayan, qanı onun qanından, canı onun canından olan qardaşı Əqil ibn Əbutalib özü və ailəsi yoxsulluq və çətinlik içində ikən, "beytül-mal"dan (ümumi gəlirdən) yardım istədikdə, Əli (ə) ona qızdırılmış dəmir parçası göstərir.[1] (Əqil o Həzrətin bir an belə ədalət xəttindən çıxmağa razı olmadığını gördükdə, ayağa qalxıb gedir.) Axı, siz bu cümləni necə anlaya bilərsiniz? Mən özüm yalnız sözlərin zahirini anlayıram, nə olduğunu dərk edə bilmirəm, dərk etmək belə mümkün deyil. Amma İslam cəmiyyəti belə idi.

Quran insanları və bəşəriyyəti belə bir cəmiyyətə dəvət edir, onlara belə bir dünyanı töhfə verir. Qoy başqaları desinlər ki, biz aclığı və nadanlığı cəmiyyətdən qaldıracağıq, amma İslam bunlarla kifayətlənmir. İslam insana adi insanlıqdan ali mələyə çevirən bir əxlaq və ruhiyyə, vəd olunmuş cəmiyyətdə Allah və din yolunda ciddilik, əzm və iradə bəxş edir. Elə bir cəmiyyət bəxş edir ki, bu gün dünyada ondan bir əsər-əlamət yoxdur. Söhbət adı müsəlman olan cəmiyyətdən yox, İslam cəmiyyətindən gedir.

---

[1] "Nəhcül-bəlağə", xütbə 224.

## Osmanın mühakiməsiz qətlinin zərəri

Osmanın macərasını danışırdım. Xalq belə bir cəmiyyət görməmişdi. Osman belə bir cəmiyyətdə inhiraf və azğınlığın bünövrəsini qurduqdan sonra xalq buna dözə bilmədi və nəhayət, Osmanı qətlə yetirdi.

Böyük bir günah baş verdi, o da Osmanın öz günahı idi. Osmanın macərası ilə bağlı bu məqama diqqət yetirin. İslamda hər bir günah mühakimə olunmalı, cəza tədbirləri məsul vəzifəli şəxs tərəfindən icra edilməlidir. Osmanı da həmin məsul vəzifəli şəxs mühakimə və məhkum etməli, cinayətini hamıya çatdırmalı və faş etməli idi. Bu iş baş tutmadı və haqqın, xüsusən də, Ələvi cəbhəsinin zərərinə tamamlandı. Bir zaman Osmanın əleyhinə danışan, harda otururdusa, "**Bu uzunsaqqallı yəhudi Osmanı öldürün!**" və yaxud " **اقتلوا نعثلا قتلها الله**" "**Bu axmaq kişini öldürün, Allah onu öldürsün!**" – deyən Ayişə, Əli ibn Əbitalibin (ə) hakimiyyətə gəldiyini gördükdə, Osmanın qisasını almaq məqsədilə səsini ucaltdı. Mən keçmişdə bu əhvalatı eşitdikdə, yaxud oxuduqda, bəzən də danışdıqda təəccüblənərdim. Bir az bəsirətimiz artdıqda, dünya siyasətçilərinin aktyorluq metodları ilə az-çox tanış olduqda, gördüm ki, xeyr, məsələ olduqca sadədir; bir zaman "**Bu axmaq kişini öldürün!**" – deyərək Osmanı şərabsatan, şərabxor və uzunsaqqallı "**Nəsəl**" adlı axmaq bir yəhudiyə bənzədən Təlhə, Zübeyr, Ayişə və digərləri başqa bir zamanda Osmanı "şəhid və zalımların əli ilə

məzlumcasına qətlə yetirilən bir şəxs" kimi yad edirlər.

## Əmirəlmöminin Əlini (ə) hakimiyyətə gətirmək üçün xalqın onun evinə axışması

Bir sözlə, camaat Osmanı qətlə yetirdi. Osman qətlə yetirildikdən və maneə – qəsbkar bir hakim – aradan qaldırıldıqdan sonra cəmiyyət nə etməli, kimə sığınmalı, kimə üz tutmalıydı? Aydındır ki, cəmiyyətin atası, mürşidi, müəllimi və hidayətçisi Əmirəlmöminin Əli ibn Əbitalibə (ə)! Cəmiyyət o Həzrətin evinə üz tutdu, böyük bir izdiham yarandı. Hətta Həzrət buyurur ki, camaat mənimlə beyət etməyə gəldikdə, o Həzrətin iki tərəfində dayanan iki güclü gənc oğlu – Həsənlə Hüseyn cəmiyyətin arasında sıxılıb qalmışdı. Cəmiyyət tələsik və sürətlə o Həzrətin evinə axışırdı. Onlarda ədalətli hakimə qarşı həqiqi mənada təşnəlik və şövq yaranmışdı. Hələ camaat o zaman Peyğəmbəri-Əkrəmin (s) Qədir-Xumda – "**Mən hər kəsin mövlasıyamsa, Əli də onun mövlasıdır!**"[1] – buyruğunu unutmuşdu, əgər unutmasaydı, öncədən gəlib beyət edərdi. O camaat Peyğəmbəri-Əkrəmin (s) buyruğuna görə gəlməmişdi, əksinə öz istək və hədsiz ehtiyacı üzündən Əmirəlmöminin Əliyə (ə) – bu xilaskar təbibə üz tutmuşdu ki, cəmiyyəti islah və idarə etsin, əyrilikləri düzəltsin. "**İzdiham və camaatın çoxluğundan Həsən və Hüseyn ayaq altında**

---

[1] "Kafi", c. 1, səh. 420.

**qaldılar. Paltarım hər iki tərəfdən cırıldı (və yaxud bədənim hər iki tərəfdən əzildi).**” Bu qədər cəmiyyət mənə beyət etmək üçün gəlmişdi.

## Əmirəlmöminin Əlinin (ə) zahidanə həyatı – hakimiyyəti qəbul etməkdə dünyəvi hədəflərin olmamasına şahidlik

Əmirəlmöminin Əli (ə) öncə müxalifət macərasını danışır: Camaat gəldi və mən onlara rəhbərlik məsuliyyətini qəbul etdim. Ondan sonra mənimlə üç dəstə müxalifətə qalxdı və mən onlara xəbərdarlıq etdim. Daha sonra Həzrət hakimiyyəti qəbul etməsinin səbəblərini açıqlayır. Mən burada hər iki məsələyə toxunmaq istəyirəm. Birinci səbəb və məqsədlərə toxunaq. Diqqət edin! Əmirəlmöminin Əli (ə) hakimiyyəti nə üçün qəbul etdi? Axı, o Həzrətin özü həm bu, həm də digər hadisələrdə buyurmuşdu ki, dünyanın bərbəzəyi, bəşərin bağlandığı bu zinət mənim nəzərimdə iynə ucu qədər əhəmiyyətli deyil. Öz canına əhəmiyyət verməyən və onu ikiəlli təqdim etməyə hazır olan bir şəxs, təbii ki, maddi məsələlər və dünyəvi bağlılıqlara dəyər verməz. Əmirəlmöminin Əli (ə) belə bir şəxs idi. Deməli, o Həzrət dünya, vəzifə, ağalıq, qüdrət, əmr vermək, qadağa qoymaq, saray tikmək, pul yığmaq, ləzzətli yeməklər yemək, bahalı libaslar geyinmək, ailə-uşaqları ilə rifah halında yaşamaq üçün hakimiyyəti qəbul etməmişdi. Dəlil-sübut istəyirsənsə, Əmirəlmöminin Əlinin (ə) həqiqi həyat tərzi və rəftarları buna dəlil-sübutdur. Axı, o

Həzrət hakimiyyətə gəldikdən sonra necə rəftar etdiyini gördün! Onun yaşayışına nəzər saldıqda, görürük ki, ondan sonra hakimiyyətə gələn zahid və yaxud zahidlik iddiasında olan hakimlərin heç birinin yaşayışı ilə müqayisə olunası deyildir. Misal üçün, Ömər ibn Əbdüləziz zahirən zahidcəsinə yaşayırdı, bəlkə də bu, bir həqiqət idi; belə ki, dünyanın bərbəzəyi və zinətlərinə etina etməzdi. Amma Əmirəlmöminin Əli (ə) ilə müqayisə olunası idimi? Yazırlar ki, Ömər ibn Əbdüləzizin mal-dövlətindən bir şey qalmadı. Amma Əmirəlmöminin Əli (ə) hakimiyyətdə olduğu müddətdə, hətta sadə bir yemək də yemədi. Ravi deyir: "Əmirəlmöminin Əlinin (ə) çörək qoymaq üçün özünəməxsus bir torbası var idi. Gördüm ki, o Həzrət çörək yemək istədikdə, çörəyi (quru olduğundan) dizində sındırıb yeyir. Xidmətçisinə dedim: "Axı Əmirəlmöminin (ə) qocalıb. (O Həzrət 63 yaşında ikən şəhid olub.) Altmış yaşlı bir kişiyə niyə rəhmin gəlmir? Heç olmasa, onun yeməyini, çörəyini azca qızdırıb yumşaldardın!" Xidmətçi gülüb dedi: "Əsla razı deyil, əgər belə bir iş gördüyümü bilsə, məni danlayar. O, belə yemək istəyir. Mən onun üçün yaxşı yemək və yaxud yumşaq çörək gətirmək istəsəm də, yeməyəcək. O Həzrət özü belə istəyirsə, burada mənim nə günahım var?!"

Budur Əmirəlmöminin Əlinin (ə) həyatı! O Həzrətin özü göstərdi ki, (işi, fəaliyyəti, hakimiyyəti) dünya üçün deyildi. Bu xütbədə də bunu açıqlamış və buyurmuşdur ki, əgər bu səbəblər olmasaydı, mən yenə bu hakimiyyətə etina

etməzdim, bu dünya mənim nəzərimdə keçinin burnunun suyundan da dəyərsizdir.

## Əmirəlmöminin Əlinin (ə) hakimiyyəti qəbul etməsinin iki səbəbi

Əmirəlmöminin Əli (ə) hakimiyyəti nə üçün qəbul etdi? Həzrət üç cümlə (səbəb) buyurur:

**لو لا حضور الحاضر**

“**Əgər camaatın (mənə beyət etmək üçün)iştirakı və toplanması olmasaydı...**”

Birincisi odur ki, camaat (mənə beyət etmək üçün) bir yerə toplaşdı və xalq kütləsinin istəyinə ehtiram etdim.

**و قيام الحجة بوجود الناصر**

“**Höccətin tamamlanmasına kömək olunmasaydı...**”

İkincisi, Həzrət buyurur ki, iyirmi beş il evdə oturub hakimiyyəti ələ keçirmək istəmədiyimi gördünüz. Səbəbi də bu idi ki, kimsənin mənə kömək edəcəyinə əmin deyildim. Tək-tənha qalmışdım. İndi ki bu cəmiyyət mənə üz tutub, say çoxdursa, artıq, höccət mənə tamamdır (bəhanəyə yer yoxdur).

## Məsum imamların (ə) qiyam etməməsinin səbəbi – Vəfalı dostların olmaması

Bu sözə qulaq asın, sözügedən xütbəyə aid olmasa da, ona münasibdir. Əmirəlmöminin Əlinin (ə) söylədiyi səbəblər bütün imamların məntiqidir.

İmamların həyatı ilə bağlı bizim təfəkkür tərzimizi qəbul etməyən bəziləri ola bilsin ki, bu cümləni qəbul etsin. O Həzrət buyurur ki, mən ona görə hakimiyyəti qəbul etdim ki, höccət mənə tamamlandı, tərəfdarlarımın olduğunu görüb qəbul etdim. Yəni, indiyə qədər qiyam etməməyimin səbəbi tərəfdarlarımın olduğuna əmin olmamağım idi. Mənim nəzərimcə, bu, bütün imamların təfəkkür tərzidir. İmam Baqir (ə), İmam Sadiq (ə), İmam Kazim (ə), İmam Cavad (ə) və digər imamlar tərəfdarlarının olacağına əmin olsaydılar, sözsüz, qiyam edərdilər. Bu isə, bizim imamların həyatı ilə bağlı təfəkkür tərzimizin ikincidərəcəli məhsuludur. Biz deyirik ki, o həzrətlər qüdrəti ələ keçirmək üçün daim çalışmışlar. Bəli, bu, bizim təfəkkür tərzimizin ikincidərəcəli məhsuludur. Bu təfəkkür tərzimizi qəbul etməyənlər bunu qəbul etmək məcburiyyətindədirlər. Çünki bu, məsum imamların (ə) kəlamlarında dəfələrlə təkrarlanmışdır. İmam Sadiqdən (s): "Siz niyə qiyam etmirsiniz?" – deyə soruşduqda, "Dostum, köməkçim yoxdur!" – deyə cavab verir. Sonra da Südeyr Seyrufinin əhvalatında buyurur ki, əgər burada otlayan bu qoyunların sayı qədər yaxşı dostum, yorulmaz və sədaqətli köməkçim olsaydı, bir an belə gecikməzdim. Südeyr Seyrufi deyir ki, qoyunların sayı ilə maraqlandıqda, onların 17 baş olduğunu gördüm. Bu, imamların təfəkkür tərzidir. Hamısı da belə düşünmüş və həmin əsgərlərin tərbiyəsi ilə də məşğul olmuşlar. Düşünməyin ki, nə üçün bu qədər zəhmət çəkdikləri halda, 17 nəfər insan tərbiyə edə bilmədilər? Siz o zaman vəziyyətin necə olduğunu, insanların həyatı

ilə necə oynanıldığını, imamın istədiyi on yeddi nəfərin hansı xüsusiyyətlərə sahib olmalı olduğunu bilmirsiniz?! Yoxsa, xorasanlı kişi İmama onun tərəfdarlarının yüz min nəfər olduğunu demişdi: "Bizim şəhərimiz və vətənimiz Xorasandan yüz min insan sizin xidmətinizdədir."

Bir nəfər imamın (ə) hüzuruna gedib dedi: "Sizin Xorasanda üç yüz min döyüşçünüz var..."[1]

Bir sözlə, bu, imamların təfəkkür tərzidir. Onların rəftar tərzi də belədir. Onların qətiyyətli və xalis dostları olsaydı, sözsüz, qiyam edərdilər. İmam Baqir (ə), İmam Sadiq (ə) və İmam Kazimin (ə) (elmi sahədə) etdikləri qiyamı yox, aşkar qiyamı nəzərdə tuturam.

Beləliklə, Əmirəlmöminin Əlinin (ə) nəzərində hakimiyyəti qəbul etməsinin səbəblərindən ikisini qeyd etdik.

## Alimlərdən alınan ilahi əhd-peyman – Əmirəlmöminin Əlinin (ə) hakimiyyəti qəbul etməsinin ən mühüm səbəbi

Üçüncü səbəb isə daha önəmlidir.

**و ما أخذ الله على العلماء أن لا يقاروا على كظة ظالم و لا سغب مظلوم**

"**Zalımın doyması və məzlumun ac qalması ilə razılaşmaması üçün Allah-Taalanın alimlərdən aldığı əhd olmasaydı...**"

Əmirəlmöminin Əli (ə) Allah-Taalanın alimlərdən, ayıq insanlardan aldığı əhd-peymanı

[1] "Mənaqibi-ali-Əbutalib", c. 4, səh. 237.

xatırladır və bu əhd-peyman çox sadə və iki kəlmədən ibarətdir:

“**Zalımın doyması və məzlumun ac qalması ilə razılaşmaması**”

Allah-Taalanın alimlərdən və ayıq insanlardan aldığı əhd-peyman budur ki, onlar zalımların toxluğu, zülmə məruz qalanların isə aclığı müqabilində susmasınlar. Bu, bir əhd-peymandır. Zalımların qarınlarını həddən artıq doldurması və məzlumların ac qalmasının mənası nədir? Bu, simvolikdir, yəni ictimai təbəqələşmə, ictimai hüquq məsələlərində ayrı-seçkilik; başqa sözlə, cəmiyyətdə bir qrupun rifahda, digər bir qrupun isə məhrumiyyətdə yaşaması deməkdir. Əmirəlmöminin Əli (ə) buyurur ki, alim və ayıq insanlar belə bir vəziyyətlə üzləşdikdə, susmağa haqları yoxdur. Mən də cəmiyyətdə belə bir vəziyyətlə üzləşdim. İndi ki köməkçi və tərəfdarım var, mənə təklif edilən bu vəzifəni icra edə bilərəm. Odur ki, başqasına həvalə etmirəm, sükut edə və rahat otura bilmərəm. Əmirəlmöminin Əlinin (ə) hakimiyyətə gəlməkdə məqsədi bu idi. O Həzrətin qəlbi və ruhunda azacıq belə maddi və bəşəri səbəblər, daha dəqiq ifadə etsək, şəxsi maraqlarla bağlı səbəblər yox idi. Düşüncəsi yalnız insanlar üçün və onların xeyrinə idi. Bir an özünü düşünmürdü, bütövlükdə fikri-zikri xalq idi.

Baxın, qeyd edilən səbəbdə əhd alan Allah-Taaladır; əhd alır ki, xalqı düşünməlisən. Əmirəlmöminin Əli (ə) buyurur ki, xalqı düşündüyüm üçün hakimiyyəti qəbul etdim. Yəni, Allah-Taala belə buyurmuş və əmr etmişdir. Bəziləri

(sanki Əmirəlmöminin Əlidən (ə) daha artıq dindarmışlar kimi) özlərini müqəddəsbazlığa vuraraq belə deyirlər: "Xalqa xatir iş görmək olmaz, yalnız Allaha xatir işləməlisən." Onlar elə təsəvvür edirlər ki, "Allaha xatir ilə xalqa xatir" arasında fasilə var, halbuki heç bir fasilə yoxdur. Elə həmin Allah buyurur ki, Əli ibn Əbitalib kimilər xalqa xatir, xalqın və Allahın bəndələrinin xeyrinə mütləq bir iş görməli və zülm qarşısında sükut etməməlidir. Burada azacıq belə şəxsi maraq, eqoistlik yoxdur, hər nə varsa, başqalarının xeyrinə görədir.

## Dünyapərəst zümrələrin əhd-peymanlarını pozması

Əmirəlmöminin Əli (ə) bu məqsədlə hakimiyyət və rəhbərliyi qəbul edir.

**فلما نهضت بالأمر نكثت طائفة**

Hakimiyyət işlərini ələ aldıqda, bir qrup mənimlə əhd-peymanını pozdu. Keçmişdə yaxşı insanlardan, Allah yolunda mübariz və mücahidlərdən, xeyir işlərdə öndərlərdən sayılan və daim Əli ibn Əbitaliblə (ə) birgə əllərinə qılınc alıb Allah düşmənlərinə qarşı döyüşən, eyni zamanda, sükut edənlərdən bir dəstə əhd-peymanına sadiq qalmadı. Aman bu xudbinliklərdən, bu sükutlardan, bu quru görüntülərdən! Belələri hər gün bir şeyə ehtiyac duyurlar; yaxşı və haqq bir iş görən bir şəxsiyyət kimi görünmək istəyirlər. Xalqın bir günlük ehtiyacını təmin etdiyi üçün ertəsi gün onun da öz ehtiyacının ödənməsini istəyir. Beləliklə, davamlı olaraq digər ehtiyaclarının təminini tələb edir. Sonra

isə bir günlük ehtiyacı təmin etdiyi üçün insanların yaddaşında müqəddəs və möhtərəm bir sima olaraq qalmaq istəyir və bir addımına görə, çiynindən digər vəzifələrin götürüldüyünü təsəvvür edir. Bu isə fəsad, azğınlıq və irticaçılığın başlanğıc nöqtəsidir. Peyğəmbəri-Əkrəm (s) isə hər günün öz vəzifəsini yerinə yetirirdi. Əmirəlmöminin Əli (ə) də belə idi. Halbuki Təlhə ilə Zübeyr fərqli idi. Bir gün vəzifəsi Peyğəmbəri-Əkrəmin (s) yanında qılınc çalmaq idisə, qılınc çalırdılar, özü də çox gözəl qılınc çalırdılar. Amma sonralar İslam cəmiyyəti azğınlıq və irticaçılığa döndükdə, həm özlərini, həm də başqalarını inandırdılar ki, onlardan heç bir məsuliyyət ummasınlar. Öz şəxsi həyatlarının, rahatlıqlarının və xoş güzəranlarının ardınca getdilər, başqaları kimi, dünyanın nemətləri, bərbəzəyi ilə məşğul oldular, qəlblərini əkin sahəsinə, at, qatır və dəvə tövləsinə bağladılar:

**ده بود آن نه دلکه اندر وی گاو و خر باشد و ضیاع و عقار**

“**İnək, ulaq, mal və mülkün saxlanıldığı yer qəlb deyil, kənddir.**” Bir qəlbdə ki, əkin sahəsindən, inək və dəvədən, onların adı və sevgisindən başqa, heç bir şey görmürsən, o, "del" (qəlb) yox, "deh"dir (kənddir). Mənim nəzərimcə, kəndin adi yerləri yox, tövləsidir. Bax, onlar belə idilər. Onlar keçmiş iftixarlarından sui-istifadə etməyə, “Filan yerdə və filan meydanda Peyğəmbərlə (s) birgə olan biz idik, filan işi biz gördük və sairə!” – deməyə başladılar. Bəs, bu gün nəyiniz var? Əgər bu karvanı, bu avtomobili, bu yükü, bu arabanı məqsədə çatdırmaq lazımdırsa, hələ məqsədə çatmayıb və onlar nə üçün öz yerində

qalıb? Hər dəfə bir addım irəli getmək üçün bir hərəkət, bir güc, bir təkana ehtiyac olur. Hər addımda hərənin çiyninə bir məsuliyyət düşür. Sən (bir dəfə) bir yerdə gücünü göstərmisənsə, bu o demək deyil ki, bu yolu sona kimi rahat şəkildə qət etməlisən, hətta mindiyin arabanın başqaları tərəfindən itələnməsini istəyirsən, bunu düşünməyinə səbəb isə haçansa onu itələyən ilk şəxs olmağındır. Bu isə həssas və ayıq bir cəmiyyətin mübtəla olacağı ən böyük təhlükədir. Osmanın hakimiyyəti dövründə inqilabi şüur və ruhiyyə insanlarda zəifləmişdi, başa düşmürdülər ki, Təlhə Təlhədirsə, özü üçündür. Allah üçün bir bəndə, cəmiyyət üçün isə bir əsgər olmalıdır. Təlhə özü və sahib olduqlarının idarəsi üçün Təlhədir; anlamırdılar ki, Zübeyr üçün Peyğəmbərin (s) əmisi oğlu olması başqa işlərdə yox, yalnız irs-mirasın bölgüsündə dərdə dəyir.

Təlhə, Zübeyr, Əbdürrəhman ibn Ovf, Səd ibn Vəqqas və digər keçmiş əsgərlər, keçmiş ruzigarın fədakarları özlərinə təsəlli verirdilər ki, döyüş meydanından, Allaha şükürlər olsun, salamat çıxmışıqsa, çəkdiyimiz zəhmət və əziyyətlərin müqabilində ayaqlarımızı uzadıb bunun qarşılığını ala bilərik. Bu cənabların qıraq-bucaqda çoxlu pulları, qızılları və mülkləri var idi. Haradan qazanmışdılar? Əl qabarı, alın təri iləmi? Xeyr! Ad-san, titul, medal və iftixarlarla, “filan vaxt, filan yerdə filan işi görən biz idik” deməklə! Yazıq camaat da onları görmüşdü, amma bunun yanlış olduğunu anlamamış, Allahın bəxş etdiyi islami həssaslıq və şüurdan məhrum qalmışdı. Belə

məsələləri anlaya bilmirdilər. Əlbəttə, indiki dövrümüzdən çox-çox yaxşı idilər.

Bir sözlə, onlar Osmanın hakimiyyəti sayəsində bu iftixarlardan bəhrələndilər. Nəhayət, Əmirəlmöminin Əli (ə) hakimiyyətə gəldi. Onlar o Həzrəti tanıyırdılar. Əgər tanımasaydılar, bu tezliklə razılaşmazdılar. Amma tanıyırdılar.

Onlar camaatın o Həzrətin evinə toplaşdığını, bir rəhbər və xilaskara olan təbii istək və ehtiyacını, habelə rəhbərliyə layiq xüsusiyyətlərə sahib yeganə xilaskar şəxsiyyətin Əmirəlmöminin Əli (ə) olduğunu və onun evinə axışdığını gördükdə, çaşbaş qalmışdılar.

Bilmirdilər ki, camaata "ay camaat, bizim qapımıza toplaşın" desinlər, yoxsa indiki siyasətin tələbinə əsasən, camaata qoşulub Əmirəlmöminin Əli (ə) ilə beyət etməyə getsinlər? Sonunda onlar da beyət etməyə getdilər və beyət etdilər. Amma Əmirəlmöminin Əlinin (ə) qanuna riayət etmək və Allah yolunda heç nədən çəkinməməkdə ciddi və qətiyyətli bir əsgər olduğunu yaxşı bilirdilər. "Biz səninlə əmi oğluyuq, keçmiş dostuq, axı bizim də haqqımız var, camaat bizdən sonra müsəlman oldu, onların nə haqqı var ki?" – kimi sözlərlə Həzrətə yanaşmaq istəyirdilər, lakin bunlar o Həzrətə əsla təsir göstərməzdi. O Həzrət bu sözlərə aldanmazdı. Buyurur ki, çıxın gedin. Əmirəlmöminin Əli (ə) onlardan daha ayıq idi. Onlar siyasətçi olsalar da, Əli (ə) onlardan da siyasətçi idi. Onlar Əmirəlmöminin Əli (ə) ilə ilkin danışıqlarında o Həzrətə yavaş-yavaş başa salmaq istəyirdilər ki, biz hazırıq, səninləyik, amma bir sıra şərtlərimiz var;

bizi nəzərə al və haqqımızı qoru! İşarə ilə "Bizi yanında saxlasan, xeyrinədir!" – sözünü çatdırmaq istəyirdilər. Əmirəlmöminin Əli (ə) də onların nə üçün gəldiklərini bilirdi. Onların təklif və danışıqlara gəldiyi gecə Əmirəlmöminin Əli (ə) də onların özü kimi, bir işarə ilə başa salır ki, çıxın gedin, burada belə şeylərdən xəbər yoxdur. Belə ki, Həzrət çırağı söndürür. Həzrətdən: "Çırağı nə üçün söndürdün?" – deyə soruşduqda, buyurur ki, bu, "beytül-mal"dır, istəmirəm boş yerə yansın.[1] Yəni, buyurun, təşrif aparın! Siz "beytül-mal"a görə gəlibsiniz, ona görə ağzınızı açıb ciblərinizi doldurmaq istəyirsiniz. Gedin! Mən "beytül-mal"dan olan bir şamın boş yerə, birgə oturub vaxtımızı tələf etmək, bir-birimizin əhvalını soruşmaq üçün yanmasına belə razı deyiləm. Onlar bunu görüb anladılar ki, Əli ibn Əbitalibin cərgəsində Əmmar kimilər döyüşməli, zəhmət çəkməli, işləməlidirlər. Onlar Əli ibn Əbitalibin yanında ağalıq edə bilməyəcək, başda oturub əmr və qadağalar verə, yaxşı yeyib-içə, yaxşı geyinə, yaxşı yığa bilməyəcəklər. Gördülər ki, Əli (ə) ilə bir yerdə yaşamaq çətindir. Odur ki, tamahkarlıq, hərislik, dünyapərəstlik məqsədilə o Həzrətdən ayrıldılar və onunla müharibəyə başladılar.

---

[1] "Əl-mənaqibul-Murtəzəviyyə", səh. 35.

# Xəvaric zümrəsi – Ələvi hakimiyyətinin qarşısındakı çətinliklərdən biri

**مرقت أخرى**

Bəziləri dindən çıxdılar. Birinci zümrə mənimlə beyətini pozdu, ikinci zümrə isə dindən çıxdı; yəni bir qrup kamandan çıxan ox kimi, sürətlə dindən çıxdı. Onların necə dindar olduğu məlumdur. Əmirəlmöminin Əli (ə) bu cümləni Təlhə ilə Zübeyr haqqında işlətməsə də, onların dindarlığına da şəhadət vermir. Lakin xəvaricin dindən çıxmasından qabaq dindar olduğuna şəhadət verir və buyurur ki, onlar dindən xaric oldular. Məlum olur ki, onlar dindar, dinə etiqadlı və dini hökmlərə bağlı imişlər. "Xüms ver" dedikdə, xüms verir, "həccə get" dedikdə, həccə gedir və nə deyirdinsə, dinlə əlaqəli olduğu üçün yerinə yetirirdilər. Elə isə belələrinin eybi nədir? Eybi bu idi ki, başa düşmür, dərhal aldanırdılar, ayıq deyildilər. Eybi bu idi ki, Əlinin (ə) verdiyi qılıncla Əlinin (ə) başına zərbə vurdular. Eyibləri bu idi! Bu isə, Təlhə və Zübeyrdən də pisdir. Nəhrəvanın bu dırnağarası müqəddəsbazlığı Təlhə və Zübeyrdən də təhlükəlidir. Nə üçün? Çünki Təlhə ilə Zübeyrin döyüş meydanının ortasında birdən qəlbləri titrəyir: "Ay aman! Əli iləmi döyüşürük?" Zübeyr döyüş əsnasında meydanı tərk edir, Əli (ə) ilə döyüşdüyünü anlayır, döyüşmək istəmir və geri dönür. Amma nadan, quru dindar, gözübağlı, tovlanmış, öz xilaskarı olan Əli ibn Əbitalibi özünə və dinə düşmən hesab edən, yanlış düşünən, döyüş meydanında tərəddüd etmədən ??? –

“**Ey Rəbbim! Məndən razı qalasan deyə, Sənə doğru tələsdim!**”[1] – deyərək, Əliyə (ə) qarşı çıxan bir şəxs (xəvaric zümrəsindən biri) əlindəki nizəni Zübeyrin qarnına sancır və onu qətlə yetirir. Hələ “**Ey Rəbbim! Məndən razı qalasan deyə, Sənə doğru tələsdim**” – ayəsini də dilində təkrarlayaraq bu işə əl atır.[2] Başına daş düşsün, Allaha doğru yox, Cəhənnəmə doğru tələsdin. Bax, onların eyibləri bu idi!

Bəli, dindar, müqəddəs, mömin, xoşəxlaq, ibadət və raz-niyaz əhli! Eyni zamanda nadan, barbar, savadsız dindar! İmam (ə) buyurur:

**المتعبد بغير علم كحمار الطاحونة**

“**Elmsiz ibadət edən şəxs dəyirman ulağı kimidir.**”[3]

Bu heyvan (dəyirman daşının ətrafında) dayanmadan yeriyir, hərəkət edir, əgər düz yolda yerisəydi, Bəlxi, Buxara və Səmərqəndi belə keçib getmişdi. Amma yazıq altı aydan sonra gözün açıb elə ilk gündə hardaydısa, elə olduğu yerdə də dayandığını görür. İmam (ə) burada təşbih edir və buyurur ki, elmsiz, savadsız, düşüncəsiz, azad düşüncəsiz, ayıq qəlbsiz Allaha ibadət edən şəxs də eynilə belədir, irəli addımlamayacaq (öz yerində sayacaq). Açıqdüşüncəli, ayıq, başa düşən və yaxud başa düşməyə can atan, öz hökm və əməllərində, dostluq və düşmənçiliyində şüur və düşüncəsindən bəhrələnən, insanları, məktəbləri, sözləri Quran və İslam meyarları ilə dəyərləndirən, qəbul olunası

---

[1] “Taha” surəsi, ayə 84.
[2] “Biharul-ənvar”, c. 33, səh. 355.
[3] “Qürərül-hikəm”, səh.116.

olduqda, gözünün üstünə qoyan, əksinə olduqda, inkar edən, Allaha ibadət etdikdə irəliləyən bir şəxs, sanki sürətli yarış atına minən şəxs kimi aydın məqsəd və yola doğru sürətlə can atır.

İkinci zümrə də bunlar idi; bu bədbəxt nadanlar Əli (ə) ilə döyüşdülər. Öncə onlarda baş qaldıran bir qəflət və yanlışlıq nəticəsində Müaviyəyə aldandılar. Həmin Müaviyə sınaqdan keçirilmişdi, Əlinin (ə) ordusunda hamı onu yaxşı tanımalı və bilməliydi ki, Quran və İslamın adı onun üçün oyun-oyuncaqdan başqa, bir şey deyil. Müaviyənin ordusu Quranları nizəyə vurub qaldırdıqda, bu nadan müqəddəsbazlar tir-tir titrəməyə, “Vay Quran!” – deməyə başladılar. Onlar Əlini (ə) mühasirəyə alıb qılınclarını çəkdilər və dedilər ki, mütləq Müaviyə ilə sülh etməlisən. Nə üçün? Axı indiki Müaviyə ilə dünənki Müaviyə arasında nə fərq var? Axı, nə üçün dünən düşmən və onunla döyüşülməsi vacib olan Müaviyə ilə bu gün sülh etmək, barışmaq lazımdır? Axı, nə baş berib? Dedilər: “Olmaz ki, olmaz, mütləq onunla sülh etməlisən, çünki Quranı nizələrə taxıb!” Axı, onun bu işi yalandır, fırıldaqlıqdır, o, sizi aldadır, Qurana inanmır, onun əlində alətə çevrilməyin, onun xeyrinə addım atmayın! Nə faydası! Düşüncə yanlışdır, barbarcasınadır, fikirləşmək istəmir. Elə bu səbəbdən də səhv və xətaya düşərək Əli (ə) ilə münasibətini pozur.

## Qasitin və zülmkarlar – Əmirəlmöminin Əlinin (ə) hakimiyyətinin çətinliklərindən biri

**و قسط آخرون**

Amma üçüncü zümrə başqa bir qrup zülm etdi. Zülmə köklənmiş əyan-əşraf və kübar təbəqənin adamları Əli (ə) ilə bir araya gələ bilməzdilər. Təkcə Əli (ə) ilə deyil, hətta Quranla da razılaşa bilməzdilər. Onlar ataları, cəbhə yoldaşları və Məkkədə digər bir meydanın dostları və həmpiyalələri bu Quran, İslam və namazla döyüşmüş həmin kəslər idi. İndi isə onun üstündən bir müddət keçdikdən sonra həmin elita və kübar kontingent İslam və Quran bayrağı, “Allaha yalandan bəndəçilik” adı ilə çox gözəl və rahatlıqla istədiklərini əldə edə biləcəklərini gördükdə, zahirdə bu dinin üzvlüyünü qəbul etmiş və müdafiəsi üçün can yandırmışlar. Odur ki, qəlbləri imandan, ruhları iynə ucu qədər dindən xəbərsiz idi. Bu da bir zümrə!

## İlahi hakimiyyət müqabilində üç maneə

Beləliklə, unutmayın ki, Allaha xatir və Allah yolunda təşkil olunan hökumətlər, yaxud belə bir hökumətin təşkili istiqamətində çalışan xalqların qarşısında maneçilik törədən üç qrup vardır:

1. Birinci qrupa bir gün belə hökumətin yaranmasına meyilli olduqlarını bildirən, indi də həmin adı daşıyan, lakin büllur saraylar və dəbdəbəli villalardan aşağı düşməyə ürəkləri gəlməyən, oradan

bir addım belə çıxmayan, əlavə zəhmət çəkmək istəməyən, indiyə qədər gördükləri ilə kifayətlənən və bununla özlərini əyləndirən kəslər daxildir.

2. Mürtəce, təəssübkeş, ruhiyyəsiz, barbar və nadan insanlar ikinci qrupa aiddir, onlar hər an və hər zaman müqəddəs işlərə maneçilik törədən ən böyük maneələrdən biridir. Onlar qəflətdə olduqları, düşünmədikləri, göz və qulaqları bağlı olduğu, Quranın tövsiyələrinə əməl etmədikləri üçün Əliyə (ə) və hakimiyyətinə, hər bir müqəddəs işə maneçilik törədənlərdir.

3. Müxalifətçilik edən əsas və önəmli qrup üçüncü qrupun üzvlərdir; onların təbəqəsi və mövqeyi İslam kimi bir məktəbi qəbul etməyə icazə vermir. Bütün dövrlərdə bu tip insanlar peyğəmbərlər və Allahın saleh bəndələri ilə döyüşmüş, onların qanlarını axıtmışlar. Əlbəttə, bu qrupun üzvləri bir gün küfr, başqa bir gün İslam libasında görünsələr də, hər iki halda həqiqət və mahiyyəti eynidir. Bu gün dünyaya baxsanız, dünyanın hər tərəfində haqqı-həqiqəti aşılayan düşüncələrə qarşı çıxan hegemon qüdrətlərin bəziləri məsihilər kimi müəyyən dinin adını və simvolunu daşıyanlar, bəziləri də ateistlər kimi din-məzhəbin adı və dəyərlərini inkar edənlərdir. Hər ikisi ayrı-ayrı sima olsa da, mahiyyətcə eyni, iki libasda bir bədən, iki boğazda bir səsdir. Əmirəlmöminin Əlinin (ə) zamanı da bu qəbildən idi.

Qeyd edilənlər "Şiqşiqiyyə" xütbəsinin bir hissəsi idi.

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Əlinin (ə) adı və fikri ilə tanış et; bizi

onun həqiqi şiələrinin sırasında olanlardan et; bizi onun düşmənləri, müxalifləri və yoluna qarşı çıxanları sırasında yerləşdirmə; onun düşmənlərini məğlub və zəlil et; həqiqi düşmənlərini dost libasında olsalar da, bizə tanıtdır!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizə açıq göz, oyaq qəlb və ayıq ruh mərhəmət et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, müsəlmanları tənəzzülə, süstlüyə və qəflətə aparan, onları Qurandan uzaqlaşdıran əlləri qır!

İlahi! Müsəlmanlar arasında vəhdət, həmrəylik və mehribanlıq yarat; düşmənlərini hər libasda olsalar da, məğlub və həlak et!

İlahi! Bizi Əlinin (ə) vilayəti ilə yaşat, onun vilayəti ilə öldür!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Əlinin (ə) şagirdləri kimi yaşat və onlar kimi öldür!

İlahi! Aqibətimizi xeyirlə sona yetir!

İlahi! Mövlamızın zühurunu tezləşdir!

9

# ƏMİRƏLMÖMİNİN ƏLİNİN (Ə) HÖKUMƏTİNİN PROQRAMLARI-1[1]

**Bağişlayan və mehriban Allahın adı ilə!**

**ذمتي بما أقول رهينة و أنا به زعيم إن من صرحت له العبر عما بين يديه من المثلات حجزته التقوى عن تقحم الشبهات ألا و إن بليتكم قد عادت كهيئتها يوم بعث الله نبيكم (صلى الله عليه و آله) و الذي بعثه بالحق لتبلبلن بلبلة و لتغربلن غربلة و لتساطن سوط القدر حتى يعود أسفلكم أعلاكم و أعلاكم أسفلكم و ليسبقن سابقون كانوا قصروا و ليقصرن سباقون كانوا سبقوا**

## Hakimiyyətin astanasında bir xütbə

Bu, 16-cı xütbədir və Seyid Rəzinin iki hissədə qeyd etdiyi bu xütbə nisbətən genişdir. Mənim qiraət etdiyim hissə isə xütbənin qısa hissəsidir, təqribən, xütbənin dörddəbir hissəsini təşkil edir. Əgər Allah-

[1] "Nəhcül-bəlağə", xütbə 16 – 1974/11/29.

Taala müvəffəqiyyət bəxş edərsə, gələcəkdə xütbənin digər hissələrini də diqqətinizə çatdıraram!

Bu xütbənin macərası olduqca mühümdür. Çünki Əmirəlmöminin Əli (ə) bu xütbəni xilafət və siyasi rəhbərliyinin başlanğıc günlərində minlərlə müsəlman cəmiyyətinin hüzurunda söyləmişdir. Xütbənin başlanğıcında Əmirəlmöminin Əli (ə) öz öhdəlikləri ilə bərabər bir sıra ilahi qanunauyğun tarixi həqiqətləri "**Mən öhdəliklərimin hamısına zəmanət verirəm!**" – ifadəsi ilə bəyan edir. Görünür ki, o Həzrətin bəyan edəcəkləri çox mühümdür. Adətən, insanlara təqdim edilən çox mühüm proqramlarda icraedici şəxs diqqəti daha da cəlb etmək və canıyananlıq göstərmək üçün özünü cavabdeh hesab edir. Hamı Əmirəlmöminin Əlini (ə) sözü və əməlində sədaqətli biri kimi tanıyır və bilirdi ki, o, verdiyi sözün üstündə möhkəm dayanacaq. Bununla yanaşı, o Həzrət danışıq məqamında sözlərini təkidlə vurğulayır:

**ذمتي بما أقول رهينة و أنا به زعيم**

"**Mənim əhdim dediyim sözlərin girovundadır və mən onların hamısına zəmanət verirəm.**"

O Həzrət zəmanət verdikdən sonra olduqca əhəmiyyətli bir mətləbə toxunur və onu lakonik, eyni zamanda dərin və dolğunmənalı bir cümlədə bəyan edir. Bunun bir proqram və ictimai tədbirin başlanğıcı ilə əlaqəli olduğunu nəzərə aldıqda, İslam cəmiyyətinin həm keçmişi, həm də gələcəyinə aid bir məsələ olması anlaşılır. Məsələni izah etdikcə, daha da aydınlaşacaq.

**Keçmiş nəsillərin tale və aqibətindən ibrət almağa dəvət**

Həzrətin buyurduğu cümlə budur:

إن من صرحت له العبر عما بين يديه من المثلات حجزته التقوى عن تقحم الشبهات

“**Həqiqətən, ibrətlər hər kimə qarşısındakı cəzaları aydınlaşdırırsa (kim keçmişdəkilərin aqibətlərindən ibrət alıb üzləşdiyi cəzaların səbəblərini ayırd edərsə), təqva onu şübhələr diyarına düşməkdən qoruyub-saxlayacaqdır.**”

İmam (ə) həm keçmiş, həm indi, həm də gələcəkdən danışır. İmamın olduqca sadə sözünün məzmunu budur ki, hər bir şəxs üçün hazırkı narahatlıqlar, bəlalar və təhlükələr ibrətlər aynasına çevrilərsə, oyaq və ayıq olduğundan, heç vaxt bu təhlükələrə düçar olmayacaq. Deməк, ibrətlər onun üçün hazırkı vəziyyəti göstərə bilən bir ayna rolunu ifa etməlidir. İbrət keçmişə aiddir. Keçmişdə baş verənləri diqqətlə izləyib düzgün anlamaq və təhlil etməyə çalışdıqda, indiyə qədər keçmiş sayılanlar sizin indiki və gələcək vəziyyətinizin təsvirinə çevrilməlidir.

## Dünyanın və bəşər tarixinin dəyişilməz qanunları

Mətləbin anlaşılması üçün Əmirəlmöminin Əlinin (ə) keçmiş və gələcək tarixlə bağlı təfəkkür tərzi ilə bir qədər tanış olmalıyıq. O Həzrətin Qurana əsaslanan və bu dünyanın yaradılış günündən indiyə qədər ardıcıl və bir-birinə bağlı şəkildə baş vermiş hadisələrdən ibarət keçmiş tarixlə əlaqədar nəzərinə

görə, bütün bunlar varlıq aləminə hakim qanunauyğunluqların nəticəsində yaranmışdır. Bu qanunauyğunluqlar dünyada daima icra olunan və dəyişilməzdir. Təbiətə baxdıqda da, minlərlə belə dəyişilməz qanunlar görürük. Şübhəsiz, bizim başımız üzərindəki buludlara bir qanun hakimdir, bu buludlar bir düstura əsasən meydana gəlir. Buludlardan yağan yağmur, bir-birini əvəzləyən gecə ilə gündüz bu hadisələri meydana çıxaran bir qanuna əsaslanır. İlahi təfəkkür tərzi bu qanunların varlığını qəbul edir. Yaradılış aləmində bu qanunlar daimidir. Nə qədər ki kainat var və bu kainatda Yer Kürəsi və Günəş – bu iki nəhəng varlıq hərəkətdədir və bu aləmə cazibə qüvvəsi hakimdir, gecə-gündüz təbii və dəyişilməz bir qanun olaraq hökm sürəcəkdir. On min illər öncə bu gecə-gündüzün yaranmasına səbəb olanlar, eynilə bu günə də aidir:

**و لن تجد لسنة الله تبديلا**

**"Sən Allahın qoyduğu qayda-qanunda əsla dəyişiklik görməzsən!"**[1]

Bura qədər məsələ aydındır: Təbiətə və yaradılış aləminə hakim qanunlar, ənənələr və rabitələr daimi və dəyişilməzdir.

Bəşər cəmiyyətində də, eynilə belədir. Kitablarda hansısa bir qövmün tarixin bir dönəmində maddi və mənəvi tərəqqi və zirvəyə ucaldığını oxuyubsunuz. Şübhəsiz, bu hadisə səbəbsiz yaranmayıb və müəyyən səbəbləri olub. Yaxud da hansısa bir tayfanın və məntəqənin sakinlərinin filan yeni və gənc mədəniyyətin qurbanlarına çevrildiyini və yaxud hansısa məntəqədə hansısa canlı

---

[1] "Əhzab" surəsi, ayə 62.

sivilizasiyanın tarixdən tamamilə silinib məhv olunduğunu, adının yalnız əfsanələrdə qaldığını da eşitmisiniz. Bütün bu hadisələr səbəbsiz baş verməmiş və onun müəyyən səbəbləri olmuşdur. Göydən yağışın yağmasının bir səbəbi olduğu kimi, xalqların da tərəqqi və tənəzzülünün səbəbləri vardır. Əgər hansısa bir cəmiyyətin bir zaman bədbəxtliyə düçar olduğunu, hər tərəfdən maddi və mənəvi zillət və yoxsulluqla əhatə olunduğunu eşitmisinizsə, dərhal anlamalısınız ki, bu, səbəbsiz, qanunsuz deyildir və mütləq onu yaradan səbəblər və onlar arasında bir rabitə olmuşdur. Çünki təbiət aləminə hakim qanun və hadisələrin müəyyən gerçəkliyi vardır və hər bir fenomen bir qanuna tabedir. Tarixdə baş vermiş hadisələr də bu qəbildəndir. Bir xalqın xoşbəxt olmasının bir neçə səbəbi vardır və bu səbəblər həmişə eynidir, heç vaxt dəyişilmir. Misal üçün, eramızdan və Həzrət İsa-Məsihin (ə) doğulmasından on min il öncə bir millət və cəmiyyətin maddi zirvəyə ucalmasına nə səbəb olubsa, həmin səbəb bu gün də hər hansı bir millət və ümmətdə, hər hansı bir məntəqədə baş verərsə, onları maddi zirvə və tərəqqiyə çatdıracaqdır. Eynilə, hansısa bir mədəniyyətin məhvinə nə səbəb olubsa, həmin səbəb, məsələn, Avropada və yaxud Amerikada yaranarsa, sözsüz, Avropa və Amerika mədəniyyətini məhv edib aradan aparacaqdır. Yenə tarixi düsturlar dəyişilməz, daimi, əbədi və həmişəyaşardır. Çünki:

“**Allahın qoyduğu qayda-qanunda əsla dəyişiklik olmaz!**”

Bu, diqqətinizə çatdırmaq istədiyim mühüm bir mətləb və bugecəki bəhsimizin müqəddiməsidir. Amma yadınızda qalsın ki, İslam təfəkkür tərzinə əsasən, təbiətə, tarixə, insan varlığına, maddi və mənəvi məsələlərə, fərdi və ictimai həyata mütənasib və oxşar qanun və ənənələr hakimdir, onlar hadisələrin, fenomenlərin və nəticələrin yaranmasında eyni rolu ifa edirlər.

## Tarixdən istifadə metodu

Eyni və oxşar səbəblərin eyni və oxşar nəticələr meydana gətirməsi mətləbini də artıq bildik. İndi isə gələcək üçün proqramlar tənzimləmək istəyirik. Əgər bir-iki məsələni icra edə bilsək, gələcək tədbirlər uğurla həyata keçəcək. Mövlanın kəlamının tərcüməsini diqqətdən qaçırmamalıyıq, öncə keçmişi düzgün tanımalı, düzgün təhlil və şərh etməli, tarixdə adını eşitdiyiniz millət və ümmətin hansı bədbəxtliklərə, bəlalara, ölümcül xəstəliklərə düçar olduğunu və bunların hansı səbəbdən baş verdiyini bilməliyik. İlk növbədə bunu başa düşməli, sonra gələcəyimiz üçün ilk amil və fenomendən ən yaxşı şəkildə bəhrələnməliyik. Necə bəhrələnməliyik? Tarixdə tanınmış və ya tanınmamış həmin ümmətin mübtəla olduğu bəlalar, xəstəlik və ölümlərin səbəbi bizim cəmiyyətimiz və gələcəyimizə ötürülməməsi, həmin tarixi təcrübə və ibrətin öz zamanımızın çatışmazlıq və xəstəlikləri, tənəzzül və süqutlarının qarşısını almaqda vasitə olması üçün çalışmalıyıq. Bu, birinci məsələ! Demək, keçmiş bizim gələcəyimiz üçün bir dərsdir və səbəbi də aydındır.

Tarixdən ibrət almaq məsələsi haqqında çox eşitmisiniz. Bu zəmində Quran ayələri, Əmirəlmöminin Əlinin (ə) kəlamı və bir çox rəvayətdən açıq-aydın anlaşılan İslamın dəqiq təfəkkür tərzini bəyan etmək istəyirəm. Tarixdən ibrət almaq məsələsinin keyfiyyəti bundan ibarətdir ki, siz keçmişə baxmalı, onu təhlil etməli və keçmişi olduğu duruma salan səbəb və qanunları tanımalısınız. Bu keçmişə aiddir. Sonra indiki zamanımıza baxır, hər ikisini son dərəcədə diqqətlə araşdırır, ölümcül səbəblər və xəstəlik törədən virusların yaranmaması üçün münasib tədbirlər görməyə çalışmalıyıq. Keçmişdən ibrət almaq budur! Bir sözlə, ilk mətləb insanın keçmişlə tanışlığıdır.

## Təqva – Cəmiyyətlərin süqut amillərindən uzaqlaşmasının səbəbi

Keçmişi tanıdıqdan sonra, bizi keçmiş bəlalalara düçar olmaqdan saxlaya biləcək amil nədir? Təqva! Təqva insanı şübhə və xəta vadilərinə düşməkdən qoruyub-saxlayan bir amildir. Təqva nədir? Əgər təqvanı "həmişə Allahı yad etmək", "həmişə namaz qılmaq" və "ilahi zikrlə məşğul olmaq" kimi məna etsəniz, bu, insanı gələcəkdə tarixi keçmişdə baş vermiş xətalara düçar olmaqdan qoruya bilməyəcək. Bunlar bir-birindən fərqli iki kateqoriyadır. Əgər təqvanı xalq kütləsinin qavrayıb düşündüyü "pəhrizkarlıq" kimi yanlış mənalandırsaq (əlbəttə, "pəhrizkarlıq" sözü üçün də düzgün məna nəzərdə tutmaq olar ki, bu haqda da söz açacağıq), bunun

insanın gələcəkdə xətaya, şübhələr bataqlığına düşməyəcəyi ilə nə əlaqəsi var? Bunların da bir-biri ilə əlaqəsi yoxdur.

## Təqvanın iki mənası

Elə isə təqva nədir? Təqvanı iki cür məna edəcək və onu iki prizmadan araşdıracağıq, lakin hər ikisinin nəticəsi eynidir və sonradan onun haqqında söz açdıqda, məsələni tamamilə ayırd edə biləcəksiniz. Biri budur: Təqva, yəni "qorunmaq", "həssaslıq" və "lazımi diqqət". Rəvayətlərimizdə də təqva bu cür məna edilmişdir. Bir nəfər Allah Rəsulundan: "Təqva nədir?" – deyə soruşduqda, Həzrət buyurur: "Heç əyninə uzun paltar geyindiyin halda tikanla dolu səhralıqda yol gedibsənmi?" Cavab verir ki, bəli, getmişəm! Həzrət soruşur: "Necə yol gedibsən?"

Uzun ərəb köynəyi geyindiyiniz halda, dörd tərəfi tikanlarla dolu olan bir səhralığın ortasındakı kiçik bir cığırla necə hərəkət edərsiniz? Tamamilə diqqət, ehtiyat və həssaslıqla hərəkət edərsən ki, tikanlı kollara ilişməyəsən, tikanlar ayağına batmasın. Amma insan asfalt yolda asanlıqla, başını yuxarı qaldırıb dostu ilə söhbətləşdiyi halda hərəkət edə bilir. Tikanlı səhralıqda və yaxud təhlükəli, dolanbac və dar yollarda isə belə hərəkət etmək qeyri-mümkündür. Burada son dərəcədə diqqətli, ehtiyatlı və ayıq olmaq lazımdır ki, yolu düzgün şəkildə qət edə biləsən (və ayağın sürüşməsin). Təqva budur!

Başqa bir rəvayətdə İmamdan (ə): "Təqva nədir?" – deyə soruşduqda, İmam (ə) buyurur:

أن لا يفقدك الله حيث أمرك و لا يجدك حيث نهاك

“**Allah səni əmr etdiyi yerdə qaib görməsin və qadağan etdiyi yerdə də hazır görməsin.**”[1]

Yəni, Allahın sənin hazır olmağını istədiyi yerdə hazır olasan və qadağan etdiyi yerdə də olmayasan. Bunun üçün lazımi diqqət, ehtiyat və mərifət lazımdır. Demək, təqva “diqqətli olmaq” deməkdir, diqqətli olmaq da daim səhv və xətadan çəkinmək, ehtiyatlı olmaq mənasını daşıyır. Bu mənada “pəhrizkarlıq” sözü, qeyd etdiyim kimi, düzgündür və “Allahı yad etməkdən yaranan qorxu” mənasını ifadə edir. Bu vəziyyətdə insan daim ehtiyatlı olmağa çalışacaq, eynilə döyüş meydanında və yaxud təhlükəli yolda gecə yarısı bir saat yatmaq istəyən şəxsə bənzəyəcək, o, belə vəziyyətdə yalnız mürgüləyə biləcək, daim ayıq olacaq, həssaslıq göstərəcək, azacıq səs-səda, azacıq külək səsi onu oyaq saxlayacaq. Bu halətə “təqva” deyilir. Qəlbin əsla yatmamalıdır, asudə insanlar kimi gözünü bağlamamalı və əlini sallamamalısan ki, başqası sənin əlindən tutub apara bilməsin. Həssas olmalısan, hara getdiyini, nə işlə məşğul olduğunu, kimin üçün işlədiyini, necə işlədiyini, işinin sonu və aqibətinin necə olacağını mütləq bilməlisən. Təqva budur və bu, onun bir yönüdür.

Təqvanın başqa yönü haqqında isə həmişə danışmışam. Təqva düşmənin aşa bilmədiyi bir hasar və qaladan ibarətdir. Xəstəliklər qarşısında bu hasarın adı (insana vurulan) vaksindir. Bu vaksin nədir? Vaksin (misal üçün) vərəm, malyariya və bu kimi xəstəliklərə qarşı sizin orqanizminizdə

---

[1] “Vəsiluş-şiə”, c. 15, səh. 239 (azacıq fərqlə).

müqavimət yaradır və xəstəliyin qarşısını alır. Xəstələndikdən sonra, vaksindən müalicə üçün istifadə edilmir, əksinə insanda vərəm, malyariya, göy öskürək və sairə xəstəliklər baş qaldırmamışdan öncə bədənə vaksin yeridilir. Bu da təqvadır və hər iki məna bir nöqtəyə qayıdır. İnsanı və cəmiyyəti tarixi təhlükələr qarşısında vaksinasiya edən nədir? Oyaqlıq, ayıqlıq, qarşıdakı quyuları tanımaq, keçmiş nəsilləri süquta uğradan təhlükəli keçidlər haqqında məlumat əldə etməkdir. İnsan bunları bilməlidir və təqva budur! Gələcəkdə səhv və xətaya düşməmək üçün bunlardan xəbərdar olmaq da zəruridir. Yalnız keçmişdən xəbərdar olmaq kifayət etməz, həssaslıq da lazımdır. Yoxsa ki, keçmiş xalqların əhvalatı və aqibətini diqqətlə oxuyub təhlil etməsinə baxmayaraq, qorunmayan, ehtiyat etməyən və ibrət almayan insanlar çoxdur. Buna görə də, kəllə-mayallaq yerə dəymişlər. Beləlari azdırmı? Əmirəlmöminin Əlinin (ə) barəsində söz açdığı kəslər bu qəbildən idilər.

## Hazırda və gələcəkdə məğlubiyyətdən qurtulmaq üçün bəşəriyyətin keçmişinin araşdırılması

Əmirəlmöminin Əli (ə) bu haqda danışaraq buyurur:

إن من صرحت له العبر عما بين يديه من المثلات

“**Həqiqətən, ibrətlər kimə qarşısındakı cəzaları aydınlaşdırırsa, təqva onu şübhələr diyarına düşməkdən qoruyub-saxlayacaqdır.**”

Cümlədə qeyd edilən "**sərrəhət**" ifadəsi pərdəni çəkmək mənasını verir. Bir nəfər pərdəni kənara çəkdikdə, onun arxasındakılar görünəcək, aşkar olacaqdır. "**İbrətlər kimə aşkar edərsə**,..." Nəyi aşkar edərsə? Keçmişi və tarixin narahatlıqlarınımı? Xeyr! Bu, elə də mühüm deyil, əksinə müqəddimədir. "**Qarşısındakı cəzaları və bədbəxtlikləri.**" İnsan keçmişi və tarixi qanunauyğunluqları tanımaqla zahirdə sakit görünən bu cəmiyyətin bətnində nələrin baş verdiyindən, onun bugünkü və sabahkı taleyindən xəbərdar olmalıdır.

## İctimai təbəqələşmə – Cəmiyyətlərin süqut amili

Kim tarixə baxıb Allah-Taalanın "**Biz bir məmləkəti məhv etmək istədikdə, onun naz-nemət içində yaşayan başçılarına (Allaha itaət etməyi, iman gətirməyi) əmr edərik. Lakin onlar (Allaha asi olub) pis-pis işlər törədərlər. Beləliklə, Bizim (azğınları məhv etməkdən ibarət) qəti və əzəli hökmümüz onların barəsində gerçəkləşər və onları yerlə yeksan edərik.**"[1] – deyə buyurduğu hökm və qanununu anladıqda, bilməlidir ki, bir cəmiyyətin başçıları, sərvətliləri və kübar təbəqəsi Allaha itaətsizlik etdikdə, pis işlərə qurşandıqda, həmin cəmiyyətin ölümü və sivilizasiyasının tənəzzülünün vaxtı yaxınlaşmışdır. Bu, Allah-Taalanın qəti hökmüdür.

---

[1] "İsra" surəsi, ayə 16.

كلا إن الإنسان ليطغى أن رآه استغنى

“**...İnsan azğınlıq edər, özünün dövlətli olduğunu gördüyü üçün!**”[1]

Bəzilərinin pulu və sərvəti olduğu üçün günaha qurşanar, cəmiyyəti fitnə-fəsada çəkər, dikbaşlıq edər, eyş-işrətlə məşğul olar, zəiflərin haqqını mənimsəyər, acların vacib haqlarını öz müstəhəb işləri – övladları, yaxınları, nökərləri, özlərinin ev heyvanları yolunda xərcləyər, bir insanın bir həftəlik xərcini bir gün ərzində öz itlərinə verər, bir şəhərin bir illik azuqəsini gecə ikən bir qonaqlıqda tələf edərlər. Günah və fəsada qərq olduqda, nəticəsi aşağıdakı kimi olur:

فحق عليها القول

“**Onların barəsində Allahın qəti hökmü və qanunu gerçəkləşir.**”

فدمرناها تدميرا

“**Və həmin cəmiyyət dağılıb yerlə yeksan olur**”, kübarlılıq və elitarlıqdan əsər-əlamət qalmır. Bu, dünyanın hansı hissəsinə aiddir? Bütün dünyaya! Bəs, hansı zamana? Dünyanın və tarixin əvvəlindən sonuna kimi bütün zamanlara aiddir, müəyyən bir vaxtı və məkanı yoxdur, bütün əsrlərə məxsusdur. Bu, bir qanundur.

Bir cəmiyyətdə ayrı-seçkilik varsa, orada korrupsiya da, öldürücü yoxsulluq , günah və fəsad, zülm və azğınlıq da var. Bu, qaçılmazdır. Bir cəmiyyətdə sərvət toplamaqda mütləq azadlıq vardırsa, deməli, korrupsiya və maliyyə maxenasiyalarının olmaması qeyri-mümkündür. İslamın hansı qanunu icazə verir ki, varlı insan pul

[1] “Ələq” surəsi, ayə 6-7.

qazanmaq və xərc etməkdə istədiyini etsin? Bu, İslamın hansı məntiqi ilə uzlaşır? İslam icazə vermir. Nə üçün icazə vermir? Çünki kapitalistlər, varlılar, imkanlılar, sərvətlilər, əyan-əşraf və kübar insanlara tamamilə azadlıq və sərbəstlik verilsə, "bu asfalt yol, bu da yüyənsiz at, hara istəsən çapa bilərsən, kimi istəsən, əzə və kimi istəsən, sıxıntıda saxlaya bilərsən" mənasında başa düşəcək və bu istiqamətdə addımlayacaqlar. Bu zaman sosial təbəqələşmə yaranır, sosial təbəqələşmə yarandıqda, bədbəxtliklər və cinayətlər baş qaldırır.

Elə günahlar var ki, yalnız yeməkdən partlayan bəzi insanlara məxsusdur. Günahın başqa bir növü də acından ölən bəzi insanlara aiddir. İkinci qrupa aid insanlar da günahkar sayılır, müxtəlif bəlalara məruz qalırlar. Günah etmək yoxsulluğun xasiyyətidir. Yoxsul təbəqə zəngin təbəqə müqabilində bədbəxt olur, zillətə boyun əyir, şərəf və insanlıq ləyaqətini itirir və bu günahdır. Allahdan başqası müqabilində baş əyir və bu, ən böyük günahdır. Ona nə verirlərsə alır, qarşılığında nə təklif edirlərsə, qəbul edir, bu da böyük günahdır. Bir sözlə, günaha, fəsad və bədbəxtlik vasitəsinə, başqasının əlində alətə çevrilməsinə razı olur, bu isə bütün günahların sonu deməkdir. Yoxsulluğun hakim olduğu cəmiyyət də buna bənzəyir. Odur ki, Qurani- Kərimdə "**Biz bir məmləkəti məhv etmək istədikdə...**" – deyə buyurulur. Bir sivilizasiyanın, bir şəhər və cəmiyyətin məhvinə hökm verilirsə, demək, həmin cəmiyyətə kübar insanlar, naz-nemət içində yaşayan başçılar hökmranlıq və zülmkarlıq edərək fəsad və günah törədəcək, insanlıq

dairəsindən çıxacaqlar. Nəticə etibarilə, hər yeri günah bürüyəcək, günah başqa bir günahı çəkib gətirəcək. Günahın təbii xasiyyəti cəmiyyəti məhv etməkdir. Cəmiyyətin məhvi nə deməkdir? Cəmiyyət üzvlərinin bir-bir ölməsimi? Xeyr! Bundan da üstün bir məna ifadə edir. Hamı axır ki, bir-bir öləcək. Məqsəd bir mədəniyyətin, bir sivilizasiyanın və bir cəmiyyətin ölməsidir. Siz bu gün qədim Babili göstərə bilərsinizmi? Qədimdə adı və şöhrəti hər yerə yayılan o cəmiyyət hanı? Bəs yunanlar hanı? Gözləri qamaşdıran o möhtəşəm sivilizasiya hanı? Məhv olub aradan getdilər. Cəmiyyətdə onların mədəniyyətindən əsər-əlamət qalmadı. İslam cəmiyyəti də bu vəziyyətə düşmüşdü. Bu, müqəddimə idi.

Əmirəlmöminin Əli (ə) bizə bunu bəyan edir. O Həzrət buyurur ki, kim keçmişi tanısa və onun vasitəsilə mövcud xəstəlikləri, nağd cəza və bəlaları tanısa – "**ibrətlər hər kimə qarşısındakı cəzaları aydınlaşdırarsa**", o zaman "**təqva, həssaslıq, diqqət, ehtiyat və ayıqlıq onu şübhələr diyarına düşməkdən qoruyub saxlayacaqdır.**" O, bir daha səhvə düçar olmayacaq. Əmirəlmöminin Əlidən (ə) qabaqkı İslam cəmiyyəti və o Həzrətin hüzurunda əyləşib söhbətinə qulaq asanlar o Həzrətin xəbər verdiyi bəlalara və acı hadisələrə düçar olmuşdular. O Həzrət bu həqiqəti görür və yaxından onlara məlumat verirdi.

## Peyğəmbəri-Əkrəmin (s) vəfatından sonra İslam cəmiyyətinin azğınlığı

Peyğəmbəri-Əkrəm (s) dünyadan köçdüyü vaxt o Həzrətin rəhbərliyi ilə təhlükəli keçidləri və yoxuşlu yolları aşan İslam karvanı hələ də tərəqqiyə doğru irəliləyirdi. Onlar İslam və Quranın ləzzətini dadmışdılar. İslam və Quran bu cəmiyyətdən ayrılmamalı idi, amma bu iş baş tutdu. Cəmiyyət yerində saymağa, hətta geriləməyə başladı. Məgər ilk anlarda cəmiyyətin gerilədiyi bilinirdimi? Bir müddət keçdikdən sonra bilinəcəkdi. Peyğəmbəri-Əkrəmdən (s) sonra haçan İslam cəmiyyətinin irticaçılığı və geriləməsi bilinməyə başladı? Böyük İslam mübarizləri, qılıncları ilə İslama başıucalıq gətirənlər künc-bucaqda eyş-işrətlə, sərvət yığmaq və ağalıq etməklə məşğul olmağa başladıqları zaman, eyiblər üzə çıxmağa başladı. Zahirə aldananlar bunu gözləmirdilər, gördülər ki, bir tərəfdə Əbdürrəhman ibn Ovf, bir tərəfdə Zübeyr ibn Avam, bir tərəfdə Təlhə ibn Übeydullah, bir tərəfdə İran fatehi Səd ibn Əbi Vəqqas eyş-işrətlə məşğuldurlar. Hələ bunlar tanınmışlar idi. Tanınmayan minlərlə simaların da başqa yerlərdə başları sərvət yığmaq və eyş-işrətə qarışmışdı. Bu məsələ, artıq, cəmiyyətdə təbəqələşmə yarandığı zaman bilindi. Bu təbəqələşmə birdən-birə deyil, tədriclə baş vermişdi. Onların tutduqları yolun sonu belə də olmalı idi. Xəstəlik baş verdikdə və insan dəyərdən düşdükdə, zahiri kriteriyalar dəyərə çevrilir. İnsan kimdir? Allahın verdiyi nemətlərdən layiqincə bəhrələnib özünü tərbiyələndirən varlıqdır!

İnsan Əbuzər Qifaridir. İslamın bu cəmiyyətdə süquta uğradığı və məhvə məhkum olduğu bilindiyi gün Əbuzər kimiləri sürgün etdilər. Bir cəmiyyətdə Əbuzər kimilər rahat və təhlükəsiz yaşaya bilmirsə, həmin cəmiyyətin islami cəmiyyət olmadığı gün kimi aydındır, bunun dəlil-sübuta ehtiyacı yoxdur. Bir cəmiyyətdə Abdullah Məsudun qabırğaları sındırılırsa, deməh, bu cəmiyyətə "islami cəmiyyət" adını vermək olmaz. Bir cəmiyyətdə yəhudilərin baş mollası Kəbul-Əhbar adlı xəbis, ikiüzlü və mənfur bir yəhudi zahirdə müsəlman olur, amma imtahan edilmədən, biliyinin doğruluğu yoxlanılmadan Osmanın əlinin altında çalışmağa (mollalıq etməyə) başlayır. Abdullah ibn Abbas kimilər isə onun qarşısında şagirdlik etməlidirlər. Belə cəmiyyətin islami cəmiyyət olmaması məlumdur və bunun üçün başqa dəlil-sübuta ehtiyac yoxdur.

Belə bir vəziyyətdə aydındüşüncəli, azadfikirli insanlar Əlinin (ə) bu göstərişinə əməl etməliydilər, amma etmədilər. O Həzrət onlara xatırladaraq buyurur:

"**Həqiqətən, ibrətlər hər kimə qarşısındakı cəzaları aydınlaşdırırsa, təqva onu şübhələr diyarına düşməkdən qoruyub saxlayacaqdır.**"

Həmin gün camaat Ad, Səmud və Firon qövmünün həlakət səbəblərini arayıb-araşdırmalı və ondan ibrət almalı idi. Məgər Qurani-Kərimdə "**Həqiqətən, Firon yer üzündə (Misirdə) baş qaldırdı və oranın camaatını müxtəlif dəstələrə parçaladı. Onlardan bir dəstəni zəifliyə (və qul olmağa) sürükləyirdi.**" – deyə buyurmamışdı? Fironla bağlı məsələ budur və bundan başqa deyil.

Fironun “**Həqiqətən, mən sizin ən uca Rəbbinizəm!**” – iddiasını təhlil etsən, bunu görəcəksən. Əgər Fironun qəlbinə daxil olsan, Allahın varlığının inkarını görəcəksən. Yoxsa, haradasa eşitmisiniz ki, Firon Allaha inanırdı? Bir sözlə, camaat da onun əhvalatını Quranda oxumuşdular, bu tarixi hadisədən düzgün nəticə çıxararaq, onu bir ayna kimi öz qarşılarına qoymalı və nə gördüklərinə tamaşa etməliydilər.

“Yer üzündə baş qaldırıb hökmranlıq edən” kim idi? “Oranın əhalisini müxtəlif zümrələrə parçalayan” kim idi? “Onlardan bir dəstəni zəifliyə və qul olmağa sürükləyən” kim idi? Fərq bu idi ki, o gün Firon bunları edirdisə, müsəlman xalqının zamanında da Fironu başqası əvəz edirdi. Bunu camaat görməli və başa düşməliydi ki, belə vəziyyətdə islami həyat tərzi sürmək qeyri-mümkündür.

Yaşamaq olurdu, amma islami tərzdə yaşamaq, İslama etiqad bəsləmək mümkün deyildi. Müsəlman cəmiyyətinin özünə təkan verməkdən başqa yolu qalmamışdı. Amma bunu anlamırdılar. Bunu onlara deyən Əmirəlmöminin Əli (ə) oldu.

Bəli, Əmirəlmöminin Əli (ə) həqiqətləri söylədi. Bundan sonra zəngin ilahi elmin mənbəyi, hər şeydən – keçmiş tarixi ibrətlərdən, hazırkı və gələcək hadisələrdən agah, ibrət aynası, Allah tərəfindən uzaqgörənlik nemətinə sahib olan Əmirəlmöminin Əli (ə) baxıb hər şeyi görür, buna görə də İslam cəmiyyətini keçmiş bataqlıqlara düşməkdən qoruyub-saxlayan bir proqram tənzimləyir. Keçmiş bataqlıqlar nə idi?

Zülmkarlıqlar, haqsızlıqlar, fəsadlar, insanların bir-birinin canına düşməsi, camaatın boğazından yapışan bədbəxtliklər. O Həzrət elə bir proqram tənzimləməliydi ki, bu bədbəxtliklər bir də baş qaldırmasın.

## İslam cəmiyyətinin cahiliyyət dövrünə qayıdışı

Burada Əmirəlmöminin Əlinin (ə) sonrakı cümləsini şərh edəcəyəm, lakin ondan əvvəlki cümlə də çox maraqlıdır:

**ألا و إن بليتكم قد عادت كهيئتها يوم بعث الله نبيكم (صلى الله عليه و آله)**

“**Agah olun! Həqiqətən, sizin başınıza gələn bəla Allahın sizin Peyğəmbərinizi (s) seçdiyi gündə düçar olduğunuz bəlanın forması kimidir.**”

Əmirəlmöminin Əli (ə) dövrünün mürgüləyən, tarixi izləməsinə baxmayaraq, öz zəmanəsini izləməyən insanlara zəmanəni tanıtdırır. Doğrudan da, cəmiyyətdə ayıq bir insanın vəzifəsi nə qədər də ağırdır! Bir ayıq insanın vəzifəsi anlamayan cəmiyyətə yalnız keçmişi deyil, mövcud və indiki zamanı, həm də gələcəyi başa salmaq, şərh etmək və işıqlandırmaqdır. Əmirəlmöminin Əli (ə) bu cümlədə bu vəzifəni icra edir, sanki cəmiyyətə deyir ki, ay camaat, ey sadəlövh insanlar, yalnız Mədinə məscidində namaz qılmaqla, Peyğəmbəri-Əkrəmin (s) zəmanəsinə nisbətən məscidi genişləndirməklə özünüzə təskinlik verməyin! Ey İslam sərkərdələri! İslam dünyasını fəth etməklə, hər bir yerdə Quran və “Əşhədu əllə iləhə illəllah” səslərinin ucalması,

camaatın namaz qılması, həccə getməsi, oruc tutması, zəkat verməsi ilə sevinməyin! İslam elə budurmu? Belə deyil, yanılırsınız! İslamın və Peyğəmbəri-Əkrəmin (s) peyğəmbərliyinin ilk günlərində bəşər cəmiyyətini təhdid edən bəlalar, eynilə sizin zəmanənizə üz gətirmişdir. Fərq yalnız bu bəlaların dinin və İslamın zahiri libası ilə örtülməsindədir. Yalnız zahiri deyil, onun pərdə arxasını da görə bilən və tanıyan gözlərin xoş halına! Əmirəlmöminin (ə) bunu anlatmaq istəyir və buyurur:

**ألا و إن بليتكم قد عادت**

“**Agah olun ki, o böyük bəla geri dönmüşdür!**”

Necə dönüb?

**كهيئتها يوم بعث الله نبيكم (صلى الله عليه و آله)**

“**Peyğəmbəri-Əkrəmin (s) zəmanəsində mövcud olan bəla kimi!**”

O Həzrətin zəmanəsindəki bəla nə idi? Şirkmi? O Həzrətin peyğəmbərliyi dövründə ərəb xalqı və bütün dünyanı bürüyən bəla zalım hakimlər, kütləvi quldarlıq, köləlik və istismarçılıq idi. O günün cəmiyyətinə nadanlıq hakim idi və cəmiyyət öz nadanlığını anlamırdı, bədbəxtliklər cəmiyyətin boğazından yapışıb buraxmırdı, onlar isə bunu hiss etmirdilər. O gün insanlar müxtəlif tanrılara səcdə edirdilər. Əmirəlmöminin Əli (ə) buyurur ki, ay yazıqlar, indi də belə bir vəziyyət yaranıb və sən elə bilirsən ki, üzünü Allaha tərəf tutub Ona səcdə edirsən! Bəli, zahirdə Allaha səcdə edirsən, amma qəlbən və cismən minlərlə müxtəlif qondarma tanrılara mütisən. Yalançı tanrı və məbudların daş və

ağac, ya da insan cinsindən olması arasında heç bir fərq yoxdur.

Bu tanrı Adəm oğullarından, insan ailəsindən idi. Onun ağlamaq və məsum baxışlarla, yaxud qaş-qabaq sallamaq və qılınc siyirməklə, yaxud zahirdə dindar olması, ya da aşkar şəkildə küfr və şirkini elan etməsi ilə insanı öz itaətinə və Allah dərgahında günaha dəvət etməsi arasında heç bir fərq yox idi!

Əmirəlmöminin Əli (ə): "Agah olun! Peyğəmbəri-Əkrəmin (s) zəmanəsində düçar olduğunuz bəla, eynilə yenidən sizə üz tutub. Bilin ki, Peyğəmbəri-Əkrəmin (s) dövründəki cahiliyyət kimi, indi də acınacaqlı vəziyyətdə, cahiliyyətdəsiniz, zahiri şeylərlə özünüzü aldatmayın." – deyə buyurmaqla insanlara hazırkı durumlarını açıqlayırdı.

Görəsən, Peyğəmbəri-Əkrəmin (s) dövründə ərəb xalqlarının başına nələr gəlmişdi? O dövrdə müsəlman olanlar olmuş, müsəlman olmayanlar və İslama müxalif olan bütün qüvvələr də müsəlmanların əlləri ilə həlak edilmişdilər.

Həzrət buyurur ki, ay camaat, siz də həlak olacaqsınız, Osmanın hakimiyyət yükündən nicat tapsanız da, həyat tərziniz hələ də Osmanın dövründəki kimidir. Yanlış rejimlər dağıldı, bilin ki, sizin də yanlış quruluşunuz dağılıb aradan gedəcək.

Təsəvvür edin ki, qayanın üstündə və hündür bir yerdə dayanmısınız, əlinizdə də kəndirə bağlanmış ağır bir daş vardır. Birdən bu daş əlinizdən düşüb yuxarıdan aşağı dığırlanır. Bu zaman siz iki yoldan birini seçməlisiniz: ya əlinizdəki kəndiri buraxmalı, ya da siz də daşla birlikdə uçuruma

yuvarlanmalısınız. Cəmiyyətdə hansısa bir quruluş, təşkilat və mədəniyyət məhvə və süquta məhkum oldusa, həmin quruluşu, təşkilatı və mədəniyyəti qəbul edib ona üzv olanların qarşısında da iki yol vardır: ya üzvlükdən çıxmalı, ya da həmin quruluş, təşkilat və mədəniyyətin dağılması ilə onlar da məhv olmalıdırlar. Əmirəlmöminin Əli (ə) insanlarla eynilə bu cür danışır və buyurur ki, sizin başınıza gələn bəlalar elə keçmiş bəlalardır və probleminiz Peyğəmbəri-Əkrəmdən (s) öncəki cahiliyyət dövrünün nadanlığıdır.

## Əmirəlmöminin Əlinin (ə) vasitəsilə cəmiyyətdə əsaslı dəyişiklik

İndi sizinlə nə etmək lazımdır? Sizinlə necə rəftar etməliyik? Proqramı necə tənzimləməliyik? O zaman Həzrət buyurur:

**و الذي بعثه بالحق لتبلبلن بلبلة و لتغربلن غربلة و لتساطن سوط القدر حتى يعود أسفلكم أعلاكم و أعلاكم أسفلكم**

**“And olsun Peyğəmbəri haqq olaraq göndərənə! Bir-birinizə elə qarışacaqsınız, elə yuxulayacaq, elə pərişan olacaq, elə yıxılacaqsınız, torpaq ələkdən keçdiyi kimi, islami meyarlarla elə ələnəcək və bu meyarlarla uzlaşmadıqda meydandan elə qovulacaqsınız, qaynar qazan kimi elə qaynayacaqsınız ki, sizdən ən aşağıda olan ən yüksək məqama yüksələcək, sizdən ən yüksəkdə olan isə ən aşağı məqama enəcək, eynilə qazanın içində qaynayan maddə kimi olacaqsınız.”**

Əmirəlmöminin Əlinin (ə) cümləsi budur. Sizi Allaha and verirəm, baxın görün, qısa bir cümlədə nə qədər maarif var! Mən naqis bəyanımla, azacıq imkanla Həzrətin bu bir neçə cümləsinə etdiyim şərh bir saat, bir saatdan da artıq çəkir. Siz bacı və qardaşlar, çalışın, özünüzü bu çeşməyə yaxınlaşdırın, onun üzərində düşünün. “Nəhcül-bəlağə”ni başa düşmək üçün bəşər tərəqqisinin bizə verdiyi yeni dünyagörüşdən bəhrələnək. Əgər ayıq olsaq və bəsirət gözünə sahib olsaq, mərifət okeanları ilə üzləşəcəyik.

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Ələvi maarifi ilə tanış et və ona əməl etməkdə bizə müvəffəqiyyət bəxş et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Əmirəlmöminin Əlinin (ə) həqiqi şiələrindən et!

İlahi! Tarixi ibrətlərə qarşı gözümüzü aç!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, keçmiş və indiki vəziyyətimizi bizə əyan et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Əlinin (ə) ardıcılarından et, dünya və axirətdə, fərdi və ictimai həyatımızda, yaşayışımızda və ölüm zamanımızda bizi Əlidən (ə) ayrı salma!

"Rəhiməllahu mən qərəəl-fatihə!" – Fatihə surəsini oxuyana Allah rəhm etsin.

## 10

# ƏMİRƏLMÖMİNİN ƏLİNİN (Ə) HÖKUMƏTİNİN PROQRAMLARI-2[1]

**Bağişlayan və mehriban Allahın adı ilə!**

**و الله ما كتمت وشمة و لا كذبت كذبة و لقد نبئت بهذا المقام و هذا اليوم ألا و إن الخطايا خيل شمس حمل عليها أهلها و خلعت لجمها فتقحمت بهم في النار ألا و إن التقوى مطايا ذلل حمل عليها أهلها و أعطوا أزمتها فأوردتهم الجنة[2]**

## Ötən söhbətin xülasəsi

Qeyd etdiyimiz kimi, bu xütbə xilafətin ilk günlərinə aiddir və Əmirəlmöminin Əli (ə) İslam xəlifəsi və hakimi olaraq öz xalqına etdiyi ilk çıxışında bu xütbəni söyləmişdir. Bu xütbə əvvəldən axıra kimi fəsahət, bəlağət nümunəsi və söz

[1] "Nəhcül-bəlağə", xütbə 16 – 1374/12/06.
[2] "Nəhcül-bəlağə", xütbə 16.

gözəlliyinə rəğmən, olduqca zəngin möhtəvanı, dərin mənanı, xalq və onun rəhbərinin ictimai həyatına aid zəruri məsələləri əks etdirir. Xütbənin başlanğıcında qeyd etdiyimiz kimi, Əmirəlmöminin Əli (ə) verdiyi sözün icrasına zəmanət verir, sonrakı cümlədə isə olduqca mühüm bəşəri qanunauyğunluqdan söz açır; belə ki, kim keçmiş ibrətlərdən nəticə çıxarsa və ibrət aynasında gələcək təhlükələri müşahidə etsə, təqva ruhu, həssaslıq, diqqət, ehtiyat və zahiri haqq, batini isə batil görünənlərdən çəkinmək sayəsində onlardan amanda qalacaqdır.

Keçən həftə geniş şəkildə şərh etdiyimiz kimi, insan yaradılışı ilə əlaqəli bu məsələ həyatın qanunauyğunluqlarının inikası olmaqla yanaşı, Əmirəlmöminin Əlinin (ə) çıxış etdiyi xüsusi zaman çərçivəsi və mövqeyində bir reallıq və gerçəkliyin təsviri idi. Yəni, o Həzrət bu bəyanla iyirmi beş il yanılan və bu yanlışlığın cəzasını çəkən bir xalqa öz keçmiş səhvlərini təkrarlamaması, gələcəyin yolundakı çətinliklərin aradan qaldırılması istiqamətində onlardan ibrət almasını buyurur. Həzrət onlara Allahın bəxş etdiyi ağıl və iradə xüsusiyyətinə sahib bir varlıq kimi, öz ənənəvi səhvlərinə qapanıb qalmamağı tövsiyə edir. Yəni, indiyə qədər etdiyiniz səhvlər kifayətdir! Səhvə yol verməyiniz nəticəsində Allahın layiqli və səlahiyyətli insanlara aid etdiyi məqamı nalayiq şəxslərə həvalə etdiniz və ictimai-siyasi qüdrət məqamını ilahi meyarlarla uzlaşmayan kəslərə tapşırdınız. Səhvliyiniz səbəbilə Quran üzərində düşünmədiniz, Peyğəmbəri-Əkrəmin (s) vəsiyyətinə

əməl etmədiniz və bu səhvlərin cəzasını çəkdiniz. Bu səhvlərin cəzasını necə çəkdiniz? Uca səslə Quran oxunan bir cəmiyyətdə Əbuzərlər, Abdullah ibn Məsudlar, Əmmar Yasirlər, yaxşı və seçilmiş insanlar azlıq təşkil etdilər! Bu zümrənin fəzilət və dəyərlərindən məhrum qalan insanlar sizin və onların taleyinə hakim kəsildilər və bu, ən ağır cəza idi. İslamın zahirinə önəm verməklə onun batini, mənası və həqiqətini anlamadınız və ondan uzaq qaldınız. Elə bilirdiniz ki, Allah yolunda cihad edirsiniz və fəth olunmamış əraziləri fəth edəcək, sərvət, dövlət və qüdrətləri öz əlinizdə toplayacaqsınız. Amma sizin cəmiyyətinizdə İslamın əsas bünövrələrindən biri olan hüquq bərabərliyi və yaşayış vasitələrindən bərabər şəkildə istifadə hüququndan əsər-əlamət olmadığını bilmədiniz. Sizin cəmiyyətinizdə insanlar ac olduqlarından gecəni yata bilmir, analar övladlarını qazanın dibinə yalnız adi su tökməklə başlarını qatır və yatızdırırdılar. Amma Əbdürrəhman ibn Ovf öldükdən sonra onun varisləri ondan qalan qızılları balta ilə doğrayıb öz aralarında bölüşdürürdülər.[1] Bu dərəcədə dəhşətli ictimai təbəqələşmə harada görülüb?!

Haqqı haqq sahibinə, qüdrət və hakimiyyəti Allahın tapşırdığı şəxsə həvalə etmədiyiniz üçün indi də onun cəzasını çəkirsiniz. Elə bildiniz ki, sizin cəmiyyətinizə Peyğəmbər (s), layiqli və səlahiyyətli əmr sahibləri rəhbərlik etmədikdə, sizin aranızdan Quranlar yığışdırılacaq? Amma Quran oxunduğu üçün İslamın hələ də yaşadığını təsəvvür etdiniz!

---

[1] "Murucuz-zəhəb", c. 1, səh. 434.

Əmirəlmöminin Əlini (ə) ev dustağı etdikdə, ilahi haqqı öz sahibindən aldıqda (ilahi meyarlara əsasən, bu məsələdə ləyaqət şərtdir, yoxsa məzhəblərarası bəhsə daxil olmaq istəmirəm), hakimiyyət və rəhbərlik işlərini Allahın səlahiyyət verdiyi kəsin əlindən çıxarıb bəşəri maraq və istəklərə təhvil verdikdə, cəmiyyətdə Quranın yandırılacağını gözlədiyiniz halda yandırılmadığına, əksinə onun toplanıb yaşadığına əmin olduğunuz zaman anlamırdınız və indi də onun cəzasını çəkirsiniz. O böyük xətanın – cəmiyyətdə baş qaldıran ayrı-seçkilik və təbəqələşmənin acısını indi də dadırsınız. Həmin cəmiyyətdə kiminsə düşünmək və anlamaq haqqı yoxdur, anlasa da, onu dilinə gətirmək haqqı yoxdur. Yəhudi Kəbul-Əhbar isə ixtiyar sahibiniz, xəyanətkar düşmən dostunuzdur. Odur ki, keçmiş səhvlərdən ibrət alın:

"**İbrətlər kimə qarşısındakı cəzaları aydınlaşdırırsa, təqva onu şübhələr diyarına düşməkdən qoruyub-saxlayacaqdır.**"

Bu bir cümlə!

Sonra Həzrət Əli (ə) camaatı həqiqətə daha da yaxınlaşdırır. O gecə də diqqətinizə çatdırdım ki, məsələnin düyün nöqtəsinin açarı zəmanəni düzgün və olduğu kimi tanımaqdadır. Zəmanəni tanımayanlar çaşqınlıqdadırlar. Hansı zəmanədə yaşadığını, hansı mövqedə olduğunu bilməyən, öz ətrafındakı ideoloji və əməli cərəyanları hiss etməyənlərdən cəmiyyətin və dinin xeyrinə heç bir ümid gözləmək olmaz. Əmirəlmöminin Əli (ə) hər kəsdən yaxşı bilirdi ki, öndər olmaq istəyən kəs düzgün həyat tərzinə, insanlıq dünyasına, layiqli

müsəlman cəmiyyətinə sahib olmaq üçün ilk növbədə öz zəmanəsini tanımalıdır. Zəmanəsini tanımadığı təqdirdə, islahatçılar nə qədər fəryad etsə də, səsini ucaldıb danışsa da qulaqardına vuracaq və onun üçün faydasız olacaq; çünki zəmanəsini tanımır və "Onlar nə danışır?" – deyə düşünür. Cəmiyyətdə "Eltor" vəbasının yayıldığından xəbərsiz olan bir şəxs tibb işçiləri və həkim heyətlərinin əl-ayağa düşüb çadırlar qurduğuna, karantin rejiminin tətbiqinə təəccüblənəcək, onların insanları müayinə və müalicə etdiyini gördükdə, "Onlar nə edir, nə üçün edirlər?" – deyib mat-məəttəl fikrə dalacaq. Nə baş verdiyini danışsan da, qulağı olmadığından yazıq eşitməyəcək, bəsirəti olmadığından görməyəcək. Odur ki, öncə onu dünya xəbərləri və hadisələri, dünyada baş verən ideoloji və ictimai cərəyanlar barəsində məlumatlandırmaq lazımdır.

Əmirəlmöminin Əli (ə) onunla beyət edən və hakimiyyəti ona tapşıran müsəlmanlara hamının tanış olduğu nümunəni bəyan etmək və göstərmək istəyir:

"**Agah olun! Həqiqətən, sizin başınıza gələn bəla Allahın sizin Peyğəmbərinizi (s) seçdiyi gündə düçar olduğunuz bəlanın forması kimidir.**"

Ay camaat! Öz zəmanənizi tanımaq istəyirsiniz? Bilirsinizmi sizin zəmanənizin problemi və ümumi bəlası nədir? Sizin və cəmiyyətinizin həyatındakı bəla, eynilə Peyğəmbəri-Əkrəmin (s) dövründə Ərəbistan yarımadasını təhdid edən bəladır. Bəla eynilə həmin bəladır.

Peyğəmbəri-Əkrəmin (s) vəfatından 25 il, İslam quruluşundan 35 il, İslamın zühurundan yarım əsrə yaxın bir vaxt keçir. Cahiliyyət büsatı yığışdırılıb. Canlı və cansız bütlər yerlə yeksan olub. Qüreyş hakimləri ya məğlubiyyətə uğrayıb, ya da ölüb murdar olublar. İndi isə Əmirəlmöminin Əli (ə) ayağa qalxıb, "**Sizin cəmiyyətin bəlası o dövrün bəlasıdır!**" – deyə çıxış edəndə, heç kim anlamır, hamı fikrə gedir. Həzrət buyurur ki, ayıq olun, düşünün və bilin ki, bu bəla elə həmin bəladır!

Cahiliyyət dövrünün bəlası nə idi? Hansı xüsusiyyətləri ilə seçilir və fərqlənirdi? Buna diqqət yetirin, cahiliyyət dövründə zehninizə gələn hər bir bəla var idi; yoxsulluq, zülm, sosial təbəqələşmə, ayrı-seçkilik və s. İnsan dəyərsiz olmuşdu. Hər bir qövmün və cəmiyyətin düçar olduğu hər bir ictimai bəla Peyğəmbəri-Əkrəmin (s) peyğəmbərliyə seçildiyi dövrdəki cahil və azğın cəmiyyətdə mövcud idi. Görəsən, Əmirəlmöminin Əli (ə) bu geri dönən hansı bəlanı nəzərdə tuturdu? Bu, bir az diqqət tələb edir; məsələni dəqiqliyi ilə araşdırmalı və həmin ictimai bəlaların hansının birincidərəcəli, hansının isə ikincidərəcəli olduğunu öyrənməliyik. Bunu siz Əmirəlmöminin Əlidən (ə) öyrənən ardıcıllarından öyrənin. Sosial məsələlərin təhlilində – xəstəliklər və dərmanlarının ayırd edilməsində həmişə köklərə – birincidərəcəli əsas məsələlərə diqqət yetirin, öncə səbəbləri tanıyın, səbəblər tanındıqda, nəticələr də tanınacaq, səbəblərin aradan qaldırılması ilə nəticələr də aradan qalxacaqdır. Budaqlara – ikincidərəcəli məsələlərə elə də əhəmiyyət verməyin.

Bir Allah bəndəsi saralıb yerə tökülmüş budaqlardan təngə gəlmişdi, onları tez-tez yığıb yandırırdı. Bir nəfər yaxınlaşıb ona dedi ki, ya yarpaqları saralmış bu quru budağı kəs, ya da bu budaqlardan birdəflik canını qurtarmaq istəyirsənsə, ağacı kökündən çıxar, yoxsa indi yerə düşmüş dörd-beş dənə yarpağı təmizlədikdən sonra, yenə də onlar töküləcək!

İncəzövqlü bir şəxs bir cümlədən ibarət bir tablonu neçə illərdir ki, sərgidə nümayiş etdirir. Mən onun bu cümləsini eşidəndə çox xoşuma gəldi və həmişə də təkrar edirəm. Həmin tabloda yazılmış cümlə belədir: "Bataqlıqları qurutsanız, ağcaqanad öz-özünə öləcək." Ağcaqanadları bir-bir öldürməyin faydası yoxdur. Bir sadəlövh farmakoloq özündən də sadəlövh olan birinə ağcaqanadların qırılıb məhv olması üçün təklif etmişdi ki, ağcaqanadları bir-bir tutub gözünə dərman töksün, o zaman ağcaqanadlar kor olacaq və onları tutmaq asanlaşacaq!... Sən ağcaqanadları bir-bir və yaxud ağcaqanad öldürən dərmandan istifadə edərək birdəfəlik yüz ağcaqanadı öldürsən də, bataqlıq elə həmin andaca sənə indiyə qədər görmədiyin, necə uçacağından, bədəninə necə qonacağından əsla məlumatın olmadığı müxtəlif növ yüzlərlə ağcaqanad təhvil verəcək.

İndi mən də öyünürəm ki, Allaha və dinə xatir bir nəfərə daim Allahdan, dindən və İslamdan danışıram, sözlərimi beyninə yeritmək istəyirəm, hələ həmin adam bundan sonra müsəlman olacaq, ya olmayacaq, inanclı olacaq, ya olmayacaq, məlum deyil! Sən bax, gör, bu təfəkkür tərzi ilə neçə nəfəri hidayət edə bilərsən? Birini hidayət etdinsə, bəs o

birini necə hidayət edəcəksən? İkincini hidayət etdinsə, axı üçüncü də var? Cavab verirsən ki, müxalif qüvvələr on-iyirmi nəfərdən artıq deyil ki! – Hamısını hidayət edəcəyəm. Əvvəla, “inşallah” de ki, Allah sənə yüz iyirmi il ömür versin və sənin də onların hamısını hidayət etməyə vaxtın və fürsətin olsun. Bu qısa ömür müddətində bu iş qeyri-mümkündür. İkincisi də Allah o milçəyi yaradan bataqlıq kimi belələrinin sayəsini sənin və sənin kimilərin üzərindən əskik etməsin ki, yüz iyirmi ilin hamısını çalışıb işləyəsən; sən hidayət etdikcə, sənin üçün (başqa bir azğın) meydana çıxacaq.

Bir gün Kəsrəvini və yaxud filan ateisti məhkum etməklə özümüzlə öyünməyək. Həm öz ömrümüzü tələf etdik, həm də başqalarının ömrünü bitirdik. İndi isə başımızı qaldırıb görürük ki, insanlara İslamdan heç bir şey öyrətmədiyimiz üçün İmam Zamanın (ə.c.) hüzurunda xəcalətliyik. Bizim cəmiyyətimiz elə həmin cəmiyyət, bataqlıq elə həmin bataqlıqdır, hər gün bir ağcaqanad baş qaldırır, hər gün də sancır; elə yerdən sancır ki, heç ağlına belə gəlmir. Hər gün bir avazla başımızı tumarlayır və müəyyən rənglə boyayırlar. Biz də onların istəklərinə uyğun olaraq başımızı çox rahatlıqla tumarlatdırır və boyatdırırıq. Nə vaxta qədər qafil olacağıq! Haçana qədər gözlərimizi döyəcəyik? Haçana qədər irəli addımlamayacağıq? Haçana qədər “dəyirman daşı ətrafında dolanan ulaq” tək "kəhimarit-tahunə"[1] yerimizdə sayacağıq? Haçan məqsədə çatacağıq? Bu qədər güc sərf edirik, amma irəliləyiş yoxdur. İmam Zamanın (ə) hüzurunda da xəcalətliyik.

---

[1] “İxtisas”, Şeyx Müfid, səh. 245.

Əmirəlmöminin Əlinin (ə) bizə verdiyi bu qanun və meyarı tanımalısan; kökü tanımalısan ki, gövdəni, budaqları və yarpaqları da bir-birindən ayırd edə biləsən və başını solmuş yarpaqları yığmaqla qatmayasan. Odur ki, biz Peyğəmbəri-Əkrəmin (s) peyğəmbərliyindən öncə cahiliyyət dövründə yaşayan insanların yanlış ictimai vəziyyətini araşdırdıqda, belə bir vəziyyətin bir amildən qaynaqlandığını görürük. Çünki cahil cəmiyyətin başında Allahdan qeyrisi dayanmışdı. Elə buna görə də, yoxsulluq, nadanlıq, bərabərsizlik, qardaş qırğını, təhlükəsizlik, digər bədbəxtliklər və bəlalar hökm sürürdü. Çünki həmin cəmiyyətə Allahdan qeyrisi hökmranlıq edirdi. Bir cəmiyyətə Allahdan qeyrisi hökmranlıq edərsə, belə də olmalıdır. Peyğəmbəri-Əkrəm (s) peyğəmbərliyə seçildiyi vaxtda da vəziyyət belə idi, Əmirəlmöminin Əli (ə) iyirmi beş ildən sonra xilafət kürsüsündə əyləşdikdən və təqdim edilən mirası qəbul etdikdən sonra da həmin vəziyyət hökm sürürdü. Bir cəmiyyətə Allahdan qeyrisi, yəni şirk hakim olarsa, bu cəmiyyətdə nadanlıq, yoxsulluq, təbəqələşmə də, zülm, zorakılıq, quldurluq da, insanın dəyərdən düşməsi də olacaqdır.

Çarə nədir? Çarə odur ki, aləmlərin Rəbbinin şərikləri – Allah-Taalanın qüdrət və hakimiyyət dairəsini haqsız yerə mənimsəyənlər kənara çəkilməlidirlər. Necə ki, Əmirəlmöminin Əli (ə) bu işi bir dəfə Peyğəmbəri-Əkrəmin (s) dövründə yerinə yetirdi və Qüreyş böyüklərinin burnunu yerə sürtdü; bir dəfə də xilafətə çatdıqdan sonra yerinə yetirdi və o zaman müşrik adını daşıyan Allah

şəriklərinin zahirləri ilə batinləri eyni idisə, artıq bu gün həmin şəriklər “Allahın bəndələri” adını daşıyır, zahirləri ilə batinləri fərqlidir.

“**Agah olun! Həqiqətən, sizin başınıza gələn bəla Allahın sizin Peyğəmbərinizi (s) seçdiyi gündə düçar olduğunuz bəlanın forması kimidir.**”

Bu da digər cümlə!

Artıq Əmirəlmöminin Əli (ə) bir viranənin varisidir. Buna təəccüb edirsiniz? O Həzrətin zamanındakı İslam ölkəsi abad və böyük idi. Dünyanın adi siyasi termini ilə ifadə etmək istəsək, bir imperiya idi. Hicaz, İraq, Misir, İran, şərq və qərb abadlıqlarından tutmuş Bizans imperatorluğunun sərhədlərinə qədər ərazini əhatə edirdi. Hətta bu imperiyanın süqutundan sonra bir çox ölkələr İslam qüdrətinin tabeçiliyində qalmışdı. Amma bütün bunlar məsələnin zahiri idi, bəs batini nədən ibarət idi? Batini çürüklük və imansızlıqdan ibarət idi, İslamın həqiqi təməlləri sıradan çıxmışdı. İslamın həqiqi təməli və prinsiplərindən biri insana verilən dəyərdən ibarət idi:

**من قتل نفسا بغير نفس أو فساد في الأرض فكأنما قتل الناس جميعا**

“**Hər kim can qisası olmadan və ya yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, sanki bütün insanları (insanlığı) öldürmüşdür...**”[1]

Bir insanın dəyəri bu qədərdir. İmam Səccad (ə) bir insanın dəyəri haqqında belə buyurmuşdur:

**إنه ليس لأنفسكم ثمن إلا الجنة فلا تبيعوها إلا بها**

İnsanın qiyməti yalnız Cənnətdir. “**Sizin qiymətiniz Cənnətdən başqa bir şey deyil. Elə isə,**

---

[1] “Maidə” surəsi, ayə 32.

**özünüzü ondan başqasına satmayın.**”[1] Odur ki, insan özünü zəlil etməməli, Allahdan qeyrisinin müqabilində kiçilməməli və kölə olmamalıdır. Yalnız Allaha itaət etməli, Onun əmrinə təslim olmalıdır. Budur insanın qiyməti!

O zaman insan dəyər və qiymətdən o qədər düşmüşdü ki, Əbuzər kimi bir şəxsiyyəti Şamda çulsuz bir dəvəyə mindirib ayaqlarını bağladılar və Mədinəyə qədər o vəziyyətdə gətirdilər. O, Mədinəyə çatanda, artıq ayaqlarından qan süzülürdü.[2] Bir insana bundan artıq hörmətsizlik olarmı? Görəsən, bundan artıq insana hörmətsizlik olarmı ki, bir hakim tərəfindən haqsızlıq və zorakılığa məruz qalan camaat şikayət üçün xəlifənin hüzuruna getdikdən sonra xəlifə onlara dörd kəlmə xoş söz deyib yola sala, sonra da hakimə məktub yazıb bildirə ki, (misal üçün) Zeyd, Əmr və Bəkr səndən şikayət etmək üçün gəlmişdilər, onları geri qaytardım, onlarla necə istəyirsənsə, elə də rəftar et![3] İnsanları ələ salmaq, müsəlmanları aldatmaq, onların istək və ehtiyaclarını görməzdən gəlmək, onlara etinasızlıq və əhəmiyyət verməmək; bundan da artıq təhqir və hörmətsizlik varmı?

İslam cəmiyyəti zahirən çox gözəl və bərbəzəkli görünsə də, daxili puç və çürük idi, içi qurdlanmış və məhv olmuşdu.

Əmirəlmöminin Əli (ə) belə bir viranəni islah etməliydi. Amma bu viranəni necə islah edəcəkdi? O

---

[1] “Tühəful-üqul”, səh. 391.
[2] “Tarixi-Yəqubi”, c. 2, səh. 172.
[3] “Tarixi-Təbəri”, c. 3, səh. 401.

Həzrətin ilkin proqramı və iş prinsipi dörd kəlmədə göstərilir:

**و الذي بعثه بالحق**

“**And olsun Peyğəmbəri haqq və doğru olaraq göndərənə!**” Elə düşünürsünüz ki, sizi rahat yatmağa qoyacağam? Ey özünü İslam əsgəri adlandıran müsəlmanlar! Rahat yatacağınızı düşünürsünüzmü? O yüksək kürsülərdə əyləşənlər elə güman edirdilər ki, Əli ibn Əbitalib (ə) onların həmin kürsülərdə qalacağına razılıq verəcək. Həzrət buyurur:

**لتبلبلن بلبلة**

“**Bir-birinizə qarıçacaqsınız.**” Cəmiyyətin özülləri arasında titrəmə yaranacaq. Əmirəlmöminin (ə) buyurur ki, bu işi biz icra edəcəyik. “Nəhcül-bəlağə” şərhçilərindən biri yazır ki, Əmirəlmöminin Əlinin (ə) buyruğuna əsasən, bu işi Müaviyə icra edəcək, yəni o Həzrət Müaviyənin və Əməvi sülaləsinin çirkin siyasətindən xəbər verirdi. Xeyr! Bu, Əli ibn Əbitalibin (ə) öz işi və tədbiri idi, buyurur ki, bu işi mən icra edəcəyəm, özü də söhbətinin başlanğıcında bunun icrasına dair and içir:

**ذمتي بما أقول رهينة و أنا به زعيم**

“**Mənim əhdim dediyim sözlərin girovundadır və mən onların hamısına zəmanət verirəm.**”

Yəni, bütün bu tədbirləri özüm icra edəcək, Zeyd, Əmr və başqalarına da həvalə etməyəcəyəm. Sizin ictimai cərgələrinizi elə dağıdacaq, sizi elə qarışdıracağam ki, həqiqi İslam cəmiyyətinin necə olacağından xəbərdar olacaqsınız. Bəziləriniz xalqın qəflətindən istifadə edib yuxarılarda əyləşdiniz,

pullarını yediniz, onların pulları ilə qızıl külçələr düzəldib varislərininiz üçün yığdınız. Bunları sizin varislərinizin boğazından çəkib çıxaracağam.

و لتغربلن غربلة

Sizin aranızda islahat və təmizlik işləri aparacaq, hamınızı bir-bir ələkdən keçirəcəyəm. Adətən, bütün hakim dairələrdə vəzifə islahatları aparılır; yeni rəhbər hakim dairələrdə islahat işləri aparır, yeni təyinatlar imzalayır, birini vəzifədən kənarlaşdırır, öz xətti və iş strukturuna uyğun başqa birisini vəzifəyə təyin edir və adını da "islahat" qoyur. Həqiqi islahat isə belə olmur. Əmirəlmöminin (ə) buyurur ki, yalnız yüksək təbəqələr arasında deyil, bütün cəmiyyət arasında islahat aparacağıq; hamınızı böyük sınaqlardan keçirəcəyik. Belə də oldu. O Həzrətin hakimiyyətdə olduğu dörd il on ay müddətində müsəlman xalqının üzləşdiyi üç islahat aparatı təşkil olundu. Bir çoxları islahat aparatının filtrindən keçirilərək tullantılar sırasında həlak oldular. Bəziləri Ayişənin rəhbərliyi ilə baş verən "Cəməl" döyüşündə Haşimilər və Qüreyşlilərin abır-həyalı insanlarının, Təlhə və Zübeyrin, Peyğəmbəri-Əkrəmin (s) böyük səhabələrinin Əli (ə) ilə döyüşdüyünü və onun əleyhinə qılınc çəkdiyini gördükdə, əl-ayaqları əsdi. Bəziləri "Nəhrəvan" ordusundan Quran səslərini eşitdikdə, qəlbləri döyünüb süstləşdi. Bəziləri də Müaviyənin ordusunun əllərindəki nizələrə taxılan Quranları gördükdə, Əlini (ə) müdafiə etmək və onunla birgə hərəkət etməkdən çəkindilər. Onların hamısı ələkdən, filtrdən keçirilərək tullantılardan sayıldılar. Bəziləri isə həqiqi mömin olduqlarını isbat etdilər.

**و لتغربلن غربلة**

Sizi imtahan edəcəyik və bu imtahan bütün insanlara, bütün zaman və məkanlara aiddir. İmam Əli (ə) buyurur ki, (dua edərkən) "İlahi, bizi imtahan etmə!"[1] – deməyin. Bu qeyri-mümkündür, çünki imtahanda iştirak etməyənlər imtahandan kəsilirlər. İmtahandan kəsilməyə hazırsanmı? Deməyin: "İlahi, bizi imtahan etmə!" İmtahan var, həmişə də olacaq. O qəlbləri döyündürən Quran səsləri, nizələrə taxılan Quranlar və abır-həyalı görünən insanlar həmişə Əlinin (ə) müqabilində səf çəkəcəklər. "Cəməl", "Nəhrəvan" və "Siffeyn" döyüşləri həmişə olacaq. Xoş o kəsin halına ki, gözü görür, qulağı da eşidir!

**و لتساطن سوط القدر**

"**Qaynar qazan tək qaynayacaqsınız.**"

**حتى يعود أسفلكم أعلاكم و أعلاكم أسفلكم**

"**Sizdən ən aşağıda olan ən yüksək məqama yüksələcək, ən yüksəkdə olanınız isə ən aşağı məqama enəcək.**"

Həzrət bu cümlədə aşağı cərgədə olanların yüksələcəyi və yüksəkdə olanların alçalacağından söz açmır, əksinə buyurur ki, ən aşağı məqamda olanlar ən yüksək məqama ucalacaq, lap yüksəkdə olanlar isə lap aşağı enəcəklər. Cəmiyyətdəki mövcud tərkib və quruluş düzgün deyil, odur ki, cəmiyyətdə dəyişiklik edəcəyik.

---

[1] "Nəhcül-bəlağə", hikmət 93.

# Ələvi hakimiyyətinin sayəsində istedadların çiçəklənməsi

Budur meydan; kim bu meydandan getmək istəyirsə getsin. Kimin də dözümü və iradəsi güclüdürsə, Allah yoluna və ilahi məqsədə şövqü çoxdursa, meydana daxil ola bilər. Odur ki, Həzrət buyurur:

**و ليسبقن سابقون كانوا قصروا**

“**Qədir-qiyməti olmayanlar önə keçsələr də, dayanacaqlar.**”

Səhlənkarlıq edənlər geridə qalacaqlar. Öncüllərin isə ayaqlarına zəncir vurulsa da, irəlilədilər, sadə dillə desək, üzməyi yaxşı bacarırdılar, lakin qarşılarında su yox idi; beləlləri bir tərəfdən ən yüksək ictimai məqama, digər tərəfdən isə ən yüksək mənəvi məqama yiyələnə bilərdilər. Lakin yanlış ictimai quruluş onların əl-qolunu bağlamışdı; nə yüksək ictimai vəzifələrə yiyələnməyə, nə də mənəvi baxımdan yüksəlməyə icazə verirdi. Nadan, avam, mərifətsiz və şüursuz camaat tək cismani və ruhi baxımdan ən aşağı səviyyədə qalmışdılar. Lakin ilahi enerjiyə sahib idilər, İslamda öndə gedənlər idilər, İslam üçün əllərindən gələni əsirgəməmişdilər, uzun yollar qət etmişdilər. Amma Osmanın və qohum-əqrəbasının yanlış siyasəti və siyasi rejim onlara özlərini göstərməyə icazə vermədi. Biz isə onların üzünə meydanı açacaq, zəncirləri ayaqlarından qıracaq və deyəcəyik: “Gedin, hərəkət edə bilmədiyiniz təqdirdə, əlinizdən də tutacağıq.”

**و ليسبقن سابقون كانوا قصروا**

Bu ifadədə qeyd olunan "**qəssəru**" sözü “təf`il” qəlibində olsa da, “lazım fel” "**qəsəru**" mənasını ifadə edən “mütəəddi” (tamamlıq tələb edən) feldir. Əmirəlmöminin Əlinin (ə) kəlamı, çox ehtimal ki, elə bu mənanı daşıyır. Mövlanın kəlamını təfsir və şərh edənlər bu cümlələr barəsində çoxlu qeydlər aparmış, bəziləri qənaətbəxş bir məna tapmaq üçün çox çalışmışlar. Amma “qəssəru” sözünü “qəsəru” kimi mənalandırsaq, cümlənin mənası belə olacaq: Keçmiş öndərlər fəaliyyətləri ilə özlərinin öndər olduqlarını başa saldılar, lakin yanlış ictimai quruluş onların yüksəliş və tərəqqisinə icazə vermədi, yoxsa, sözsüz ki, tərəqqi edəcəkdilər. Buna Süheyl ibn Hüneyf, Osman ibn Hüneyf və Malik Əştər kimiləri misal göstərə bilərik. Malik Əştər İmam Əlinin (ə) vaxtında ərəblərin şücaətdə birinci şəxsi idi. Ərəblərin ən şücaətlisi olmaq zarafat deyil. Yaşlı idi. Əbu Bəkr və Ömərin xilafəti dövründə, islami fəthlər zamanında gənc deyildi ki, onun gənc və təcrübəsiz olduğunu deyəsiniz! Xeyr! Əmirəlmöminin Əlinin (ə) zamanında şəhadətə yetdikdə, qoca kişi idi. Bəlkə də, 70 və ya 70-dən çox yaşı var idi. İran döyüşlərində Malik Əştərin adı hallanmır, ictimai vəzifələrdə onun adı çəkilmir. Bəs, haradaydı? Nə üçün valilik və hakimlik vəzifələrində Ziyad ibn Əbih, Mərvan, Müaviyə və başqalarının adları qeyd olunur, Malik Əştərin adı isə heç yerdə yoxdur? Çünki Malik Əştər zülm və haqsızlıqlara boyun əymədi, Osmana dəstək olmadı, onun zalımcasına siyasi strukturunun faciələrinə əlini batırmadı, bu hakimiyyətlə razılaşmadı. Buna

görə də adı heç yerdə yoxdur. Malik Əştərin adının yalnız Əbuzər Qifarinin dəfnində qeyd edildiyini oxumuşam. O müsəlman səhralıqda tək-tənha can verir. Birdən Malik Əştər Misir karvanı ilə birgə hazır olur və Əbuzər Qifarini dəfn edir. İctimai fəaliyyətlərdə Süheyl ibn Hüneyf və Osman ibn Hüneyf kimi İslamın ilkin mübarizlərinin də adı çəkilmir. Süheyl ibn Hüneyf Peyğəmbərin (s) sevimli və böyük səhabəsi idi. Əmirəlmömöminin Əli (ə) buyurur ki, biz hakimiyyətə gəldikdən sonra bu zəncirləri qırdıq, qohumbazlığa son qoyduq, yanlış meyarlara söykənən və Allah bəndələri ilə istədiyi kimi rəftar edən quldurları kənarlaşdırdıq və meydanı açdıq. İnsani keyfiyyətləri həbs edilən məhbusları azadlığa çıxartdıq və dedik ki, gedin və istədiyiniz qədər qanad çalın.

## Hədəfli insanın bir xüsusiyyəti

**و ليقصرن سباقون كانوا سبقوا**

“**Hamıdan öndə olanlar arxada qalacaqlar.**”

Ən yaxşı və ən üstün bir şeyi əldə etməyə çalışan insana “səbbaq” deyilir. Hədəfli insanın təfəkkür tərzi isə fərqlidir. O, hansısa yüksək vəzifəyə sahib olmaq üçün can atmır, yalnız hədəfinin təmin olunması ilə kifayətlənir. Mən bəzən əbədiyyətə qovuşmuş böyük, aliməqamlı və ilahi bir şəxsiyyətin dili ilə dostlara deyirəm ki, ilahi insanların alicənablığı və güzəşti vəsfolunmazdır; əgər Allah-Taala Öz Peyğəmbərinə (s) desə ki, bütün zəhmətlərə sən qatlaşacaqsan, sən əziyyət çəkəcək, sən kötəklənəcək, sən fəaliyyət göstərəcək, sən

mübarizə aparacaqsan, amma bütün əməyin başqasının adına yazılacaq, Peyğəmbər (s) azacıq belə düşünmədən müsbət cavab verəcək. Hədəfli və məqsədyönlü insan bu xüsusiyyətə sahibdir. Onun böyük nümunəsi İslam Peyğəmbəri (s), ondan sonra isə, eyni hədəfi izləyən, özünü düşünməyən və görməyən, yalnız Allahı və Onun yolunu düşünüb bu istiqamətdə hərəkət edən bütün insanlardır. Odur ki, hədəf və məqsədyönlü insan daha yüksək vəzifə və məqam, daha şirin həyat ardınca deyil, amma dünya ardınca olan insan daim hansı işin, hansı peşənin, hansı yeməyin, hansı vəzifənin, hansı mövqeyin və adın daha gəlirli olduğunu düşünür. Buna isə "səbbaq" (qabaqcıllığa can atan) deyilir.

## Əmirəlmöminin Əlinin (ə) xüsusi təbəqələrdən olan qruplarla ciddi qarşıdurması

**و ليقصرن سباقون كانوا سبقوا**

"**Hamıdan öndə olanlar arxada qalacaqlar.**"

Öz şəxsi hədəf və arzularına çatmış öncüllərin əllərini qısaldacaq, onları kənara qoyacaq və imkan daxilində onlara cəza təyin edəcəyik. Bu, Əmirəlmöminin Əlinin (ə) proqramıdır. Bu proqram dörd cümlədən artıq deyildi. Amma sizə abır-həyalı ictimai həyat, layiqli həyat tərzi və insanlıq fidanı yetişdirən ictimai mühit və proqramlar əsasında təşkil olunan bir cəmiyyət təhvil verir. Sözsüz, insan belə bir mühit və cəmiyyətdə insanlıq məqamına yüksəlir, kamilləşir. Bu, Əmirəlmöminin Əlinin (ə)

daha da dolğun, daha da lakonik cümlələrdən ibarət bir proqramı idi.

## Əmirəmöminin Əlinin (ə) doğruluğu və gələcəkdən məlumatlı olması

Əmirəlmöminin Əli (ə) sözünə davam edir. Bu xalq Əli ibn Əbitalibdən (ə) 25 ildə ümumi xalq kütləsi və şahidlərin hüzurunda belə aşkar çıxışını eşitməmişdi. 25 ildir ki, bu nur qapısı onların üzünə birbaşa açılmamışdı. Odur ki, Həzrət bu xalqla hələ şox danışmalıdır. Buyurur:

**والله ما كتمت وشمة**

"**Allaha and olsun, (camaatın agahlığı üçün deyilməsi lazım olan) heç bir sözü gizlətmədim.**"

**و لا كذبت كذبة**

"**Bir cümlə belə yalan danışmadım.**" Nə dedimsə, düz dedim, haqqı faş etmək istədim.

**و لقد نبئت بهذا المقام و هذا اليوم**

"**Bu məqam və bu gün barədə mənə (öncədən) xəbər verilmişdi.**" Mənə gələcəkdə hansı hadisələrin baş verəcəyi və İslam cəmiyyətinin aqibətinin necə olacağını öncədən demişdilər və mən bunları bilirdim. Əmirəlmöminin Əli (ə) bunları haradan bilirdi? Bəlkə də Peyğəmbəri-Əkrəm (s) o Həzrətə keçdiyi dərslərin əsnasında gələcək hadisələrdən xəbərdar etmişdi, yaxud Qurandan ilham almışdı, yaxud da dünyanın qanunauyğunluqları ilə tanış olduğundan, həm keçmişi, həm də gələcəyi bilirdi. O Həzrət yaxşı bilirdi ki, cəmiyyətdə qanunauyğunluqlar necə təsir

bağışlayır. Odur ki, İslam cəmiyyətinin aqibətinin necə olacağından xəbərdar idi.

## İctimai səhvliklər – Cəmiyyətin məğlubiyyət amili

Həzrət dərinmənalı iki cümlə buyurur:

**ألا و إن الخطايا خيل شمس حمل عليها أهلها و خلعت لجمها فتقحمت بهم في النار ألا و إن التقوى مطايا ذلل حمل عليها أهلها و أعطوا أزمتها فأوردتهم الجنة**

Həqiqətən də, insan beyni və dili bu cümlələri izah etməkdə acizdir. İfadələr necə də dolğundur. Əmirəlmöminin Əli (ə) bu cümlələrdə insanın səhvlərindən – səhv edən və öz səhvinin üzərində möhkəm dayanan cəmiyyətdən danışır və onu çılğın ata minmiş şəxsə təşbih edir: “**Agah olun ki, günahlar yüyəni qırmış azğın atlara bənzəyir ki, onlara minən günahkarları od-alova atarlar.**”

Təsəvvür edin ki, yüyənsiz azğın və çılğın ata minən bir insan məqsədə, məsələn, Məkkəyə çatmalıdır. Sizcə, onun məqsədə çatma ehtimalı neçə mində bir faiz ola bilər? Onu yolun ortasında başı üstə yerə çırpmayınca, dərə-təpəyə tullamayınca, bədənini xurd-xəşil etməyincə, əl çəkən deyil, birdən məqsədə çatdırsa da, susuz, ot-ələfsiz bir yerə çatdıracaqdır. Ey yazıq süvari! Bu yüyənsiz azğın at yol ilə tanışlığı olmadığından səni yolda qoyacaq, onun ixtiyarı sənin əlində olmadığından səni istəmədiyin bir yerə aparacaq. Ey İslam cəmiyyəti! Üzərində möhkəm dayandığın səhvlər və xətalar, eynilə azğın atı xatırladır; süvar olduğun miniyin

ixtiyarı sənin əlində deyil, özü də elə bir minik ki, azğın, çılğın və yüyənsizdir!

## Cənnət – Ayıq və təqvalı cəmiyyətin mükafatı

**ألا و إن التقوى مطايا ذلل حمل عليها أهلها و أعطوا أزمتها فأوردتهم الجنة**

"**Təqva isə yüyəni sahibinin əlində olan ram edilmiş miniklərə bənzəyir ki, onlara minənləri Cənnətə daxil edərlər.**"

Təqvaya gəlincə, yadınıza salın ki, təqvanı necə mənalandırdıq və onun antonimi nədir? Təqvanın antonimi xəta və yanlışlıqdır. Yanlışlığın antonimi olan təqva nə deməkdir? Yəni, çəkinmək, ayıq və həssas olmaq, özünü qorumaq və gözləmək. Özünü qoruyan, ayıq və həssas olan, heç vaxt qış yuxusuna getməyən, gözünü və qulağını bağlamayan cəmiyyət təqvalıdır. Təqva nəyə bənzəyir?

**ألا و إن التقوى مطايا ذلل حمل عليها أهلها**

Təqva – cəmiyyətdə həssaslıq ruhiyyəsinə sahib olmaq, diqqətli və ehtiyatlı olmaq, oyaq və ayıq olmaq və sahibinin mindiyi ram edilmiş miniyə bənzəyir.

**و أعطوا أزمتها**

Ram edilmiş bu heyvanın yüyəni də sahibinin əlindədir. Bu heyvan onu hara aparacaq?

**فأوردتهم الجنة**

Onu arzuladığı Cənnətə aparacaqdır.

Sənin bəyanına fəda olum, ey Əmirəlmöminin! Həqiqətən də, bu ifadə barəsində deyə biləcəyim söz budur ki, artıq danışmayım. Mən "Nəhcül-bəlağə"ni

mütaliə edərkən, haçan bu cümlə ilə rastlaşmışamsa, onun əzəməti müqabilində özümü dərk, şərh və bəyan etməkdə aciz görmüşəm. Olduqca dərin və dolğundur. Sizə yalnız tövsiyə edə bilərəm ki, onu oxuyun. Bu qeyd etdiklərim Əmirəlmöminin Əlinin (ə) buyurduğu cümlənin hərfi tərcüməsi və sadə izahından ibarətdir. Bu son cümləni sizin ixtiyarınıza buraxıram, onun üzərində düşünün, zəmanəyə hakim mədəniyyətlərlə bağlı məlumatı əldə edin, Allahın bəxş etdiyi zövq və istedadınızı düşünməklə çiçəkləndirin.

Əmirəlmöminin Əli (ə) yenə sözünə davam edərək buyurur:

**حق و باطل و لكل أهل**

“**Təqva haqq yol, günahkarlıq isə batil yoludur və hər iki yolun öz əhli var.**”

Əgər Allah ömür və fürsət verərsə, növbəti həftə, inşallah, bu xütbənin qalan hissəsi haqqında söhbət edəcəyəm.

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizə və bütün müsəlmanlara açıq göz, ayıq qəlb, eşidən qulaq və qəbul edən ruh mərhəmət et!

İlahi! Bizə həyatı başa salan bu cümlələri anlamaq və onlara əməl etmək qabiliyyəti bəxş et...!

**11**

# "NƏHCÜL-BƏLAĞƏ"DƏ HAQQ VƏ BATİL[1]

**Bağişlayan və mehriban Allahın adı ilə!**

**حق و باطل و لكل أهل فلئن أمر الباطل لقديما فعل و لئن قل الحق فلربما و لعل و لقلما أدبر شيء فأقبل شغل من الجنة و النار أمامه ساع سريع نجا و طالب بطيء رجا و مقصر في النار هوى اليمين و الشمال مضلة و الطريق الوسطى هي الجادة[2]**

## Tarixi qanunauyğunluqlarla tanışlığın əhəmiyyəti

Əmirəlmöminin Əlinin (ə) xütbəsinin bu hissəsində bəyan etdikləri (istər öz zamanı, istərsə də sonrakı zamanlarda) eşidənlərin qəlbinə böyük ümid və rahatlıq bəxş edir. Bu xütbədə bir neçə tarixi qanunauyğunluqlar göstərilir. İmam Əlinin (ə) bu xütbəni bəyan etdiyi zaman hansı mövqedə

---

[1] "Nəhcül-bəlağə", xütbə 16 – 1374/12/14.
[2] "Nəhcül-bəlağə", xütbə 16.

olduğunu nəzərə alaraq onu şərh edəcəyik. Həmişə tarixi dərslərdən ibrət alarkən, onun mütləq indiki zamanda bəyan edilməsini nəzərə almamalıyıq. Tarix təkrar lentdir. Tarixdə ilahi qanunauyğunluqlar həmişə eynidir və insanlar onlara qarşı çıxmırlar. Deməк, Mövla Əlinin (ə) zamanına aid olanlar bu günə də aiddir və Qiyamətə qədər də belə davam edəcək. Ən yaxşısı, o Həzrətin öz zamanında buyurduqlarını öz zamanımıza tətbiq etməyimizdir.

## Cəmiyyətin yenidən İmam Əliyə (ə) üz tutmasında agahlıq bəxş edən amillərin rolu

Cəmiyyət bir müddət keçdikdən sonra haqqa doğru addımladı və haqq evinə çatdı. Haqq yoluna qədəm qoymayan haqqa çatmaz. Nəhayət, müxtəlif amillər nəticə verdi. Vəhy və nübuvvət evindən, hidayət ocağından uzaq düşən cəmiyyət yenidən onları məqsədə çatdıra biləcək yeganə yola ayaq basdılar. Görəsən, buna nə səbəb oldu? Osmanın zalımanə siyasətimi, yoxsa Əlinin (ə) tərəfdarlarının təbliğatı və camaatın zaman baxımından Peyğəmbər (s) təlimlərinə yaxın olmasımı? Əksəriyyət cəmiyyətin Əliyə (ə) üz tutmasını yalnız ədalətsiz və zalımanə siyasətlə əlaqələndirir. Lakin belə bir siyasət insanları həmişə ayıltmayıb. Səadət və xoşbəxtlik mənzilinə çatmaq istəyən cəmiyyət həmişə təqib və təzyiqlərə etirazını bildirməyib. Ayıqlıq, bəsirət və maarif olmadıqda, təqib və təzyiqlər hiss və dərk olunmur. Bəlkə də başınıza gəlib, bəzən insanın dişi və yaxud başqa bir üzvü

yatmaq istədiyi (yarıyuxulu olduğu) vaxt ağrımağa başlayır. İnsan həmin vaxt çox ağrı və əziyyət çəkir, amma səbəbini bilmir. Ağrını hiss etsə də, niyə məhz həmin vaxt ağrının başladığını dərk etmir. Bəzən insanlar bu hala düşürlər. Bir ümməti səadət və qurtuluşa yönləndirən səbəb yalnız ağrı deyil, ağrının səbəbini də duymaq lazımdır; başqa sözlə, cismin hissiyyatı ilə yanaşı intuisiya, əqlin hissiyyatı da lazımdır. Buna görə də, düşünürəm ki, insanların Əmirəlmöminin Əliyə (ə) üz tutması yalnız Osmanın çirkin siyasətindən qaynaqlanmırdı, agahlıq bəxş edən digər amillər də mühüm rol oynayırdı.

Bəs, insanları ayıldan kim idi? İnsanları xoşbəxtlik açarına doğru yönləndirən kim idi? Əmirəlmöminin Əlinin (ə) özü!

## Əmirəlmöminin Əli (ə) kimi bir şəxsiyyətin hakimiyyətdə olmasının təsiri

Hər bir cəmiyyətdə Əli ibn Əbitalib (ə) kimi bir şəxsiyyət olarsa, bütün qüvvələrin, mütəfəkkir beyinlərin, danışan dillərin, yazar əllər və qələmlərin, müxtəlif qəlblər və fikirlərin düzgün bir hədəfə sarı addımlaması mümkün bir haldır. Əgər hakimiyyətdə olan həmin şəxs qeyd edilən bütün bu qüvvələri işə yönəldərsə və Əli (ə) kimi bir şəxs idarəçilik sistemini onun amallarına kökləyərsə, belə bir cəmiyyətdə, sözsüz, bütün mövcud qüvvələr doğru yolda addımlayacaq və düzgün işləyəcək. Əgər həmin şəxs hakimiyyətdə olmasa da, cəmiyyətdə Əmirəlmöminin Əli (ə) kimi bir

şəxsiyyətin varlığı mütəfəkkirlərin, natiqlərin və yazarların haqq yola yönəlməsinə kifayətdir. Əlbəttə, yalnız varlığının olmasını nəzərdə tutmuram, çünki bəzən var olmaq daha da təhlükəli, daha da zərərlidir. Həyat bəxş etməyən mövcudluq var olmamaqdan daha da təhlükəlidir. Nə üçün təhlükəlidir? Çünki olmadığı zaman hamı "yoxdur" – deyə düşünəcək. Amma var olduğun halda, yoxluğunu hiss etdirdikdə, "var idi, amma bir söz demədi" – deyəcəklər. Odur ki, mövcudluğunu təsdiqləməli, məsuliyyət hiss etməlidir. Cəmiyyətdə kimin agahlığı artıqdırsa, məsuliyyəti artıq, rəftarı təsirlidir. Beləliklə, bu agahlığı cəmiyyətə Əmirəlmöminin Əli (ə) özü bəxş etmişdi. Əgər yadınızdadırsa, tarixdə göstərilir ki, Misirdən şikayət üçün Mədinəyə gələn, sonra da Osmanın hakimiyyətinin əleyhinə hərəkətə keçən qoşuna Malik Əştər kimilər rəhbərlik edirdi. Cəmiyyətdə dəyişiklik yaradanlar, onların əllərindən yapışıb Əmirəlmömöminin Əlinin (ə) evinə tərəf aparanlar onlar idilər. Bir sözlə, cəmiyyət özünə gəldi və Əmirəlmöminin Əlini (ə) bir həddə tanıya bildi.

## Əmirəlmöminin Əlinin (ə) keçmiş xəlifələrin mənfi vərdiş və ənənəsinin izlərini aradan aparmaqda hədəfi

Əmirəlmöminin Əli (ə) cəmiyyətlə danışmaq fürsətini qazanır. Bu cəmiyyət iyirmi beş il – bir əsrin dörddə biri qədər azğın və haqsız bir quruluşun tabeçiliyində yaşamışdı. Camaat yavaş-yavaş düz xətdən, haqq yoldan uzaqlaşmışdı. Məgər iyirmi beş

il az bir vaxtdırmı? Məgər zarafatdırmı? Əmirəlmöminin Əli (ə) özü buyurur:

**يهرم فيها الكبير و يشيب فيها الصغير و يكدح فيها مؤمن حتى يلقى ربه**

**“Qocaları həlak edən, gəncləri qocaldan və möminlərin ölüncəyə qədər əziyyət çəkdiyi kor qaranlıqdan ibarət bir mühit yaranmışdı.**”[1]

Əmirəlmöminin Əlinin (ə) kəlamında bu dövran kor qaranlıqdan ibarət idi. Bizim indi – 13 əsrdən sonra gördüklərimizi o Həzrət yaxından görmüş və bu dövranı “kor qaranlıq” adlandırmışdı. Düzdür, Müaviyənin zamanına nisbətdə yaxşı, Yezidin zamanında mühit daha acınacaqlı olsa da, tarix bir çox Müaviyələr, Yezidlər və onlardan daha da pisini görsə də, bildiyiniz kimi, hər hansı bir hadisəni ona uyğun zaman və məkan şəraitinə mütənasib araşdırmaq lazımdır. Güclü bir insana adi halda, xüsusilə, zarafat zamanı bir şillə vurmaq böyük bir cinayət sayılmaz, amma xəstələnmiş hörmətli, izzətli və alicənab bir şəxsə bir şillə vursan, onu əldən salıb öldürəcək və bu günah qəsdən qətlə yetirməyin günahı qədərdir. O çevrilişin necə təhlükəli və zərərli bir şəraitdə baş qaldırdığını yaxşı bilirsiniz.

Bu dövran iyirmi beş il davam etdi və bu müddət ərzində camaat çirkin şərait və atmosferdə böyüyüb boya başa çatmışdı. İyirmi beş ildən sonra isə Əmirəlmöminin Əli (ə) belə bir cəmiyyətə rəhbərlik etmək istəyir. Deyə bilərsiniz ki, o Həzrət də Peyğəmbəri-Əkrəmin (s) zamanındakı kimi, əmr və qadağalar etsin, camaatı tərbiyələndirsin və idarə etsin, amma bu mümkündürmü? Nadan bir tarixçi

---

[1] “Nəhcül-bəlağə”, xütbə 3.

yazır ki, Əli ibn Əbitalibin siyasəti yox idi, Müaviyə və digər rəqibləri ilə necə rəftar edəcəyini bilmirdi. Elə bəzi nadan insanların təsəvvüründə yaranmış çürük qəzavətlər də hadisələrin təfərrüatını araşdırmayan bir qrup nadan tarixçi və şərqşünasın əsassız sözlərindən ilham almış və formalaşmışdır.

Məsələnin məğzi bundan ibarətdir ki, məslək və ilahi məqsədlərini hər şeydən üstün tutan bir rəhbər iyirmi beş il düzgün tərbiyə almayan, haqq və həqiqətdən uzaq düşən bir cəmiyyətlə üzləşirsə, deməli, bu cəmiyyət üzərində çox işləməli, mümkün qədər lazımi mətləbləri onların beyninə və qəlbinə yeritməli və öyrətməli idi.

## Fəal təqva – Əmirəlmöminin Əlinin (ə) tövsiyəsi

Əmirəlmöminin Əli (ə) "Nəhcül-bəlağə"nin bu və digər xütbələrində yaradılışın qanunauyğunluqları, təqva və yanlışlıqların rolu haqqında geniş danışır. Odur ki, "Nəhcül-bəlağə"ni mütaliə etdikdə, başqa bir ləzzət duyursan. Rəvayətlər çoxdur, "Nəhcül-bəlağə" də rəvayətdir, bunu dəfələrlə demişik, amma onun ləzzəti tamamilə fərqlidir. Bu, ayılıb zamanla birgə addımlaması vacib olan yatmış cəmiyyətin bədəninə vurulan bir qırmancdır. Əmirəlmöminin Əli (ə) təkamülə doğru sürətlə addımlayır və bu yolda onunla birgə addımlamağı bacarmalısan. Bu da yuxulu cəmiyyətin işi deyil! Bu gün ayıq insan "Nəhcül-bəlağə"ni, o Həzrətin kəlamını başa düşür, yatmış insan isə lay-laydan başqa, heç nə anlamır. Həzrət inqilabi asketizm, inqilabi təqva və inqilabi

həyat haqqında danışdıqda, bəziləri bir guşəyə çəkilib, yalnız özü ilə, fərdi raz-niyazla məşğul olduğunu düşünür. Əmirəlmöminin Əli (ə) bir yerdə "Gedin, evlərinizdə əyləşin" – deyə buyurduqda, nadan bir şəxs bu cümləyə istinadən dillənir ki, axı nə üçün İmam Əli (ə) "Gedin, evlərinizdə əyləşin" – deyə buyurmuşdur? Əgər o Həzrət "Gedin, evlərinizdə əyləşin" – deyə buyurmuşdursa, özü cəmiyyətin içinə daxil olmaz, camaatı da arxasınca çəkib aparmazdı. Əmirəlmöminin (ə) nə demək istədiyini anlamır, hələ də özünü o Həzrətin şəraiti – on üç əsr öncə ilə tətbiq edə bilmir. Bəli, Əmirəlmöminin Əlinin (ə) kəlamı mənalarla doludur, bir cəmiyyətə lazım olan oyaqlıq, ayıqlıq, şüur, zamanın rolu, zəruri məsələlərin gerçəkləşməsində qaçılmaz olan iş və hadisələrin duyulması ilə bağlı agahlıqlar və maariflə zəngindir.

Keçən həftənin Bazar ertəsi axşamı elə burada oxuduğum bu xütbənin öncəki cümləsində Əmirəlmöminin Əli (ə) təqvalı insanı atının yüyəni əlində olan mahir süvariyə bənzətmişdir ki, məqsədə çatmaq üçün mindiyi heyvanı istədiyi yerdə sürətlə çapır, istədiyi yerdə ahəstə sürür, istədiyi yerdə də döndərir. Təqvalı insan həssasdır, ayıqdır, ehtiyatlıdır, özünü qoruyandır. Təqva budur! Lakin səhv edən və öz səhvindən ibrət almayan insan yüyəni qırmış azğın ata bənzəyir ki, nə irəli hərəkət edir, nə də (idarə etmək üçün) yüyəni vardır, sözsüz, belə bir at onu başıüstə yerə çırpacaq, əgər yerə çırpmasa da, şübhəsiz, uyğun məqsədə çatdırmayacaq. Yol ikidir: biri səhv yol, biri də təqva yolu.

# İnsan “haqq ilə batil” adlı iki yolayrıcında

Həyat səhnəsində təqva və xəta yolundan ibarət iki yol vardır. Siz nə işlə məşğul olsanız və həyatda hansı mövqeyi tutsanız, bu iki yol və xüsusiyyətdən kənar deyil. Hansı istiqamətə getsəniz, bu iki yoldan biri ilə hərəkət edəcəksiniz və üçüncü orta yol yoxdur. Bu iki yol nədir?

**حق و باطل**

“**Haqq yol və batil yol.**”

Allahın Quranı bizə belə buyurur:

**ألم نجعل له عينين ولسانا وشفتين وهديناه النجدين**

“**Məgər Biz ona iki göz vermədikmi?! Eləcə də, bir dil və qoşa dodaq (vermədikmi)?! Biz ona iki yol göstərmədikmi?!**”[1] Sizə haqq ilə batil yolunu göstərmədikmi? Ey batil yolla gedən insan! Günah sənin özündədir, gözünü aç, haqq ilə batil yolu gör. Ey Əmirəlmöminin Əlinin (ə) söhbətlərini dinləyənlər! Sizə “inhiraf”, “azğınlıq”, “xəta”, “günah” və “fəsad” adlı miras qoyulub. Siz bu mirasla yaşamaqmı istəyirsiniz? Yol ikidir:

**حق و باطل و لكل أهل**

“**Haqq və batil və hər iki yolun öz əhli var.**”

Elə bilməyin ki, burada orta yol da vardır. Əsla! Elə düşünməyin ki, Əli ibn Əbitalibin (ə) cərgəsi və cəbhəsi ilə Təlhə və Zübeyr, yaxud Müaviyə ibn Əbi Süfyanın cərgəsi və cəbhəsi arasında bitərəf adlı hərbi və ya qeyri-hərbi bir cəbhə də vardır. Qətiyyən

---

[1] “Bələd” surəsi, ayə 8-10.

belə deyil! Əgər Əlinin (ə) cərgəsində deyilsənsə, onun cərgəsindən xaricsən.

## Vilayət xətti – Haqq cəbhəsinə aşkar şəkildə qoşulmaq və batil cəbhəsindən ayrılmaq

Ramazan ayında "vilayət" başlığı altında bu məsələ ilə bağlı söhbət etmişdim.[1] Vilayətin mənasını anlamaq üçün həmin bəhsləri dinləmək istəyənlər, mütləq dinləsinlər. Bizim dini məfhumlarımız nə qədər də təhrifə məruz qalıb! Biz vilayəti bir qədər diqqətsizlik və nadanlıqdan yaranan canıyananlıq, qayğı və sevgi, faydasız və nəticəsiz özünəqapanma mənaları ilə yekunlaşdırmışıq, halbuki vilayət İslamın ən mühüm prinsipidir və həmişə aşkarcasına haqq cəbhəsində olmaq və batil cəbhəsindən aydın şəkildə ayrılmaq mənasını daşıyır. Bu iki cəbhənin arasında da "bitərəf" adlı üçüncü bir cəbhə yoxdur. Sən burada "Mən nə bu cəbhənin, nə də o cəbhənin üzvüyəm! Mənə nə! Nə savab istəyirəm, nə də günah edirəm!" – deyib yaxanı kənara çəkə bilməzsən. Belə bir şey əsla təsəvvürolunası deyil. "**Hər iki yolun öz əhli var.**"

---

[1] "Tərhe kulliye əndişeye-İslami", 23-28-ci məclislər.

## Əmirəlmöminin Əlinin (ə) haqqa ümumi duyğusal meyilliliklə bağlı nigarançılıqları

Zabani-hal deyənləri eşidərsiniz. Mən də zəbani-hal demək istəyirəm. Bir çox məsələləri söz və nitqlə bəyan etmək olmur, lakin ayıq insanlar hər işarədən bir incə mətləb çıxarır. Zahirən, hamı sel tək haqq evinə (Əmirəlmöminin Əlinin (ə) evinə) üz tutdu. Zahirdə görünən budur! Sadəlövh və sadədüşüncəli bir insanı gözü ilə gördükləri sevindirir. Lakin bu sözlərdən daha üstün olan Əmirəlmöminin Əli (ə) daha dərin və dəqiq baxışları ilə bizə dərs keçir. Cəmiyyəti nəzərdən keçirir, haqqa ümumi duyğusal meyilliliyin arxasında haqqa qarşı kəskin təcavüzkarlıq görür. Həzrət onun hakimiyyətinin müxalifləri tərəfindən onun və onun cəmiyyəti üçün nə qədər narahatlıqlar törədəcəklərini, kübar həyat tərzi keçirənlərin dinc oturmayacaqlarını, rifahda olan insanların ciddi mübarizəyə qatılmayacaqlarını görürdü. Əlbəttə, əgər Əlinin (ə) səsi onlara çatsaydı, təsir bağışlayardı, lakin bilirsiniz ki, Əlinin (ə) səsi ilə haqqı qəbul edən qulaqlar və qəlblərin arasında pərdə çəkənlər də olurlar.

Bu, Əmirəlmöminin Əlinin (ə) öz zamanına aiddir. Başqa zamanlara gəldikdə də məsələ eynidir, yenə hər bir yerdə həmin vəziyyət hökm sürməkdədir. Elə buna görə də, Həzrət çıxış etdiyi zaman zahirdə haqq tərəfdarlarının çoxluq pərdəsi arxasında batilin çoxluq təşkil etdiyini, şövq və həsrətlə haqqa doğru üz tutan İslam cəmiyyətinin az

müddətdən sonra haqqa tab gətirməyib firqələrə ayrılacağını görürdü.

## Cəmiyyətin müqavimətini artırmaq və onu vaksinasiya etmək üçün xas insanların büdrəmələri haqqında proqnozu

Bir sözlə, Əmirəlmöminin Əli (ə) cəmiyyətin parçalanıb firqələrə ayrılacağını görürdü. Buna görə də, camaatı baş verəcək hadisələr müqabilində hazırlamaq və onların müqavimətini artırmaq istəyir.

Fərz edin ki, on nəfər birgə yol gedirsiniz. Bu on nəfərdən biri desə ki, mən daha getmirəm (geri qayıdıram), digər doqquz nəfər də əhval-ruhiyyədən düşəcək, ən azından onların əhval-ruhiyyəsinə təsirsiz ötüşməyəcək. Əmirəlmöminin Əli (ə) məclisdə əyləşənlərə nəzər yetirdikdə, Təlhə, Zübeyr və Səd ibn Vəqqas kimi hamının qəbul etdiyi simaları görür. Amma o Həzrət onların (haqqa) tab gətirməyib üz çevirəcəyini yaxşı bildiyi üçün Təlhənin (dəstədən ayrılıb) gedəcəyi təqdirdə xalqın qəlbinin sınmasını, Zübeyrin (haqdan) üz döndərəcəyi təqdirdə xalqın tərəddüdə düşməsini istəmir (öncədən onları belə hadisələrdən xəbərdar edir).

Uzaqgörən rəhbər belə olmalıdır. O, əvvəlcədən zərər və təhlükə ehtimalını qulaqlara çatdırır. Əgər bir hadisə baş verəcəksə, hesablanmamış hadisə kimi düşünülməsin; əgər hansısa bir yanlışlığın qarşısını almaq mümkündürsə, qarşısı alınsın, yox əgər qeyri-mümkündürsə, ən azından, əhval-ruhiyyələr

pozulmasın. Əmirəlmöminin Əli (ə) cəmiyyətin ruhi sarsıntısına mane olmaq istəyir. Buna görə də, öncədən buyurur:

**فلئن أمر الباطل لقديما فعل و لئن قل الحق فلربما و لعل**

Batilin çoxluqda olduğunu, batil yolunun yolçularının sayı və gücünün çox olduğunu görsəniz, əsla qorxmayın.

## "Ləqədimən fəələ" ifadəsinin iki mənası

**1. Çoxluq təşkil edən batil və onun yolçularının önəmsizliyi:**

Nəzərimcə, "**ləqədimən fəələ**" ifadəsini iki cür mənalandırmaq olar və biz burada hər iksini qeyd edirik. Birincisi, hamının başa düşdüyü ümumi mənadır və bu mənanın da heç bir eybi yoxdur. Həmin məna belədir: "**Batilin çoxluqda olduğunu gördükdə, bilin ki, batil həmişə çoxluq təşkil edib, lakin onun çoxluqda olması qalib olması anlamında deyil.**" Qısa ömrünüzdə əksəriyyətin sayca az olan güclü qollar altında əzildiyini nə qədər görmüsünüz! Zalım, ruhiyyəsiz, gələcək həyat üçün aydın dünyagörüşə, həyati əhəmiyyətli və ruhlandırıcı ideologiyaya sahib olmayan düşmənin sayının çoxluğu önəmli deyil və onun əlindən bir iş gəlməz. Əksəriyyət nadanlıqda qaldığı, hegemon qüdrətlər əksəriyyəti nadanlıqda saxladığı və bunun nəticəsində haqqı asanlıqla qəbul etmədiyi üçün batil həmişə çoxluq təşkil edib. Bu, həmişə belə olub. İndi də Əmirəlmöminin Əli (ə) bundan danışır və buyurur ki, batilin çoxluğundan nigaran olmayın, bu

çoxluq küləyin aşıdrığı çürük çinar ağacına bənzəyir. Bu çoxluqdan qorxmağa dəyməz. Axı nə əhəmiyyəti var? Bu bir məna və bu mənaya əsasən, Əmirəlmöminin Əli (ə) camaata təskinlik verir və buyurur ki, batil sayca çox olsa və yaxud gələcəkdə çoxluq təşkil etsə də, bu, haqq əhlini qorxutmamalı, narahat etməməlidir.

**2. Batilin çoxluğu – çalışqanlığın nəticəsi:**

"Ləqədimən fəələ" ifadəsi üçün ikinci məna da nəzərdə tutulmuşdur. Əmirəlmöminin Əli (ə) demək istəyir ki, əgər batilin (və onun yolçularının) çox olduğunu görsəniz, onun öz-özünə çoxalmadığını və illər boyu (o Həzrətin hakimiyyətindən öncə) çalışdığını bilməli və anlamalısan. Əgər bu gün batilin bu qədər güclü olduğunu görürsənsə, bilməlisən ki, batil həmişə bu qədər güclü olmayıb. İllərdir ki, onun üstündə işləyirlər. Hər bir işdə zəhmət çəksən, hər bir sahədə çalışsan, nəticəsini görəcəksən:

**ومن يرد ثواب الدنيا نؤته منها ومن يرد ثواب الآخرة نؤته منها**

"**Kim (öz çalışqanlığından) dünya mükafatı istəsə, dünya mükafatından və kim axirət mükafatı istəsə, axirət mükafatından ona verərik.**"[1]

Quranda buyurulur ki, əgər dünya üçün işləsən və lazımınca zəhmət çəksən, dünyadan sənə də verəcəyik, axirət üçün də işləsən, din və hədəf uğrunda lazımi zəhmətlərə qatlaşsan, yenə də nəticə əldə edəcəksən. İnsan güc və enerjisini sərf etdiyi hər bir işin bəhrəsinə nail olacaqdır. Batil də 25 ildir

[1] "Ali-İmran" surəsi, ayə 145.

ki, işləyir, çalışır. Camaat özbaşına batilə yönəlməyib. İnsanlar fitrətcə pis deyillər, onlara pis gözlə baxma, onların haqq ilə düşmənçilikləri yoxdur. Əgər haqdan uzaqlaşıblarsa, öz işləri deyil, bu, onların haqq yolda sabitqədəm olduqlarını görmək istəməyən əllərin, qüdrətlərin işidir. Onlar haqq yolda addımladıqda və bu yolda möhkəm dayandıqda, batil də aradan qalxacaqdır. İnsanları haqdan döndərən batil və onun yolçuları, gözətçiləridir. Onlar da işin başlanğıcında batilin yayılması üçün çoxlu zəhmətlərə qatlaşdılar, dayanmadan çalışdılar və iyirmibeş il az vaxt deyil. Düz bir əsrin dörddəbiri qədər zaman kəsiyində əllərindən gələni əsirgəmədilər. Əgər bu müddət ərzində haqq əhli də dayanmadan çalışsaydı, şübhəsiz, nəticə əldə edəcəkdi. Eynilə Əmirəlmöminin Əlinin (ə) xilafətə gəlməsi də haqq əhlinin zəhmətinin nəticəsi idi. Bu da uyğun ifadənin mənası ilə bağlı ikinci ehtimal! Bizim üçün hər iki ehtimal ibrətamizdir. İnsan həmişə öz baxış dairəsində batili (və onun yoçularını) çox görür, lakin səbir və hövsələ, çətinliklərə sinə gərmək, saleh insan nümunələrini örnək bilib özünü islah etmək və yorulmaz fəaliyyətlə güclü və möhkəm hesab etdiyiniz batilin məhv olub aradan getdiyinin şahidi olacaqsınız.

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizə və bütün müsəlmanlara açıq göz, ayıq qəlb, eşidən qulaq və qəbul edən ruh mərhəmət et!

İlahi! Bizə həyatı başa salan bu cümləri anlamaq və onlara əməl etmək qabiliyyəti bəxş et...!

# ZALIMLAR VƏ MƏZLUMLAR[1]

**Bağişlayan və mehriban Allahın adı ilə!**

**لو أمرت به لكنت قاتلا أو نهيت عنه لكنت ناصرا غير أن من نصره لا يستطيع أن يقول خذله من أنا خير منه و من خذله لا يستطيع أن يقول نصره من هو خير مني و أنا جامع لكم أمره استأثر فأساء الأثرة و جزعتم فأسأتم الجزع و لله حكم واقع في المستأثر و الجازع[2]**

**"Əgər xalqa Osmanın qətlinə dair əmr vermiş olsaydım, sözsüz ki, qatil, yox, əgər (onun əleyhinə qalxanların) qarşısını alsaydım, təbii ki, Osmana kömək göstərmiş olardım. Lakin ona kömək edən "Mən onu xar edəndən (ona kömək göstərməyəndən) daha yaxşıyam", onu xar edən (mühacir və ənsardan bir dəstə) isə "Ona kömək edən məndən daha yaxşıdır" – deyə bilməz. Belə isə, mən indi sizin üçün onun qətl səbəblərini bəyan edirəm: "O, xilafəti öz ixtiyarına keçirib**

[1] "Nəhcül-bəlağə", xütbə 30 – 1374/12/27.
[2] "Nəhcül-bəlağə", xütbə 30.

**zülmkarlıq və özbaşınalıq etdi, çox pis bir iş tutdu. Siz də səbirsizlik etdiniz və beləcə, pis iş tutdunuz. Zorakılıq və özbaşınalıq edən və (onu öldürməkdə) dözümsüzlük göstərən şəxs barəsində Allahın hökmü dəyişməzdir.**"

Xütbənin elə bu qədər olması məlum deyil və ola bilsin ki, onun bir hissəsi hədisin nəqli zamanı, ya da Mərhum Seyid Rəzinin bəlağətlə bağlı nəzərdə tutduğu meyarlara uyğun olaraq silinmişdir. Mənim nəzərimcə, bu şərif xütbə Əmirəlmöminin Əlinin (ə) "Nəhcül-bəlağə"də buyurduğu maraqlı və dolğun xütbələrindən biridir və bu bir neçə cümlədə Osmanın qətli haqqında söz açılır.

## Osmanın qətli – İmam Əli (ə) ilə düşmənçilik etmək üçün bir bəhanə

Bildiyiniz kimi, Osman öldürüldükdən sonra onun qətl macərası haqq və ədalət simvolu ilə döyüşmək istəyənlərin –Osmanın qohumu, dostu, yavəri və sirdaşı olan Müaviyənin, Əmirəlmöminin Əlinin (ə) mövqeyinə oxşar bir mövqeyə sahib olan Zübeyrin, daha da kəskin və sərt mövqedən çıxış edən Təlhənin əlində bəhanəyə çevrildi. Hətta ümumi yığıncaqda Osmanla sözü çəp gələn Ayişə ona nalayiq sözlər deyərək məclisdən qovdu, Peyğəmbəri-Əkrəmin (s) köynəyini çıxarıb dedi: "Bu Peyğəmbərin (s) köynəyidir, hələ də çürüməyib, amma bu kişi (Osman) onun sünnəsini çürütdü." O, Osmanın həyatında onun hakimiyyətinə etiraz etdiyi halda, Osman qətlə yetirildikdən sonra, onun qətlini bəhanə edərək Əmirəlmöminin Əli (ə) ilə

münaqişəyə qalxdı. Bir sözlə, bu macəra o Həzrətlə döyüşmək istəyənlərin əlində əlverişli bəhanə və fürsətə çevrildi.

Bunu da diqqətinizə çatdırım ki, əgər Osmanın qətl macərası olmasaydı belə, onlar yenə də başqa bir bəhanə ilə Əmirəlmöminin Əliyə (ə) əks çıxacaqdılar. O zaman Osmanın qətli daha əlverişli olduğundan, onu bəhanə etdilər. Əgər macəra Osmanın qətli ilə tamamlanmasaydı, başqa bir macəra arayıb axtaracaqdılar. Çünki batil öz yolunda heç vaxt öz ixtiyarına söykənmir. Xülasə, bu mətləbi də diqqətdən yayındırmayın. O Həzrətin həyatında bir şeyi bəhanə edən bir qrup qərəzli düşmən müxalifətə qalxacaqsa, "Ağacan, nə üçün onların əlinə bəhanə verirsən?" – demək düzgün deyildir. Nə üçün düzgün deyildir? Çünki qərəzli düşmən bəhanə ardıncadır, bu bəhanə alınmasa, istənilən qədər başqa bəhanələr axtarıb tapacaq. Bəhanə də qurtaran deyil, cüzi və əhəmiyyətsiz şeylərdən bəhanə düzəldəcəklər.

Bəs, onların Osmanın qətl macərası ilə bağlı sözləri və bəhanəsi nə idi? Osmanı Əmirəlmöminin Əlinin (ə) öldürdüyünü deyirdilərmi? Hamı yaxşı bilirdi ki, bu həqiqət deyil. Əmirəlmöminin Əlinin (ə) nə üçün (xəlifəni) müdafiə etmədiyini deyirdilərmi? O Həzrət işin başlanğıcında fitnənin amillərini aradan qaldırmış, sonra da ortada olan bəzi narazılıqlara son qoymağa can atırdı. Lakin xəlifənin özü və ətrafındakılar o Həzrət tərəfindən islahatların aparılmasına imkan vermirdilər.

Bəhanə axtaranlar deyirdilər ki, Əmirəlmöminin Əli (ə) nə üçün Osmanın qatillərini cəzalandırmır?

Bu da başqa bir bəhanə idi. Misal üçün, Osmanın qətlinin qisası olaraq şərafətli insanların, o cümlədən Malik Əştərin ölümlə cəzalandırılmasını istəyirdilər. Əgər o Həzrət onları öldürsəydi belə, yenə başqa bir bəhanə axtarıb tapacaqdılar.

Bunu unutmayın, hansısa bir düşmən, bir cəbhə, bir fərd və bir qrup qərəzli və insafsızdırsa, bir məsələni başa düşdükdən sonra "Ağa, başa düşdüm, keçmiş sözlərimi geri götürürəm!" – deməkdən çəkinəcəksə və qərəzli düşüncələrini dəyişməyəcəksə, bilin ki, qərəzə məruz qalan şəxs qərəzli şəxsin sözlərinə əsla maraq göstərməməlidir. Sədi demişkən:

او زخود به رنج دراست

"O, öz əlindən də əziyyətdədir
Və bu əziyyət ona bəsdir."[1]

Qərəzli insanın qərəzinin səbəbinin psixoloji, siyasi və sairədən ibarət olmasına baxmayaraq, bu, onun daxilindən qaynaqlanır, səbəbli və ya səbəbsiz haqq cəbhəsi, haqq yolu, haqqın tərəfdarı, haqq sözü, haqq məktəbi və haqq məntiqi ilə döyüşür, mübarizə aparır.

Macəra bundan ibarətdir. Əmirəlmöminin Əli (ə) müxalifətə qalxan bir qrup qərəzli insana cavab vermək istəmir. Lakin, öz dostları, tərəfdarları, həyatını o Həzrətin yanında və keşiyində keçirənlərlə danışmaq, məsələləri onlara aydınlatmaq, həyat yolunu göstərmək, onları ayıltmaq istəyir. Odur ki, o Həzrət bir neçə xütbədə bu məsələdən söz açmış və bəzi mövzulara toxunmuşdur.

---

[1] "Gülüstan", Sədi, 1-ci bölüm, 5-ci hekayə.

## Osmanın əleyhinə yürüş zamanı Əmirəlmöminin Əlinin (ə) mövqeyi

Burada Əmirəlmöminin Əli (ə) həm tarixi, həm ictimai qanunauyğunluq, həm də hakimlə məhkum arasında islami hökmlər baxımından mühüm mətləblərə toxunur və bu qədər mətləbi iki-üç cümlədə bəyan edir. Öncə buyurur:

**لو أمرت به لكنت قاتلا**

“**Əgər xalqa Osmanın qətlinə dair əmr vermiş olsaydım, sözsüz ki, qatil olardım.**” Amma hamı belə bir əmrin verilmədiyini yaxşı bilirdi. Əmirəlmöminin Əli (ə) “Gedin, Osmanı öldürün!” – deyə heç kimə əmr verməmişdi. O Həzrət daim çalışırdı ki, cəmiyyətdə baş qaldıran özbaşınalıq, zülmkarlıq və ədalətsizliklərin qarşısı alınsın. İslam cəmiyyətinə hakim xüsusi inzibati vəziyyət İmam Əliyə (ə) Osmanı öldürmək istəyən dəstəni bu işə təhrik etməyə icazə vermirdi. Mən də araşdırmalarımda o Həzrətin bu macərada azacıq təkanverici təsirini təsdiqləyən heç bir şahidlə qarşılaşmamışam. Əksinə Əmirəlmöminin Əli (ə) Osmanın əleyhinə baş verən ümumi yürüşdə hadisənin yaxşı şəkildə tamamlanması üçün əlindən gələni əsirgəmədi. Yəni, Osmanla söhbət etdi, onun işi və idarəçiliyinin problemlərini vurğuladı və ətrafındakı Bəni-Üməyyənin qarınqulu, acgöz, tamahkar və dünya düşkünü olan bəzi şəxslərini tanıtdırdı. Bir dəfə ona açıq-aydın belə buyurdu: “Ey Osman! Sən zahirdə bizim sözümüzə qulaq assan da, batində Müaviyənin, Vəlid ibn Üqbənin və Mərvan Həkəmin sözünə qulaq asırsan, bizim sözümüzü isə

icra etmirsən.” Həqiqət də bundan ibarət idi. Əmirəlmöminin Əli (ə) Osmanın qətlə yetirilməsi və ona hörmətsizlik olunmasına dair heç bir göstəriş verməmişdi. Elə buna görə də, xütbənin başlanğıcında belə buyurur:

“**Əgər Osmanın qətlinə dair əmr vermiş olsaydım, sözsüz ki, qatil olardım.**” O zaman hamı biləcəkdi ki, Əli (ə) Osmanın qatilidir.

“**Əgər (onun əleyhinə qalxanların) qarşısını alsaydım, təbii ki, Osmana kömək göstərmiş olardım.**”

Yanılmayın! Mənim Osmanın qətlinin səbəbkarı olmadığımın mənası bu deyil ki, mən onu müdafiə edirdim. Xeyr! Osmanı müdafiə də etmədim. Çünki müdafiə olunası bir şəxs deyildi. Kim belə bir şəxsi müdafiə edər? Nə üçün ədalət və vəhdət simvolu olan Əmirəlmöminin Əli (ə) kimi bir şəxs ixtilaf və ayrı-seçkilik yaradan bir şəxsi müdafiə etməlidir? Həzrət “**Əgər qarşısını alsaydım, təbii ki, Osmana kömək göstərmiş olardım!**” – ifadəsində demək istəmir ki, ona kömək etmək istəyənlərə də qadağa qoymuşdum. Xeyr! Bəzi tarixi mənbələrdə göstərilir ki, Həzrət işin başlanğıcında misirlilərə belə işlərdən uzaq qalmağı tapşırmış və işlərin islah olunacağını vurğulamışdı. Amma nüfuzu və qüdrətindən istifadə edərək dostları, yaxınları və ətrafındakı mübariz gənclərə “Osmanın evini mühasirəyə alın ki, heç kim ona hücum edə bilməsin!” – kimi bir göstəriş də verməmişdi. Əlbəttə, su Osmanın üzünə bağlandıqda, öz nüfuzundan istifadə etdi. Osmanın evini mühasirəyə alanlar Osmanın evinə gedən suyu bağlamışdılar. Bu, İslamda insani duyğulara zidd

olan çirkin bir əməl idi. Allah düşmənini cəzalandıra bilərsən, amma susuz saxlaya bilməzsən. Əmirəlmöminin Əli (ə) burada çirkin bir işin baş qaldırdığını, bir evdə qadınların, günahsız uşaqların və günahkar olsa da, Osmanın özünün susuzluqdan əziyyət çəkdiyini gördükdə, insani keyfiyyətlərə, fəzilət və dəyərlərə əsaslanan İslam cəmiyyəti, Quranın nazil olduğu İslam Peyğəmbərinin (s) "**Mən əxlaqi gözəllikləri tamamlamaq üçün göndərilmişəm!**"[1] – buyruğuna istinad edən bir cəmiyyətdə belə bir işin baş qaldırması ilə razılaşmadı. Gənclərə göstəriş verdi ki, evə su daşısınlar. Əlimizdəki mötəbər nəqllərə əsasən, İmam Həsənlə (ə) birgə bir neçə nəfər tuluqları su ilə doldurdular. Kütlənin onlara maneçilik törətməsinə baxmayaraq, evə daxil olub su tuluqlarını Osmana və Əməvilərə çatdırdılar. Ölüm olsun Əməvilər kimi zalım sülaləyə! Görün, onlar, təqribən, 25 ildən sonra Əmirəlmöminin Əlinin (ə) bu xeyirxahlığının əvəzini necə qaytardılar? Əməvilər o Həzrətin övladları və körpə uşaqlarını (Kərbəla faciəsində) susuz qoydular.

Bəli, bu macərada Əmirəlmöminin Əli (ə) Osmanın xeyrinə bu müsbət addımı atdı. Eyni zamanda, cəmiyyətin Osmanın evinin ətrafından dağılmasına dair bir iş də görmədi, onlara: "Ay camaat, Osmanı öldürməyin!" – deyə çıxış etmədi. Odur ki, buyurur:

"**Əgər Osmanın qətlinə maneçilik törətsəydim, təbii ki, Osmana kömək edənlərin sırasında olacaqdım.**" Bu işlərin heç birini etmədim.

---

[1] "Məcmueyi-Vərram", c. 1, səh. 89.

## Osmanı müdafiə etməyin fəzilət olmaması

Deməli, Əmirəlmöminin Əli (ə) fitnənin şölələnməməsi üçün Osmanın qatillərinin xeyrinə bir söz belə deməd. Osman qətlə yetirildikdən sonra öz zəmanəsi və gələcək zəmanəni iki cümlə ilə aydınlatdı: “Osmanı biz öldürmədik. Onun qətlinə də maneçilik törətmədik. Amma həm mənim və dostlarımın Osmana yardım göstərmədiyini, həm də onu müdafiə etmədiyini deyənlərə bildirmək istəyirəm ki, Osmanı müdafiə edənlər müdafiə etməyənlərlə müqayisədə üstün və şərafətli deyillər.” Bu sözü hər iki dəstə qəbul edirdi. Osmanı müdafiə edən, onun qətlinə maneçilik törədən, adını tez-tez çəkən və köynəyini qaldırıb camaatın gözünə soxanlar bilsinlər ki, Osmanı müdafiə etməyənlərdən – Mədinə və ya Kufədə olan ənsar və mühacir dəstələrindən üstün deyillər. Nə üçün? Çünki onlar zülmü, qətli və İslam cəmiyyətində bütün fəsad və azğınlıqların yaranmasına səbəb olan Osmanı müdafiə etdilər. Bu növ müdafiə fəzilət və başıucalıq sayılmaz, onunla qürrələnməyə dəyməz. Amma Osmanı müdafiə etməyənlər də vicdan əzabı çəkməsinlər, daxilən narahat olmasınlar ki, nə üçün Osmanı müdafiə etmədik? Əgər müdafiə etsəydik, öldürülməzdi. Axı nə üçün müdafiə etməliydiniz? Bir müsəlman Osman kimi bir şəxsi hansı səbəbdən müdafiə etməlidir? İslam yer üzünə hakim olmaq, insanların həyatında, cəmiyyətdə və bu dünyada tətbiq olunmaq üçün nazil olmuşdur. İslam dəftər-kitablarda dillər əzbərinə çevrilmək və hökmlərinin

heç birinin həqiqi mənada cəmiyyətdə tətbiq olunmaması üçün deyil, əməl olunması üçün gəlmişdir. Kim insanların həyatında və bəşər cəmiyyətinin formalaşmasında İslam hökmlərinin icrasına maneçilik törədərsə, cinayətkar, zülmkar və İslama ziddir. İslamın əməldə gerçəkləşməsi və tətbiqinə qarşı çıxan qüvvələrlə İslam və Quran düşməndir, onlara müxalifdir. Müsəlman bir xalq Quran və İslamın düşmən və müxalif bildiyi hər bir kəs və qrupla, hər bir qüdrət və cəbhə ilə müxalifətçilik etməzsə, müsəlman deyil. İslam iddiası edən bir kəs Quranın düşmən adlandırdığı kəslə düşmənçilik etməzsə, necə müsəlmandır? Demək, həm Osmanı müdafiə etməyən, həm də onun qətlinə mane olmayanlar narahat olmasınlar. Quran və İslama itaət edən müsəlman cəmiyyət Osman kimi bir şəxsi müdafiə edə bilməz. Çünki Osman Quran və İslama zidd bir şəxs idi.

## İbrət almaq – Əmirəlmöminin Əlinin (ə) Osmanın qətlinin səbəblərini açıqlamaqda hədəfi

**و أنا جامع لكم أمره**

“**Belə isə, mən indi sizin üçün onun qətl səbəblərini bəyan edirəm.**”

Nəzərimcə, İmamın (ə) bu xütbədə önəm verdiyi cümlə budur; belə ki, bir qrup Osmanı qətlə yetirdi, bir qrup ona maneçilik törətmədi, bir qrup da onu müdafiə etdi. İndi isə, hər şey bitmiş, cərgələr, düşmənçiliklər və kin-küdurətlər haqq-həqiqətlə – Ələvi hakimiyyəti ilə mübarizə aparmaq üçün

bəhanəyə çevrilmişdir. Əmirəlmöminin Əli (ə) buyurur ki, artıq hər şey sona yetib, odur ki, Osmanın macərasının qısa şəkildə sizə bəyan edilməsinin vaxtıdır. Həzrət burada Osmanın tarixi macərasını nəql etmək istəyir. Əlbəttə, camaat hadisəni və Osmanın qətlini öz gözləri ilə görmüşdü. Məsələ o Həzrətin Osmanı müdafiə edib-etməməsində deyil. Qeyd etdiyimiz kimi, o Həzrət bu hadisə müqabilində özünü müdafiə etmək niyyətində də deyildi, hadisəni təfsir və təhlil etmək, tarixi qanunauyğunluqlardan birini aydınlatmaq istəyirdi ki, gələcək nəsillər, bəşər cəmiyyəti öz həyatına hakim həmin tarixi və ictimai qanunauyğunluqla tanış olaraq xoşbəxt həyata yaxınlaşsınlar. Əmirəlmöminin Əli (ə) həm də qayğıkeş və canıyanan bir müəllimdir, şagirdlərinin hadisələrdən məlumatsız qalmasını istəmir, müsəlman xalqın islahını düşünür. Odur ki, uyğun hadisəni təfsir və təhlil edir.

## Tarixin təhlil edilməsinin əhəmiyyəti

Tarixin təhlili nə üçündür? Nə üçün müxtəlif məktəb sahibləri tarixi və tarixin fenomenlərini təhlil və təfsir edirlər? Səbəb odur ki, insanlar tarix laboratoriyasında tarixi qanunauyğunluqların hakimiyyətini eynilə laboratoriya şəraitində iki maddə və iki qazın kimyəvi tərkibini dəqiqliyi ilə analiz edib incəliyinə varan bir şəxs kimi görsünlər. Maddələrin analiz edilməsində məqsəd nədir? Məqsəd odur ki, (misal üçün) oksigenlə hidrogenin bir-birinə təsirini öyrənsinlər. Bu iki maddə və qazı

bir-birinin yanına qoyduqda, nə baş verir? Bir qanun kəşf olunur. Dünyanı islah etmək istəyən hər bir şəxs də tarixi, yəni hadisə və fenomenlərin səbəb, nəticə və qanunauyğunluqlarını əldə etmək üçün mütləq tarixin laboratoriyasında onları diqqətlə mütaliə edib araşdırmalıdır. Səbəb və nəticələrlə tanış olduqda, yeni quruluşu ona uyğun tənzimləyir. Yeni qərarla köhnə qərarı sıradan çıxarır, kadr potensialının gücləndirilməsi istiqamətində yeni təyinatlara imza atır, birini digəri ilə əvəz edir, hökumət və quruluşları dəyişir və beləcə, gələcəyi təxmin edir. Necə deyərlər, tarixi tanıyan gələcəyi tanıyar. Kainatın hadisələri arasında sintezin olmamasını dini-məzhəbi təfəkkür tərzinə nisbət verənlər yanılırlar. Axı onlar dini-məzhəbi təsirlərin hansını görüblər? Bu kainatın hadisələrinin, hətta kainatın özünün bir-birinə bağlılığı ən çox din və məzhəbdə izah olunur. Əgər keçmişdə baş vermiş hadisə və fenomenlər gələcəkdə də baş qaldırarsa, sözsüz ki, eyni nəticəni ortaya qoyacaqdır. Odur ki, tarixi təhlil etmək zəruridir. Bu gün ictimai məktəblərə nəzər yetirsəniz, onların ən mühüm məqsədi tarixin təhlil edilməsidir. Tarixi təhlil etmək və araşdırmaqla yeni nəticələr əldə edilir, ona əsasən qərarlar çıxarılaraq dünyanın gələcəyi təxmin edilir. Onun düzgün və ya yanlış nəticə verməsi təhlil və araşdırmanın keyfiyyətindən asılıdır.

# İlahi qanunauyğunluq – Xalqın səsinin zülmə qələbəsi

Əmirəlmöminin Əli (ə) uyğun cümlədə tarixi təhlil edir. Bəzi sadəlövh insanlar “Nəhcül-bəlağə”yə nəzər saldıqda, Osmanın macərasının yalnız bəyan xarakterli olduğunu təsəvvür edir. Halbuki o Həzrət tarixi araşdırıb camaata həqiqətləri aşılamaq istəyir. Hadisənin bir hissəsi aydınlaşdıqda, tarix tanınır və bir qanunauyğunluq anlaşılır. Hər zaman dünyaya hakim qanunauyğunluğa əsaslanan Osmanın macərasının xülasəsi bundan ibarətdir:

**و أنا جامع لكم أمره**

“**Mən (iki kəlmədə) sizin üçün onun qətl səbəblərini bəyan edirəm.**”

**استأثر فأساء الأثرة و جزعتم فأسأتم الجزع**

“**O, xilafəti öz ixtiyarına keçirib zülmkarlıq və özbaşınalıq etdi**”, insanların razılığını əsla nəzərə almadı, onlara zorakılıq göstərdi, haqsızlıq etdi. Bunun da müqabilində onlar səslərini ucaldıb onun əleyhinə əlbir oldular.

İki amil – zülmkarlıq və insanların təngə gəlib səslərini ucaltması arasında qarşıdurma yarandı. Bu iki amil bir-birinin müqabilində dayandıqda, ilahi qanunauyğunluq özünü göstərdi. O da kütləvi səsin və həmrəyliyin zülm və özbaşınalığa qələbəsidir. Bu Allahın qanunudur və Əmirəlmöminin Əli (ə) Osmanın macərasında bu qanuna istinad edir.

## Osmanın zülmkarlığından bir nümunə

**"O, xilafəti öz ixtiyarına keçirib çox acınacaqlı şəkildə zülmkarlıq və özbaşınalıq etdi, çox pis bir iş tutdu. Siz də dözümsüzlük etdiniz və beləcə, pis iş tutdunuz."**

Camaat yığışıb onun yanına gəldi. O da valiyə əmr verdi ki, filankəslər səndən şikayət etmək üçün mənim yanıma gəlmişdilər. Onlar şəhərə çatan kimi, saçlarını qırxdır, ulaqlara mindirib qırmanc vura-vura küçələrdə gəzdirin ki, bir də belə bir iş tutmasınlar.[1] Bir vali və hakimdən şikayət edən şəxs o qədər kötək yeməlidir ki, belə yüksək vəzifə sahibindən şikayət etməyin cəzasının ağır olduğunu anlasın. Hətta bu sistemdə gileylənmək də qadağandır. Malik Əştər və Əmr ibn Həmiq Xüzai kimi bir qrup həqiqi mömin, eləcə də, Kufədə məskunlaşmış digər böyük şəxsiyyətlər Osmani və Əməvi hakimiyyətinin ən çirkin simalarından olan Kufənin hakimi ilə müxalifətçilik etdikdə, Kufənin hakimi Osmana məktub yazdı ki, bunların əlində aciz qalmışam. Osman da yazdı ki, onları Şama – Müaviyənin yanına sürgün et, Müaviyə onlarla necə rəftar edəcəyini yaxşı bilir. Onları Müaviyənin yanına sürgün etdi. Müaviyə dedi ki, onları gətirin, görüm nə deyirlər, problemləri nədir? Onları Müaviyənin yanına gətirdikdə, Müaviyə şirindillik edib qayğı göstərsə, səbir və təmkinlə danışsa da, onların sərt danışdığını, sancılı sözlər deyib onu məhkum etdiyini gördü. Müaviyə dəlil-sübutla

[1] "Tarixi-Təbəri", c. 3, səh. 401.

danışdıqda, qarşı tərəf ondan da tutarlı dəlil-sübut gətirdi. Nəhayət, Müaviyə (məsələnin ciddiliyini gördükdə) həmişəki metoduna – riyakarlıq etməyə başladı. Riya edən insan həmişə özünü dindar olan şəxslər kimi göstərir, zahidlərə bənzədir. Maraqlıdır ki, insan tarixdə ən riyakar insanların siyasi simalar olduğunu görür. Malik Əştər, Əmr ibn Həmiq, Səsəə ibn Sovhan Əbdi və qardaşı Zeyd ibn Sovhan kimi həqiqi müsəlmanların qarşısında Müaviyə riyakarlıq etməyə başladı ki, biz də müsəlmanıq, siz də müsəlmansınız, ərəblər İslamla şərəfləndilər və sairə. Onlar hətta Müaviyənin xəta və yanlışlıqlarının üstünü bir-bir açdılar. O, İslamdan danışanda, dedilər ki, sənin İslamdan əsla xəbərin yoxdur. O, nə dedisə, cavabsız qoymadılar və nəhayət, Müaviyə onları geri qaytarmaq məcburiyyətində qaldı və Osmana məktub yazdı ki, onları başqa bir hakimə həvalə etsin. Osman da onlara təzyiqləri daha da artırdı.[1] Məqsədim odur ki, Əmirəlmöminin Əlinin (ə) "**O, xilafəti öz ixtiyarına keçirib zülmkarlıq və özbaşınalıq etdi!**" – kəlamının mənası budur ki, Osman zülmkarlıq və özbaşınalıqda həddi aşmışdı, haqqını tələb edənlərə, haqqa doğru addımlamağa, haqqı düşünməyə və danışmağa belə imkan vermirdi. Osmanın quruluşunda haqqa azacıq belə meyilli olan kəslər ən acı zorakılıqlara məruz qalırdı. Əmirəlmöminin Əli (ə) neçə ildən sonra xalqa xitabən buyurur ki "**Çox acınacaqlı bir ruzigar və cəmiyyətdə yaşadıq.**"[2]

---

[1] Əlavə məlumat: "Nəhcül-bəlağənin şərhi", İbn Əbilhədid, c. 2, səh. 130-133.

[2] "Nəhcül-bəlağə", xütbə 32.

Bu cəmiyyəti kimlər acınacaqlı vəziyyətə salmışdılar? Cəmiyyətə hakim olan dairələr.

## Osmanın qatillərinə töhmət

“**O, xilafəti öz ixtiyarına keçirib çox acınacaqlı şəkildə zülmkarlıq və özbaşınalıq etdi, çox pis bir iş tutdu. Bunun müqabilində siz də taqətsizlik etdiniz və beləcə, siz də pis iş tutdunuz.**”

Siz də Osmanın haqsızlıqları müqabilində təngə gəlib səsinizi ucaltdınız, amma nəticəsi də pis oldu. Axı nə üçün Osmanı öldürdünüz? Əmirəlmöminin Əli (ə) bu sözü açıq-aydın yox, kinayə ilə deyir: Niyə onu öldürdünüz? Əgər onu cəzalandırmaq istəyirdinizsə, bizə – ədalətli məhkəmə və qazıya təhvil verərdiniz və biz də onu mühakimə edərdik, cəmiyyətin hüzurunda günahlarını xatırladıb ölümə məhkum edərdik, ondan sonra camaat da onun nə üçün ölümə məhkum edildiyindən xəbərdar olardı. İslamda cəmiyyət tərəfindən Osmanın belə mühakiməsiz öldürülməsi düzgün deyil. Belə bir işə Əmirəlmöminin Əli (ə) kimi bir şəxs rəhbərlik etməli idi. Odur ki, Həzrət buyurur: “**Siz də pis iş tutdunuz.**”

Həqiqətdə proses belə getməli idi: Osman hakimiyyətdən kənarlaşdırılmalı, Əmirəlmöminin Əli (ə) hakimiyyətə gəlməli, sonra isə Osman da o Həzrətin ixtiyarında olan digər siyasi və qeyri-siyasi cinayətkarlar kimi ədalətli məhkəmədə mühakimə olunmalı idi. Bu zaman tarixdə nə Osmanın adı, nə də bir şübhə qalacaqdı, hadisə öz zahiri axarı ilə beləcə tamamlanacaqdı. Bəli, bu iş baş tutmadı.

Odur ki, Həzrət buyurur: “**Sizin də tutduğunuz işin və dözümsüzlüyünüzün nəticəsi acınacaqlı oldu.**”

## Zalımlara qarşı yürüş edənlərin qəti qələbəsi

Həzrət söhbətinin davamında buyurur:

**و لله حكم واقع في المستأثر و الجازع**

“**Zorakılıq və özbaşınalıq edən və (onu öldürməkdə) dözümsüzlük göstərən şəxs barəsində Allahın hökmü dəyişməzdir.**”

Bəli, Allahın özbaşınalıq edənlə dözümsüzlük edən arasında hökmü və əmri qətidir. Bunu tarixin bütün insanları, gələcək nəsillər bilsinlər ki, iki amil və qüvvə bir-biri ilə qarşılaşaraq biri özbaşınalıq, digəri isə dözümsüzlük etdikdə, Osmanın macərası kimi bir macəranın baş verəcəyi mütləq və qaçılmazdır. Əgər belə bir hökmün və qanunauyğunluğun nə üçün Müaviyənin, Əbdülməlikin və yaxud Mənsurun zamanına aid edilmədiyini soruşsanız, cavab budur ki, onların macərasında dözümsüzlük edən, yekdilliklə səslərini ucaldanlar yox idi. Bu amil və ilahi qanunauyğunluq olsaydı, onun gerçəkləşməsi də şübhəsiz idi. Osmanın əleyhinə iki min bəsrəli, iki min kufəli, on min də misirli qiyam etdi. Mədinə əhalisi praktiki olaraq onların yanında olmasa da, qəlbən onların yanında idi. Lakin Müaviyənin zamanında onun əleyhinə qiyam edən bir nəfər olsaydı belə, heç kim onun səsinə səs verməyəcəkdi. Elə Əmirəlmöminin Əlinin (ə) öz oğlu (İmam Həsən (ə)) o fasidin (Müaviyənin) əleyhinə səsini qaldırdı, amma onun

səsinə səs verən olmadı. Birlik, həmrəylik və yekdillik nəticəsində müxalifət səsi ucaldığı zaman Allahın bu hökmü mütləq gerçəkləşəcək:

“**Zorakılıq və özbaşınalıq edən və dözümsüzlük göstərən şəxs barəsində Allahın hökmü dəyişməzdir.**”

Əmirəlmöminin Əlinin (ə) dərsi bundan ibarətdir!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Əmirəlmöminin Əlinin (ə) dərslərindən bəhrələndir!

İlahi! Bizi o böyük ustadın layiqli şagirdlərindən et!

İlahi! Bizi onun şiələrindən et!

İlahi! Bizi onun məhəbbətini qəlbində yaşadanlardan et!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, biz müsəlmanların yatmış və ölmüş iradəsini ayılt!

İlahi! Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, yaradılış aləminin qanunauyğunluqlarını müsəlman xalqının və Quran ardıcıllarının xeyrinə tamamla! İşlərin sonunu xeyirlə bitir və Mövlamızın zühurunu tezləşdir!

Son

# Mündəricat


MÜQƏDDİMƏ ....................................................................................3
KEÇMİŞDƏKİLƏRİN TALEYİNDƏN İBRƏT ALMAQ ..............................7
“Nəhcül-bəlağə”nin bu hissəsinin mündəricatı ........................................10
Keçmişdəkilərin taleyinə düçar olmamaq üçün müsəlmanlara xəbərdarlıq12
Bəşər tarixində həmişəyaşar ictimai ənənələr ...........................................14
Xalqların izzət və xoşbəxtlik amilləri – birlik və təfriqədən uzaqlıq..........16
Keçmiş cəmiyyətlərin geriləmə səbəbi – düşmənçilik və bir-birinə yardım etməmək ....................................................................................20
Keçmişdəki möminlərin sərgüzəşti haqqında düşünməyə tövsiyə .............22
Tarix boyu möminlərin din uğrunda düçar olduğu çətinlik və işgəncələr ..23
İzzət və başıucalıq – Keçmişdəki möminlərin Allah yolunda səbir və müqavimətinin nəticəsi....................................................................26
Təfriqə – Ümmətlərin izzət və kəramətini aradan qaldıran amil ...............29
PEYĞƏMBƏRİ-ƏKRƏMİN (S) BESƏTİNİN TÖHFƏSİ VƏ MÜSƏLMANLARIN GƏLƏCƏYİ HAQDA PROQNOZLAR......................33
“Nəhcül-bəlağə” ilə ünsiyyətə dəvət..........................................................33
Bu xütbənin mündəricatı ...........................................................................34
Peyğəmbərin (s) insan fitrətinə uyğun dəvəti............................................36
Peyğəmbərin (s) hədəfi – İnsanları tağuta (Allahdan başqa, ibadət edilən hər bir şey, büt və s.) ibadətdən nicat verib Allaha ibadətə dəvət etmək....38
İnsanlardan olan şeytanlar cinlərdən olan şeytanlardan daha təhlükəlidir..39
Peyğəmbərlərin hədəfi – Allaha pərəstiş ..................................................41
Qurani-Kərim – Hidayət vasitəsi ...............................................................41
Quran – Hamının istifadə edə biləcəyi bir kitab ........................................42
Qurani-Kərimin xüsusiyyətləri .................................................................45
Peyğəmbəri-Əkrəmin (s) besəti və insanların azadlığa çıxması................46
Müsəlmanların Qurana ehtiyacı................................................................47
İslam cəmiyyətinin gələcəyi ilə bağlı proqnoz...........................................48
“Ərbəin ziyarəti” adlı konqresplanının səbəbi ..........................................55
PEYĞƏMBƏRİN (S) BESƏTİNDƏN ÖNCƏ ÜMMƏTLƏRİN VƏZİYYƏTİ ....................................................................................................61
Əmirəlmöminin Əlinin (ə) öz dövründəki insanlarının İslama ehtiyacına təkidi .......................................................................................62
Bugünkü bəşər sivilizasiyasının İslama ehtiyacı.......................................63
Əmirəlmöminin Əlinin (ə) nəzərində besətdən öncəki cəmiyyətin xüsusiyyətləri ...........................................................................66
Ümmətlərin qəflət yuxusunda olması .......................................................67
Cəmiyyətin əsaslı şəkildə fitnələrlə mühasirəyə alınması .........................70
Pərakəndəlik və cəmiyyətlərin müharibə meydanına çevrilməsi ...............74
Hidayət nurunun sönməsi, fırıldaqlıq və riyakarlığın aşkar olması............74
İnsanlıq fidanının solması və onun səmərə verməyəcəyindən məyusluq ...77
İnsanlar arasında hidayət nişanələrinin aradan qalxması və zəlalət əlamətlərinin aşkar olması ...............................................................79
Dünyanın insanlardan üz çevirməsi ..........................................................80

ƏHLİ-BEYT (Ə) HÖKUMƏTİNİN TƏYİNATI........................................85
Əmirəlmöminin Əlinin (ə) hədəflər uğrunda düşmənlərlə mübarizəsi.......86
Müsəlman xalqının Ələvi hökumətinə ehtiyacı ........................................88
Əmirəlmöminin Əlinin (ə) nəzərində hökumətin dəyərsizliyi....................91
Rəhbərliyi qəbul etməsinin üç səbəbi ......................................................93
İslam alimləri – müsəlmanlar qalasının gözətçiləri.................................102
ƏMİRƏLMÖMİNİN ƏLİNİN (Ə) HAKİMİYYƏTİNİN PROQRAMLARI106
Əmirəlmöminin Əlinin (ə) verdiyi vədlərə əməl etməsi ..........................107
Həzrət Əlinin (ə) hökumətinin proqramları haqqa əsaslanır ....................109
Tarixdən ibrət götürmək – Qurtuluş amili ..............................................110
Əmirəlmöminin Əlinin (ə) dövründə şirk, xəstəlik və bəla.....................111
Əmirəlmöminin Əlinin (ə) nəzərində tarixin əhəmiyyəti........................121
Xalqın azğınlıqdan doğruluğa qayıdışı ..................................................122
Əmirəlmöminin Əlinin (ə) inqilabi sözləri ..............................................127
FİTNƏ ZAMANI İNSANLARA RƏHBƏRLİK.........................................130
Xütbənin başlanğıcında Peyğəmbər (s) və onun haqq canişininin tanıtdırılması ........................................................................................130
Haqq imam və xəlifənin xüsusiyyətlərini bəyan etməyin səbəbi ............131
Hər yerdə və hər zaman təqvanın zəruriliyi ............................................133
Ən yaxşı işə – Təqvaya tövsiyə ..............................................................135
Təqva – Ən gözəl sonluq........................................................................136
Döyüşün başlanğıcında təqvaya tövsiyənin səbəbi ................................137
Əmirəlmöminin Əlinin (ə) hakimiyyəti dövründəki fitnələr...................139
Tarixdən ibrət götürmək, onun ənənələrini öyrənməyin əhəmiyyəti........140
Aşkar düşmənlə dost libasında olan (gizli) düşmən...............................140
Fitnə zamanı müvəffəqiyyət rəmzi – Səbir və bəsirət.............................143
İSLAM İNQİLABINDA QURANİ-KƏRİMİN MÖVQEYİ.......................148
Əmirəlmöminin Əlinin (ə) insanları Quran barəsində düşünməyə təşviq etməkdə hədəfi ......................................................................................149
Peyğəmbəri-Əkrəmin (s) işi – Cəmiyyətdə inqilabi hərəkat ...................150
Peyğəmbəri-Əkrəmin (s) ictimai vədlərinə əməl etməsi .........................153
Peyğəmbərin (s) hərəkatının prinsiplərinin yazılmasının zəruriliyi..........154
Quran – İslam ümmətinin yolunun çırağı ...............................................156
Quranın təfsirçi və müəllimə ehtiyacı.....................................................157
Əxbarilərin Qurandan başa düşdüyümüzün bizə höccət olmamasına dair sözlərinin rədd edilməsi...........................................................................159
Quranın təfsirini anlamaq üçün Peyğəmbəri-Əkrəm (s) və məsum imamlara müraciətin zərurəti.................................................................................164
Quran haqqında düşünməyin əhəmiyyəti...............................................167
"Səqəleyn"dən (iki ağır əmanətdən) yapışmaq ........................................168
Quran – Peyğəmbərin (s) həmişəyaşar hədiyyəsi...................................169
Nasix və mənsux ....................................................................................170
Qurani-Kərimin xüsusiyyətləri ...............................................................172
Peyğəmbərin (s) Quran hökmlərilə bağlı səlahiyyətləri..........................174
ƏLƏVİ (İMAM ƏLİ (Ə)) HAKİMİYYƏTİNİN HƏDƏFLƏRİ VƏ ONUN ÜZLƏŞDİYİ ÇƏTİNLİKLƏR ...............................................................178
Bəhsin mündəricatı.................................................................................179
Osmanın qətlinin səbəbi – Onun Peyğəmbərin (s) ədalətli sünnəsi ilə müxalifətçiliyi ........................................................................................180

İslamın ədalət xatirəsini zehinlərdən silmək üçün zalım hakimlərin təlaşı ....................181
Osmanın mühakiməsiz qətlinin zərəri ....................183
Əmirəlmöminin Əlini (ə) hakimiyyətə gətirmək üçün xalqın onun evinə axışması....................184
Əmirəlmöminin Əlinin (ə) zahidanə həyatı – hakimiyyəti qəbul etməkdə dünyəvi hədəflərin olmamasına şahidlik....................185
Əmirəlmöminin Əlinin (ə) hakimiyyəti qəbul etməsinin iki səbəbi....................187
Məsum imamların (ə) qiyam etməməsinin səbəbi – Vəfalı dostların olmaması ....................187
Alimlərdən alınan ilahi əhd-peyman – Əmirəlmöminin Əlinin (ə) hakimiyyəti qəbul etməsinin ən mühüm səbəbi ....................189
Dünyapərəst zümrələrin əhd-peymanlarını pozması....................191
Xəvaric zümrəsi – Ələvi hakimiyyətinin qarşısındakı çətinliklərdən biri 196
Qasitin və zülmkarlar – Əmirəlmöminin Əlinin (ə) hakimiyyətinin çətinliklərindən biri ....................199
İlahi hakimiyyət müqabilində üç manеə ....................199
ƏMİRƏLMÖMİNİN ƏLİNİN (Ə) HÖKUMƏTİNİN PROQRAMLARI-1..202
Hakimiyyətin astanasında bir xütbə....................202
Keçmiş nəsillərin tale və aqibətindən ibrət almağa dəvət ....................204
Dünyanın və bəşər tarixinin dəyişilməz qanunları....................204
Tarixdən istifadə metodu....................207
Təqva – Cəmiyyətlərin süqut amillərindən uzaqlaşmasının səbəbi....................208
Təqvanın iki mənası ....................209
Hazırda və gələcəkdə məğlubiyyətdən qurtulmaq üçün bəşəriyyətin keçmişinin araşdırılması....................211
İctimai təbəqələşmə – Cəmiyyətlərin süqut amili....................212
Peyğəmbəri-Əkrəmin (s) vəfatından sonra İslam cəmiyyətinin azğınlığı 216
İslam cəmiyyətinin cahiliyyət dövrünə qayıdışı....................219
Əmirəlmöminin Əlinin (ə) vasitəsilə cəmiyyətdə əsaslı dəyişiklik....................222
ƏMİRƏLMÖMİNİN ƏLİNİN (Ə) HÖKUMƏTİNİN PROQRAMLARI-2..224
Ötən söhbətin xülasəsi....................224
Ələvi hakimiyyətinin sayəsində istedadların çiçəklənməsi....................238
Hədəfli insanın bir xüsusiyyəti....................240
Əmirəlmöminin Əlinin (ə) xüsusi təbəqələrdən olan qruplarla ciddi qarşıdurması....................241
Əmirəmöminin Əlinin (ə) doğruluğu və gələcəkdən məlumatlı olması ...242
İctimai səhvliklər – Cəmiyyətin məğlubiyyət amili....................243
Cənnət – Ayıq və təqvalı cəmiyyətin mükafatı....................244
“NƏHCÜL-BƏLAĞƏ”DƏ HAQQ VƏ BATİL....................246
Tarixi qanunauyğunluqlarla tanışlığın əhəmiyyəti....................246
Cəmiyyətin yenidən İmam Əliyə (ə) üz tutmasında agahlıq bəxş edən amillərin rolu....................247
Əmirəlmöminin Əli (ə) kimi bir şəxsiyyətin hakimiyyətdə olmasının təsiri ....................248
Əmirəlmöminin Əlinin (ə) keçmiş xəlifələrin mənfi vərdiş və ənənəsinin izlərini aradan aparmaqda hədəfi....................249
Fəal təqva – Əmirəlmöminin Əlinin (ə) tövsiyəsi....................251
İnsan “haqq ilə batil” adlı iki yolayrıcında ....................253

Vilayət xətti – Haqq cəbhəsinə aşkar şəkildə qoşulmaq və batil cəbhəsindən ayrılmaq ....................................................................................254
Əmirəlmömininin Əlinin (ə) haqqa ümumi duyğusal meyilliliklə bağlı nigarançılıqları ...........................................................................255
Cəmiyyətin müqavimətini artırmaq və onu vaksinasiya etmək üçün xas insanların büdrəmələri haqqında proqnozu..............................................256
“Ləqədimən fəələ” ifadəsinin iki mənası ................................................257
ZALIMLAR VƏ MƏZLUMLAR...............................................................260
Osmanın qətli – İmam Əli (ə) ilə düşmənçilik etmək üçün bir bəhanə ....261
Osmanın əleyhinə yürüş zamanı Əmirəlmömininin Əlinin (ə) mövqeyi.....264
Osmanı müdafiə etməyin fəzilət olmaması.............................................267
İbrət almaq – Əmirəlmömininin Əlinin (ə) Osmanın qətlinin səbəblərini açıqlamaqda hədəfi.......................................................................268
Tarixin təhlil edilməsinin əhəmiyyəti.....................................................269
İlahi qanunauyğunluq – Xalqın səsinin zülmə qələbəsi ...........................271
Osmanın zülmkarlığından bir nümunə....................................................272
Osmanın qatillərinə töhmət ...................................................................274
Zalımlara qarşı yürüş edənlərin qəti qələbəsi..........................................275